**DƏRYA QILIC**
(Qılıcova Nailə Bahadur qızı)

# Qəmli səadət

**"Elm və təhsil"**
**Bakı – 2023**

**Ön söz müəllifi:** **Mehman Rasimoğlu**

**Redaktor:** **Nəcibə İlkin**

**DƏRYA QILIC** (Qılıcova Nailə Bahadur qızı)
**Qəmli Səadət. Bakı, "Elm və təhsil", 314 səh.**

## ÖN SÖZ

İlk kitabı ilə oxucuların görüşünə gələn Qılıcova Nailə Bahadur qızı (Dərya Qılıc) uzun illərdən bəri gördüyü, eşitdiyi, müşahidə etdiyi hadisələrdən süjetlər yaradıb, bədii ədəbiyyata olan sonsuz məhəbbətinin təzahürü kimi qələmə almışdır. Onun yazılarında vətənpərvərlik, zəngin mənəviyyatlı insanların dəyanəti, isməti, ata-babalarımızın müdrikliyi, igidliyi, kökə bağlılığı, Azərbaycan qadınının sədaqəti, isməti, dostluğun təmənnasız bağlılığı, səmimiyyəti tərənnüm edilmişdir.

Müəllif "Qəmli səadət" adlı əsərində xalqımızın hər addımda qarşılaşdığı mənfur qonşularımızın növbəti xəyanətindən bəhs etmişdir. Bu xəyanətin saf məhəbbət üzərində qurulmuş bir ailəyə gətirdiyi bədbəxtlikdən söz açmış, Azərbaycan qadınının səbrinin, sədaqətinin, etibarının qələbəsini göstərmişdir.

Müəllif "Yetim Məmməd" povestini babasının xatirələrinə istinad edərək qələmə almışdır. Yetim bir oğlanın çəkdiyi iztirablardan, çətinliklərdən bəhs etməklə yanaşı, acgöz, vəhşi, işğalçı ermənilərin 1905-ci ildə törətdiyi əməllərdən dəlillər gətirib və nəhayət, zəhmətlə zəkanın birləşib, zirvələrə yol açmasını göstərmişdir.

Kitabda yer alan digər povest – "Qonşu qız" adlanır. Ailə-məişət mövzusunda qələmə alınmış povest dərin məna daşıyır.

Hekayələrdə təbiət təsviri oxucunu cəlb edir və yumor motivləri duyulur. Müxtəlif dramatik, yumoristik obrazlar yaratmaqla oxucunu təsir və maraq dairəsi altında saxlamağı bacara bilən müəllif, əsərlərində milli-mənəvi dəyərlərdən, adət-ənənələrimizdən, əbədiyaşar insanlıq dəyərlərindən bəhs etmişdir.

Müəllif çox böyük canfəşanlıqla gəncləri vətənə, torpağa, el-obaya bağlılığa səsləmişdir. Nailə xanımın yazıları sadə və oxunaqlı dillə yazılmışdır. Müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Mehman Rasimoğlu**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Prezident təqaüdçüsü.*

# QƏMLİ SƏADƏT
**(Roman)**

Kərim maşını bazarın qabağında saxladı, qarşıda uzun bir tıxac görünürdü. İsti yay günləri başa çatıb payız başlasa da istidən nəfəs almaq olmurdu. Kərimin ürəyi sıxıldı, maşını dala çəkib yan küçəyə döndü. Axırıncı dəfə Tovuzda on il bundan əvvəl olmuşdu. Universitetdə oxuyanda bir ay Tovuz məhkəməsində təcrübə keçmişdi. Odur ki, demək olar, bütün küçələri tanıyırdı. Maşını döndərdiyi küçə ilə üzüaşağı sürdü, başını qaldırıb maşının güzgüsündən Laləyə baxdı.

Əslində Laləni gətirmək istəmirdi. Bir həftəyə yaxın idi ki, Tovuz məhkəməsinə hakim təyin olunmuşdu. Əvvəlcə özü gəlib yerləşib-rahatlanmaq istəyirdi, amma Lalə əl çəkməyərək israr etdi. Kərim onun xətrinə dəymək istəmədi, çünki Lalə xəstə idi. Xəstəliyi axır vaxtlar artmışdı, əsəbi olmuşdu, özünü çox pis hiss edirdi, ayaqları şişmişdi, təngnəfəs, hövsələsiz, səbirsiz olmuşdu. Kərim nə qədər çalışsa da, Laləni fikrindən döndərə bilmədi. Məcbur olub, onu gətirdi. Güzgüdə onun saralmış sifətinə baxıb, öz-özünə: "Laləni nahaq gətirdim, ona qulaq asmamalı idim", – deyə düşünüb köksünü ötürdü.

Maşını birbaş onun üçün ayrılmış, əvvəlcədən tanıdığı mənzilin qarşısına sürdü. Ondan əvvəlki məhkəmə sədri artıq bir ay olardı mənzili boşaldıb təyin olunduğu başqa rayona getmişdi. O, maşından düşüb sağa-sola boylandı.

On ildən bəri küçənin kənarında əkilən ağaclar əməlli-başlı böyümüşdü. Kərim buralara gələndə gördüyü körpə fidanlar böyüyüb, kölgə salıb, küçəyə sərinlik verirdi. Enli küçənin iki-üç yerində su kranı qoyulmuşdu. Krandan daimi axan su içi səliqə ilə suvanmış ensiz arxa tökülürdü. Küçədə demək olar ki, adam gözə dəymirdi. Lap uzaqda ora-bura qaçan bir-iki uşaq qaraltısı görünürdü. Kərim düz gəlib-gəlmədiyini yoxlamaq üçün ətrafa boylandı, darvazaya nəzər saldı. Düz gəldiyinə əmin olandan sonra çox da böyük olmayan evin qarşısına yaxınlaşdı. Evin göy rəngli darvazası və kiçik taxta qapısı var idi. Cibindən açarı çıxarıb qapını açdı, sonra dönüb hələ sakitcə maşında oturan Laləyə baxdı. Qız  elə bil maşından düşmək istəmirdi. Ayağını sürüyə-sürüyə düşdü. Əvvəl Kərim, sonra da Lalə qapıdan içəri girib çox səliqəli, güllü-çiçəkli həyəti olan evin pilləkəni ilə yuxarı qalxdılar. Pilləkənin başında şüşə pəncərəsi olan qapını açan Kərimin qapı xoşuna gəlmədi. Kərimə görə qapı elə qapı olmalı idi. "Qapıda pəncərəyə nə ehtiyac?" – deyə düşündü.

Dəhlizdən sağa-sola üç qapı açılırdı. Qapının biri qonaq otağına, biri mətbəxə, digəri daha bir dəhlizə açılırdı. Bu dəhlizin sonunda sağ və sol qapılar görünürdü.

Onlar bir yerdə qonaq otağına keçdilər. Otağın pəncərələri demək olar ki, döşəmədən başlamışdı, ona görə də otaq çox işıqlı idi. İçəri girən kimi ilk gözə çarpan divardan asılan meşə tablosu oldu. Yerə salınmış böyük, yaşıl xalça və pəncərələrdən asılmış yaşıl tül pərdələr otağa qəribə rahatlıq verirdi. Otaqda iki divan, iki kreslodan başqa

böyük bir masa da vardı. Kərim kresloda oturub nəfəsini dərdi, yaylığını çıxarıb tərini sildi. Lalə küçəyə baxan pəncərəni açdı, içəriyə xoş, sərin meh doldu. Pərdəni tərpədən həzin meh qıza ləzzət verirdi. Hər yerdən bir rahatlıq yağırdı. Lalə keçib divanda uzandı və öz-özünə fikirləşdi: "Yaxşı ki gəldim. Evdə qalsam darıxacaqdım". Nədənsə narahat olanda, darıxanda ürəyi daha çox incidirdi Laləni. Evə girəndən sonra ona diqqət kəsilən Kərim onun ürəyini oxuyurmuş kimi: – Yaxşı ki səni də gətirdim, – dedi. Bir neçə dəqiqə dincəldikdən sonra Kərim həyətə düşdü, özləri ilə gətirdikləri iri çantaları dəhlizə yığıb getməyə hazırlaşdı. Əyninə geydiyi nazik köynəyi dəyişib qapıdan çıxdı. Laləyə heç bir iş görməməyi dönə-dönə tapşırdı: – Mən sənə kömək etməyə bir adam tapıb göndərəcəm, – dedi. Gəldiyi məkanın ab-havasından bir qədər rəngi üstünə gələn, hətta yanaqlarına qızartı çökən Lalə gülümsər gözləri ilə onu yola saldı.

Kərim məhkəmə binası ilə evinin arasında elə də çox məsafə olmadığı üçün yeni iş yerinə tez çatdı. O, on ilə yaxın idi ki, ədliyyə sistemində işləyirdi. Universiteti qurtaranda təyinatla Kürdəmir məhkəməsinə hakim köməkçisi təyin olunmuşdu, peşəsinin vurğunu idi. Bu illər ərzində bir dəfə olsun qüsuru olmamışdı, həmişə uğur qazanmışdı. İndi Tovuz rayon məhkəməsinə hakim təyin olunmuşdu. Ürəyinin dərinliyində peşəsi ilə qürur duyurdu. Düşünürdü ki, sevdiyi peşəyə yiyələnmək hər kəsə nəsib olmur. Kərimin xoşbəxtliyi onda idi ki, bilik və bacarığını sevdiyi peşəyə həsr edib müvəffəqiyyətə nail olmuşdu.

Tovuza çox böyük həvəslə gəlmişdi. Tələbəlik illərində burada keçirdiyi bir ayda bu rayonu çox sevmişdi. Özü, əslən gürcüstanlı idi. Gürcüstanın azərbaycanlılar yaşayan torpaqları əsrlər boyu Azərbaycan torpaqları olub, on səkkizinci əsrdən bəri Nadir şah tərəfindən Gürcüstana verilsə də, xalq öz adət-ənənələrini, ləhcəsini qoruyub-saxlaya bilmişdi. Kərim bilirdi ki, tovuzlular hər cəhətdən gürcüstanlılara bənzəyirlər. Həm ləhcələri, həm qonaqpərvərlikləri, mehriban davranışları, şən zarafatları ilə bir-birinə çox bənzəri vardı bu insanların. Tovuzun diş göynədən, sərin bulaqları, selli çayları, göy meşələri, güllü-çiçəkli yal-yamacları da Kərimə böyüyüb-boy atdığı Borçalı mahalını xatırladırdı. O, təbiət vurğunu idi. Yeni işinə Azərbaycanın bu dilbər guşəsində başlamağı lap ürəyindən olmuşdu.

Maşını məhkəmə binasının qabağında saxlayıb düşdü. Məhkəmənin binası elə həmin bina idi, sadəcə, fasadının rəngi dəyişmişdi. Burada ilk rastlaşdığı adam qapıçı Həsən oldu, onu necə görmüşdüsə elə də dururdu. Elə bil bu ötən illər Həsən kişinin yanından keçmişdi. Hündür boylu, arıq bədənli, keçəl başlı bu adam da onu görən kimi tanıdı. Kərim onun bir-birinə çox yaxın çəp gözünə baxanda ürəyi darıxdı. Həsən kişi ilə salamlaşıb içəri keçdi. Onu gözləyirdilər.

Kərimin elə ilk gündən günləri uğurlu alındı. İşə çox həvəslə başladı. Üstəlik, ən ürəyinə yatan o oldu ki, Lalənin vəziyyəti yaxşılaşırdı. Halbuki axırıncı dəfə Kərim onu müayinə etdirəndə həkim ürəkaçan bir söz deməmişdi.

Demək olar ki, Lalənin üz-gözünün, əl-ayağının şişi çəkilmişdi. Evinin səliqə-sahmanı ilə özü məşğul olur, əvvəlki vaxtlar kimi ləzzətli yeməklər hazırlayırdı. Həyət-bacaya da əl gəzdirirdi. Kərim Lalənin belə çətinlik çəkməyindən narahat olur, xəstəliyinin artacağından qorxurdu, ona mütləq köməkçi tapmaq haqqında düşünürdü. Düzdür, tanımadığı adamı evinə gətirmək istəmirdi. Hələlik bu barədə heç kimə heç nə deyə bilmirdi. Çünki burada özünə yaxın bildiyi kimsə yox idi. Bu gün nahara evə getməli idi. Laləyə köməkçi tapmamışdı. Nəhayət, işini bitirib nahara evə gəldi. Yarpaq dolmasının xoş ətri həyətə yayılmışdı. Yarpaq dolmasını çox sevirdi. Lalə hər dəfə dadlı, ləzzətli yeməklər bişirəndə anası Sona xanımı xatırlayıb ürəyi sızıldayırdı.

Pilləkənləri qalxmamış Laləni səslədi. Nədənsə içəridən səs-səmir çıxmadı. Deyəsən o, Kərimi eşitmirdi. Yuxarı qalxmaq istədi, gözü indiyəcən qapısını açmadığı yay mətbəxinə sataşdı. Qapını yavaşca itələyib açdı. Bura da çox zövqlə yığılmışdı. Qapı ilə üzbəüz divara qıpqırmızı mətbəx mebeli, qaz piltəsi, su kranı yığılmışdı. Üzbəüz divara divan-kreslo düzülmüşdü. Kərim mətbəxə keçdi. Ətrafa göz gəzdirib mətbəx mebelinin qapısını açdı. Şkafların içi boş idi. Təkcə rəfin birində bir-iki salfet kağız, diş çöpü və bir də vərəqi açıq qalmış dəftər var idi. Kərim dəftəri açıb vərəqləməyə başladı. Bu, üçüncü sinif şagirdi Sevda Əlizadəyə məxsus gündəlik idi. Demək ki, Kərimdən əvvəlki hakim Sahib Əlizadənin qızına məxsus idi. Gündəliyi bir xeyli vərəqləyib qiymətlərin hamısının "əla"

olduğunu gördü. "Afərin!" – deyib, öz-özünə mızıldandı. Dərhal da ürəyinə bir ağırlıq çökdü. Kərimin övladının olmaması, Lalənin xəstəlik problemi onun ürəyini sıxan əsas səbəblərdən biri idi. Əgər onların uşaqları olsaydı indi birinci sinifdə oxuyardı. Kərim evləndikdən iki il sonra xəbər tutdu ki, heç vaxt övlad sahibi olmayacaq. Bu barədə düşünmək istəməsə də, əslində o günü heç vaxt unutmurdu. Həmin günə nifrət edirdi. O yay Kərim Moskvada olmalı idi. Hüquq elmləri namizədi adını almaq üçün diplomunu götürəcəkdi. Yayın axırı Moskvaya getməli olduğunu söylədi. Sona xanım Laləni də aparmağı məsləhət gördü. Bu söz hər ikisinin ürəyindən oldu. Xoş bir payız səhəri Laləni də götürüb Moskvaya getdi. Yaxşıca gəzib-dolandılar. Günləri bir-birindən xoş keçirdi. Son iki ildə Moskvanın gəzməli yerlərindən haranı tanıyırdısa, Laləni ora apardı. Qayıtmağa bir həftə qalmış bir səhər yuxudan oyananda Lalə Kərimdən xahiş etdi ki, onu həkimə aparsın. Kərim təəccüb və təlaşla soruşdu:

– Nə olub?

Lalə də qıpqırmızı qızararaq suala-sualla cavab verdi:

– Kərim, görəsən uşağımız niyə olmur?

Kərim evləndikdən bəri bu barədə heç düşünməmişdi, daha doğrusu, ağlına gəlmirdi ki, uşaqları olmaya bilər. Elə ona görə də gülümsünüb dedi:

– Bir az gecikib yəqin ki, olacaq, daha ayrı necə olmalıdır?

Amma Lalənin əl çəkməyəcəyini baxışlarından hiss etdi. O, qızın qızarmış sifətinə, yaşla dolmuş gözünə baxıb

"hara istəyirsən, gedək", – dedi. Birlikdə həkimə getməyi qərara alıb ertəsi gün həkimə getdilər. Hər ikisi müayinə olundu, "bütün yoxlamalar başa çatdıqdan sonra cavablarınızı birinci gün gəlib götürərsiniz", – dedilər.

Xəstəxanadan çıxıb gəzməyə davam etdilər. Mağazalara gedib hədiyyələr aldılar. Axşamlar restorana gedib şam yeməyi yeyərək, musiqi dinləyib rəqs etdilər. Səhərlər qaldıqları otelin eyvanından günəşin çıxmasını seyr edir, bu gözəllikdən birlikdə həzz alırdılar. Laləyə elə gəlirdi ki, günəş çıxanda da gülümsünə-gülümsünə çıxır. Gülümsədikcə hərarəti, işığı artır və öz artan hərarəti ilə, işığı ilə dünyaya xoşbəxtlik vəd edir. Hər kəs bu möhtəşəm mənzərəni seyr edirsə, o işıqdan, hərarətdən daha çox bəhrələnir. Doğrudan da, daha böyük həvəslə gəzib-dolaşırdılar. Demək olar ki, bütün muzeylərdə oldular, hər yerdə çoxlu şəkillər çəkdirdilər. Sonralar Kərim o şəkillərə baxa bilmirdi. Ona elə gəlirdi ki, bütün xoşbəxtlikləri, üzlərindəki təbəssüm həmin şəkillərdə donub qalıb. Nəhayət, bazar ertəsi qalxıb xəstəxanaya – müayinənin cavablarını götürməyə getdilər. Kərim giriş qapısının ağzında siqaret yandırdı, Lalə içəri keçdi. Alçaq boylu, iri qara gözlü həkim əlindəki kağızları Laləyə uzadıb: – Xanım, siz tam sağlamsınız, – dedi. Nədənsə, onun Laləyə: "siz tam sağlamsınız" deməyi Laləni narahat etdi. Ürəyində: "Necə yəni mən sağlamam?" –deyə düşündü. – Kərimə nə olub? – deyib həkimə sual verdi. Həkim qətiyyətlə:

– Onun övladı olmaq ehtimalı yoxdur, – dedi. Laləyə elə gəldi ki, üzünə bərk bir sillə dəydi, yerində do-

nub qaldı. Bir an tez buradan uzaqlaşmaq istədi. Bu xəbəri Kərimin eşitməyini istəmirdi. Amma elə bil ayağından yerə mismarlamışdılar. Kərim çöldə siqaretinin axırıncı qüllabını vurub kötüyünü zibil qutusuna atandan sonra Lalənin dalınca içəri keçdi. Qız başını döndərib Kərimlə üzbəüz gəldi. Az qala itələyə-itələyə onu çölə çıxardı. Kərim Lalənin ağarmış sifətinə baxıb:

– Sənə nə olub, Lalə? – deyə sual verdi.

Lalə əlindəki kağızları göstərib: "gedək", – deyə israr etdi. Kərim Lalənin qolundan tutub ehmalca bir tərəfə çəkdi. Cəld bir hərəkətlə içəri keçdi. Onu görən həkim ayağa qalxıb Kərimin qarşısında dayandı. Kərim həkimin düz gözünün içinə baxa-baxa sual verdi:

– Həkim, ciddi bir şey varsa, açıqlayın, mənə düzünü deyin?

Həkim əlindəki kağızlara baxıb, təəssüf hissi ilə izah etməyə başladı:

– Sözün düzü, haradan başlayım bilmirəm. Nə qədər ağır olsa da, deməliyəm: sizin heç vaxt övladınız olmayacaq, bunun səbəbkarı da sizsiniz.

Bir anlıq Kərimin qulaqları batdı. Ağbəniz, göyçək həkimin sifəti gözünə əcaib şəkildə əyri göründü. Ona elə gəldi ki, bu əcaib sifətli qadın danışmır, sadəcə, ağzını açıb-yumur. Kərim özünü birtəhər ələ alıb, ona yad olan xırıltılı, qısıq bir səslə soruşdu:

– Əminsinizmi, doktor, bəlkə səhv edirsiniz?

Həkim sakit, lakin peşman bir tərzdə: – Bizdə səhv olmur, cavan oğlan, – deyib dönüb yerində oturdu.

Kərim yerində donub qalmışdı. Danışmaq istəsə də, səsi çıxmırdı. Sual dolu gözlərini həkimin üzünə dikib baxırdı.

Həkim uzun sükutdan sonra:

– İnanın ki, ürəkdən sizə kömək etmək istəyirəm, lakin mümkün deyil, – dedi.

Kərim uca boylu, zil qara saçlı, iri gözlü, üzündə əsl kişi cizgiləri olan, yaraşıqlı sifətli bir oğlan idi. Uşaqlıqdan idmanı sevdiyi üçün dəmir kimi möhkəm bədənli, sağlam cüssəli, cəngavərə oxşar görünüşü var idi. Hələ uşaqlıqdan yaşıdları arasında onun qolunu qatlaya bilən olmamışdı. Anadan olandan bir dəfə olsun ciddi xəstəlik keçirməmişdi. Bəs bu nə demək idi, heç nə anlamırdı. Hələ ömründə belə bir duruma düşməmişdi. Bu sözü özünə yaraşdırmırdı, düşündükcə dəhşətə gəlirdi. "Sənin heç vaxt övladın olmayacaq" – qadının səsi qulağında yenidən cingildədi, yenə də əti ürpəşdi. Həkimlə sağollaşmadan pilləkənləri bir göz qırpımında aşağı endi. Utanırdı, lakin heç özü də bilmirdi ki, niyə utanır? O gün nə hisslər keçirdisə, onu bir özü, bir də Allah bildi. Lalənin qoluna girib otelə necə qayıtdığını bilmədi. Lalə həmin gündən bir dəfə olsun, bu mövzuya toxunub heç nəyi üzünə vurmadı. Lakin Kərim bir gün olsun, həmin günü unutmadı. Hər dəfə xatırlayanda əhvalı tamam dəyişirdi. Bu dəfə də elə oldu. Lalənin o biri otaqdan gələn səsi Kərimi xəyaldan ayırdı. Könülsüz qonaq otağına keçib Lalənin üzündən öpdü. Lakin iştahası küsmüşdü, bir-iki dolma yeyib işə qayıtdı. Dünəndən sənədləri əlinə alanda işin çox olduğunu gör-

müşdü. Əslində Tovuz rayonunun əhalisi dinc əhali idi. Burada kriminal hadisələrlə çox az rastlaşmaq olurdu.

Amma atalar yaxşı deyib: "Meşə çaqqalsız olmaz". Mühakimə edəcəyi, qərar verəcəyi, aparacağı işi diqqətlə gözdən keçirdikcə ürəyi sıxılırdı, dəhşətə gəlirdi. İki ay öncə Rüstəm adlı 60 yaşlı biri dəhşətli bir cinayət törətmişdi. Sən demə, kişi bu yaşında aşiq olubmuş. Evində arvadı, iki evli, iki subay oğlu olsa da, bir axşam yanında cavan bir qadınla gəlib ki, bəs, mən bu xanımla evlənmişəm. Bu gündən o, mənimlə evimin ən gözəl guşəsində yaşayacaq. Lakin oğlanları Rüstəmin bu hərəkətini qəbul etmirlər. Onun gətirdiyi qadını evdən qovurlar. Bu hadisədən hirslənən Rüstəm oğlanlarından qisas almaq fikrinə düşür. Gecə hamı yatmışkən evin çöl qapısını arxadan bağlayıb ikimərtəbəli mənzilə od vurur. Təkcə böyük oğlu ailəsi ilə birlikdə xilas ola bilmişdi. Xoşbəxtlikdən birinci mərtəbədə, baş otaqda yatıblarmış, oradan pəncərədən çölə atılıb, canlarını birtəhər qurtarmışdılar. Qalan üç qardaş, birinin arvadı və anaları faciəli şəkildə yanıb külə dönmüşdü. Bu illər ərzində Kərim çox qətl hadisəsi ilə qarşılaşmışdı. Lakin bu dərəcədə heyvani hisslərinə hakim ola bilməyən insana rast gəlməmişdi. Hadisələrin gedişatını oxuduqca dəhşətə gəlmişdi: "Axı bir insan bir saatın ərzində bütün ailəsini necə şəhvətə qurban verə bilər? İnsanın ağlı ehtirasına üstün gəlməlidir. Yox, əgər ehtiras ağıla üstün gəlirsə, belə insanlarda heyvani hisslər baş qaldırır", – deyə düşünürdü.

O gün axşamacan Kərim bu hadisənin təsirindən çıxa bilmədi. İş gününün sonunda sənədləri, işləri qaydaya salıb qalxıb evə getmək istəyirdi ki, qapını qapıçı Həsən döyüb içəri girdi. Kərim ondan Laləyə kömək etmək üçün bir qadın tapmağı xahiş etmişdi. Həsən yaxşı, sakit, təmizkar bir qadın tapdığını söylədi, sonra birnəfəsə qadının tərcümeyi- halını danışdı. Kərimin qanının qara vaxtı Həsənə gülməyi tutdu:

– Ay kişi, bu qadını gizli təşkilata işə götürmürəm. Yəni dedim, bir az səliqəli, iş-güc bacaran adam olsun, daha onun keçmişi nəyimə lazımdır? Elə indi götür apar Lalənin yanına, – dedi. Əli ilə "qapını ört" işarəsi verdi.

Kişi daha bir söz demədi. Gözlərini adəti üzrə qıyaraq qapıdan çıxdı. İş saatı tamam olan kimi Sənəm adlı bir qadınla Kərimgilə getdi. Lalə qadını görəndə çox sevindi. Kərimə: "Heç kim lazım deyil" desə də, çox çətinlik çəkirdi. Bəzən başı işə-gücə elə qarışırdı ki, dərmanlarını içmək yadından çıxırdı.

Sənəm qırx-qırx beş yaşlarında arıq bədənli, qarabəniz, sakit təbiətli bir qadın idi. Özünün dediyinə görə ucqar dağ kəndlərinin birindən idi. Kasıb bir ailənin beşinci qızı olduğuna görə, rayondan arvadı ölmüş, yaşlı bir kişiyə ərə veriblərmiş. Amma heç iki-üç il bir yerdə yaşamayıblar. Əri tez öldüyündən Sənəmin yeganə qızı atasının üzünü belə görməmişdi. Odur ki, Sənəm qızını böyütmək üçün qapılarda işləyib bir parça çörəkpulu qazanırmış. Sənəmin yeganə arzusu qızı Arzunun instituta girməyini görmək idi. Hər zəhmətə də ona görə qatlanırdı. Sənəmin

danışdığı bu əhvalatı eşidəndən sonra Lalənin Sənəmə yazığı gəldi. Qadında qəribə fəqir, yazıq bir görkəm vardı. Oturub xeyli söhbət edəndən sonra, onu aparıb otaqları gəzdirdi, nə iş görəcəyini başa saldı. Sənəm də, necə deyərlər, əlini-qolunu çırmayıb işə başladı. Sənəmin gəlişi, işcanlı olmağı Kərimin evinə bir şənlik gətirmişdi. Hər ikisi Sənəmdən razı idilər. Ona nə isə demək, nə isə tapşırmaq lazım deyildi. Elə bil bu evin qaydasını çoxdan bilirmiş. Artıq sual verməyi xoşlamırdı. Nəyinsə yerini soruşmur, hər şeyi özü axtarıb tapırdı.

Bir axşam Sənəm həyəti süpürüb, sulayıb, zirzəmidən tapıb-çıxardığı stolu həyətə gətirib, samovarı qaynadıb stolun üstünə qoymuşdu. Kərim işdən yorğun qayıtmış olsa da hay-küylü atası evi gözünün qabağına gəldi.

Kərimin atası Səlim kişi Borçalı mahalında sayılıb-seçilən və el-oba tərəfindən sevilən bir adam idi. Elə gün olmazdı ki, onun evi qonaqsız olsun. Qohumlardan kimin evində nə mübahisəli məsələ var idisə, Kərimgilin evində həll olunurdu. Ən çətin işlərdə Səlim kişinin sözü keçərdi – küsənləri barışdırar, elçilikdə başda oturardı. Kasıbların ölüsünü dəfn edər, toylarında qol götürüb oynayardı. Çünki Səlim kişi qalxıb oynayardısa, o toy qızışar, şux keçər, şənlənərdi. Elə ona görə də evindən adam əskik olmurdu. Hamı Səlim kişinin ətrafına toplaşardı. Sarı mis samovar da stolun başında pıqhapıqla qaynayardı. Hər kəs maraqla Səlim kişinin məzəli, duzlu söhbətlərinə, şən zarafatlarına qulaq asardı. Əsl el ağsaqqalı idi. Səlim kişi nə qədər çılğın təbiətli, şən bir insan idisə, Kərim onun

əksinə, tam sakit, təmkinli, səbirli bir oğlan idi. Amma özü nə qədər sakit təbiətli olsa da, o səsli-küylü günlər üçün burnunun ucu göynəyirdi. Özlüyündə həmin ab-havanı sevir, əzizləyirdi, hərdən uşaqlıq hissləri baş qaldırırdı içində. Ürəyində o günləri bir də xatırlayan Kərim samovarın yanında oturub çay içir, ötən günləri anbaan yada salırdı. Artıq axşam düşürdü, soyuq elə bil içinə əsirdi, amma durub içəri keçmək istəmirdi. Daha doğrusu, keçmiş günlərdən ayrılmaq istəmirdi.

Səlim kişi Kərimi nə qədər sevib, onunla qürur duysa da onun sakitliyini sevmirdi, – Kərim anası tərəfə çəkib,– deyirdi. Mən nəslimin davamçılarını, nəvələrimi gözləyirəm. Onlar gərək, mənə oxşasın, dəliqanlı ata-babalarıma çəkməlidirlər. Sonra da ata-babalarının igidliyindən, at çapıb ov ovlamaqlarından, quşu dimdiyindən vurmaqlarından danışar, ermənilərin onun nəslindən bir adamın olduğu yerə qorxusundan ayaq basa bilmədikləri ilə fəxr edirdi. Səlim kişi nə danışır-danışsın, Kərim sakit davranışından kənara çıxmırdı, instituta hazırlaşırdı. Tələbəliyin şirin xəyalları ilə yaşayır, hərdən dostları ilə birgə gəzməyə getsə də təhsilini, kitablarını yaddan çıxarmır, gecə yarısına qədər dərsləriylə məşğul olurdu.

Bir axşam Səlim kişi işdən tələm-tələsik gəlib paltarını dəyişib həyat yoldaşına: – Muradın qızına elçi gedirik, – dedi.

Axşam elçilikdən kefikök qayıdan Səlim kişi Muradın kiçik qızının da çox gözəl olduğunu söylədi. Sonra mülayim bir görkəm alıb: – Qızı görən kimi Kərim yadıma düş-

dü. Adını da soruşdum, adı da özü kimi qəşəngdir, Lalədir,– dedi. Sona xanımın ürəyi atlandı, az qaldı sevindiyindən ürəyi getsin:

– Sənin gözündən adam yayınmaz, ay Səlim,– dedi. Təki gözəl olsun. Allah bizi yeganə övladımızdan sevindirsin. Qarşımıza halal süd əmmiş çıxsın.

Ata-anasının söhbətini təsadüfən eşidən Kərimin onlara acığı tutmuşdu. Necə hirsləndiyini xatırladı. Düzdür, o, atasının bir sözünü iki edib, üzünə qayıtmamışdı. Ancaq öz-özünə deyinməyi yadına düşdü: "Necə yəni, qızı görən kimi Kərim yadıma düşdü?"

Növbəti günlərdə Kərim demək olar ki, hər gün bu sözləri xatırlayır, ata- anasına acığı tuturdu. Bəzən də qəribə hisslər keçirirdi. Özü də bilmirdi ki, bu hiss nə hissdir.

Əlinə məqam keçən kimi dostlarından Murad kişinin evinin yerini öyrəndi. Bir neçə dəfə özü də hiss etmədən evin həndəvərində fırlandı. İki hissin arasında qalmışdı. Birində narazılıq, birində maraq var idi. Onu da bilirdi ki, maraq hissi daha güclüdür və bu hiss günü-gündən böyüyüb, bütün hissləri ötüb keçmişdi. Bir axşam Səlim kişi Kərimin ürəyini oxuyurmuş kimi əlindəki bağlamanı ona uzadıb:

– Oğlum, bu bağlama Murad kişinin evinə çatmalıdır. Çatdıra bilərsənmi?

Kərim ürəyində nə isə bir çırpıntı duydu. Üzündə, qulaqlarının dibində istilik hiss etdi, bağlamanı atasının əlindən alıb ayağının altına baxaraq: "verərəm", – dedi.

İnstituta hazırlığın bu qızğın çağında atasının Kərimi dərsdən ayırıb bağlamanı çatdırmağı tapşırmağı Kərimə bir az qaranlıq qalsa da bağlamanı götürüb Murad kişinin evinə yollandı. Axır vaxtlar bir neçə dəfə gəldiyi küçəyə gəldi. Darvazası qıpqırmızı güllərin içində olan qapıya yaxınlaşıb qapını azca itələdi. Qapı açıq idi. İçəridən qaçışan uşaqların şən səsi gəlirdi. Kərim: "Murad əmi", – deyə səsləndi. Bir də səslənmək istəyirdi ki, içəridən qısaqollu yaşıl don geyinmiş, uca boylu, ağbəniz bir qız çıxıb qapıya yaxınlaşdı. Kərimlə üzbəüz gələn qızın bir anın içərisində yanaqları lalə kimi qıpqırmızı oldu. Kərim salam verib bağlamanı qıza uzatdı:

– Mən Səlim kişinin oğluyam, zəhmət olmasa, bu bağlamanı Murad əmiyə verin, – deyib bağlamanı qıza uzatdı. Qız heç bir söz deməyib bağlamanı götürdü. Bir göz qırpımında yoxa çıxdı. Hər şey bir anın içərisində baş verdi. Lap yuxu kimi. Sonralar Kərimə elə gəlirdi ki, bunu yuxuda görüb. Əslində belə bir şey olmayıb. Amma yuxumu, aşkarmı, hər nə isə o mələk simalı, yaşıl donlu qız Kərimin yadından çıxmırdı. Maraqlısı bu idi ki, nə Səlim kişi, nə də Sona xanım bir daha bu mövzuya qayıtmadılar. Bəlkə də Kərim instituta hazırlaşırdı deyə onun fikrini yayındırmaq istəmirdilər.

Kərim yüksək qiymətlərlə instituta qəbul oldu. Oğlunun müvəffəqiyyətinə görə Səlim kişi əsl bayram etdi. Demək olar ki, bayram günləri dərslər başlayana qədər davam etdi. Qohum-əqrəba çox olduğundan qonaqlıq bitib-tükənmirdi. Səlim kişi öz kefindən qalmırdı, bir gün aşıq-

ları dəvət edirdi, bir gün zurnaçıları. İnstituta qəbul olduğu üçün Kərim ürəkdən sevinsə də atasının açdığı bu dəm-dəsgahdan xoşu gəlmirdi. Amma səsini çıxarıb heç nə deyə bilmirdi.

Sentyabr ayı gəlib çatan kimi Kərim yığışıb Bakıya getdi. Necə deyərlər qayğısız günlərin sonu gəldi. Birinci il çox çətinlik çəkdi. Dərslər çox ağır, imtahanlar məsuliyyətli idi. Bütün bu çətinliklərə baxmayaraq Kərim "yaşıl donlu qız"ı bir gün də olsa, yadından çıxarmadı. Kərimə elə gəlirdi ki, "yaşıl donlu qız" onun qəlbinin bir guşəsində özünə yer edib oturub orada. Dərsləri də birgə oxuyurlar, imtahanları da birgə verirlər. Kərim tətilə çıxıb doğma yurda gələr-gəlməz Laləgilin küçəsinə getdi. Xeyli dolanıb-gəzsə də, darvazadan bir nəfərin girib-çıxdığını görmədi. O gündən Kərim bir neçə dəfə Laləgilin evlərinin həndəvərində fırlandı. Ancaq elə bil ev sükuta qərq olmuşdu. Qızın ailəsi ilə birlikdə yoxa çıxmasına təəccüb etsə də, heç kimdən soruşmurdu. Yaxşı ki, bir axşam süfrə arxasında söhbət düşəndə Səlim kişi Muradın ailəsinin Bakıda olduğunu söylədi: – Murad kişi iki qızına orada müəllim tutub, anaları o biri uşaqları da yığıb-aparıb Bakıya. Murad evdə tək qalıb, o da səhər gedib-axşam gəlir,– dedi.

Həmin yay Kərim Laləni görə bilmədi, ata-anası Yesentuikiyə – istirahət etməyə getdilər. Kərim atasıgillə getməkdən imtina etdi. O, dostu Vüsalla krim şəhərinə getdi. Avqustun axırıncı həftəsi rayona qayıdıb, Bakıya getməyə hazırlaşdı. Qarşıda onu ağır dərs ili gözləyirdi.

Qatara minib Bakıya yola düşdü. Yolboyu gəzdiyi şəhərləri, doğma yurdu, həm də "yaşıl donlu qız"ı xatırladı. Qatar Biləcəriyə çatanda qalxıb yuyundu. Pəncərənin qarşısında dayanıb çölə baxırdı. Qonşu kupedən kiminsə çıxdığını hiss edib başını yana çevirdi. Elə həmin an don vurmuş vəziyyətə düşdü. Ürəyinin döyüntüsünün səsi qulağını deşirdi. Sərv boylu, mələk simalı, ipək saçları az qala qısa donu ilə bərabər dayanan zərif qız Kərimin yanından keçəndə başı ilə ona salam verdi. Onun ardınca kupedən çantaları götürüb çıxan oğlanı Kərim tanıdı – Lalənin qardaşı Musa idi. O, dayanıb Kərimə əl uzatdı. Onlar qısa bir söhbət etdilər. Musa bacısının Tibb İnstitutuna daxil olduğunu söylədi. Kərim onu təbrik etdi. Yenə də xəyal kimi çəkilib getdilər. Kərim pəncərənin qarşısında yerindən tərpənmədi. Onlar düşüb getdilər. O, qatardan düşəndə Laləgil çoxdan uzaqlaşmışdı...

Samovar çoxdan soyumuşdu, sazaq Kərimin sümüyünə işləmişdi. Xəyalların qanadında haralara getmişdi?! Bayaqdan Lalə onu səsləyirdi: "Soyuqlayarsan, içəri keç, – deyirdi. Kərim ona cavab vermədi. Üşüdüyünü hiss edib yerindən tənbəl-tənbəl qalxıb içəri keçdi. Elə bil divarlar üstünə gəlirdi, darıxırdı.

Deyəsən, Lalə yatmışdı.

Artıq bir neçə ay olardı ki, Kərim hakim kimi fəaliyyət göstərirdi. İş yoldaşlarından, ədliyyə işçilərindən başqa, demək olar ki, heç kimlə ünsiyyəti yox idi. Evdən işə, işdənsə, evə qayıdırdı. Əslində iş prosesində ciddi bir sıxıntısı yox idi.

Bir ay bundan əvvəl, Rayon Polis Şöbəsinin istintaq bölməsinə yeni təyin olunmuş Mahir Qədirlinin gəlişi Kərimin həyatında bir balaca dəyişiklik etdi. Kərimlə onun fikirləri üst-üstə düşürdü. Bir-birlərinə çox hörmətləri var idi, söhbətləri də tuturdu. Kərimin əksinə, Mahir çox çılğın adam idi. O, sakit dayana bilmir, iş qurtaran kimi harasa getmək, əylənmək istəyirdi. Yeni gəldiyindən, bu rayonda təzə olduğu üçün heç kimi tanımırdı. Əlindəki istintaq işləriylə əlaqədar hərdən məhkəməyə gəlirdi. Elə burda da tanış olmuşdular, söhbətləri tutmuşdu. Günlərin birində Kərimin yanında həyat yoldaşının və uşaqlarının darıxdığını söyləyəndə, Kərim onu evlərinə dəvət etdi. Belə ki, Sənəmin səliqə-sahmanına, biş-düşünə bələd idi. Elə ona güvənib: "Yoldaşını, uşaqlarını götür, gəl", – dedi. Necə deyərlər, bu rayonda ikisi də qərib idi.

Axşama qonaqları olacağını biləndə Lalə də sevindi. Sənəmi çağırıb hazırlığa başladılar. Lalə ləzzətli yeməklər bişirməyi sevir, süfrə açmaqdan həzz alırdı. Axşamtərəfi ətirli, dadlı yeməklər hazır idi. Süfrəni də bəzəmişdilər, Lalə öz üst-başını da səliqəyə salıb qonaqları gözləyirdi. Çox da gözləməli olmadılar. Mahir müəllim, xanımı, iki körpə – əkiz qızları ilə gəldilər. Xanımlar çoxdankı rəfiqələr kimi səmimi öpüşüb-görüşdülər. Yemək süfrəsi sakit keçsə də, çay süfrəsində əməlli-başlı açılışdılar, danışdılar, güldülər. Çoxdan idi ki, Kərimlə Lalə bu qədər gülüb-əylənməmişdilər. Sonra Kərimlə Mahir nərd oynamaq istədiklərini bildirdilər. Sənəm nərdi tapıb gətirən kimi kişilərin başı nərd oyununa qarışdı. Qızlar da bir kənara çəki-

lib oynamağa başladılar. Lalə ilə Dilarə divanda oturub həvəslə söhbətə başladılar. Söhbət əsnasında məlum oldu ki, Mahir də, Dilarə də Şamaxıdandırlar. Dilarə də Mahir kimi açıqürəkli, ünsiyyəti sevən adam idi. Qısa müddət ərzində bütün tarixçələrini açıb tökdü. Hətta Mahirlə bir-birlərini necə sevdiyini, gizli-gizli görüşə çıxdığını, neçə dəfə küsüb-barışdıqlarını da söylədi. Lalə ona maraqla qulaq asırdı. Sevinirdi, Dilarənin belə həyat dolu, şən bir xanım olmağı xoşuna gəlirdi. Elə Kərimin Mahirlə dostluğu da ürəyindən idi.

Mahirgil gedəndə artıq gec idi, qızlar da yatmaq istəyirdilər. Bayaqdan o başa-bu başa qaçan qızlar, indi başlarını analarının dizinin üstünə qoyub mürgüləyirdilər. Dilarə heç getmək istəmirdi, amma getməli idilər. Tanış olmalarına çox şad olduqlarını söyləyib, ayrıldılar. Sənəm qalan işləri görüb getdi. Evə sükut çöksə də, bu gün keçirdikləri axşamdan hər ikisi razı idi. Yataq otağında Lalənin yuxusu gəlsə də Kərimə  Mahirlə Dilarənin dəli-dolu eşq macərasından danışdı. Tezliklə başını Kərimin sinəsinə qoyub, gözünü yumdu. Onun şirin mışıltısından məlum olurdu ki, axşamdan razı qalıb. Kərim də gözlərini tavana zilləyib Lalə ilə sonrakı görüşünü xatırladı.

Qatarda Laləni gördüyü o gündən sonra xəyallarında "yaşıl donlu qız"ın yerini qırmızı paltarlı, kəpənəyə oxşayan bir qız tutmuşdu. Kərim institutu qırmızı diplomla bitirdi, arzuları gerçəkləşsə də,  bu illər ərzində xəyalındakı qızı görmək arzusu gerçəkləşmədi, elə xəyal olaraq qaldı. Lakin  qız yerini  heç kəsə vermədi. Lalə gah o görkəmdə,

gah da o biri görkəmdə Kərimin gözünün önündən çəkilmədi. Kərim institutu bitirən kimi Moskvaya – oxumağa getdi, aspiranturaya girdi. Ona elə gəlirdi ki, Bakıda institutda oxuduğu illər bir göz qırpımında başa çatıb, amma bu növbəti iki il bitib-tükənmirdi ki, tükənmirdi. Az qala günlərini sayırdı, yeknəsək günlərdən bezmişdi.

Bir səhər onu yuxudan yataqxana komendantı oyadıb, təcili telefon danışığı olduğunu bildirdi. Onunla danışmaq istəyən atası idi. Səlim kişi birnəfəsə Sona xanımın xəstə olduğunu, Kərimi görmək istədiyini söylədi. "Təcili gəl", – deyib, oğluna qulaq asmadan dəstəyi asdı. Kərim yerində donub qaldı. Hamama girib əl-üzünü yudu, yenə də özünə gələ bilmədi. Əvvəl atasına acığı tutdu: "Adamın ürəyi yatar, bu necə xəbər verməkdir?" – deyə düşündü. Dərhal da atasının zəhmli sifətini xatırladı. Səlim kişi sözün düzünü danışan, qılınc kimi iti, kəsərli sözü olan bir adam idi. O, üstüörtülü danışmağı nə bilirdi? Heç istəsə də bacarmazdı. Bu saat ona kimsə desə ki, ay Səlim, niyə belə dedin? Kərim qorxar. Cin başına vurardı Səlim kişinin, cavabında deyərdi:

"Kərim arvaddır-nədir, qorxur?" Kərimin atası gözünün qarşısında bu sözləri deyirmiş kimi canlandı. Deyəsən, bu iş ciddi iş idi. Tez ayağa qalxıb yığışmağa başladı. Komendanta məsələni başa salıb, taksiyə mindi. Təkmilləşdirmə İnstitutuna gedib, elmi rəhbərindən icazə aldı. Hava limanına gəlib, xoşbəxtlikdən birinci uçuşa bilet tapdı. Üç saatdan sonra Bakıda idi. Bakı hava limanından birbaşa xəstəxanaya gəldi. Cərrahiyyə şöbəsini soruşub, pil-

ləkənləri az qala, qaça-qaça yuxarı qalxdı. Şöbənin qapısında oturan tibb bacısına anasının adını, soyadını verib, Sona xanımın hansı otaqda yatdığını öyrəndi. Təngnəfəs otağa doğru addımladı. Qapını açıb anasını görəndə dəhşətə gəldi. Kərim anasını axırıncı dəfə altı ay bundan əvvəl görmüşdü. Bu qısa müddət ərzində qadın nə günə düşmüşdü?! Sona xanım orta boylu, ətli-canlı, yaraşıqlı qadın olmasına baxmayaraq, indi arıqlayıb yarı canı qalmışdı. Rəngi zəfəran kimi, sapsarı saralmışdı. Həmişə xınalı, daraqlı olan saçları ağarıb üzünə tökülmüşdü. Anasını bərk-bərk qucaqlayıb bağrına basdı. Anasını bu vəziyyətdə görəcəyi ağlının ucundan keçməzdi, kövrəlmişdi. İri qara gözləri yaşla dolmuşdu. Özünü birtəhər ələ alıb:

– Sənə qurban olum, nə olub, ay ana? – deyə sual verdi.

Sona xanım cavab verməyə macal tapmamış, Səlim kişi təngnəfəs içəri girib Kərimlə görüşdü, “bilirdim ki, bu saatlarda burada olacaqsan”, – dedi. Kövrəldiyini oğlundan gizlətməyə çalışsa da, çox qorxduğunu danmadı.

Kərim sual dolu gözlərini atasının üzünə dikdi. Səlim kişi qadının əməliyyat olunacağını söylədi. Eşitdiyi xəbərdən Kərim çox narahat oldu. Ürəyi sıxıldığını hiss edib, dəhlizə çıxdı. Anasının həkimi ilə danışmaq qərarına gəldi. Bir an duruxub geri döndü. Atasından həkimin harada oturduğunu soruşmaq istədi. Səlim kişi oğlunu ağzını açmağa qoymadı, “başdakı otaqda oturur”, – dedi. Kərim otaqlara baxa-baxa başdakı otağa tərəf gedirdi. Açıq qapılı otaqların birində ağ xalat geyinmiş Laləni gördü. Bir an

duruxdu, amma ayaq saxlamadı. Həkimin yanına gedib, anasının xəstəliyinin səbəbini öyrəndi. Məlum oldu ki, Sona xanım mütləq əməliyyat olunmalıdır, özü də yaxın günlərdə. Həkimin dediyinə görə hər günün deyil, hər saatın hökmü var idi. Həkimi dinləyib məyus oldu. Nəhayət, həkimlə razılaşıb onun otağından çıxdı. Qayıdıb bayaqkı otağın qapısından içəri baxdı, qapı açıq olsa da, otaqda heç kimi görmədi, otaq boş idi. "Xəyalmı, görmüşəm?" – deyə düşündü. Yox, qızın Lalə olduğuna tam əmin idi. Bu illər ərzində gününü Lalənin xəyalı ilə keçirmişdi. Onun xəyalı ilə birgə institutu bitirib, birlikdə Moskvaya oxumağa getmişdi. Dəhlizdə sağa-sola boylandı. Heç kimi görmədi. Başı bərk ağrıyırdı. Yadına düşdü ki, dünən yediyi yeməyin üstündədir, başı acından ağrıyır. Düşüb xəstəxananın yaxınlığındakı kafedə yemək yeyib geri döndü. Laləni görməmiş getmək fikri yox idi. Xəstəxananın girəcəyində dayanıb bir siqaret yandırdı. Qəfildən həyətə açılan, üzərinə "Rentgen" yazılmış qapıdan Lalənin çıxdığını gördü. Qızın yanında arıq, xəstəhal bir gənc qadın və hündür boylu kök bir kişi dayanmışdı. O, əlindəki kağızı kişiyə verib, nə isə danışırdı. Onların söhbəti bitmək bilmirdi. Kərimin hövsələsi daraldı, bir kənara çəkilib sütunun arxasına keçdi. Nəhayət, kişi ilə qadın ayrılıb küçəyə tərəf getdilər. Lalənin gəlib onun yanından keçəcəyini gözləyirdi, lakin Lalə bura yaxınlaşmadan, elə dayandığı yerdə kiçik qapıdan içəri girdi. Kərim başa düşdü ki, Lalə oradan yuxarı, otağına qalxacaq. Odur ki, siqaretini atıb yenidən xəstəxanaya keçdi. Dəhlizin başına eyni

vaxtda çatdılar. Kərim dəhlizə girməyib, Laləyə salam verdi. Oğlanın salamına cavab verən Lalə, nədənsə, həyəcanlandı. Bu, Kərimin gözündən yayınmadı. Hətta ona elə gəldi, qız onu tanıyır. Özü də həyəcanlı idi. Günü sabah onunla danışmaq qərarına gəldi. Lalə çox gözəlləşmişdi. Saçlarını sarı rəngə boyamışdı. Uca boyu, mütənasib bədəni daha da zərifləşmişdi. Kərim özündəki bu arxayınlığa təəccüb etdi: "Lalə bəlkə kimisə sevir, bəlkə nişanlıdır? Axı bu illər ərzində Kərimin ürəyində özünə yer eləyən bu qıza Kərim sevgisini bildirmişdimi? Bir an belə xəyalından çıxmayan qız haradan biləydi ki, Kərim onu sevir? Bəlkə o heç Kərim adlı birini tanımır?" Kərim nə düşünürdüsə, axırda içindən bir səs – "Lalə səni tanıyır, o da səni sevir", – deyirdi. Kərim ikinci mərtəbəyə qalxıb, yenidən anasının yatdığı otağa girdi, Sona xanım yatmışdı. Anasının üzündən öpüb, otaqdan çıxdı. Lalənin otağına yaxınlaşdı, qapının örtülü olduğunu görüb, qapını tıqqıldatdı. Astaca qapını itələdi, qapı bağlı idi, demək, Lalə getmişdi. Kərim pilləkənləri düşəndə aşağıdan qəribə, qarışıq səslər gəlirdi. Aşağı düşdükcə gələn səs-küy artırdı, ayağını bir az yeyinlətdi. Axırıncı mərtəbəyə çatanda Lalənin qarşısını kəsmiş bir heyvərəni gördü. O, əl-qol atıb, nə isə danışıb, qışqırırdı. Kərim nə qədər qulaq assa da, onun nə dediyini anlamadı. Həyəcandan qız ağappaq ağarmışdı. Heyvərəyə: "Çəkil yolumdan!" – deyirdi, oğlan isə yerindən tərpənmədən, nə isə çərənləyirdi. Kərim bir göz qırpımında irəli atıldı. Lalənin qolundan tutub astaca geri çəkdi. Özü oğlanla üzbəüz dayanıb:

– Nə istəyirsən? – deyə soruşdu.

Yekəpər bu qəfil sualdan bir addım geri dayansa da, onun üzünə çəmkirdi:

– Sənə nə var? – deyib bağırdı. Sözünü bitirməmiş Kərim onun qolundan tutub fırlatdı. Oğlan bir neçə addım arxaya çəkilib büdrədi, amma yıxılmadı. Özünü toplayıb, yenidən irəliyə gəlmək istəyəndə, Kərim ondan cəld tərpəndi. Oğlanın sinəsindən yapışıb, çölə tərəf sürüdü, itələyib qapıdan çölə çıxardı. Qapını örtər-örtməz, heyvərənin çənəsinin altına var qüvvəsi ilə bir yumruq ilişdirdi. Oğlan səndələyib pilləkənin yanındakı dibçəyin yanına düşdü. Ətrafdan bir-iki nəfər onlara tərəf gəldi. O, yerindən qalxıb bir göz qırpımında yoxa çıxdı. Onların ardınca çıxan Lalənin rəngində qan qalmamışdı. Gözləri böyüyüb hədəqəsindən çıxmışdı. Birinci dəfə idi ki, belə hadisə ilə rastlaşırdı. Düzdür, on gün idi ki, bu oğlanı hər səhər işə gələndə görürdü. Amma heç nə ağlına gəlmirdi. Bu səhər həmin oğlan maşını Lalənin qarşısında saxlayıb: "Həkim, gəlin oturun, aparım", – demişdi. Lalə isə təşəkkür edib, oradan ayrılmışdı. İndi isə qızın qarşısında dayanıb, niyə ona qarşı hörmətsizlik etdiyini soruşur, ağzına gələni danışırdı. Lalə isə tanımadığı bu adamın içkili olduğunu hiss edib, hərəkətindən dəhşətə gəlmişdi. Kərim bir az da gec gəlsəydi, qışqırıb xəstəxananı ora tökəcəkdi. Amma Lalə hələ nə baş verdiyini anlamırdı. Kərim geri dönəndə Lalənin yanında iki qadın dayanmışdı. Biri ona su içirdir, biri əlini ovxalayırdı. Onlar durmadan sual verirdilər:

– Həkim, o kim idi? Sizdən nə istəyirdi?

Lalə özünü itirmişdi. Cavab verməyə söz tapa bilmirdi. Kərim dayanıb Lalənin özünə gəlməyini gözlədi. Nəhayət, onun pilləkənlərə sarı getmək istədiyini görüb ona yaxınlaşdı. Köhnə tanışlar kimi: "Gəl, səni evinizə ötürüm", – dedi. Lalə bir an duruxsa da, Kərimin yanına düşüb yola tərəf getdi. Kərim taksi saxladı. Dal qapını açıb Laləni orada oturtdu, sonra özü keçib qabaqda əyləşdi. Yolboyu heç biri danışmadı. Kərim bir-iki dəfə dönüb arxaya baxdı. Lalə hələ də özünə gəlməmişdi. Ünvanı deyəndə səsi əsirdi, tapıb ünvanı deyə bilmirdi. Taksi Alatavaya çatanda, qız əli ilə dalanlarını göstərdi. Maşın geri dönüb dalanda saxladı. Kərim də qızla bərabər düşüb taksini yola saldı. Dalanın başında üzbəüz dayandılar. Lalə əvvəl təşəkkür etdi, sonra Sona xanımın xəstəliyindən, təhlillərinin cavabından, nə isə, qolu-qanadı qırılmış cümlələrlə danışırdı. Kərim elə bil ona qulaq asmırdı, çünki qız baş-ayaq danışırdı. Onun nə dediyini anlamırdı. Tək bir şeyi anlayırdı: Lalə onu tanıyırmış. Anası ilə hər gün maraqlanırmış. Bu danışdığı müddətdə Lalə bir dəfə olsun, başını qaldırıb Kərimin üzünə baxmadı, gözlərini yerə dikib danışırdı. Kərim birdən onun sözünü kəsib:

– O kim idi? – deyə soruşdu.

Lalə elə bil özünə gəldi və ilk dəfə başını qaldırıb Kərimin üzünə baxdı. Üzünə zillənmiş bir cüt od yağan qara gözləri görüb qıpqırmızı oldu. Cavab verməyib özünü itirdi. Kərim sualına cavab almasa da, yeni sualı verdi:

– Evinizdə kim var?

Lalə artıq dolğun səslə: – Anamla Musa evdədir,– deyə cavab verdi.

Kərim arxayınlaşıb: – Onda sənə yaxşı yol, – dedi. Qız onun sözünə itaət edirmiş kimi, dalandan içəri girdi. Kərim yerindən tərpənmədən gözləri ilə onu yola saldı. Başqa bir taksiyə minib şəhərdəki evlərinə gəldi. Onda nə isə, bir süstlük yaranmışdı, dinməz-söyləməz içəri girdi. Atası televizora baxırdı.

Bu evi Səlim kişi Kərim instituta qəbul olanda almışdı. Amma bir dəfə də olsun, burada olmamışdı. Sona xəstəxanaya düşəndən, ilk dəfə burada qalırdı. Kərim atası ilə salamlaşıb mətbəxə keçdi. Bayaqkı hadisənin təsirindən çıxa bilmirdi. Susuzluqdan ciyəri yanırdı. Soyuducunu açıb bir şüşə suyu başına çəkdi. Qayıdıb atasının oturduğu otağa gəldi. Bir qədər Sona xanımdan, dərslərindən söhbət etdilər. Handan-hana, Səlim kişi Lalədən söz saldı. Əslində Kərim yolboyu düşünürdü ki, Lalə haqqında yalnız anası xəstəxanadan çıxandan sonra söz salsın, ata-anasına Lalədən xoşu gəldiyini desin. Lakin Kərimin söz açmağına ehtiyac qalmadı. Səlim kişi, sanki sözünün qarşısında başqa söz eşitmək istəmirmiş kimi, amiranə bir səslə:

– Muradın qızını mən çoxdan gözaltı etmişəm, – dedi. Kərim bir an nə deyəcəyini bilməyib, təəccüblə atasının üzünə baxdı. Kişi həmin tərzdə sözünə davam etdi:

– Sənin də o vaxtlar oralarda hərləndiyini bilirdim.

Kərim qulağına inanmayıb, donub yerində qaldı. Atasının səsini eşitsə də, nə dediyini anlamırdı. Səlim kişi danışırdı:

– Sən bilmirsən, oğul, Sona xəstələnəndən bəri Lalə qızımız bizə çox yardımçı oldu. Bir sözlə, ananla mən onu

qızımız kimi sevirik. Sona əməliyyatdan sağ-salamat çıxsın, toyunuzu edəcəm. Çox peşman olmuşam, sən institutu bitirən kimi ailə qurmalı idin. Hansı ağılla yeganə övladımı indiyəcən evləndirməmişəm? Sonanı itirəcəyimdən çox qorxdum. Kərim atasına heç nə demədi, amma özü də səhərə qədər yata bilmədi. Lalə gözünün önündən getmirdi. Gözəlliyi ilə bərabər, ürkək ceyran kimi duruşu, allanan yanaqları, titrəyən zərif barmaqları yadından çıxmırdı. İndi Kərimi narahat edən o heyvərə idi, "görəsən, Laləndən nə istəyirdi? Bəlkə aralarında nə isə olub?!" Bu sualı Kərim evlənəndən sonra da bir neçə dəfə Laləyə vermişdi. Hər dəfə də qız hirslənirdi.

Kərimin yenə də yadına bu əhvalat düşdü, qanı qaraldı, onsuz da yata bilmirdi, qalxıb mətbəxə keçdi. Lalə də oyandı, onun yatmadığını görüb soruşdu:

– Nə olub, niyə yatmırsan?

Kərim Lalənin xətrinə dəyməmək üçün:

– Heç nə olmayıb, xəstəxanadakı yekəpər yadıma düşüb, – deyib güldü.

Bir az keçmiş, artıq Kərim yuxuya getmişdi, mışıltısı otağı başına götürmüşdü.

Lalənin yuxusu dağıldı, bu dəfə o, ötən günləri xatırladı. Əslində Kərimi orta məktəbdə oxuyandan tanıyırdı. Atası da elə oturub-durub Səlim kişinin oğlunu tərifləyirdi. Musanın ona oxşamasını istəyirdi. Deyirdi, "Səlimin bir oğlu bir obaya dəyər". Cəmiləyə elçi gələndə Səlim kişi də gəlmişdi. O, qulluq edən Laləni görüb: "Muradın nə gözəl qızı var, adı nədir bu gözəlin?" – deyə soruşmuşdu.

Lalənin qulağında hələ də o şirin sual səslənirdi. Sonralar qohum-qonşu arasında söz gəzirdi ki, Sona deyir: "Muradın qızını oğluma alacam". Elə Muradın özü də Lalə ilə maraqlanan olanda: "Telli, Səlim hər yerdə deyir, Muradın qızından xoşum gəlir, Kərim institutu bitirsin, onu oğluma alacam". Sonra da bığaltı gülümsünüb: "Borçalıda Kərim kimi oğlan yoxdur", – deyirdi.

Lalə Kərimi məktəbdə çox görmüşdü, ondan yuxarı sinifdə oxusa da, oğlanın tərifi elə yayılmışdı ki, az adam olardı ki, onu tanımasın. İnstituta qəbul olandan sonra onu neçə yerdən elçiləyən olurdu. Qız isə heç kimlə maraqlanmırdı. Anası narahat olub, ərinə:

– Murad, vallah, biz bu qızın evini yıxacağıq, hər qızın bir istəkli vaxtı var. Laləni də dörd-beş yerdən istəyirlər, hamısı da yaxşı yerlərdi. Biz oturub Sonanı, Səlimi gözləyirik, onlardan da nə səs var, nə səmir. Sona sözünü ona-buna dediyinə, mənə desin də, vallah, bu qız da heç kimlə maraqlanmır, oturub Kərimi gözləyir.

Murad təəccüblə soruşmuşdu:

– Kərimi nə tanıyır az, bu qız?

– Tanıyır, a kişi, lap yaxşı tanıyır, – demişdi anası.

Doğrudan da, Laləni Borçalıdan istəməyən olmadı, ancaq bütün elçiləri qaytardılar. Lalə Kərimi gözləyirdi, gələcəyinə inanırdı. Təəssüf ki, çox pis bir vəziyyətlə qarşılaşdılar. O, gicbəsər kim idi, haradan çıxdı qəflətən? Amma Lalə o günü həmişə xatırlayırdı. Onu qəribə hisslər bürümüşdü, bir yandan, Kərimin oğlanı küçük kimi bayıra atmasını unuda bilmirdi. Əslində unutmaq istəmirdi də,

film kimi lenti arxaya qaytarır, bir də gözünün önündə canlandırırdı. Kərimin məhəbbət dolu, çılğın baxışı və hərəkətindən xəcalət çəkdiyi o yekəpər yadından çıxmırdı. Ertəsi gün Kərim xəstəxanaya gələndə Lalənin qardaşı Musa ilə qapının ağzında rastlaşdı. O, dünənki hadisəyə görə Kərimə təşəkkür etdi. Kərim: – O adamı tanıyan varmı? – deyə sual verdi. Musa: – Lalənin dediyinə görə, on gündür ki, qızın ətrafında fırlanır, – dedi. Onlar danışa-danışa yuxarı qalxdılar, birlikdə Sona xanıma baş çəkdilər. Musa bir daha Kərimə təşəkkür edib getdi. Kərimin hövsələsi daralmışdı. Xəstələrin seyrəlməsini gözləyə bilməyib, növbəsiz Lalənin otağına keçdi. Lalə onu görəndə ayağa durdu. Bir qədər heç biri danışmadı, sükutu, nəhayət, Kərim pozdu:

– O, oğlan kim idi?

Bu suala Lalənin acığı tutsa da, nədənsə, xoşu da gəlirdi. O, cavab vermədi, bir az susduqdan sonra Sona xanımın əməliyyatından danışdı. Bir həkim kimi öz fikirlərini, artıq əməliyyat gününün məlum olduğunu söylədi. Qız daha nələrsə, danışdı. Kərim onu dinləmirdi, sadəcə, danışmağını istəyirdi. Bu səs qulağında musiqi kimi səslənirdi.

Sona xanımın əməliyyatı uğurlu keçdi, tez sağalıb ayağa qalxdı. Kərim bu günlərdə hər gün Lalə ilə görüşür, Sona xanımın əməliyyatı ilə əlaqəli söhbətlər edirdilər. Lalə əlindən gələn qədər onlara qayğı göstərirdi. Kərim Moskvaya gedən gün Lalənin otağına gəlib onu sevdiyini dedi. Elə həmin il yayda Kərimlə Lalənin toyu oldu. Bu toy

Borçalı mahalına səs salmışdı. Nağıllardakı kimi, yeddi gün-yeddi gecə toyları oldu. Bu, sözgəlişi deyil, sözün əsl mənasında, belə idi. Səlim kişi əsl toy günü çatanacan bir gün aşıqları çağırırdı; bir gün zurnaçılara, bir gün də muğama qulaq asırdı gələn qonaqlar. Hər gün fərqli məclis qurulurdu. Sona xanım, hələ Kərim birinci kursda oxuyandan bir top qırmızı məxmər, bir top da tül parça almışdı ki, Kərimin toy mağarını, "Arşın mal alan" filmindəki kimi bəzəyəcəm. Bəzədi də, neçə illər onların toyları dillərdə dastan oldu.

Kərimlə Lalə xoşbəxt idi, o uğursuz günəcən. O gündən sonra onların arasında qəribə bir sədd əmələ gəlmişdi. Yəni heç vaxt toxunmayacaqları bir mövzuları var idi. Hər nədən danışsalar da, o mövzuya yaxınlaşanda, hər ikisi o mövzudan, o aləmdən pünhan uzaqlaşardılar. Onların evində uşaqdan söhbət getmirdi. Tək bir dəfə Lalə: "Bəlkə bir uşaq götürək", – demişdi. Kərim cavab verməmişdi. Bu, Laləyə dərs oldu, bir daha o barədə söz danışmadı. Keçmiş xatirələr Laləyə öz qoynunda layla çaldı. O, bir fincan su içib, şirin-şirin mışıldayan Kərimin yanına uzanıb ona sığındı.

Günlər, aylar ötdükcə Kərimin Tovuzda dost-tanışı çoxalır, hörməti, gedib-gələni artırdı. Başı işinə bərk qarışmışdı, Lalə də özünü pis hiss etmirdi. İmkan olduqca, hərdənbir Gürcüstana – atası evinə gedirdi. Çox vaxt onu qardaşı Musa gəlib aparırdı. Qardaşı Laləni çox sevirdi, onu balaca uşaq kimi əzizləyirdi. Musa Qazax rayon Nəzarət Komitəsinin sədri idi, iki oğlu, bir qızı vardı. Lalənin bacı-

ları – Vüsalə ilə Cəmilənin də hərəsinin iki övladı (Cəmilənin iki oğlu, Vüsalənin bir oğlu, bir qızı) var idi. Lalənin atası evinə, hərdən də, Qazaxa gəlməsini Musa, arvadı Nərgiz, bacıları və uşaqları böyük həvəslə gözləyirdilər. Lalə gələn kimi, hamısı Musagilə yığışır, keçmişi yadlarına salıb, uşaqlıq xatirələrini danışırdılar. Doyunca danışıb-gülüb, əylənirdilər. Lalə bacılarının, qardaşının övladlarını çox sevirdi, düşünürdü ki, öz övladı olsa, bunlardan artıq sevməzdi. Atası evində nə qədər sevilsə də, əzizlənsə də, Lalə bir həftədən artıq qala bilmirdi. Bu dəfə də belə oldu, Lalə Vüsalənin oğlu Vüqarı təbrik etməyə gəlmişdi. Vüqar ali məktəbə qəbul olmuşdu. Bacısını, oğlunu təbrik edib, bir neçə gündən sonra "gedirəm", – dedi. Lalə öz evinə qayıtmaq istəyəndə nə Musa, nə də bacıları ona "getmə, qal" sözünü deməzdilər. Çünki bilirdilər ki, Lalə Kərimə görə narahat olur, qala bilmir. Sənəm evi, həyət-bacanı səliqəli saxlasa da, Kərimin paltarını vaxtılı-vaxtında yuyub-ütüləsə də, yeməyini bişirib hazır qoysa da, Lalə evdən gedəndə Kərim darıxırdı, hərdən istəyirdi zəng edib "qayıt gəl," desin, ürəyi gəlmirdi. Bəzən ona elə gəlirdi ki, Laləni təkliyə məhkum edib. Onun: "uşaq götürək" sözünə cavab verməmişdi, amma elə gün yox idi ki, o barədə düşünməsin. Hər dəfə o fikrə düşəndə Səlim kişi gözünün önünə gəlirdi. Rəhmətlik kökünə bağlı adam idi. Ata-babasını dəli-doluluqları ilə, bütün səhvləri ilə birgə sevirdi. Əslində Kərimə görə atasının fəxr etdiyi xüsusiyyətlərdə heç də müsbət keyfiyyət yox idi, amma bu kişi dəlisov, vurub-tutan babaları ilə həmişə fəxr edirdi. Həmi-

şə deyirdi: "Yaxşı ki, Kərimin boyu ucadır, atama bənzəyir, yoxsa, onun sakitliyi məni dəli edir, nəvələrimi mən bilirəm, necə böyüdəcəm". Elə ona görə də Kərim uşaq götürmək istəmirdi. Ona elə gəlirdi ki, atasının arzuladığı kimi uşaq olmasa, kişiyə hörmətsizlik olar. Uzun müddət özlüyündə düşünüb-daşınıb sakitləşdi. Bunun başqa yolu olmadığını fikirləşib: "Əgər Lalə uşaq götürmək istəyirsə, qoy götürüb böyütsün, daha ona mane olmayacam", – deyə qərar verdi.

Bir axşam, oturub yemək yedikləri vaxt Kərim qəfildən Laləyə dedi: – Uşaq götürmək istəyirsənsə, götür. Bu seçimdə sən azadsan, mən sənin seçiminlə razılaşıram, çünki sənə inanıram.

Lalə onun gərgin sifətinə baxıb:

– Kərim, bilirsən ki, mən xəstəyəm, – dedi.

Əslində Lalə bunu Kərimə görə belə deyirdi. Kərimin nə danışdığına baxmayaraq, ürəyindən nə keçdiyini yaxşı bilirdi. Araya uzun bir sükut çökdü və bu mövzu birdəfəlik bağlandı.

Bahar gəlmişdi, hər tərəf qaynayıb-coşurdu. Evlərdə, həyətlərdə təmizlik işləri gedirdi. Hər kəs Novruz bayramına hazırlaşırdı, çərşənbələr başlamışdı. Qadınlar səməni göyərdir, yumurta boyayır, şəkərbura, paxlava bişirirdilər. Çərşənbələrdə küçələrdə hay-küy artırdı. Bir dəstə uşaq, küçə boyu qaçıb, qapıları döyüb: "ev yiyəsi evdədirmi?" – deyə bir ağızdan səslənirdilər. Açılan qapılara torbalarını atıb, geri qaçırdılar. Sonra içərisi xuruşla dolu torbanı götürəndə, qışqırıqları aləmi başına götürürdü. Əslində bay-

ram günlərində o xuruşdan hamının evində olurdu. Bayram günlərində bu adət-ənənəni davam etdirmək, təkcə uşaqlara deyil, böyüklərə də xoş gəlirdi. Analar, nənələr yenicə ayaq açıb-yeriyən, dil açıb-danışan uşağına həvəslə bəzəkli torba tikir, "qodu-qodu" mahnısının sözlərini öyrədir, onların da uşaqlara qoşulub bayram şənliyinə getməyi ilə fəxr edirdi. Sonra çırthaçırtla yanan ocaqların ətrafına toplaşır, bir-birinə qulaq falına çıxdıqları vaxt eşitdikləri sözlərdən danışırdılar. Elə bil ocaqların sönməyi bayramın başa çatdığını bildirmək üçün idi. Ocaq sönən kimi hamı evinə dağılırdı. Lalə pəncərədən bütün bunları maraqla izləyirdi. Ocağın sönməsini, mərasimin bitməsini istəmirdi. Sanki ocağın istisi, ocaqdan ətrafa yayılan o nurdan onun da evinə dolurdu. Ocağın başındakı uşaqlar evə dağılışanda onun evinə bu nurdan pay düşmürdü, evə ölü bir sükut çökürdü. Sənəm də təmizlik işləri görür, xalça-palazı çırpır, pəncərələri silirdi. Onun pəncərələri silməkdə çətinlik çəkdiyini görən Lalə: – Sənəm, əgər Arzunun dərslərinə mane olmazsa, qoy, gəlib pəncərələri silməkdə kömək etsin, vallah, əllərim qırılıb-tökülür. Yoxsa, özüm kömək edərəm, – dedi.

Ertəsi gün Sənəm gələndə özü ilə Arzunu da gətirdi. Arzu qaraşın, sağlam, idmançı görkəmi olan bir qız idi. Ətli, enli sifətində zil qara, parıltılı gözləri, xırda ağzı, burnu var idi. İlk baxışda zənciyə oxşayan bu qız Sənəmin əksinə, çox çevik, səs-küylü qız idi. Səhər gəlib, axşam qayıdan Sənəmi dindirməsən, danışmaz, sual verməsən, səsini çıxarmazdı, amma Arzu gələn kimi söhbətə başladı. Qız

elə bil maqnitofon idi. İlk dəfə gördüyü, daha doğrusu, ilk dəfə ünsiyyətdə olduğu adamların yanında ağzına gələni danışırdı. Lalə ona qulaq asmasa da, qonşuluqda yaşayan bir oğlanın onu sevdiyini, oğlanın anasının qapılarda qulluqçu olan Sənəmin qızını heç vaxt oğluna almayacağını, nəhayət, üzünü görmədiyi atası haqqında eşitdiyini danışdı. Sonra atasının əvvəlki arvaddan olan oğlanları ilə mütləq tanış olacağını deyəndə, Sənəm hirslənib: "Ay qız, bəsdir!" – dedi. Arzu söhbətini bitirib işə başladı. Doğrudan da, sağlam görkəmli qız çox qoçaq idi. Sənəmin saatlarla üstündə qurdalandığı işləri tez bir zamanda görüb başa çatdırdı. Təkcə qoçaqlığına görə deyil, nədənsə, Lalənin Arzudan xoşu gəlməyə başladı. Hərdən onun söhbətinə qulaq asırdı, qız elə bil məlumat bürosu idi. Lalə, demək olar ki, Arzunun sayəsində bütün müəllimələri, qonşuları tanıdı. Çünki qız hər gün bir xəbərlə gəlirdi. Lalədən fərqli olaraq, Kərimin Arzudan zəhləsi gedirdi. Təəccüblə deyirdi: "Sən buna necə qulaq asırsan?" Əgər Sənəmdən utanmasa, onu evindən qovardı. Arzunun buradan ayaq kəsmək fikri yox idi. Əksinə, ziyarətinin sayını artırmışdı. Gətirdiyi xəbərlər Kərimi hövsələdən çıxarırdı. Nəhayət, Kərim Laləyə tapşırdı ki, mən gələndə o qızı bu evdə görməyim.

Bir gün Kərim işdən gələndə evin ən görkəmli yerində, divarda vurulmuş foto-şəklini görüb soruşdu:

– Bu şəkli kim asıb?

Lalə də divara baxıb: – Yəqin Arzu asıb, – dedi. Kərim təəccüb etdi:

– Necə yəni, "yəqin Arzu asıb", bu nə sərbəstlikdir? – deyə soruşdu.

Lalə bu dəfə də çiynini çəkib:

– Axı nə pis iş görüb? – deyə suala sualla cavab verdi.

Kərim daha danışmaq istəmədi. Siqaret yandırıb dəhlizə çıxdı. Açıq pəncərənin qarşısında əyləşib şəkli çəkdirdiyi günləri xatırladı... Qıpqırmızı məxmərlə bəzədilmiş toy mağarı başdan-başa xalça ilə döşənmişdi. Bağça tərəfə tül asılmışdı. Zərif tülün arxasından yamyaşıl, güllü-çiçəkli bağça görünürdü. Bu mənzərə toyun şənliyinə bir rahatlıq qatırdı. Toyun ən qızğın vaxtında Kərim yuxarı qalxıb, hələ Moskvada olanda Laləyə aldığı üzüyü hədiyyə etməyə getdi. O bu üzüyü çox böyük həvəslə almışdı. Hər axşam boş vaxtında üzüyü çıxarıb baxır, hər dəfə də yeni bir təqdimetmə mərasimi düşünürdü. Hər mərasim də təkrar-təkrar gözləri önündə canlanırdı. Sonralar isə xəyalında quraşdırdığı kimi deyil, əsl üzük taxdığı günü xatırlayırdı. Lalənin incə əllərinə üzük çox yaraşmışdı. Kərim indi onun şişmiş əllərini düşünüb köksünü ötürdü. Bir siqaret də yandırıb həyətə düşdü. Təzə açılmış nərgiz gülünün ətri həyətə yayılmışdı. Havada istilik duyulurdu, bahar özünü göstərirdi. Özü ilə gətirdiyi ılıq nəfəsin içinə nələr qatmamışdı?! Sanki bir rəssam əlində fırça ətrafı al-əlvan boyayır, başqa bir sehrbaz əlində sehrli bir çubuq hər şeyə can verirdi. Soyuq qış günlərində çılpaq, boz olan ağaclar, indi yamyaşıl don geymişdi. Yaşıl otların arasından baş qaldıran danaqıran çiçəkləri yaşıllıqları bəzəkli xalçaya bənzədirdi. Baharın əlvan rəngindən başqa, sehrli musiqi-

si də var idi. Bu musiqi nəğməkar quşların səsində duyulurdu. Quşların civiltisində də şənlik vardı. Bu təravətdən, hərarətdən azacıq da olsa, Kərimin evinə girə bilirdimi? Kərim siqaretini sümürüb, kötüyünü zibil qabına atıb içəri keçdi, onun bir anlığa Laləyə yazığı gəldi, "yazıq Arzu ilə başını qatır", – deyə düşündü. Laləni Arzuya görə danladığına peşman oldu. Bir daha o işə qarışmamağı düşündü. Yenə də uşaq götürmək haqqında fikirləşdi. Axı onların hər ikisi uşaqları çox sevirdilər. Kərim hamının – qohumun da, yadın da uşağına əlindən nə gəlirdisə, kömək edirdi. Amma övladlığa uşaq götürmək gələndə, odla su arasında qalırdı. Əvvəla, Kərimə elə gəlirdi ki, öz xətrinə kiminsə uşağına pislik edəcək, onu öz doğmalarından, ata-anasından, bacı-qardaşından ayıracaq. "Bir də ki, atama, anama, kökümə bənzəməyəcəksə, yerişində, gülüşündə, davranışında özümü görməyəcəmsə, o uşağa məni nə bağlayacaq?" – deyə düşünürdü. Bilmirdi, bəlkə də, səhv edirdi. Amma düz etsə də, səhv etsə də, başqa cür düşünə bilmirdi. Daxilindən gələn hiss bu idi.

Lalənin qərarı qəti oldu. O gündən Arzunun ayağı bir də bu evə dəymədi. Hətta bir dəfə Kərim soruşdu:

– Lalə, Arzu haradadır, gözümə dəymir? Niyə görünmür?

Lalə: – Dərs oxuyur, – deyib kefsiz-kefsiz mızıldandı. Dərs oxumağına oxuyurdu, amma Lalə Kərimin ondan xoşu gəlmədiyinə görə ona çox da üz vermədi.

Arzu da yaman qız imiş, əlləşib-vuruşub ali məktəbə qəbul oldu. Müəllimlik peşəsini seçmişdi. Sənəmin sevin-

cinin həddi yox idi. Kərimlə Lalə Sənəmi təbrik etdilər. Hər ikisi ayrı-ayrılıqda muştuluq verdilər. Qəbuldan sonra Arzu tək bir dəfə onlarla görüşə gəlmişdi. Bu gəlişdən sonra Kərim onun ali məktəbə qəbul olmağına ikiqat artıq sevindi. Sanki ondan canı qurtarmışdı. "Bu qızda nə qədər daxili qüvvə var?" – deyə düşünürdü. O, gələndə sanki bir nəfər deyil, on nəfər gəlirdi. Hər işi hay-küylə idi. Arzu çıxıb gedəndən sonra Kərimə elə gəlirdi ki, evdən zurnaçılar gedib. Bəzən: "Bu qızdan niyə bu qədər zəhləm gedir?" – deyə düşünürdü, bəzən ona gülməyi də tuturdu.

Dərslər başlayanda Arzu Bakıya çıxıb getdi. Lalənin günü Dilarə ilə keçirdi, mehrini ona salmışdı. Gah Kərimgilə yığışırdılar, gah da Mahirgilə. Payızın sonunda Lalənin bacısı qızının toyu olmalı idi. Dilarə ilə dükan-bazarı gəzib, böyük həvəslə toya hazırlaşırdılar. Az qala, günləri sayırdı. Həm bacısı qızının böyüyüb ailə qurmasına sevinir, həm də toyda çoxdan görmədiyi, görüşmədiyi qohum-qonşularla görüşməyi səbirsizliklə gözləyirdi. Onların çoxunu atası evində olanda gördüyü idi.

Axır ki, gözlədiyi gün gəlib çatdı. Birlikdə Gürcüstana getdilər. Kərim məzuniyyət götürmüşdü, evlərinə baş çəkmək istəyirdi. Artıq neçə il idi ki, ayağı oralara dəymirdi. Axırıncı dəfə gələndə açarları dayısı oğlu Nadirə vermişdi. Onun evlərinə getdiyini biləndə Lalə də gəlmək istədi, amma Kərim razı olmadı: –Sənə soyuq olar, – dedi – Mən də ayaqüstü baş çəkib qayıdacam.

Laləni atasıgilə yola salıb, birbaş Nadirgilə gəldi. Nadirin dəvətini qəbul etmədi, içəri girməyib: "Sonra gələ-

rəm", – dedi. Nadir paltosunu götürüb maşına oturdu. Kərim evə getməzdən əvvəl ata-anasının məzarına baş çəkmək istədiyini bildirdi. Nadir də: "Sən necə istəyirsən, elə olsun", – dedi.

Məzarlığa qədər heç biri danışmadı. Nadir düşüb məftillə bağlanmış kiçik darvazanı açdı, sapsarı saralmış ot dizə çıxırdı. Kərim otların arası ilə irəlilədikcə düşünürdü ki, burada insanı, nədənsə, qəribə hisslər bürüyür. Elə bil daşlardan boylanan sifətlərin hamısında məzlum bir ifadə var. Birdən arxaya dönüb:

– Nadir, mənim başdaşımın üstünə şəkil vurmağa qoymazsan, bu nə yazıq sifətlərdi bunlarda? – dedi.

Nadir içini elə çəkdi ki, Kərim dönüb onun üzünə baxdı.

– Boy, Allah eləməsin, ay Kərim qağa, bu nə sözdür, danışırsan? – deyə təəccüblə onun üzünə baxdı.

Axır vaxtlar ona belə səmimi "Kərim qağa" deyən olmamışdı. Artıq neçə il idi ki, ona hamı "Kərim müəllim", – deyə müraciət edirdi. Bu "Kərim qağa" sözü ona elə doğma, elə əziz səsləndi ki, ürəyi titrədi. Bayaqdan bəri Kərimə, nə isə, müəmma dolu gözlərlə baxan, sualı dodağında donub qalan Nadirin sifətinə dərin bir kədər də çökdü. Kərim onun üzünə baxıb qoşa dayanmış daşların qarşısına keçdi. Qoşa başdaşları iki böyük söyüd ağacının kölgəsinə sığınmışdı. Sona xanım bu ağacları Səlim kişi rəhmətə gedəndə əkmişdi. Bu illər ərzində ağaclar böyümüşdü. Külək əsdikcə ağacın yerə dəyən budaqları, sanki bu daşlara sığal çəkirdi. Nadir Qurandan "Fatihə" surəsini

oxuyub, salavat çevirdi, "Allah rəhmət eləsin", – dedi. Sanki Kərim onun nə dediyini eşitmirdi. Gah atasının, gah da anasının daşdan boylanan, məzlum sifətinə baxıb susurdu. Məzarlıqdan çıxıb Kərimgilə gəldilər. Yolda bütün qohumların hal-əhvalını soruşdu. Sonra yadında qalan qonşularla, tanışlarla maraqlandı. Cibindən bir qalaq pul çıxarıb Nadirə verdi: –Mənim adımdan, qohumlarda kimi təbrik etmək lazımdırsa, təbrik edərsən, – dedi. – Yəni kimin övladı olub, kimin uşağı ali məktəbə qəbul olub, nə bilim, sən bilərsən. Çalış, heç kim yaddan çıxmasın. Nadir: "Baş üstə", – deyib, pulu götürüb cibinə qoydu. Kərimgilin evinin qabağında maşından düşdülər. Nadir irəli keçib qapını açdı. Həyət təmiz, səliqəli də olsa, hər yerdən köhnəlik yağırdı. Hasarın suvağı ordan-burdan qopub-tökülmüşdü. Yerə döşənmiş daşların arasından otlar elə baş qaldırmışdı ki, az qala, daşlar görünmürdü. Nadir saralmış otlara baxıb deyindi:

– Nə qədər təmizləyirəm, tapdalayan yoxdur, deyə, yenə çıxırlar.

Kərim pilləkənləri tələsik-tələsik yuxarı qalxdı. Sanki içəridə onu kimsə gözləyirdi. Vaxtilə onun bu evin qapısından içəri girişi toya, bayrama çevrilirdi. İndi onu burada ölü bir sükut qarşılayırdı. Evin içi səliqəli, təmiz idi. Necə var idi, elə də dururdu. Qədim, bahalı mebellər, pərdələr, qablar, hər şey öz yerində idi. Bütün otaqlardan Kərimin başqa-başqa vaxtlarda çəkdirdiyi şəkillər asılmışdı. Burada hər şey onun üçün əziz idi, çünki hər küncdən bir xoş xatirə boylanırdı. Sözün əsl mənasında, Kərimin uşaq-

lığı xoşbəxtlik içində keçmişdi. Ayrılmaq istəmirdi doğma, əziz, qayğısız günlərdən. Qulağına səslər gəlirdi – doğma, əziz səslər. Nadirin səsi Kərimi fikirdən ayırdı. Nadir Kərimin dayısı oğlu, həm də uşaqlıq dostu idi. İki-üç yaş Kərimdən böyük olsa da, uşaqlığı birgə keçmişdi. Kərim onu çox sevir, etibar edib, güvənirdi. Nadirin ali təhsili yox idi, orta məktəbi qurtaran kimi ailə qurmuşdu. Amma o qədər həyat təcrübəsi, dünyagörüşü, el-obaya, adət-ənənəyə sadiqliyi var idi ki, Kərim özünü onun yanında məsləhət ala biləcəyi bir adam kimi hiss edirdi. Nadir ətrafa göz gəzdirdikcə, evin təmirə ehtiyacı olduğunu deyir, Səlim kişinin yurdunun uçub-dağılmasını istəmədiyini söyləyirdi. O, danışanda Kərimin üzünə baxmır, gözünü onun gözündən yayındırır, bir məchula baxıb danışırdı. Kərimə baxıb, nə isə demək istəyəndə sualı dodağında donurdu. Kərim Nadiri yaxşı tanıdığı üçün onu yaxşı anlayırdı. Onun nə demək istədiyini başa düşürdü. Hətta ürəyindən keçdi ki, birdən Nadirin lal suallarına cavab versin. Hansı ki, həmin sualların cavabını özü bilmirdi. Onu da yaxşı anlayırdı, Nadir baxışlarıyla demək istəyir ki, bir uşaq götür övladlığa. Ev-eşiyini şənləndir, yurd-yuvanı işıqlandır. Amma cavab vermədi, bunu bacarmadığını söyləyə bilmədi.

Kərimlə Nadir lal söhbətlərini başa vurub, birlikdə toy evinə gəldilər. Toy gözəl keçdi. Bu iki-üç gün Kərimlə Lalə üçün çox maraqlı oldu. Qohum-qardaşdan heç ayrılıb getmək istəmirdilər. Sadəcə: "Dərdin alım, ay Kərim" sözü ona ləzzət edirdi. Müəllimsiz, sadəcə, "Kərim" sözünün

bir istisi, hərarəti var idi. Gecə yarıyadək oturub söhbət edirdilər. **İstəməsələr də,** qısa məzuniyyət vaxtı qurtarırdı, qayıtmalı idilər. Qohumlarla, doğmalarla görüşüb yola düşdülər.

Qayıdanda Kərim işinə daha həvəslə başladı. Lalə isə hər dəfə belə bir görüşdən sonra özünə gələ bilmirdi. Kərim Lalənin belə darıxdığını görəndə israrla onun işləməyini tələb edib dedi:

– Lalə, gül kimi sənətin var, həkimsən, zəhmət çəkib ali təhsil almısan. Niyə işləmək istəmirsən?

Qız çiyinlərini çəkib ona cavab vermədi. Küskün baxışlarını ondan ayırıb yan otağa keçdi. Lalə, nədənsə, işləmək istəmirdi, qızda hövsələsizlik, əsəbilik yaranmışdı. Toylu-büsatlı, bol meyvəli qızılı payızın yerini yavaş-yavaş qarlı, sazaqlı qış tuturdu. Qış özü ilə bərabər soyuq hava, çılpaqlıq, solğunluq, qaranlıq gətirmişdi. Hava axşam saat altıdan qaralırdı. Lalə bacısı ilə müalicəyə getmişdi, yəqin ki, elə bacısıgildə də qalacaqdı. Kərim soyuqladığı üçün evə tez gəlmişdi. Sənəm evdə təmizlik işləri görürdü. Kərim müəllimin belə tez qayıtmağına təəccüb etdi, adətən, Kərim gələndə yığışıb gedirdi. Kərim birbaşa otağına keçib qapını örtdü. Onun qəfil gəlişi və görkəmi Sənəmi narahat etdi. Otağının qapısını döyüb: “Kərim müəllim, sizə nə isə lazımdırmı?” – deyə sual vermək istəsə də, bacarmadı. Qapının ağzında bir az durub geri çəkildi. Nəhayət, paltarını dəyişib evinə getdi. Kərim qapının tıqqıltısından Sənəmin getdiyini bilib arxayınlaşdı. Qızdırması var idi, kürəyindən sanki daş asmışdılar, boğazı ya-

nırdı. Ayağa qalxıb, sürücüyə zəng edib dərman aldırmaq istədi. Qalxmağa taqəti olmadığından qayıdıb yerinə uzandı. Yuxuya getsə də, nə isə qarışıq yuxular görüb tez-tez ayılırdı. Qulağına gələn səsdən diksinib gözünü açdı. Qarşısında dayanan adamın sifətini aydınlaşdırmağa çalışdı. Əvvəl bir şey başa düşmədi, sonra birəbitdən quşu kimi ötən Arzunu səsindən tanıdı və tanıyan kimi hirsləndi. "Bu mənim otağımda nə gəzir?" – deyə düşündü. Arzu bir dəqiqə də olsa, dil-boğaza qoymurdu:

– Kərim müəllim, anam sizin xəstə olduğunuzu söylədi, şorba bişirib göndərib. Anam dedi, şorbanı mütləq içsin.

Kərimin, nəinki şorba yeməyə, heç cavab verməyə də halı yox idi. Əli ilə işarə edib "get", – dedi. Arzu, nəinki getmədi, irəli gəlib, əlini Kərimin alnına qoydu və dərhal cərəyan vurmuş adam kimi qışqırdı:

– Kərim müəllim, vallah, hərarətiniz qırx olar. Gedim, sizə dərman gətirim.

Cəld bir hərəkətlə qapıdan çıxdı. Kərimi yenə qızdırma qarışıq yuxu apardı, arabir gözünü açır, Arzudan canını necə qurtarmaq haqqında düşünürdü. Özünə söz verdi ki, ona bura gəlməyi qəti qadağan edəcək. Heç on beş dəqiqə keçməmiş, Arzu yenidən peyda oldu, əlində dərman və fincan vardı. Kərim nə zaman qalxıb dərmanı içdiyini özü də bilmədi. Dərmanı içib yatağına uzandı. Qız mətbəxə keçib moruqdan, zoğaldan, nə isə, bir mürəbbə axtardı. Bilirdi ki, Lalə mürəbbə sevəndir, yaxşı mürəbbə bişirir, axtarıb tapdı. Çaydanı pilətənin üzərinə qoyub qazı yandır-

dı. Qaynayan kimi çay dəmlədi. Böyük bir fincan götürüb çay süzdü, iki qaşıq mürəbbə töküb qarışdırdı. Yenidən otağa qayıdıb:

– Kərim müəllim, xahiş edirəm, qalxın, için, hərarətdən yanırsınız, – dedi. Kərim fincanı alıb, yarıyadək içib fincanı qaytardı. Çox keçmədi ki, tərləməyə başladı. Tərlədikcə ürəyi sıxılırdı. Paltarını dəyişmək istəyirdi, əsəbiləşirdi. Arzu onun tərlədiyini görüb, yan otağa keçib dəyişmək üçün paltar və dəsmal gətirdi. "Alın, paltarınızı dəyişin", – deyib mətbəxə keçdi. Bir qədərdən sonra əlində başqa bir fincan geri qayıtdı. Bu, şorba idi. Kərimə uzadıb israrla içməsini istəyirdi. Kərim fincanı Arzudan alıb bir qurtum içib fincanı geri qaytardı. Əsəbi halda təşəkkür edib, getməsini xahiş etdi. "Yatmaq istəyirəm", – dedi. Ertəsi gün Kərim yuxudan gec oyandı. Qızdırma onu taqətdən salmışdı. Arzunun axşamdan masanın üstünə qoyduğu dərmanlardan içdi. Sonra Laləyə zəng etdi, amma xəstə olduğunu, işə gedə bilmədiyini deyə bilmədi. Lalənin səhhətini soruşub dəstəyi asdı. Bu gün dünənkindən yaxşı olsa da, başı bərk ağrıyırdı. Mahir gəldi, özü ilə həkim gətirmişdi. Həkim müayinə edib, möhkəm soyuqladığını söylədi. İynə-dərman yazıb, hələlik, yataqdan durmamağı tövsiyə etdi. Onsuz da, Kərimin yataqdan qalxmağa halı yox idi. Ayağa durmaq istəyəndə ürəyi bulanır, başı fırlanırdı. Mahir iynə vurmağa tibb bacısı göndərdi, Sənəm də gəldi. Kərimin axşamdan bəri dəyişdiyi paltarları maşına tökdü. Otaqları səliqəyə salandan sonra ondan: "Bir şeyə ehtiyacınız varmı?" – deyə soruşmaq istəyirdi ki, Kərim

özünü birtəhər toplayıb, – Arzu zəhmət çəkib gəlməsin, – dedi. – Özümü yaxşı hiss edirəm, heç kimə ehtiyacım yoxdur. Az qaldı ki, desin: "Arzudan zəhləm gedir", amma demədi. Sənəm bir az da ora-bura baş çəkib getdi. O, qapıdan çıxan kimi divana uzanıb televizoru açdı, deyəsən, bir az özünə gəlmişdi. Ancaq başının hərləndyini görüb yenidən yatağa uzandı.

Bir həftə yataqdan qalxa bilmədi. Arzu bu bir həftə ərzində hər gün gəldi. Hər dəfə Kərim ona da, Sənəmə də, tapşırırdı ki, Arzu gəlməsin. Lakin bu tapşırığın heç bir mənası yox idi. Gəlirdi, nə gəlirdi, içəri girər-girməz, hay-küyü aləmi bürüyürdü. Kərim düşünürdü ki, bu qızı hər kim alsa, bədbəxtdir. İnsan nə qədər danışar? Sənəmlə nə qədər fərqli idilər. Adicə qapının çırpılmasından bilirdi ki, gələn Arzudur, ya Sənəm. Pilləkənləri danışa-danışa qalxırdı. Kərim çox vaxt ona qulaq asmırdı. Bəzən də söhbətlərinə gülməyi tuturdu, mənasız, məntiqsiz. Bəzən də Kərim Arzuya baxıb düşünürdü: "Bu qız oğlan doğulmalı idi, qaraşın, idmançıya oxşar bədənli, sağlam, qoçaq bir oğlan olardı". Bu oğlana oxşar qızdan canını qurtarmağa çalışan Kərim ona:

– Şəhərə nə vaxt gedirsən? – deyə soruşdu. – İki-üç günə qış tətili sona yetməlidir.

Bu bir həftə ərzində ilk sual idi ki, Kərim Arzuya verirdi. Ona qulaq asmaq fikri yox idi, ona görə də bir-iki cümlədən sonra qapını örtüb otağına keçdi. Yenə də qıza gülməyi tutdu: "Bu qız doğrudan da, başa bəladır", – deyə düşündü. Ertəsi gün Laləyə zəng edib, qayıtmasını xahiş

edib: – Darıxmışam, – dedi. – Müalicəni burada davam etdirərsən, – deyə xahiş etdi.

Lalə bir həftədən sonra gələcəyini söylədi. Artıq Kərim iki gün idi işə gedirdi, hələ də dərman qəbul edirdi, tam sağalmamışdı. Evə gələndə darıxdı. Ona birdən-birə elə gəldi ki, Arzunun gəlməyini istəyir, xəstə olduğu müddətdə Arzu hər gün gəlir, başını ağrıdırdı. Onun Arzuya heç bir ehtiyacı yox idi. Hər gün tibb bacısı gəlirdi, iynə vururdu, dərmanlarını vaxtılı-vaxtında qəbul edirdi. Yemək də yeyə bilmirdi, göndərilən yeməkləri soyuducuya doldururdu. Qalan işləri də Sənəm görürdü. Əslində o heç Sənəmin də gəlməyini istəmirdi. Çünki o evdə olanda özünü narahat hiss edirdi. Arzu gələndə isə lap hirslənirdi, "görəsən, anası niyə bu qıza demir ki, hara gedirsən, niyə gedirsən?" – deyə düşünürdü. Amma dərslər başladığı üçün onun daha burada peyda olmayacağından əmin idi. Qalxıb kitab rəfinə yaxınlaşmaq istəyirdi, qapı səsi eşidib təəccüb etdi: "Bu kim ola bilər?" – deyə düşünməyə macal tapmamış qapının ağzında dayanmış Arzunu görüb mat qaldı. – Sən getməmisən? – deyə soruşdu. Arzu xəstə olduğunu, ona görə gedə bilmədiyini söylədi. Amma Kərim onu görəndə hirsləndiyini hiss edib dedi:

– Yağış yağır, anam göndərib ki, zivədəki paltarları yığım.

Həyətə keçib paltarı yığdı. Sonra gətirib arxadakı otağa qoydu. Getməzdən əvvəl yenə boş-boş danışmağa başladı:

– Kərim müəllim, mənim heç getməyə həvəsim yoxdur.

Kərim qeyri-ixtiyari sual verdi:

– Niyə?

Kərimin sual verməyi Arzunu lap həvəsləndirdi. Əl-qolunu ölçə-ölçə söhbətə başladı:

– Kərim müəllim, ona görə ki, qızlar məni sevmir. Mənə lağ edib, söz atırlar. Mən də acıqla onlara deyirəm ki, mən ən gözəl oğlana ərə gedəcəm. Heç bilirsiniz, mənə nə dedilər? Dedilər ki, sən kobud qabana oxşayırsan. Səni alan olsa, Allahına şükür edərsən. Kərimi dəli bir gülmək tutdu, gözündən yaş gələnə qədər güldü. Az qaldı desin: "düz deyirlər". Gülməyini zorla dayandırıb:

– Yalan deyirlər, Arzu, nə olub sənə? – dedi və gülməyini zorla saxladı. Arzu gedəndən sonra Kərim qəti qərara gəldi ki, bu qızın başı xarabdır. Yazıq Sənəmi qınayıram, bunu niyə başa salmır. Buna nə başa salmaq olar? Ertəsi gün Kərim işə gedəndə eşitdi ki, Sənəmin oğulluğu gəlib, onları evdən qovmaq istəyirmiş. Arzu bu səbəbdən dərsə getməyib, yəni anasını bu qalmaqalda tək qoymaq istəməyib. Həm də Arzu illərdən bəri qardaşları ilə görüşmək həsrəti ilə alışıb-yanırdı axı. Sənəm arvadın dediklərindən belə çıxırdı ki, Arzunun atası Sarı kişi sərt xasiyyətli, dəliqanlı bir adam imiş. Ancaq onun institutda oxuyanda, sevib-evləndiyi Əsli ilə bir dəfə də olsun, dava-dalaş etdiyini nə görən olmuşdu, nə də eşidən. Hər şey onların oğlu Oqtay hərbi xidmətə gedəndən sonra başlayıb. Oqtay hərbi xidmətini Pribaltikada çəkməli olur. Hərbi hissə Estoniyanın Kivili şəhərində yerləşirmiş. Əslində, gözəl təbiəti, ucu-bucağı olmayan meşələri, coşqun çayları, təmiz

havası, suyu olan bu məkana gəlib çatan gündən Oqtay məktub yazmağa başlayıb ki, məni buradan qurtarın, dözə bilmirəm, buranın yeməklərini yeyə bilmirəm, acından ölürəm. Hər məktubdan sonra Əsli bir saat ağlayırmış ki, Sarı, qurban olum, uşağımı qurtar. Amma Sarı bu sözlərdən az qalırmış dəli olsun; söyüb-söylənirmiş ki, bu nə oğuldur, Allah mənə verib? Müharibə yox , ölüm yox. Bu əmin-amanlıqda, vətən qarşısında ikiillik borcunu verə bilmir. Müharibə başlasa, vətəni kim qoruyacaq, kişi deyilmi bu?

Bu sözlərin heç biri Əslini maraqlandırmayıb, elə hey gözünün yaşını tökürmüş ki, vətənin dərdi mənim uşağımamı qalıb? "Gör, nə edirsən, necə edirsən, uşağımı bu bəladan qurtar". Bir gün də evdə bir müharibə qopur ki, gəl, görəsən. Sən demə, Oqtay məktub yazıb ki, ay ana, ürəyim yarpaq dolması istəyir. Məktubu oxuyan Sarı kişi bar-bar bağırırmış: "Vallah, billah, bu kişi-zad deyil. Hamilə arvad kimi yarpaq dolması gəzir. Kişi olan kəs də əlinə qələm alıb oradan-buraya yazarmı heç, filan yeməyi istəyirəm? Atalar deyib: "boğaz boydan aşağıdır". O gündən Sarı kişi deyib: "Mənim Oqtay adlı oğlum yoxdur. Mən belə adamla maraqlanmıram, onun məktubunu mənə oxumayın".

Sarının böyük oğlu Saday Moskvada Lomonosov adına Universitetdə oxuyurdu. Artıq ikinci kursda idi. Bir dəfə də olsun, belə şeylər yazmamışdı. Elə ona görə də Sarı kişi Sadayla fəxr edirdi. Hara getsə, Saddaydan danışır, Oqtayın adını belə çəkmirdi. Əsli əlinə keçən pulu Sarıdan

gizli Oqtaya göndərirdi. Bir il keçir, Sarı sakitlik olduğunu görüb, sakitləşir, oğlunun çətinliyə alışdığını düşünür. Yavaş-yavaş qəlbi onunla barışmaq istəyir, hətta arada özünü qınayır. Amma təsadüfən əlinə keçən məktubdan sonra kişinin tüstüsü başından çıxır. Sarı işdən gələndə küçədə poçtalyonla rastlaşır, o da Oqtayın məktubunu Sarıya verir. Sarı əvvəl məktubu bir kənara qoyur, sonra ürəyi durmayıb məktubu açır. Zərfi açan kimi, yenə evdə qiyamət qopur. Şəkildə Oqtay sarışın, hamilə bir qızla qol-qola dayanıb gülümsəyirmiş. Üstəlik, məktubda Oqtay anasına yalvar-yaxar edirmiş ki, atamdan icazə al, mən gələndə Veranikanı da gətirim.

Sarı kişi birdəfəlik qərar verir ki, Oqtayın ayağı onun evinin kandarına dəyə bilməz. And içir ki, Oqtayı görsəm, güllə ilə vuracam. Bundan sonra Sarı ilə Əsli danışmırlar. Əsli ağzını açmağın xeyri olmadığını görüb susur. Əslində bu xəbər heç onun da ürəyindən deyildi. Onun da yadına düşəndə qanı qaralırdı. Amma ana ürəyidir, Oqtay yadına düşəndə burnunun ucu göynəyirdi. Beləcə, Oqtay hərbi xidməti başa vurur, amma Azərbaycana qayıda bilmir, qalır Estoniyada. Sarı əlini Oqtaydan üzüb, Sadayı gözləyir. Nəhayət, Saday tətilə çıxıb evə gəlir. Atasının Oqtay haqqında danışdıqlarından anlayır ki, atasını heç vaxt, heç kim fikrindən daşındıra bilməz. Moskvaya qayıdan kimi məktub yazıb-bildirir ki, mənə burada yaxşı iş təklif edirlər, ona görə mən qalıb burada işləyirəm. Halbuki Sadayın məqsədi sevdiyi qızla evlənmək idi. Bu xəbər də Sarıya çatır. Bu xəbərdən kişi doğrudan, az qalır, ölsün, təcili yar-

dım çağırırlar, Sarı ölmür, qalır, amma ondan ötəri oğlanlarının ikisi də, Əsli də ölür. Sarı, nədənsə, oğlanlarının belə bədəsil olmağında günahkar Əslini sayırmış: "Mənim oğlanlarımda torpağa bağlılıq, vətən sevgisi yoxdur. Heç biri el adəti ilə evlənmədi, ata-anasından xeyir-dua almadı, telli-duvaqlı gəlin gətirmədi. Bütün bunların günahı Əslidədir", – deyirdi. "Bizim nəslimizdə belə dardüşüncəli adam yoxdur, Əsliyə çəkiblər". Əsli də, öz növbəsində, gül kimi övladlar böyüdüb, tək-tənha qalmasında günahı Sarıda görür, get-gedə kişiyə nifrət edirmiş. Oğlanları hər kimi alsalar, Əsliyə qəbul idi. Təki, oğlanlarının, nəvələrinin üzünü görə biləydi. Qohumlarını yığıb illərdən bəri həvəslə tikib-qurduğu evdə toy-büsat quraydı; "təkcə mənim oğlum ha, deyil, evlənib başqa eldən qız gətirən. Hamı uşağının seçiminə hörmət edir, uşağını toy-büsatla qarşılayır", – deyirdi. Beləliklə, bu neçə ildə bir dəfə olsun, bir-birindən küsməyən Əsli ilə Sarı küsülü qalır. Və bir sabah Əslini yatağında ölü tapırlar. Sarı qoymadı ki, oğlanlarına xəbər versinlər. Söyüş qoydu, and içdi, "kim gəlsə, onu buradan qovacam", – dedi. "Qan-xatamı, gəzirsiniz?" Heç kim də risk edib Sarının oğlanlarına anasının öldüyünü xəbər vermədi.

Günlər ötdükcə Sarı Əslinin ölümünə yanıb-tökülməyə başlayır. Onun ölümündə tək oğlanlarını deyil, özünü də günahkar sayır. Yemir-içmir, gecələr səhərəcən yata bilmirdi. Gündüzlər günü Əslinin məzarının yanında keçirdi. Əsli ilə danışır, özünün də günahkar olduğunu deyirdi. Sanki bununla Əslinin könlünü alırdı. Sarı bacardıqca

qohum-qonşudan uzaq olmağa çalışırdı. Ona elə gəlirdi ki, hamı onu Əslinin ölümündə günahkar sayır. Günbə-gün arıqlayıb zəifləyirdi. Onun bu halına bacıları narahat olub, onu ovundurmağa çalışırlar. Heç nəyin xeyri olma-dığını görüb Sarını evləndirmək qərarına gəlirlər. Sarı daş atır, başını altına tutur ki, nə evlənmək, o barədə heç söh-bət ola bilməz. Nəhayət, böyük bacısının qızı qulluqçu Sə-nəmin yetim olduğunu, çöldə qaldığını, sığınmağa bir yer axtardığını bəhanə edib Sarı kişidən Sənəmi almağa razı-lıq alır. Sənəm də, doğrudan da, cəhənnəmdən cənnətə düşür. Sarının başına dolanır, qulluğunda durur, əlindən gələni edir. Ancaq Sarıdan bir xoş üz görmədiyi üçün özü-nü bu evin xanımı kimi hiss edə bilmir. Elə bil evin qul-luqçusu idi. Hər işini görüb qurtarandan sonra da boş otu-ra bilmir. Ona elə gəlirdi ki, indicə kimsə deyəcək: "Niyə oturmusan?" Sarı onun üzünə xoş baxmasa da, artıq-əskik bir söz də demir. Sənəm yeni-yeni sərbəstliyə öyrəşir. Ha-milə olduğunu bilib, sevinməyə macal tapmamış, Sarının halı pisləşir. "Yetimdə bəxt nə gəzir?!" – deyirlər. Sənəm Sarının bu hala düşdüyünü görüb gecə-gündüz ağlayır. Özünü çox xoşbəxt saydığı bu evdən Sarının ölümündən sonra çölə atılacağını gözləyir, üstəlik də, qarnında körpə-si. Sarı iynə-dərmandan sonra azacıq özünə gəlib sakitlə-şəndə Sənəm ona hamilə olduğunu söyləyir. Sənəm sonra-lar o barədə fikirləşəndə anlaya bilmirdi, Sarı o sözü eşit-dimi, əhəmiyyət vermədi, yoxsa, o söz ondan ötəri məna kəsb etmirdimi? Sarının ölümündən sonra Sənəm günlərlə yata bilmir. Hər gün gözləyirdi ki, gəlib onu çölə atacaq-

lar. Gələnə-gedənə, qohuma-qonşuya, hər kəsə hamilə olduğunu söyləyirdi. Sənəmə əhəmiyyət verən yox idi. Sarının üçü, yeddisi, qırx mərasimi verilib qurtarır. Bu yas mərasimində Sənəmin bu evdə bir balaca uşaq qədər dəyəri yox imiş. Nə ondan bir söz soruşan, nə də ona nə haqqındasa, məlumat verən olmur. Bu məsələlərlə qohumlar özləri məşğul olur. Başdaşını da qoyub, hər kəs evinə dağılır. Sənəm bir müddət yasdan qalan ərzaqla dolanır. Sarının bacıları, bacısı qızları Sənəmə çatdırırlar ki, evin sahibləri, qoşa-qoşa oğlanları var. Nə vaxt gəlsələr, Sənəm başına çarə qılsın. Sənəm də müti vəziyyətdə: "Əlbəttə, gedərəm", – deyir. Belə deməkdən başqa əlacı olmur. Çünki Sarı ilə heç hökumət kəbini də yox idi. Kişi son günlərində deyirmiş "kəbin kəsdirəcəm", amma necə deyərlər, əcəldən macal olmur. Hər dəfə bu barədə söz düşəndə Sənəmin ürəyi ayağının altına düşürdü. Günlər ötüb-keçir, səksəkə içində olsa da, Sarının evində yaşayır. Sənəmin qızı dünyaya gəlir. Qızını böyütmək üçün evlərdə işləməyə məcbur olur. Birtəhər qızını böyüdür.

Bu on səkkiz ildə nə gələn olmuşdu, nə də gedən. Cəmi bir neçə dəfə məktub gəlmişdi. Məktub hədələyici bir tərzdə yazılmışdı. Oqtay yazmışdı. Evlərini tərk etməyi tələb edirdi. Sənəm oturub Oqtaya uzun bir məktub yazmışdı. Yalvar-yaxar edib and içmişdi ki, mənim sizin ev-eşikdə işim yoxdur, nə vaxt gəlsəniz, evinizi tərk edəcəm. Uzun müddət yenə sakitlik çökür. Sadaydan, ümumiyyətlə səs-soraq yox idi. Sənəm bu müddət ərzində qohumlara ayaq açdı. Toylarında, yaslarında qab-qaşıq yudu, qulluq etdi.

Arzunu qohumlarına qohum kimi tanıtmağa çalışdı. Amma nə qədər cəhd etsə də, bir şeyə nail ola bilmədi. Heç kim onları qohum kimi qəbul etmədi. Arzuya da bir qanı qaynayan olmadı. Hamı onlara bir qulluqçu kimi baxırdı. Sənəm hamıdan əlini üzüb özünə güvənməyə çalışdı, əvvəl məktəbdə xadimə işlədi. Arzu anasından gizli qardaşlarına məktub yazırdı. Dünyanın xoş sözlərini yağdırırdı. Sadaydan heç bir cavab almasa da, Oqtaydan bir-iki dəfə soyuq, kinayəli, hədələyici cavablar almışdı. O, qardaşlarını gizli, ülvi bir məhəbbətlə sevirdi. Hər dəfə onların gəlişini bir cür canlandırıb, özü üçün xəyal qururdu. Məktəbdə qardaşlarını tanıyırmış kimi danışır, özündən nələrsə, uydururdu. Çoxları onun danışdığını üzünə vurmasa da, Arzu bu sevimli yalanlarından əl çəkmirdi.

Bir neçə gün bundan əvvəl Oqtay qəflətən gəlib. Onu nə Arzu, nə də, Sənəm tanımayıb. Düzdür, evdə Oqtayın şəkilləri var idi. Oqtayda şəkildəki adamdan əsər-əlamət yox idi. Hündur boylu, arıq bədənli adamın yerində kök bədənli, yekəqarın, lopa bığlı bir nəfər dayanmışdı. Bu qaraqabaq adamı Arzu gözündən tanıdı. Tanıyan kimi də quş kimi qanadlanıb Oqtayın boğazına sarıldı. Elə fəryadla "Oqtay" deyib, bağırdı ki, Oqtayın tükləri biz-biz durdu. Boğazına sarılmış qızı qeyri-ixtiyari qucaqladı. Oqtay bütün yolboyu düşünürmüş: "Heç nəyə baxmadan bu iki qadını çölə atacam. Niyə atmayım? Atamla kəbini yoxdur, o qızın bacım olduğuna inanmıram. Atam qoca, xəstə adam idi, ona qulluq etmək üçün gələn bu qadına anamın illərdən bəri qurub-bəzədiyi evi niyə verməliyəm?" Mək-

tublarda qızı fırıldaqçıya bənzədirdi. İndi gözü qarşısında tam səmimi, dəlisov, çılğın, haradasa, atasına bənzəyən bir qız dayanmışdı. Bu qız nə isə sehrli bir qüvvə ilə onu özünə çəkirdi. Oqtay yolboyu fikirləşdiyi heç bir hərəkəti etmədi, heç bir sözü danışmadı. Arzu ilə Sənəm əl-ayaq açıb, yemək hazırladılar, samovar qaynatdılar. Oturub doğma ailə üzvləri kimi yeyib-içdilər. Oqtay otaqları gəzdi. Özünə nifrət edirdi ki, "atamın etimadını doğrultmadım. Onlara bəd övlad oldum", – deyə düşünüb, kövrəldi. Arzu Oqtayı tam əmin etdi ki, bu evdə bizim gözümüz yoxdur, ev onundur, mənə də icazə versən, qalaram, verməsən, günü sabahdan anamı götürüb bir kirayə evə çıxaram. Oqtay "nə qalın, nə də gedin" demədi. Əslində bu mehribanlıq, bu şirinlik ona xoş gəlirdi. Qohum-qonşu Oqtayın gəlişindən tam başqa şeylər gözləyirdi, bəzi qonşular Sənəmi görəndə: "Yazıq Əsli dişi ilə, dırnağı ilə ev qurdu. Gör, kim sahib çıxdı?!" – deyirdilər. Hətta onu görən kimi, "kim tikə, kim otura", – deyib söz atanlar da olurdu. Hər dəfə qınaq eşidən Sənəm: "vallah, heç nəyə sahiblənməmişəm, nəyi var, evindədir. Uşaqları nə vaxt gəlsə, mən çıxıb gedəcəm", – deyirdi. İndi bu sakitliyə mat qalanlar çox idi. İndiyə qədər bu evin kandarından ayağını içəri basmayan qohumların hamısı Oqtayla görüşməyə gəldilər. Arzunun sevincinin həddi yox idi. Oqtayın yanında özünü güvəndə hiss edir, qohumların arasında özünü xoşbəxt sayırdı. Nəhayət, Oqtay yığışıb getdi. Arzu ilə doğma bacı-qardaş kimi qucaqlaşıb ayrıldı.

Bütün bunları Kərimə qarovulçu Həsən danışdı. Kərimin Arzuya yazığı gəldi, axı özü də tək idi. "Təklik pis şeydir, yaxşı ki, Lalə bacı-qardaşının məhəbbəti əhatəsindədir", – deyə düşündü. Kərim bir şeyə təəccüb edirdi: "Arzu görəsən, qardaşından niyə söz açmamışdı? Bu qədər yalan uydurmaqdansa, qardaşı gəldiyini söyləsə, daha düzgün olmazdımı?"

Sentyabr girər-girməz yağışlar başladı. Payız, elə bil harasa getməyə tələsdiyi üçün bütün missiyalarını yerinə yetirməyə çalışırdı. Ağacların yarpaqlarını sürətlə yolub yerə tökür, ətrafa bir sönüklük çökdürürdü. Quşlar payızın belə tez gəldiyini görüb isti ölkələrə köçlərini tezləşdirmişdilər. Payızda üzümyığma mərasimi başlayırdı. Bütün məktəblər, idarə və müəssisələr üzüm yığımına cəlb olunurdu. Bu, maraqlı bir mövsüm sayılırdı. Üzüm yığımına getmək hər bir kollektivi bir-birini daha yaxından tanımağa kömək edirdi. Bəzən bu mövsümdə elə bir maraqlı hadisələr baş verirdi ki, gələn mövsümə qədər danışılırdı. Builki üzüm yığımı mövsümü isə əsl işgəncə idi, hamı palçığa batır, mövsümün bitəcəyini gözləyirdi. Kərim payızı çox sevsə də, builki payızdan o da bezmişdi. Çünki payızda meşəyə getməyi çox sevirdi. Yaşıl donunu soyunub, qırmızı-qızılı dona bürünmüş meşəni seyr etməkdən doymurdu. Yağışdan göz açıb meşəyə gedə bilmədi, amma təsadüf nəticəsində üstü açılan bir oğurluq hadisəsi onun işini çətinləşdirdi. Xırda oğurluq üstündə həbs edilən bir nəfər məhkəmədə böyük bir dəstəni ifşa etdi. Və bu xəmir çox su apardı, bir-biri ilə əlaqəli olan dəstələrin biri

Şəmkirdə yerləşirdi, biri Gəncədə, hətta Gürcüstanda da dəstə üzvləri var idi. Bu oğurluq hadisələri başqa qətl və cinayət hadisələrinin də üstünü açdı.

Bir qonşunun toyunda köhnə rəfiqəsi ilə rəqs edən bir qadın, rəfiqəsinin qulağında neçə il bundan əvvəl evindən oğurlanmış sırğalarını görür. Toydan sonra rəfiqəsinin evinə gedib sırğanın onun oğurlanmış sırğası olduğunu deyir. Qadın tərəddüd etmədən sırğanı aldığı adamın adını, ünvanını deyir. Ertəsi gün həmin alverçidən şikayət edib, sırğanın oğurluq mal olduğunu bildirir və beləliklə, uzun bir mərhələdən ibarət məhkəmə işi başlayır. Kərim çalışırdı ki, məsuliyyətə alınan bu adamların içindən təsadüfən bu dəstənin içinə düşənləri seçsin. Həyata təzə atılıb, atılan kimi də düz yolu qoyub, əyri yolla uçurumun kənarına yığılanlar, uçuruma düşüb, ömürlük şikəst olmasın. Çalışırdı, bu böyük dəstənin içərisində anadan quldur doğulanlar bu gün də olmasa, sabah cinayət törədəcək olanlar özləri ilə sürüyüb məsumları da çirkaba aparmasınlar. Odur ki, düzü əyridən seçmək üçün günləri ağır keçirdi, evə yorğun gəlirdi.

Kərim bu səhər yuxudan erkən çalınmış zəng səsinə oyandı, saat səkkizin yarısı idi. Bu vaxtlar Kərimin yuxudan oyanmaq vaxtı olsa da, qəfil zəngdən hər ikisi narahat oldu. Kərim dəstəyi əlinə alan kimi xalası oğlu Tariyeli səsindən tanıdı. Tariyel, əvvəlcə, çox sakit tərzdə hal-əhval tutub, sonra anasının rəhmətə getdiyini deyib dəstəyi asdı. Kərim çox pis oldu. O, axır vaxtlar xalasını tez-tez xatırlayır, mütləq gedib onunla görüşəcəyini düşünürdü.

Artıq gec idi. Xalasıgil Naxçıvanda yaşayırdı. Anasına oxşayan xalasını gözünün önünə gətirib, babasının sözlərinə haqq qazandırırdı. O vaxtlar xalası Zəhranı öz dostunun oğluna vermiş olan kişi ömrü boyu deyinirdi ki, Mustafanın sözündən çıxa bilmədim, qızımı uzağa ərə verdim, əlim çatmır, ünüm yetmir. Kərim özlüyündə: "Uzaqlıq çox pis şeydir", – deyə düşündü. Amma uzaqlığı bəhanə etsə də, işinin çox olduğunu düşünsə də, özünü bağışlaya bilmirdi, "heç olmasa, zəng edib, hal-əhval tutmadım", – deyirdi öz-özünə. Azı iki ilə yaxın idi xalasını görmürdü. Düzdür, xalası söhbətcil adam deyildi, amma nə olsun, bir-iki kəlmə danışmağa nə söhbətcillik?! Kərim fikirləşdikcə əsəbiləşirdi, anasının ruhu qarşısında özünü günahkar sayırdı.

Lalə məyus olmuş Kərimə: – Allah xalana rəhmət etsin, – dedi. Sonra o da getmək istədiyini bildirdi. Kərim razı olmadı: – Təyyarəyə minə bilməzsən, – deyib, çarpayıdan durdu.

İş yerini məlumatlandırıb, köməkçisinə tapşırıqlarını verdi. Paltarını geyinib evdən çıxdı. Gəncəyə gəlib, oradan Naxçıvana uçdu. Yolboyu xalasıgildə keçirdiyi uşaqlığını xatırlayırdı. Həyətdəki böyük tut ağacından asılmış yelləncəkdə yelləndiklərini, xalası uşaqlarıyla başlarını su quyusuna salıb qışqırdıqlarını, bir ağacdan düşüb, o birisinə çıxmaqlarını gözünün önünə gətirib, qayğısız uşaqlıq illərini xatırlayırdı.

Tariyel çox nadinc uşaq idi, bir yerdə dayanmaq bilmirdi. Kərim nə qədər sakit təbiətli olsa da, xalasıgilə gə-

ləndə Tariyelə qoşulmağı sevirdi. Onda elə bil sehr var idi, nə iş görsə, hamını ora cəlb edə bilirdi. Xalasıgilin ailəsi kasıb ailə sayılırdı. Xalasının əri Məsim kişi çox zəhmətkeş adam idi. İşdən gələndə də dinc dayanmır, hava qaralanadək həyətdə işləyir, heyvanlara qulluq edir, əkib-becərirdi. İki gözdən ibarət kiçik evlərinin həyətində iki qoşa tut ağacı vardı. Tutun altında oturmaq üçün adi kötüklər qoyulmuşdu, taxtadan stol düzəldib ayaqlarını yerə basdırmışdılar. Bu sadə stolun üstünə xalası nə qoysa, Kərim iştahla yeyərdi. Tariyel, demək olar, tək uşaq idi, tək gəzir, tək oynayırdı. Çünki kiçik bacısı Nazlı ondan on bir yaş kiçik idi. Tariyel hər nə qədər nadinc də olsa, Nazlını çox sevir, əzizləyirdi. Onunla uşaq kimi davranırdı. Nazlı böyüyəndə də Tariyel üçün uşaq olaraq qaldı.

Xalasıgilə gəlib çatanda artıq gün-günortadan keçmişdi, Kərim indi həmin o xatırladığı həyətdə oturmuşdu. Amma o həyəti xatırladan heç nə yox idi. İki gözdən ibarət sadə, kiçik, demək olar ki, daxmanın yerində müasir dəbdə tikilmiş ikimərtəbəli, açıq eyvanlı, üstü qırmızı kirəmitli evin həyətinə qırmızı daş döşənmişdi. Pilləkənin yanında üstü mərmərli, böyük güzgülü su kranı çəkilmişdi. Tut ağaclarının yerində çardaq qurulmuşdu. Çardağın altına ağ plastik stol və stullar düzülmüşdü. Həyətin iki-üç yerində mərmər dibçəklərdə güllər əkilmişdi. Kərim Tariyelin bu cah-calalına nə qədər sevinsə də, burada ona doğma olan heç bir şey yox idi. Bayaqdan həyətdə olan Kərimi görən Nazlı özünü onun üstünə atdı. Bərk-bərk qucaqladı, hər ikisi kövrəlib, ağladılar.

Kərim dəfnə çata bilməmişdi. İki saat bundan əvvəl dəfn mərasimi başa çatmışdı. Tariyelin dediyinə görə, dəfndə çox adam iştirak etmişdi. Tariyel Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində şöbə müdiri idi, yaxşı hörməti vardı. Həyat yoldaşı Kəmalə müəllimə də, özü də böyük bir kollektivdə çalışırdılar. Bu gün iki böyük kollektiv onlara başsağlığı verməyə gəlmişdi. İndi mərasim başa çatmışdı, təkcə qohum-qonşular qalmışdı. Kərim Tariyelin uşaqlarını balaca vaxtı görmüşdü. Oğlanlarının iki-üç yaşı olanda, qızın isə heç varlığından xəbəri yox idi. Oğlanlar ədəb-ərkanla gəlib Kərimlə görüşdülər. Qızı Kərim özü çağırıb görüşdü. Ən şirin, ən maraqlı, sarışın uşaq Nazlının qızı Ləman idi. Tariyelin təkcə saçları ağarmışdı, həmişəki şən, zarafatcıl, şirin söhbətli, bir yerdə dayana bilməyən Tariyel idi. Gecənin yarısınadək oturdular, heç biri yatmaq istəmirdi. Kərim bütün tanıdığı qohum-qonşunu soruşdu. Tanıdığı adamların çoxu rəhmətə getmişdi. Nəhayət, yorulub onun üçün ayrılan otağa yatmağa getdi. Ertəsi gün lap tezdən oyanıb Gəncəyə yola düşdü. İşlərinin çox olduğunu, bir də qırx mərasimində gələcəyini söylədi. Kərim dünənki yas mərasimini xatırladıqca, sanki yasdan deyil, insanda ülvi hissləri oyadan bir yerdən gəlirdi. Düşünürdü ki, gərəkdirmi, qohumlarla belə şərtlər altında görüşəsən? Olmazmı, vaxtılı-vaxtında əzizlərinlə ünsiyyət saxlayasan. Ən azından, yaxın qohumlarla?!

Kərimin Gürcüstanda bir əmisi qalmışdı. Düzdür, ora gedəndə onunla görüşürdü. İndi qərara gəldi ki, mütləq

gedib əmisi ilə görüşsün, bir gün xalası kimi o da köçüb gedəcək.

Xalasının qırx mərasimi bir göz qırpımında gəlib çatdı. Tariyelin xalasının ölümünü xəbər verdiyi elə bil dünən idi. Lalənin getmək istəyini bu dəfə də Kərim qəbul etmədi. Doğrudan da, bu günlər işi çox idi. Mərasim günü özünü zorla çatdırdı. Bu mərasimi də başa çatdırıb qonaqları yola saldılar. Kərim hələ gündüzdən Tariyelin nə isə, narahat olduğunu hiss edirdi. O, sözlü adama oxşayırdı, elə bil özü burada oturmuşdu, fikri başqa yerdə idi. Nəhayət, hamı yatmağa getdi. Kərimlə Tariyel tək qaldılar. Tariyel kiminsə eşidəcəyindən ehtiyat edirmiş kimi, ətrafa göz gəzdirib təbiətinə, çılğınlığına uyğun olmayan bir tərzdə, demək olar ki, Kərimin üzünə baxmadan sözə başladı:

– Kərim, xalaoğlu, sənə qurban olum, incimə, sən gedəndən qırx gündə bu söhbəti səninlə qırx dəfə etmişəmsə, azdır. Kərim narahat olub soruşdu:

– Nə olub, Tariyel, hansı söhbəti?

Tariyel bir az da tərəddüd edib dedi:

– Heç nə olmayıb, mənə elə gəlir ki, bu dünyada sənə məndən yaxın adam yoxdur. Ona görə sənə bu sözü deməyi özümə borc bilirəm. Amma yenə özün bilərsən.

Kərim gülümsündü, əgər buna gulümsəmək demək olardısa:

– Əlbəttə, Tariyel, sən mənim böyük qardaşımsan, ürəyindən nə keçirsə, deyə bilərsən.

Tariyel qurcalanıb udqundu, sonra asta səslə dedi:

– Səni görəndən anamın ölümü yadımdan çıxıb. Atalar düz deyib: "Gözdən uzaq, könüldən qıraq". Səni görmürdüm, demək olar ki, haqqında heç nə düşünmürdüm. Sən gedəndən yerə-göyə sığmıram. Qardaşım, Laləni boşa. Düzdür, Lalə yaxşı qızdır, sevib evlənmisən. Amma uşaqsızlıq çətin şeydir, bir sən deyilsən ki, uşağa görə ailəsini dağıdan.

Tariyel sözünü bitirən kimi, elə bil üzərindən ağır bir daşı götürüb kənara atdılar. Araya çökən sükutu Kərim pozub, xırıltılı bir səslə dedi:

– Lalə xəstədir, özü də ağır xəstə. Bu, onun ölümünə səbəb ola bilər. Kərim ayrı nələrsə, danışdı. Tariyel onun sözünü bitirməyini gözləsə də, yaxşı anladı ki, bir də mövzuya qayıtmaq lazım deyil. Hər halda sözünü demişdi. Neçə illərdən bəri Kərimə demək istədiyini demişdi. Daha bundan sonrası Kərimin öz işi idi. Bu dəlisov Tariyelin ürəyindən keçdi ki, desin: "Cəhənnəmə xəstə olsun, boşa getsin, xəstəyə baxmaq sənəmi qalıb?" – amma demədi, yenə də Kərimin seçiminə hörmət etdi. Mövzunu dəyişsələr də, söhbətləri alınmadı. Hər ikisi aradakı gərginliyi götürmək istəsə də, bacarmadılar, qalxıb yatmağa getdilər.

Səhər Kərim aşağıdan gələn səs-küyə oyandı, burnuna kömür iyi gəldi. Saata baxdı, səkkiz idi. Pəncərədən aşağı baxdı. Tariyellə Kəmalə həyətdə idilər. Samovarın borusundan alov yuxarı qalxırdı. Paltarını geyinib aşağı düşdü. Tariyel həyətdə oturmuşdu, o da yuyunub, gəlib onun yanında oturdu. Könülsüz bir-iki qismət yeyib getməyə hazırlaşdı. Məlum oldu ki, Nazlı da həmin təyyarə ilə, həmin

vaxtda Gəncəyə uçmalıdı. Nazlı da artıq yığışıb hazır dayanmışdı. Vidalaşıb qapıdan birgə çıxdılar. Kərim Nazlını uşaq vaxtı gördüyü idi. Bir də axırıncı dəfə toyunda olmuşdu. Nazlının sonrakı taleyi haqqında heç nə bilmirdi. Xalasının hüzür yerinə gələndə Nazlını çox solğun, kefsiz, qəmgin görən Kərim anladı ki, Nazlının bu qədər kədərli olmağına səbəb anasının ölümü deyil, əlbəttə, anasının ölümü Nazlını sarsıtmışdı, lakin bu daxili kədər qızın sifətinə çökmüşdü.

Təyyarənin vaxtına hələ vardı, istər-istəməz maraqlandı. Onun haqqında hər şeyi Tariyel danışdı:

– Nazlı Gəncədə institutda oxuyanda Vahid adlı bir oğlanla bir-birlərini seviblər. İlk gündən Vahiddən ağlım bir şey kəsmirdi. Nəinki ağlım bir şey kəsmirdi, ondan zəhləm gedirdi. Nə qədər cəhd etsəm də, Nazlını fikrindən döndərə bilmədim. Axır iş o vəziyyətə gəldi, "ya mən, ya Vahid", – deyib, Nazlını belə bir seçim qarşısında qoydum. Bir müddət sakitlik çökdü. Lakin zaman keçdikcə əziz-xələf, dünyalar qədər sevdiyim qızın günü-gündən gül kimi saralıb-solduğunu görüb, Nazlının Vahidlə ailə qurmasına razı oldum. Amma yaxşı bilirdim ki, bu yekəxana, özündənrazı, kobud, ağzının sözünü bilməyən oğlanla Nazlı xoşbəxt olmayacaq. Onların ailə olub, bir yerdə yaşaya biləcəyinə də inanmırdım. Nazlıya atalı-analı qızlardan artıq toy edib, cehiz verdim. Toy-nişan, xınayaxdı, bütün mərasimlər təntənəli keçdi. Nazlı gəlin köçəndə onu bağrıma basıb dedim:

– Get, xoşbəxt ol, Allahdan arzu edirəm, mən yanılmış olum.

Ailə qurandan cəmi bir neçə ay sonra Nazlının bədbəxt günlərinin başladığını duydum. Nazlı ilə anam olanları nə qədər ustalıqla gizlətməyə çalışsalar da, hər şey ortada idi. Vahid mən düşündüyümdən də qat-qat əskik adam imiş. Elə ilk günlərdən evə gecəyarısı, sərxoş gəlməyə başlayıb və bəzən heç gəlmirmiş. Davalarının ardı-arası kəsilmirdi. Evə borclular ayaq açıb. Nazlı anamla mən göndərdiyim pulların hamısını borclara paylayırdı. Və bu, vərdiş halını almışdı. Borcları ödəməyəndə Vahid evə gələn kimi dava salır, hətta Nazlını döyürmüş.

Nazlı bütün bunları məndən gizlədirdi. Guya hamilə olduğu üçün Vahid onu atası evinə göndərdiyini söyləyirdi. Axırıncı dəfə Nazlı öz evinə qayıdanda uşağının doğulmağına az qalmışdı. Vahiddən heç bir səs-soraq gəlmədiyini görüb, bir neçə böyük çantalarla yüklənib evinə qayıdıb. Özündə olan açarı salıb içəri girər-girməz, yerində donub qalır. Hələ darvazanın qapısından içəri keçən kimi pəncərədən sarısaçlı qadını görübmüş, amma inanmayıb. Əlindəki çantaları elə darvazanın yanında yerə atıb, sürətli addımlarla mənzilə yaxınlaşıb pilləkənlə yuxarı qalxır, əynində Nazlının xələti, ayağında Nazlının başmaqları olan sarısaçlı, qəşəng qadınla üzbəüz gəlir. Evin ortasında dayanıb, "Vahid" deyə bağırır. Vahid yuxulu-yuxulu arxa otaqdan gəlir və bu mənzərədən heç narahat da olmur, xırıltılı bir səslə deyir:

– Bağırma, sən gedib atanın xarabasında oturacaqsan, mən burada oturub sənə yas saxlayacam?

Nazlı təəccübdən donub yerində qalır. Axı ona özü demişdi: "Get evinizə, mən borca düşmüşəm, evə bazarlıq edə bilmirəm, borclarımı qurtaran kimi gəlib səni gətirəcəm". Nazlı onun ifadəsi itmiş gözlərinə baxanda başa düşür ki, bir-iki kəlmə də artıq söz desə, döyüləcək. Odur ki, gətirdiyi çantaları da götürüb ağlaya-ağlaya evə qayıtdı. Bu dəfə nə var, nə yox, hamısını mənə danışdı. Burada məni təəccübləndirəcək bir şey yox idi. Nə gözləmişdim, o da olmuşdu. Nazlının qızı Naxçıvanda dünyaya gəldi. Onların nə qayğısı vardısa, özüm çəkdim. Aradan üç-dörd ay keçmiş öz evlərinə aparıb yerləşdirdim. Vahid yenidən, yeni yalanları ilə peyda oldu. Guya o qadın uzaq qohumu imiş, guya oğlu Murovda hərbi xidmətdə imiş, qadın oğlu ilə görüşə gəlibmiş. Artıq Nazlı ona inanmırdı, barışmaq istəmirdi. Bu dəfə Vahidin bütün danışıqlarının ağ yalan olduğunu bilməyimə rəğmən, mən Nazlını zorla barışdırdım. Nazlı özü atasız böyümüşdü, onun körpə balasının da ata nəfəsi dəymədən böyüməsini istəmirdim. Sanki körpənin atası ilə ilk və son görüşü olduğunu bilirdim. Cəmi beş-altı aydan sonra Vahid evdən çıxır, gecə qayıtmır. Ertəsi gün məlum olur ki, bir qumar məclisində düşən davada bıçaqlanıb. Belə olacağını bilirdim. Gec və ya tez, əvvəl-axır Vahidi belə bir hadisə gözləyirdi, amma mənim təəccübümə səbəb Nazlının tökdüyü göz yaşı idi. Yazıq qızın üzündə donub qalan kədərə baxa bilmirdim. Bu bədbəxt qız, hələ də onun düzəlib adam olaca-

ğını gözləyirmiş. Nə vaxtsa, xoşbəxt ailə olacaqlarına inanırmış. Uzun müddət özünə gələ bilmədi. Günlərlə ağlayır, evdən çölə çıxmır, dinib-danışmırdı. Vahidin bu ehtirama layiq olmadığını Nazlıya deyə bilmədim. Onun özünə gəlməsini gözlədim, götürüb Naxçıvana aparmaq istədim. Lakin o gəlmədi, "mən qızımı öz atasının yurdunda böyüdəcəm", – dedi. Deyirlər, ən yaxşı həkim zamandır. Günlər keçdikcə Nazlı özünə gəldi. Gəncə məktəblərinin birində müəllim işləməyə başladı. İndi qızı ilə birlikdə Gəncədə yaşayır.

Nazlının həyat hekayəsi Kərimi hədsiz məyus etdi. Təsəlli verməyə söz tapa bilmədi. Tariyel Kərimin məyus olmuş üzünə baxıb əlini yellətdi, sonra da ayağa durub: "boş ver",– dedi.

Kərimlə Nazlını təyyarə limanına Tariyelin kiçik oğlu Aydın gətirmişdi. Təyyarəyə minik vaxtı çatana qədər oturub gözləməli oldular. Nazlının ala gözlü, sarışın, şirin qızı bir an belə dinc durmur, ora-bura qaçır, Aydından əl çəkmirdi, gah qaçıb Tariyelin qucağına çıxır, gah da boynundan asılırdı. Bu dünyadan xəbərsiz, öz xoşbəxt dünyasında vurnuxan körpəyə Kərimin yazığı gəlirdi.

Təyyarəyə minik başladı. Bayaqdan Kərimə yaxın gəlməyən Ləman, Tariyel ilə Aydının uzaqlaşdığını görüb, qaçıb Kərimin əlindən tutdu. Kərim onun üzünə baxıb gülümsündü. Bir neçə addım atandan sonra Kərim əyilib onu qucağına aldı. Ləman Kərimi çoxdan tanıyırmış kimi, qolunu boğazına doladı. O, körpəni bağrına basıb: "İlahi, bu nə doğma, nə şirin hissdir",– deyə düşündü.

Gəncənin hava limanında Kərimi sürücüsü gözləyirdi. Tağı onları qarşılayıb, Nazlının çantalarını maşının arxasına qoydu. Maşına oturan kimi Kərim Nazlıdan evinin ünvanını soruşdu. Məlum oldu ki, Nazlının evi elə Kərimgilin yolunun üstündə yerləşir. Onlara getmək üçün başqa yola çıxmağa ehtiyac yox idi. Cəmi on beş dəqiqədən sonra Nazlının evinin qarşısında dayanıb onları maşından düşürdülər. Küçə boyu iki-üç yerdə Gəncənin məşhur təndir çörəyi satılırdı. Çörəyin ətri hər tərəfə yayılmışdı. Kərim düşüb xeyli çörək aldı. Tağı kömək edib, Nazlının çantalarını maşından düşürüb içəri apardı. Kərim qıpqırmızı qızarmış çörəkdən üç dənə götürüb onların dalınca darvazadan içəri girdi. Bura kiçik həyəti olan şüşəbəndli, cəmi üç-dörd pilləkəni olan mənzil idi. Həyətdə üzüm çardağı vardı. Çardağın hər iki tərəfinə qırmızı, sarı, ağ güllər əkilmişdi. Həyətin o biri tərəfindən çox da böyük olmayan hovuz görünürdü. Saralmış yarpaqları yerə tökülsə də, çardaqdan sapsarı kəhrəba kimi üzüm salxımları sallanırdı. Nazlı şüşəbəndin qapısını açıb içəridən stul gətirmək istədi. Kərim razı olmadı: – tələsirəm, oturmayacam, – dedi, – sonra bir gün Lalə ilə gələrəm. Çörəkləri Nazlıya uzadıb, bayaqdan Kərimin yanında o tərəf-bu tərəfə qaçan Ləmanı qucağına alıb üz -gözündən öpdü. Kərim Nazlıya Tovuzdakı ünvanını söylədi. Onları gözləyəcəyini dedi. Nazlı bu təklifdən şad olduğunu gizlətmədi. Kərim yolboyu Ləmanı düşünür, öz-özünə: "Yazıq uşağın ata məhəbbətinə ehtiyacı var" deyirdi. Elə bil uşağın toppuş əllərinin yumşaq hərarəti Kərimin ovcunun  içində qalmışdı. Tez-

tez Kərimə: "Kərim dayı, saçımı düzəlt, lentimi düzəlt, yoxsa, anam məni öldürəcək" deməyini xatırlayıb gülümsünürdü.

Tovuza çatıb birbaşa işə getmək istədi, amma Laləni düşünüb, evə baş çəkdi. Lalə yaxşı idi, mətbəxdə nə isə qurdalanırdı. Kərim çörəkləri Laləyə verib hal-əhval tutub, tələsik gedə-gedə Ləmandan danışdı. Nazlını Lalə az xatırlayırdı. Yadında xoş xasiyyətli, şən bir qız kimi qalmışdı. Kərim onun gələcəyini deyəndə sevindi.

Kərim təzə gələndə Ləmanı tez-tez xatırlayır, sözlərini yadına salıb gülürdü, yavaş-yavaş unutmağa başlamışdı ki, bir bazar günü Nazlı Ləmanı götürüb Kərimgilə gəldi. Kərimlə Lalə onu darvazanın qarşısında qarşıladı. Nazlı paltarının üstündən ağ nazik gödəkcə geyinmişdi. Ağ idman tipli yüngül ayaqqabısına uyğun çanta götürmüşdü. Onun hündür boyuna, nəcib vücuduna geyindiyi bu geyim çox yaraşırdı. Kənardan çox cazibəli görünürdü. Nazlını çox xoş qarşılayıb yuxarı dəvət etdilər. Birlikdə yuxarı qalxdılar. Ləman Kərimi görən kimi qaçıb qucağına çıxmışdı. O, qucağında Ləman, Nazlının çantasını götürüb qadınların dalınca yuxarı qalxdı. Nazlının gəlişi, demək olar ki, bayrama çevrildi. O, öz səs-küyü ilə xalası oğlunun evinə şənlik gətirmişdi. Lalə onu cəmi bir dəfə öz toyunda görmüş olsa da, görən kimi tanıdı. Zəhra xala Kərimin toyundan sonra bir ay Nazlı ilə Sonagildə qalmışdı. Elə o vaxtdan Nazlı Lalənin yadında belə qalmışdı – deyən, gülən, şənlənən. Doğrudan da, Nazlı çox sadə, mehriban, ən vacibi isə, səmimi qız idi. Onun çılğınlığını görən

Lalə təəccüb edirdi. Kərimin söylədiyi həyat hekayəsinə rəğmən, qız çox xoşbəxt görünürdü. Lalə ona baxıb düşünürdü: "Bu qız bacardıqca pisliklərin üstündən keçib, hər kəsdə, yalnız yaxşılıq axtarırdı. Əlində əlac olsa, bütün pislikləri ələkdən ələyib, yaxşılıqları saxlayardı. Heyif ki, bu mümkün deyil. Həyat enişli-yoxuşlu, kədərli-gülüşlüdür, xeyir ilə şər qoşadır. Bu dünyada heç kim deyə bilməz ki, mən həyatımı elə quracam ki, acılarla rastlaşmayım". Necə ki, Nazlı öz xoş xasiyyətinə rəğmən, belə bir tale ilə üzləşmişdi. Lalə yaxşı süfrə açdı, çay süfrəsində Nazlı bişirib-gətirdiyi Gəncə paxlavası ilə çay içib, Ləmanla əyləndilər. Ləman elə bil səhnədə idi. Bütün bacarığını nümayiş etdirməyə çalışdıqca, Kərimin gülməkdən gözü yaşarırdı. Axşam tərəfi Mahir maşını ilə gəlib Kərimi götürüb apardı, nədənsə, Mahir çox həyəcanlı idi. Haradasa, dostları rəhmətə getmişdi. Kərim çox gec gəldi, bu müddət ərzində qadınların söhbətləri daha da qızışdı. Əslində əsl "Nazlı"nı Lalə indi görürdü. Kədər onun gözünün dərinliyinə çöküb orada da qalmışdı. Necə deyərlər, ürəyindən qara qanlar axırdı. "Başqalarını öz dərdimlə yükləməyi xoşlamıram"– deyən Nazlının dərdi açılmışdı, dünyalar qədər sevdiyi, xəyallarının qəhrəmanı, uğrunda ölməyə hazır olduğu Vahidin yalanlarından, əməllərindən, çəkdiyi əziyyətlərdən danışdıqca danışır, üstəlik, ölümünə alışa bilmədiyini, həsrətlə o sevdiyi Vahidi gözlədiyini söylədi. Hərdən Laləyə baxıb susmaq istəyirdi, lakin heç cür özünü cilovlaya bilmirdi. Ömründə birinci dəfə yaxından ünsiyyətdə olduğu bu xanıma dərdini danışıb kövrəlirdi,

çünki heç kimə bunları danışa bilmirdi. Tariyel ona "özü yıxılan ağlamaz" desə də, çox dərd çəkirdi. Ona görə Nazlı ona heç nə danışmır, bacardıqca onun yanında özünü şən aparırdı. Nəhayət, Nazlı Lalənin yaşarmış gözlərinə baxıb susdu. Elə bil yuxudan ayıldı. Lalənin xəstə olduğunu bildiyi üçün ondan dönə-dönə üzr istədi. Sonra durub üzündən öpdü. Hər ikisi qalxıb bayaqdan tökülüb qalan süfrəni yığışdırdılar. Nazlı divanda yatıb qalmış Ləmanı aparıb Lalənin onlar üçün açdığı yatağa qoydu. Kərim gələndə saat ikiyə işləmişdi, qanıqara idi. İllərdən bəri tanıdığı, sevdiyi, inandığı, hörmət bəslədiyi bir dostu rəhmətə getmişdi, üç övladı qalmışdı. Dəhşətli hadisə gözünün önündən getmirdi, səslər qulağında qalmışdı. Lalənin süzdüyü çayı içə bilmədi. Nazlıgil tamam yadından çıxmışdı. Qapının ağzındakı Ləmanın kiçik ayaqqabılarını görəndə onları xatırladı. Başını bulayıb Ləmanı soruşdu. Lalə onların yatdığını deyib yatağına girdi.

Kərim səhər yuxudan tezdən oyanmışdı, dünənki hadisənin təsirindən çıxa bilmirdi. Özünü zorla ələ alıb otağından çıxdı. Nazlı Ləmanın əlindən tutub həyətdə gəzirdi. Kərim gəlib Ləmanı qucağına aldı. Qızın dalbadal verdiyi suallara, məzəli danışığına, söhbətlərinə gülümsəyirdi. Ancaq işə getməli idi. Əslində Ləmandan ayrılmaq istəmirdi...

Nahara gələndə Ləmanı götürüb özü ilə dükana apardı. Cürbəcür gəlinciklər, rəngli qələmlər, oyuncaqlar, paltar aldı. Ləman sevinir, atılıb-düşür, Kərimi qucaqlayıb öpürdü. Kərim Ləmanı qucağına alıb hədiyyələri ilə birlik-

də içəri ötürdü, Lalə Nazlını səslədi, qadınlar pilləkənin başında görünən kimi çıxıb getdi. Kərim elə getdi ki, Nazlı ona təşəkkür də edə bilmədi. Ləman oyuncaqları otağın ortasına töküb, gah birini, gah da digərini yarımçıq qoyub, o birini açıb tökürdü. Hər oyuncaq açıldıqca sevinir, əl çalıb-oynayırdı. Nazlı ona baxıb köksünü ötürdü. Başını bulayıb dedi:

– Bu qızın acgözlüyü qanımı qaraldır. Axı bu uşağın hər şeyi var.

Lalə onun sözünü yarımçıq kəsib: –

Uşaqdır də, uşaq belə olur, – dedi.

Axşam Kərim işdən gəlib onları bulağa apardı. Əsrik dərəsinə gedən yol çox mənzərəli idi. Bu dərənin hər fəsildə bir cür mənzərəsi olurdu. Payızın ayrı gözəlliyi var idi. Ağaclar min bir rəngə çalırdı. Qaranlıq hələ düşməmişdi, günəşin qürub çağı idi. Batmaqda olan günəşin şüaları altında dağlar, dərələr, meşələr başqa bir rəng almışdı. Elə bil toran meşədən ormana yayılırdı. Nazlı yolun kənarında görünən qırmızı kirəmitli evlərə maraqla baxırdı. Düşünürdü: "Bu evlərin hər birində müxtəlif taleli insanlar yaşayır. Qayğılarla, məhəbbətlə, kədərlə, sevinclə dolu insanlar". Meşənin dərinliyindən qalxan tüstüdən meşə odununun xoş iyi gəlirdi. Örüşdən sürü ilə heyvanlar qayıtdığı üçün sürücü maşının sürətini tez-tez azaltmalı olurdu. Maşın alçaq sürətlə irəlilədiyi üçün Kərim ətrafı seyr edir, tanıdığı yerlər haqqında məlumat verirdi. Dağların arasında, lap yüksəklikdə, kiçik pəncərəsi olan, bir

gözdən ibarət hücrəni göstərib, onun haqqında eşitdiyi rəvayəti söylədi:

– Deyilənlərə görə, o görünən kiçik hücrədə bir qız qocalıb qarıyanadək yaşayıb. Sevdiyi oğlana yox, varlı, qoca bir kişiyə ərə vermək istədikləri üçün qaçıb meşəyə gəlib, bu hücrədə ölənəcən yaşayıb. Ona görə də o kiçik qalaya "Qarıqız " qalası deyirlər.

Lalə ilə Nazlı qalaya maraqla baxdılar. Lalə:

– Orada tək yaşamaq olarmı? Mən inanmıram. Bəlkə də elə deyil, orada qaçaq-quldur yaşayıb, nə bilmək olar, rəvayətdir də, – deyə öz fikrini bildirdi.

Düşüb bulağın diş göynədən, buz kimi suyundan içdilər.

Lalə Nazlıya dedi:

– Bulaq suyu nə qədər soyuq olsa da, boğazı ağrıtmır, qorxma, iç.   Artıq günəş batmışdı, ətraf indi də toranda sehrli görünürdü. Havada olan azacıq sazaq isti yay günlərindən sonra insana ləzzət edirdi. Ləman Kərimdən əl çəkməyib, dalbadal suallar verirdi. Manqalın yanında yatan yekəpər iti görməsə, qızın sualları bitib-qurtaran deyildi. İti görən kimi, qaçıb Kərimin qucağına çıxdı. Kərim çardağın altında oturmağı məsləhət bilməyib, "soyuqlayarsınız", – dedi. Taxtadan tikilmiş kiçik otağa keçib oturdular. Bu gəzintidən Nazlı çox razı idi, hər şey ona xoş gəlirdi. Kərimlə Lalə üçün isə əsl bayram idi. Cansıxıcı təklikdən bezmişdilər. Doyunca danışıb-güldülər. Kərimin kefi durulmuşdu, Ləmanla yorulana qədər əyləndi. Qayıdanda Ləman maşında yatmışdı. Evə çatan kimi hamı yu-

yunub yatmağa getdi. İki gündən sonra Nazlı dərslər başladığı üçün getməyə hazırlaşdı. Əslində nə Nazlı getmək istəyirdi, nə də Ləman. Amma getməli idilər.

Ertəsi gün Kərim işdən qayıdanda bu iki-üç gündə bazara, indi isə məzara dönən evinə baş sala bilmirdi. Lalənin yemək gətirmək istədiyini görüb "yemək istəmirəm", – dedi. Lalə ona təəccüblə baxırdı, gözünü yayındırmaq istədi bacarmadı, gözləri bir-birinə ilişib qaldı. Kərimə elə gəldi ki, bu bir neçə saniyə ərzində onların danışmaq istədiklərini gözləri danışdı. O axşam da sükut içində keçdi. Demək olar ki, danışmadılar. Kərim televizoru bir az o kanala, bir az bu kanala çevirib yatmağa getdi. Yatağa uzanıb Ləmanın atasını düşünürdü: "Görəsən, o bədbəxt özünə niyə ucuz ölüm axtarırmış? Niyə rahat evində oturub, gül kimi balasını böyütmürdü? Niyə necə xoşbəxt olduğunu anlamırdı, niyə?" Sonra da hansısa, filosofun sözlərini xatırladı: "Bu dünya bir səhnədir, insanlar ssenarisi Allah tərəfindən yazılmış rollarını ifa edib gedirlər." Vahidə də o rol düşübmüş. Lalə ilə mənim rolum ən pis rollardan biridir. Ən pis, lap elə oğruların, canilərin, çətin həyat tərzi olanların, nə bilim kimlərin rolundan da pis", – deyə düşünüb yuxuya getdi.

Lalə axır vaxtlar çox yorğun, şişkin görünürdü. O, çox hərəkətli, danışqan insan deyildi, amma indi Kərimə görə Lalə daha da süst görünürdü. Narahat olmağa başladı. Lalə hər il yazda, payızda müalicə olunurdu. Qış aylarında, demək olar ki, səhhəti yaxşı olurdu. Qış aylarında təngnəfəsliyi, əl-ayağının göynəməsi azalır, şişi çəkilirdi. Kərim

bilmirdi Laləyə necə kömək etsin. Düşünüb-daşınıb, bir-iki gündən sonra onu Gəncəyə – Nazlıgilə gətirdi. Lakin yol gəldiyinə görə, ya da nə isə, ayrı səbəbdən Lalənin narahatlığı daha da artdı. Ona görə Nazlı nə qədər xahiş etsə də, geri döndülər. Kərim Laləni həkimə aparmalı oldu, bir az əsəb sakitləşdirici müalicə yazdılar. Bu müalicədən sonra Lalə bir az özünə gəldi. Nazlı Lalənin özünü belə pis hiss etdiyini biləndən sonra daha sıx-sıx gəlməyə başladı. Gələndə Kərimin sevdiyi, anası bişirən yeməklərdən bişirib gətirir, Laləni iş görməyə qoymurdu. Hətta Sənəmin də gəlməyini istəmirdi. Bütün işləri özü görür, dadlı yeməklər bişirirdi. Uzun qış gecələrində gecənin yarısınadək oturub çay içib-söhbət edirdilər. Ləmanın maraqlı hərəkətlərinə, danışıqlarına doyunca gülürdülər. Ləman axır vaxtlar oynamaq öyrənmişdi. Televizorda bir musiqi eşidən kimi əl-qol atıb oynamağa başlayırdı, ona belə maraqla baxanları görəndə Nazlı demiş, özünə əl qatırdı. Kərimin xahişi ilə bu il Yeni ili də bir yerdə qarşıladılar. Kərim Nazlıya: "Bayramı gəlib, bizimlə birlikdə keçirərsiniz", – dedi. O, Tariyelin çağırışına görə Naxçıvana hazırlaşırdı. Amma Kərimin sözünü yerə salmadı. Kərimin evində hələ Yeni ilə belə hazırlıq olmamışdı. Lalənin bacıları neçə il bundan əvvəl, Yeni ildə balaca bir süni şam ağacı alıb gətirmişdilər. Hər Yeni ildə Lalə onu gətirib quraşdırırdı, sonra da götürüb kənara qoyurdu. Bir qayda olaraq bu, hər il təkrar olunurdu. Kərim isə ona ümumiyyətlə fikir vermirdi ki, quraşdırılıb, ya yox. İndi Kərim bir şam ağacı alıb gətirmişdi. İşıqlarla, maraqlı oyuncaqlarla

birlikdə. Az qala Ləman boyda Qar qız və əl-qolunu tərpədə-tərpədə Yeni ili təbrik edən Şaxta baba. Şam ağacını bəzəmək, quraşdırmaq təntənəli mərasimə çevrildi. Ləman şam ağacını, Şaxta babanı, Qar qızı görəndə sevincindən uçurdu. Şaxta babanın səsi çıxanda qızın az qalırdı ürəyi getsin. Lalə həm Ləmana, həm də Mahirin qızlarına hədiyyə almışdı. Hədiyyələri şam ağacının altına qoymuşdu. Süfrənin bəzənməsinə qadınlar elə çalışırdılar, sanki haradansa, mötəbər bir qonaq gözləyirdilər. Halbuki Mahirin ailəsindən başqa qonaqları yox idi. Qonaqlar gələnə qədər Nazlı gedib paltarını dəyişdi. Firuzə rəngli paltar geyinib, o rəngdə sırğa, üzük, boyunbağı taxdı. Gözünün üstünə çəkdiyi firuzə rəngli sürmə onun paltarına, bəzəyinə çox yaraşırdı. Şam ağacının dibindəki hədiyyələrin açılışı alqışlarla qarşılanırdı. Hər hədiyyənin içindən nə çıxacağına Lalə elə maraqla baxırdı ki, sanki onları ora özü deyil, Şaxta baba qoymuşdu. Sən demə, qadınlara da hədiyyə var imiş. Kərim hər qadına bir fransız ətri almışdı. Qadınlar da uşaqlar qədər həyəcanla hədiyyələrini açıb əyləndilər. Hədiyyələrdən sonra süfrə ətrafına toplaşıb dadlı, ləzzətli yeməklərdən həvəslə yeyib-içdilər. Uşaqlar yeyib-doyan kimi süfrəni tərk edib, bir-birlərinə qarışdılar. Hay-küyləri evi başına götürmüşdü. Dilarənin gözü Nazlıda idi. Nə isə, sözlü adama oxşayırdı. Vaxt tapan kimi Laləyə gözqaşını süzdürərək, nə isə anlatmaq istəyirdi. Lalə bir şey başa düşmədi. Və nəhayət, Dilarənin Kərimin xalası qızına belə hörmətsiz yanaşmasına acığı tutdu. Hirsləndiyini bildirməməyə çalışsa da, Dilarə onun əsəbiləşdiyini başa dü-

şüb özünü yığışdırdı. Sonra Ləman rəqs edib, o biri qızları da rəqsə dəvət etdi. Ortalıq əsl rəqs meydanına döndü. Qızlar canfəşanlıqla bacarıqlarını nümayiş etdirməyə çalışırdılar. Birinci dəfə idi ki, Kərimin evində belə Yeni il qarşılanırdı. Kərimgil Yeni ili əksəriyyət vaxtı ya haradasa, başqa yerdə qarşılayırdılar, ya da kiçik masanın ətrafında ikisi oturub yeyib-içər, sonra da televizorda bayram üçün hazırlanan verilişlərə baxıb yatmağa gedərdilər. Bayramın şirin yerində Arzu ilə Sənəm də gəldilər. "Gəldik ki, sizə kömək edək" , – dedilər. Bir göz qırpımında süfrəni yığışdırıb çay süfrəsi açdılar. Süfrəyə şampanlar qoyub bakal düzdülər. Şampanı partladıb Yeni ili qarşıladılar. Arzu ilə Sənəm qab-qacağı yuyub getdilər. Nəhayət, Dilarə də getməyə hazırlaşdı. Nazlı Ləmanı götürüb yataq otağına keçmişdi. Dilarə Nazlının görünmədiyini görüb Laləyə yaxınlaşıb, bayaqdan bəri ürəyini deşən sözləri dedi:

– Lalə, sizin bu qohumunuzdan ağlım bir şey kəsmir. Bu qız özünü bu evin xanımı hiss edir. Sonra demə xəbərdarlıq etmədin. Bunu evindən rədd elə.

Elə bil Lalənin sifətinə qəfil sillə dəydi, gözündə şimşək çaxdı. Dilarəyə sərt söz deməkdən özünü zorla saxladı. O, sözünü deyib-bitirən kimi Laləni öpüb, vidalaşıb getdi. Bircə anın içində yoxa çıxdı, Lalə yerində donub qaldı. Kərim arxadan onun çiyninə toxunmasaydı, kim bilir, nə qədər burada donub qalacaqdı. Kərim onu qucaqlayıb: "sənə soyuq olar, gedək", – dedi. Bu an Lalə, Dilarə kimi birisi ilə rəfiqəlik etdiyinə görə özünə nifrət edirdi. Kərim Lalənin əlindən tutub yuxarı qalxdılar. Nazlı Ləma-

nı yatırmağa gedib özü də yuxuya qalmışdı, daha otağından çıxmadı. Televizorun qarşısında oturmuşdular, heç biri danışmırdı. Kərimin yuxusu gəlirdi, amma Laləni qoyub getmək istəmirdi, qızın rəngi sapsarı idi. Kərim onun rənginə baxanda narahat olurdu. O, Lalənin yorulub-narahat olduğunu düşünürdü. Lalə Diları xatırlamamağa çalışırdı. Başını qatmaq istəyirdi. Sənəmə, Arzuya hədiyyə almamışdı, səhər onlara da nə isə, bir hədiyyə vermək haqqında düşünmək istəyirdi, bacarmırdı. Fikri Dilarənin dediyi sözlərin yanında qalmışdı. Kərim ondan özünü necə hiss etdiyini soruşanda, "yaxşıyam", – deyib yatmağa getdi.

Ertəsi gün Nazlı getdi, çünki Tariyelin dəvəti ilə Naxçıvana getməli idi. Tariyelgil onları gözləyirdi. Lalə pəncərənin qarşısında dayanıb uzaqlaşan maşının arxasınca baxırdı. Dilarənin sözünü ağlına gətirməyi özünə ar bilirdi. Pəncərənin qarşısından çəkilib geri dönəndə arxasında dayanmış Kərimlə üzbəüz gəlib diksindi, həm də təəccübləndi. Kərimlə Lalə bir-birindən söz gizlətməzdilər. Kərim Lalənin dodağında donub qalmış müəmmanı görürdü, amma o Laləni yaxşı tanıyırdı. Bilirdi ki, Lalə əmin olmadığı sözü danışmaz, onun dodağında donub qalan hər nə idisə, müəmma idi. Lalə Kərimi heç vaxt belə alçaq ittihamla mühakimə etməzdi. Kərimi təhqir etmiş olardı. Çünki, Kərim belə insan deyildi. Lalə yaxşı başa düşürdü ki, Kərim həyatındakı boşluğu doldurmaq üçün, evindəki buzu sındırmaq üçün, azacıq da olsa, günlərini mənalandırmaq üçün özünə çox yaxın bildiyi xalası qızının körpəsi

ilə əylənir. Həm də bacısı qədər sevdiyi Nazlının da sönük həyatına nəşə qatmaq istəyir. Kərimin bunları Laləyə izah etməyinə ehtiyac yox idi. Onlar bir-birilərini danışmasalar da, başa düşürdülər. Dilə gətirməyi lazım bilmədikləri heç nəyi, heç vaxt dillərinə gətirməzdilər. Ona görə Lalə Kərim ilə üzbəüz qalanda özünü ələ alıb sifətindəki müəmmanı götürdü. Özünə bir daha Dilarə ilə danışmamağa söz verdi. Kərim Lalənin diksinməyinə gülümsəyib qucaqladı, qız ona sığındı. Bu, onların dostluq qucaqlaşmaları idi. Hər zaman nədənsə, sıxılanda bir-birinə sığınıb, beləcə durardılar. Və bu anlar uzun bir sükutla keçirdi. Xeyli belə dayanandan sonra sükutu Kərim pozdu:

– Bir də xəstələnmə, Lalə, – dedi. – Mən sənsiz bir gün də yaşaya bilmərəm, məni bu dünyaya bağlayan yeganə varlıq sənsən.

Lalə gözündə iri bir damla göz yaşı gülümsədi.

Qış çox sərt gəlmişdi. Neçə gün idi ki, yağan qar yerdə qalmışdı. Bu səhər yenidən quşbaşı qar yağırdı, ətraf ağ örpəyə bürünmüşdü. Yerdə qar yarım metrə çatırdı. Kərim pəncərədən qara baxıb, qarın özü ilə gətirdiyi çətinlikləri düşünürdü. Su kranları donmuşdu, darvazanı açıb maşını çölə çıxarmaq mümkün deyildi. Sürücü Tağı gəlib darvazanı zorla açdı. Su qaynadıb kranların buzunu əritdi. Birtəhər pilləkənlərin qarını təmizlədilər, amma Kərim yola baxıb maşını çıxartmağa tərəddüd etdi. Tağıya:

– Maşın lazım deyil, – dedi. Gəl, piyada gedək, həm də təmiz hava almış olarıq.

Arada ayağı sürüşür, əl atıb Tağının qolundan tutur, onun sürüşmədiyinə təəccüb edirdi.

Tağı: – Kərim müəllim, yıxılmamaq üçün Çarli Çaplin kimi yerimək lazımdır, – deməyinə Kərim qəhqəhə ilə güldü. Küçə əməlli-başlı qələbəlik idi. Bir dəstə uşaq qardan adam düzəldib, evdən ağız, göz, burun düzəltmək üçün kömür, kök gətirmək üstündə mübahisə edirdilər. Başqa bir dəstə uşaq buz cığırı düzəldib sürüşmək üçün növbəyə durmuşdu. Qartopu oynayanlar da küçə boyu səpələnmişdi. Kərim əlləri, ayaqları donmuş halda gəlib işə çıxdı. Məhkəmə binasının ətrafının qarını kürüyüb təmizləmişdilər. Otağı isti idi, içəridə – əllərini sobada isidib, yazı masasının arxasına keçdi. Qarşısındakı qovluqları yenicə açıb baxmaq istəyirdi ki, Lalə zəng edib halının pis olduğunu dedi. Bayaqdan yıxılacağından qorxub işə ehtiyatla, yavaş-yavaş gələn Kərim evə birnəfəsə qayıtdı. Sənəm Lalənin yanında idi, indiyə qədər Lalənin qəbul etdiyi dərmanlardan verib, bacardığı yardımı etmişdi. Kərim həkim çağırdı. Musaya zəng edib: "Lalə xəstələnib, Bakıya gedirəm", – dedi. Heç on dəqiqə keçməmiş, Musa geri zəng edib Kərimə: – Səninlə bir məsləhətim var, – dedi. – Bu havada Bakıya getmək lazım deyil, yol da uzaqdır. Tbilisiyə aparaq. Həm də Vüsalə ilə Cəmiləyə bura yaxındır. Növbə ilə Lalənin yanında qalar, aradabir evlərinə də baş çəkərlər. Kərim çox düşünməyib: – yaxşı, – dedi. Bu məsələ Kərimin də ürəyindən oldu. Belə bir qarlı, buzlu havada Bakıya getmək çətin idi.

Tağı maşının təkərlərini zəncirlədi. Kərimlə Sənəm Laləni tələm-tələsik hazırlayıb yola çıxdılar. Sənəm Lalənin arxasınca su atıb, dua edirdi.

Yolu çox çətinliklə getdilər. Qırmızı körpünü keçən kimi yolun kənarında maşına söykənib-dayanan Musanı gördülər. Kərim arxada Lalənin yanında oturmuşdu. Düşüb Musa ilə görüşdü. Lalənin bacıları da gəlmişdilər, onlar Musanın maşınında oturmuşdular. Kərimi görəndə maşından düşüb qaça-qaça Lalənin yanına gəldilər. Cəmilə təmkinli görünsə də, Vüsalə həyəcanlı idi. Laləni çılğıncasına qucaqlayıb: "Necəsən, Lalə", – dedi. Lalə solğun sifətinə zorla gülümsəmək ifadəsi verib, "Yaxşıyam", – dedi.

Yenidən maşına oturub yola düzəldilər. Maşını sürmək mümkün deyildi. Qar get-gedə artırdı. Havada çovğun var idi. Külək qarı sovurub, maşının pəncərəsinə çırpırdı.

Xəstəxanaya, demək olar ki, addım-addım gəlib çıxdılar. Lalə qarlı, çovğunlu havada bacı-qardaşını, Kərimi narahat etdiyi üçün utanırdı. Çətinliklə də olsa, gəlib xəstəxanaya çatdılar. Musanı xəstəxananın həyətində dostu gözləyirdi. Onlar Laləni tez içəri keçirdilər. Kərim də onunla içəri girdi. Bacıları dəhlizdə gözləyirdi, bir azdan Kərimlə Musa da gəldi. Musa bacılarına yaxınlaşıb: – Şükür, Allaha,– dedi, – elə bir ciddi xəstəlik yoxdur, amma xəstəxanada yatmalıdır.

Vüsalə: – Mən də qalıram,– dedi. – Əgər həkimlər icazə versə, burada onunla qalaram, yox, əgər icazə verməsə,

kənarda ev tutub orada qalaram. Samir də gəlib mənimlə qalar.

Musa dedi:

– Yox, bir nəfərin qalmağına icazə verirlər.

Müayinədən sonra Laləni ikinəfərlik otağa keçirdilər. Vüsalə də onunla qaldı. Lalə xəstəxanada çox qalmışdı, ona görə hazırlıqlı gəlmişdi. Kərimgil gəldikləri kimi də, çətinliklə qayıtdılar. Kərim Tovuza qayıda bilmədi, yollar buz bağlamışdı, Musagildə qalmalı oldu, "səhər getməzdən əvvəl əmimlə də görüşərəm", – deyə düşündü. Musa Kərimi çox istəyirdi, ona qeyri-adi hörməti var idi. Gec olmasına baxmayaraq, Kərimin şəninə süfrə açdırdı, kabab çəkdirdi. Sonra oturub samovar çayı içdilər. Danışmağı sevməyən Musanın dili açılmışdı. Lalədən danışır, qəhərlənir, gözü yaşla dolurdu. Kərim Musaya qulaq asa-asa düşünürdü, hər dəfə Laləni xəstəxanaya qoyub-qayıdanda özü də zindana düşür. Onu düşünəndə ürəyi sıxılırdı. Nəhayət, səhər tez durub getməli olacağını, əmisi ilə də görüşmək istədiyini söyləyib yatmağa getdi.

Səhər tezdən Kərim çöldən gələn "xurt-xurt" səsinə oyandı. Kimsə qarda o başa-bu başa gedib-gəlirdi. Kərim geyinib çölə çıxdı. Samovar qaynamışdı, süfrə açılmışdı. Süfrəyə yağ, bal, qaymaq, yumurta qoyulmuşdu. Kərim yeməyə oturmaq istəmirdi. Amma Nərgizin belə soyuq havada çəkdiyi zəhmətə görə süfrə arxasına keçməli oldu. Ailə qurandan bəri birinci dəfə idi ki, burada Lalәsiz qalırdı, ona nə qədər qayğı göstərsələr də, o özünü burada yalqız hiss edirdi. Könülsüz səhər yeməyini yeyib ayağa dur-

du. Əmisinin evi Musanın evindən iki küçə aralıda yerləşirdi. Cəlil Kərimin sağ qalan axırıncı əmisi idi. O çoxdan əmisini görmürdü. Hava bir az açılmışdı. Qarın üzərinə düşən günəş şüası adamın gözünü qamaşdırırdı. Damlardan sallanan buz parçaları əriyib, şappıltı ilə yerə düşürdü. Kərim Cəlil kişinin darvazasının qabağında maşından düşüb qapını ehmalca itələdi. Qapı açıq idi, amma içəridən səs-səmir gəlmirdi. Kərim içəri girib boylandı. Ətrafda gözə dəyən kimsə yox idi. "Əmi", – deyib səslədi. Pilləkənin məhəccərini taqqıldadıb, yenə səslədi. Qapı açıldığını hiss etdi, içəridən çıxan adam: "Kimsən?" – dedi. Kərim əmisinin səsini dərhal tanıdı, atasının səsinə oxşayırdı. İki dəqiqə keçməmiş, Cəlil kişi pilləkənin başında göründü. Pilləkənləri iki-iki qalxıb əmisini qucaqladı. Kişinin səsi həyəti başına götürmüşdü:

– Bıy, sənə qurban olum, ay Kərim, sən hara, buralar hara?

Qocaldığı əməlli bilinən əmisini qucaqlayıb durmuşdu. Ona elə gəlirdi ki, qucaqladığı əmisi yox, atası Səlim idi. Cəlil Səlimdən xeyli kiçik idi. O vaxtlar Cəlil heç Səlimə bənzəmirdi. İndi saç-saqqalı ağarıb, bir az da arıqlamışdı. İçəridən iki qız uşağı çıxıb, maraqla bu səhnəni seyr edirdi.

Nəhayət, Kərim əmisini buraxıb, onun nəvələri olduğunu təxmin etdiyi sarışın qızları da öpdü. Yəqin rəhmətlik Nizaminin qızlarıdır, – deyə düşündü, Nizami Cəlilin kiçik oğlu idi . O, çox gənc yaşında rəhmətə getmişdi. O vaxt onun ölümü Cəlili yandırıb tökmüşdü. Hadisə Cəlilin gözü qarşısında baş vermişdi. Həyətdəki hovuzun başın-

dakı motoru qurdalayanda cərəyan vurmuşdu, qaldırıb kişinin gözünün qarşısında yerə çırpmışdı. Yazıq uşaq elə yerindəcə ölmüşdü. Cəlilin arvadı oğlunun ilinə qalmadı. Cəlil isə iki oğlu, üç qızı olmağına baxmayaraq, yana-yana yaşayırdı. Onlar Kərimi içəri dəvət etdilər. Bir azdan Nizaminin həyat yoldaşı Həcər də gəldi. Kərim ətrafa göz gəzdirdi. Cəlilin evindən, məhləsindən matəm yağırdı. Üzlərinə baxanda məlum olurdu ki, bu insanlar hələ yasdan çıxmayıb. Pilləkənin üstünə vurulan dam örtüyü qırılıb töküldüyü üçün yağan qar pilləkənə yağırdı. Sonra da donub qalmışdı. Divarların suvağı ordan-burdan sökülüb-tökülmüşdü. Qapı-pəncərənin boyağı köhnəldiyi üçün qopuq-qopuq olmuşdu. Həcərdən də, qızlardan da kədər yağırdı. Buradakı ab-hava Kərimin canına hopdu. Damarına işləyib, ürəyinə çatdı, ürəyi sıxıldı. Həcər çay gətirdi. Kərim Lalənin xəstəxanada olduğunu, işə çatmalı olduğunu, tələsdiyini söylədi. Əmisi ilə xeyli söhbət etdilər. Qalxıb gedəndə tez-tez gələcəyini söylədi. Yolboyu Kərim qəribə hisslər duyurdu. Ona elə gəlirdi ki, hələ da uşaqdır. Əmisinin kəlməbaşı ona, "dərdin alım" deməsi onu uşaqlığına qaytarmışdı – kədərsiz, qayğısız uşaqlığına. Maşın irəlilədikcə uşaqlığı arxada qalır, yenə də üzüntülü dünyasına tərəf irəliləyirdi. Əmisi gözünün önündən çəkilmirdi. Hanı o atasının boy-buxunu ilə, əzəmətli vücudu ilə, pəhləvan görünüşü ilə fəxr etdiyi əmisi?! Qartal baxışlarının yerini dərinliyində kədər olan nəmli, qəmli bir cüt göz tutmuşdu. Dəmir kimi qolları nazilib, qurumuş ağac budağına oxşayırdı. Əllərinin əsdiyini görəndə Kərim o tərəfə ba-

xa bilmirdi. Birdən Kərim sürücüdən maşını geri döndərməyi xahiş etdi. Tağı təəccüb etsə də, maşını fırlayıb geri döndü. Kərim Nadirlə görüşməyi gələn dəfəyə saxlamışdı. Amma indi Nadirlə mütləq görüşməli olduğunu düşündü. Yaxşı ki, çox uzaqlaşmamışdı. Bir azdan maşın Nadirin qapısının ağzında idi. Kərim Nadiri çağırtdırıb, içəri keçmədi. Elə qapının ağzında Nadirə pul verib əmisinin evinə əl gəzdirməyi xahiş etdi: – Yağan qar pilləkənə yağır, – dedi. – Qoca kişidir, sürüşüb yıxılar. Nadir, sən bilirsən ki, əmimin oğlanları Rusiyada yaşayır, ona görə sənə əziyyət verirəm, – deyib onun könlünü aldı. Nadir dedi: – Kərim, mən sənin qulluğunda hazıram, amma Cəlil əmi yaxın qoymur, "hövsələm yoxdur", – deyir. Keçən il oğlanları gələndə təmir etmək istədilər, qoymadı.

Kərim: – Mənim adımdan xahiş et, – deyib Nadirin nə deyəcəyinə qulaq asmadan, maşına minib getdi. Maşın Tovuza girəndə gün-günortadan keçmişdi. Qar əriməyə başlamışdı. Çox yerdə torpaq görünürdü.

Kərim işdən gec gəldi, bu gün başı tökülüb qalmış işlərə qarışmışdı. İşin çoxluğu öz yerində, Lalənin yoxluğu onu evdən uzaqlaşdırırdı. Uzaqdan işığı gələn evlərin arasında qaranlığa qərq olmuş evinə baxanda köksünü ötürdü. Maşından düşüb darvazanın ağzındakı işığı, pilləkənin başındakı işıqları və nəhayət, otaqların işığını yandırıb, buz kimi soyuq otağa keçdi. Elektrik peçlərini şəbəkəyə qoşub, mətbəxə adladı. Qazı yandırıb çaydanı doldurmaq istədi, kranlardan su gəlmirdi, xəfifcə titrədi. Səhər gün işıldayanda, qar əriməyinə baxmayaraq, axşam şaxta

düşüb suları dondurmuşdu. Su tapa bilmədi, qablar da boş idi. Zəng edib Tağını çağırdı. Tağı gəlib kranları açdı, çaydanı və başqa su qablarını su ilə doldurdu. Çaydanı qazın üstünə qoyub getdi. Ev yeni-yeni isinməyə başlamışdı, Kərimin yuxusu gəlirdi, çaydanın altını söndürüb yatmağa getdi. Bayaqdan nəyə çalışırdı, özü də bilmirdi.

Kərim ən uzağı, üç gündən bir Lalənin yanına gedirdi. Lalə yaxşı idi, amma hələlik həkimlər xəstəxanadan çıxmağına icazə vermirdi. Nazlı tez -tez zəng edib Laləni soruşur, "gəlim, məni də Lalənin yanına apar", – deyirdi. Kərim qətiyyətlə etiraz etsə də, istirahət günü səhər tezdən Nazlı Ləmanla əlində böyük bir çanta taksidən düşdü. Kərim gözünü açmağa macal tapmamış, gətirdiyi yeməkləri soyuducuya yerləşdirdi. Lalə üçün hazırladığı yeməkləri ayrı çantaya yığdı. Sonra Kərimə səhər yeməyi hazırlayıb süfrəyə yığmaq istədi. Lakin Kərim yemək istəmədiyini söylədi. Nazlı ora-bura qaçıb otaqlara əl gəzdirmək istədi, hər yerin səliqəli olduğunu görüb: "gedək", – dedi. Kərimin qanı çox qara idi. Heç Ləmanla da oynamağa həvəsi yox idi. Yolboyu demək olar ki, heç kim danışmadı. Ləman sakitlikdən bezib yatdı. Xəstəxananın həyətində maşın dayananda oyandı. Lalə Kərimlə Nazlı içəri girəndə azacıq da olsa, özündə bir narahatlıq, gərginlik hiss etdi. Nazlı gəlmək istədiyini, lakin Kərimin onu yaxın qoymadığını, indi Kərimə xəbər vermədən, qəflətən gəldiyini deyəndə rahatlandı. Lalə keçirdiyi hisslərə görə acığı tutsa da, Dilarənin sözləri onun ürəyinə şübhə toxumları səpmişdi. Elə xəstələnməyinə də səbəb bu şübhələr olmuşdu.

Cəmilə də burada idi, onda da bir əsəbilik duyulurdu. Nazlı nə qədər cəhd etsə də, qızları söhbətə cəlb edə bilmədi. Nəhayət, onlardakı bu soyuq, buz kimi münasibət Nazlıya da keçdi. O, da susub oturdu, Kərimin gəlməsini gözlədi. Kərim həkimin yanından kefsiz qayıtdı. Həkim Lalənin müalicəsinin yaxşı getdiyini desə də, xəstəxanadan çıxmağına icazə vermədi. O, təklikdən bezmişdi, evə baş sala bilmirdi. Lalə də evə getmək istəyirdi. Yenidən həkimin yanına dönüb bir də israr edəndə həkim: – Özünüz bilərsiniz, – dedi. Mənim borcum vəziyyəti sizə anlatmaq idi, müalicə başa çatmalıdır.

Kərim məcbur olub həkimlə razılaşdı. Nazlı Laləni bərk-bərk öpüb ona Allahdan şəfa dilədi. Qayıdanda gəldiklərindən də qanıqara qayıtdılar. Kərim maşını avtomobil dayanacağında saxlatdı, Tağıya Nazlıgili Gəncəyə aparmağı tapşırdı, maşından düşüb dal qapını açdı, yuxulayan Ləmanı öpüb, Nazlıya əziyyət çəkdiyi üçün təşəkkür etdi. Qarşısına gələn ilk taksiyə minib evə gəldi. Televizoru da açmağa həvəsi yox idi. Könülsüz televizoru şəbəkəyə qoşdu, kanalları ora-bura çevirdi, maraqlı bir şey tapa bilmədi. Qalxıb kitab rəfinə yaxınlaşdı. Bir kitab tapıb oxumaq istədi. Gözü Arzunun rəfə qoyduğu toy şəklinə sataşdı. Xatirələr onu o illərə apardı...

Toyundan cəmi bir ay keçmişdi. Bir səhər Kərim pillələri düşəndə anasının bir erməni dığası ilə söhbət etdiyini gördü. Sona xanım Kərimlə Lalənin şəklini əlində tutub bu şəkli adam boyu böyuklükdə böyütmək istədiyini

deyirdi. Çox pul təklif edirdi, dığa isə o böyüklükdə foto böyütmək mümkün olmadığını söyləyirdi:

– Elə böyük şəkil üçün rəssam lazımdır, – deyirdi. Dığanın şəkildən gözünü çəkmədən danışmağı Kərimin xoşuna gəlməmişdi, "lazım deyil", – demişdi, – "sonra özüm böyütdürərəm". Sona xanım hirslənib: "yox, qoy böyütsün, divardan asacam", – demişdi. Kərim anası ilə mübahisə etməyin yersiz olduğunu görüb oradan aralansa da, şəklin divardan asılmağına heç vaxt razı olmayacağını bildirdi.

Aradan daha bir aya yaxın bir vaxt da ötmüşdü. Yenə bir səhər erməni dığası əlində bir qalaq şəkil peyda oldu. Sona xanımla Lalə şəkillərin arasında öz şəkillərini axtarırdılar. Nəhayət, şəkil çıxdı. Tam yeni qaydada, kənarları güllü bir çərçivədə. Şəkil çox maraqlı görünürdü. Dığa çərçivəni Laləyə uzatdı. Lalə şəklə baxıb içini çəkdi:

– Mən nə pis düşmüşəm, Kərim yaxşı düşüb,– dedi.

Dığa gözlərini Laləyə zilləyib:

– Nə danışırsan? Mən hələ belə gözəl gəlin şəkli böyütməmişəm, –dedi.

Amma sözünü bitirə bilmədi. Kərim boynundan tutub onu pilləkənlərdən bayıra fırlatdı. Sona xanımla Lalə ikisi birdən qışqırdı. Dığa özünü saxlaya bilmədi. Həyətdə guppultu ilə yerə dəydi. Əlindəki şəkillər həyət boyu dağıldı. Səlim kişi və yanındakı bir neçə nəfər səsə qaçıb gəldilər. O, atasını görəndə özünü ələ aldı, yoxsa, dığanı bir yaxşı çırpacaqdı. Sona xanım deyinə-deyinə kömək edib oğlanı yerdən qaldırdı, yerə dağılmış şəkilləri toplayıb

ona verdi. Səlim kişi məsələnin nə yerdə olduğunu başa düşüb gülümsədi. O, Kərimdən belə şey gözləmirdi. İndi qarşısında gəncliyini görürdü. Oğlanın pulunu, döyüldüyü üçün artıqlaması ilə verib yola saldılar. Lalə şəkli o vaxtdan üzə çıxartmadı.

Arzu həmin şəkli əşyaların arasından tapıb rəfə qoymuşdu. Kərim rəfdəki kitabları nəzərdən keçirdi, oxumadığı kitab yox idi. Bu rəfdə onu cəlb edən bir şey tapmayıb, yenidən televizoru şəbəkəyə qoşub uzandı.

Ertəsi gün Kərim işdən gəlsə də, kefi yuxarı idi. İşdən çıxıb toya getmişdi. Bütün iş kollektivi orada idi. Çox ürəkaçan toy idi, iş yoldaşlarından biri oğluna toy edirdi. Elə bil hamı nəşəli idi. Hətta çox az-az oynayan Kərim də qol qaldırmışdı. Belə əylənə bilməyindən çox razı qalmışdı. Axır vaxtlar belə şən gün keçirdiyi yadına gəlmirdi. Bir az da konyak içmişdi, içki içən deyildi, hərdənbir kefi olanda, ürəyinə yatan məclis olanda azacıq konyak içirdi. İndi də içmişdi, amma içki onu tutmuşdu. Özünü qəribə hiss edirdi, birdən içindən dəli bir ağlamaq gəlirdi. Amma o ağlamaq hissinə rəğmən, elə hey gülümsəyirdi, əsas da ona görə sevinirdi ki, səhər Lalə gəlməli idi. Musa zəng edib: "Laləni evə yazıblar, sənin gəlməyinə ehtiyac yoxdur, mən gətirib gələcəm",– demişdi. Kərim çox darıxırdı, ona görə bu xəbərə sevinirdi. Nəhayət, evindəki ölü sükut pozulacaqdı. Lalə hər nə qədər sakit təbiətli olsa da, özü ilə evinə qışda istilik, yayda sərinlik gətirməyi bacarırdı. Kərim süst halda kresloya yayxanmışdı. Birdən qulağına çox alçaqdan qapı tıqqıltısı gəldi, əhəmiyyət vermədi, ona elə gəldi

ki, səhv edir. Səs təkrar oldu, bu dəfə aydın eşidilirdi. Gecənin bu vaxtı onun qapısını kim döyə bilərdi? Təəccüblə saata baxdı, saat birə işləyirdi, daha da təəccübləndi. Tənbəl-tənbəl başmaqlarını geyinib aşağı düşdü. Ləngərlənib dayandı, özünü toplayıb qapını açdı. Arzunu görəndə özündən asılı olmayaraq geri çəkildi. Gözünü yumub-açdı, xırıltılı bir səslə soruşdu:

– Nə olub?

Arzu açıq bənövşəyi rəngli koftasının üstündən çiyninə palto atmışdı, ayağında başmaq var idi. Kərim bir də soruşdu:

– Nə olub?

Arzu birnəfəsə danışmağa başladı:

– Kərim müəllim, anam dedi ki, sabah Lalə gələcək, mən anamla gəldim, evə əl gəzdirməkdə ona kömək edim, amma gedəndə əl çantamı burada qoymuşam. Səhər tezdən avtobusla getməliyəm, hər şeyim, pulum, sənədlərim çantadadır. İndi yadıma düşdü ki, çantamı burada qoymuşam. Sizə əziyyət versəm də, gəlmişəm çantamı götürməyə. Kərim əvvəl elə bil Arzunun nə dediyini anlamadı, sonra dərk edən kimi arxaya çəkilib ona yol verdi ki, qalxıb çantasını götürsün. Arzu pilləkənləri qaça-qaça yuxarı qalxdı, Kərim aşağıda gözləyirdi qız çantasını götürüb qayıtsın, o da qapını bağlasın. Arzu isə gəlmək bilmirdi. Gözləməkdən hövsələsi daraldı, məhəccərdən tutub yuxarı qalxdı, Arzu yox idi. Ayaq üstə durmağa halı olmadığı üçün divana uzandı. Beş dəqiqədən sonra Arzu göründü. Paltosunu çiynindən atmışdı. Bədəninə kip yapışan bə-

növşəyi rəngli şalvar, üstündən bənövşəyi rəngli qolu qısa kofta geyinmişdi. Bu paltar ona çox yaraşırdı, onun görünüşündə həmişəki kimi idmançı görkəmi var idi. Qara saçlarını açıb kürəyinə tökmüşdü. Zil qara gözləri par-par parıldayırdı. Kərim qalxıb-oturub, qaşlarını çatıb ona baxırdı. Və nəhayət, dilləndi:

– Hə, nə oldu, çantanı tapdın?

Qız birdən cılğın bir görkəm aldı. Titrəyə-titrəyə danışmağa başladı. Uzun-uzadı, mənasız danışırdı. Kərim onun danışığından bir şey anlamadığı üçün təkrar soruşdu:

– Çantanı tapdınmı?

Arzunun gözlərində yaş halqalandı, yanağı ilə üzüaşağı süzülməyə başladı. Hıçqırığını boğmağa çalışsa da, hıçqırıq daha da coşurdu. Kərim təəccüblə Arzuya baxırdı, birdən ayağa qalxıb qışqırdı:

– Ay qız, sənə nə olub?

Arzu əlinin arxası ilə göz yaşlarını silib birdən qışqırmağa başladı:

– Mənə çanta-zad lazım deyil, mən sizi sevirəm. Mən daha dözə bilmirəm, özümü öldürmək istəyirəm. Bunların boş xəyal olduğunu bilirəm. Siz ailəlisiniz, lap elə ailəli olmasanız da, siz hara, mən hara? Mən ağılsız, axmaq bir qızam. Hisslərimə hakim ola bilmirəm, imtahanlara hazırlaşa bilmirəm. Get-gedə münasibətim dərinləşir. Nə qədər düşünürəm, keçər-gedər. Keçmir! Keçmir! Keçmir!

Qız tir-tir titrəyirdi, ürəyi elə bil koftasının yaxasından çıxıb, çırpınıb, quş kimi göylərə uçacaqdı. Kərimin beyni

elə dumanlı idi ki, orada hər şey bir-birinə qarışmışdı. Elə bil bu qatı dumanın içindən nə isə fikirləşib tapıb, seçib danışa bilmirdi. Qarşısında qışqırıb-bağırıb ağlayan qıza yazığı gəlirdi, ağzını açıb onu sakitləşdirmək istəyirdi, amma səsi çıxmırdı. O, birdən qalxıb Arzuya yaxınlaşdı və bir göz qırpımında qolundan tutub özünə tərəf çəkdi... Səhər yuxudan oyananda başı bərk ağrıyırdı, ağırlaşıb daşa dönmüşdü. Yerindən tənbəl-tənbəl qalxdı. Dönüb yatağa baxanda Arzunun axşamkı çıxışları yadına düşdü. Getgedə ayıldıqca dəhşətə gəldi. Başındakı duman dağıldıqca, Kərimi elə bil birdən-birə ildırım vurdu. Hər şey çılpaqlığı ilə yadına düşdü, donub yerində mat qaldı. Bu gün Lalə gəlməli idi. Kərim neçə gün idi ki, bu günü gözləyirdi.

Sənəm gəlmişdi, Kərimin qarşısında dayanıb nə almaq, nə bişirmək haqqında suallar verirdi. Qonaqların sayını soruşurdu. Başqa vaxt olsa, Kərim pulunu, tapşırığını verib, çıxıb işinə gedərdi. İndi donub yerində qalmışdı. Hərdən ona elə gəlirdi ki, yuxu görüb. Lakin yaxşı bilirdi ki, yuxu-zad deyil. Sənəm yenə nə isə danışırdı. Kərim birdən istədi Sənəmi qovsun, var səsi ilə bağırıb: "Rədd ol!!!" – desin. Özünü zorla toplayıb, Sənəmə pul verib nə lazım olduğunu söylədi. Güzgünün qarşısına keçib özünə baxanda dəhşətə gəldi. Güzgüdən baxan Kərim geyildi, şişkin, saralmış sifəti, qıpqırmızı gözləri olan biri dayanmışdı.

Laləgil axşama yaxın gəlib çıxdılar. Musa, Lalə, Cəmilə, Vüsalə maşından deyib, gülə-gülə düşdülər. Sənəm on-

ların gəlişinə görə süfrə açmışdı. Aş, dolma bişirmişdi, samovar qaynatmışdı. Qonaqlar çox oturmadılar, yeyib-içib, yığışıb getdilər. Lalə evə girəndə ilk gözünə dəyən şey evdəki yerdəyişmə oldu. Otaqdakı əşyaların yerini dəyişmişdilər. Divan, kreslo indi elə yığılmışdı ki, otaq daha böyük görünürdü. Bu vəziyyətdə televizora da baxmaq daha rahat idi. Hər şey Laləyə xoş gəldi. O, Sənəmi çağırıb ona təşəkkür etdi, əvvəl bu gün açdığı süfrəyə və ev-eşiyi belə təmiz, səliqəli saxladığına görə, sonra xəstəxanada olanda Vəsilədən xahiş edib, aldırdığı hədiyyəni çıxarıb verdi. Lalə Arzuya da hədiyyə almışdı. Arzunun hədiyyəsini çıxarıb verəndə Sənəm fəxrlə, yerdəyişmənin Arzunun fikri olduğunu dedi. Kərim evdəki yerdəyişməyə fikir verməmişdi. İndi ətrafa göz gəzdirib əsəbiləşdi, "hər şeyi yerinə yığın", – dedi, – "bir də axırıncı dəfə olsun, öz başınıza yerdəyişmə edəsiniz". Sənəm birinci dəfə idi ki, Kərimi belə əsəbi görürdü. Lalə: "lazım deyil, – dedi. – Mənim belə xoşuma gəlir". Kərim qapını hiss ediləcək dərəcədə çırpıb getdi. Lalə ona fikir vermədi. Sənəmlə birləşib xəstəxanadan gətirdiyi paltarları, əşyaları yerbəyer edib yuyunmağa getdi. Lalə hamamdan çıxıb divana uzandı. Evinin dünyanın hər yerindən rahat, hüzurverici olduğunu düşündü. O, ümumiyyətlə başqa yerdə darıxırdı.

Lalənin evinə gəlib rahatlanmağı uzun sürmədi. Gəldiyi gündən bu yana, Lalə Kərimdə qəribə dəyişiklik hiss edirdi. Az qala günlərlə danışmır, heç nəyə qarışmır, demək olar ki, televizora da baxmırdı. Bir sualı bir neçə dəfə təkrar etməsən, cavab vermirdi. Lalə narahat olmağa baş-

ladı. Qız yalvar-yaxar edib həkimə getməsini xahiş etsə də, həkimə getmirdi, "həkimə ehtiyacım yoxdur", – deyirdi. Lalə onun bu halına çox narahat olurdu.

Kərimsə, özünə nifrət edirdi. Yetimliklə böyüyüb, boya-başa çatmış qızın həyatını məhv etmişdi. Özlüyündə belə insanlara nifrət edirdi. Ehtirası ağlına üstün gələn insanların heyvandan heç nə ilə fərqlənmədiyini düşünən Kərim özü nə etmişdi? Bu dəlisov qızın toruna necə düşmüşdü?

Tələbələrin qış tətili başlamışdı. Kərim bilirdi ki, Arzu gələcək. Ürəyi bulanırdı onunla üzbəüz gələcəyini düşünəndə, tükləri biz-biz dururdu. Arzu gözə dəymirdi. Hər dəfə Lalə Sənəmdən Arzunun niyə görünmədiyini soruşanda Sənəm Arzunun evdə olduğunu, başı işə-gücə qarışdığını deyirdi.

Qış tətili artıq sona çatırdı. Tələbələrin əksəriyyəti Bakıya qayıtmışdı. Lalə təəccüblə Kərimə Arzunun gəlib onunla görüşmədiyini deyəndə, Kərim ona cavab vermədi.

Lalə xəstəxanada olanda Dilarə də onun yanına getmişdi, Lalə onun üzünə baxmamışdı. Dilarə onun bu hərəkətini Lalənin xəstə olmağı ilə əlaqələndirmişdi. Lalə xəstəxanadan çıxıb evə gələndə Dilarə onun yanına gəldi, Lalədə bu dəfə də özünə qarşı bu soyuq münasibəti görəndə təəccüb etdi. O, özündə heç bir günah görmürdü. Lalənin gözünü açmaq istəmiş, ailəsini qorumaq fikrində olmuşdu. Lakin aralarında əvvəlki səmimiyyət olmadığı üçün o mövzuya qayıtmaq istəmədi. Həm də Lalənin bir də hirs-

lənəcəyindən qorxdu. Dilarə Laləsiz darıxırdı. Odur ki, həmin mövzuya qayıtmadan, aralarındakı münasibəti bərpa etmək istəyirdi. Düzdür, hər gün Laləyə zəng edirdi, lakin o əvvəlki münasibətləri yarada bilmirdi. Hər axşam bir yerə yığılıb yeyib-içmək, bir yerdə toya, yasa getmək, bazar-dükanı gəzmək istəyirdi. Bir müddətdən sonra Dilarə istəyinə nail oldu, axır ki, Lalə onun dəvətini qəbul etdi. Axşam Kərimlə gələcəyini vəd etdi. Dilarə əl çəkmədi ki, indi gəl, Kərim axşam Mahirlə gələr, – dedi. Kərim də zəng edib:

– Evdə boş-boş oturub nə edəcəksən? Sən get, Dilarə ilə başını qat, mən də axşam Mahirlə gələrəm,– dedi. İşdən sonra Kərim evə gəlib paltarını dəyişdi. Ayaqqabılarını geyinib yeni qapını bağlamaq istəyirdi ki, qapının taqqıltı ilə açıldığını eşidib geri döndü və pilləkənin aşağısında dayanan Arzunu görəndə damarlarında qan dondu. Qulaqları uğuldadı. Nə deyəcəyini fikirləşə-fikirləşə pilləkənləri aşağı enməyə başladı. Nəhayət, Arzu ilə üzbəüz dayandı. Arzu az qala titrəyə-titrəyə, həmişəki qaydada, birnəfəsə danışmağa başladı. Əvvəlkindən fərqli olaraq çox alçaqdan danışırdı:

– Kərim müəllim, siz heç vaxt, heç nədən narahat olmayın, mən bu sirri özümlə qəbirə aparacam. Heç vaxt adınızı çəkmərəm, burada sizin günahınız yoxdur. Mən sizi sevirəm, ölənəcən sevəcəm. Bir daha məni görməyəcəksiniz. Mən Bakıdan gələndə anam sizin haqqınızda danışdı: “Kərim müəllim nə isə xəstədir, günü-gündən arıqlayır, sapsarı saralır”,- dedi. Mən sizi görəndə dəhşətə gəl-

dim. Az qala sizi tanımayacaqdım. Mən razı olmaram ki, siz belə vicdan əzabı çəkəsiniz. Bu axırıncı görüşümdür. Bircə onu deməyi özümə borc bilirəm ki, hamiləyəm. Və mən bu uşağı dünyaya gətirəcəm. Mən çox şadam, xoşbəxtəm ki, mənim övladımın atası sizsiniz. Sizi əmin edirəm ki, bunu məndən başqa heç kim bilməyəcək.

Kərimin bütün vücudu titrədi. Bu iyrənc qızın yalançı monoloquna nifrət edirdi. Əlacı olsa, üzünə tüpürərdi. Nə qədər özünü ələ almaq istəsə də, bacarmadı, nəfəsi kəsilə-kəsilə, boğula-boğula dedi:

– Murdar, yalançı, rədd ol, buradan!

Arzu danışdıqca titrəyirdi, üzündə qəribə ifadə var idi. Gözlərində yaş halqalanırdı:

– Kərim müəllim, sizin canınıza and içirəm, hamiləyəm, – deyib, dönüb qapıdan çıxdı və bir göz qırpımında gözdən itdi.

Kərim pilləkənin aşağısında yerə çöküb oturdu. İçməmiş sərxoş olmuşdu, Arzuya nifrət edirdi. Onun bayaqkı çıxışını ikrah hissi ilə xatırlayırdı. "Tərbiyəsizin biri, kimləsə əlaqəsi var imiş, indi gəlib ki, övladımın atasısan. Yalana bax".

Moskvadakı həkim gözünün önündə canlandı, səsi qulağında yenidən səsləndi: "Sizin övladınız olmayacaq." Bəs bu murdar məxluq nə çərənləyir?" – deyə düşündü. Bir qədər bu vəziyyətdə qalsa da, özünü toplayıb ayağa qalxdı, demək olar ki, haradasa, ürəyinə bir sərinlik çökdü. Onu narahat edən vicdan əzabı bir az yüngülləşdi. De-

mək, bu qız tərbiyəsizin biri imiş. Özünü nahaq bu qədər günahkar sayırmış.

Mahirgil Kərimi gec gəldiyi üçün danladılar. Dilarənin yeməklərini bəyənən, ləzzətlə yeyən Kərim heç nə yeyə bilmədi. Başı ağrıdığını bəhanə edib tünd rəngli çay istədi. Çayı içən kimi Laləyə: "Gedək" dedi.

O gecə ilan vuran yatdı, Kərim yatmadı. Arzuya deyil, özünə nifrət edirdi. "O tərbiyəsizdir, hər nədir, özü bilər, bəs mən kiməm?" – deyə düşünürdü. Sualına cavab tapa bilmirdi. Günahı içkidə görsə də, bu fikrə haqq vermirdi. "Əksər canilər, qatillər cinayət törədəndə içkili olur, onların əvəzinə içkinimi, həbs etmək lazımdır?" – deyə düşünürdü. O, günahı kimdə, nədə görsə də, axırda günahla özü tək qalırdı, dərd onu didib-parçalayırdı.

Artıq tək Lalə deyil, başqaları da Kərimin hansısa bir xəstəliyə tutulmağından şübhələnirdilər. Lalənin öz xəstəliyi yadından çıxmışdı. Çalışırdı, Kərimin başını nə iləsə qatsın. Amma Kərimlə söhbət edəndə, üzünə baxan kimi görürdü ki, onun fikri ayrı yerdədir. Kərim onun sözünü ağzında qoyub yatmağa gedirdi, lakin Lalə lap üç saatdan sonra otağa keçəndə onun yatmadığını görürdü.

Bir axşam Lalə, deyəsən, Kərimi söhbətə cəlb edə bilmişdi. Arzunun qardaşlarının gəldiyini söyləmişdi. Kərim sual verməsə də, Lalə onu dinlədiyini hiss etdiyi üçün bu səhər Sənəmdən eşitdiklərini böyük həvəslə söylədi:

– Sənəm üç gün idi ki, bizə gəlmirdi. Sən demə, Arzunun qardaşlarının – Sadayla Oqtayın Zahid adlı bir dayısı oğlu var imiş, hansı ki, Sarının onu görəsi gözü yox imiş.

Sarı kişi ölənəcən Zahidi lənətləyib, oğlanlarının elindən-obasından didərgin düşməyində günahı Zahiddə görürmüş. Həmin Zahid rəhmətə gedib, Sadayla Oqtay onun cənazəsini gətirib gəliblər. O vaxtlar Zahid ailəsini yığıb, köçüb Rusiyaya. Yeni gedən vaxtlar bir-iki dəfə paylı-sovqatlı gəlirmiş, gələndə də basıb-bağlayırmış: bağ belə, bostan belə, guya orada süd gölünün içində üzür. Axırıncı dəfə ora qayıdanda Zahid yaşadığı şəhərdən yoxa çıxır. Bir şəhərdən-başqa şəhərə yük daşıyırmış. Bir səhər evdən çıxır, bir daha geri qayıtmır. Gənc arvadı, üç körpə uşağı qalır yad şəhərdə, tanımadığı insanların arasında. Günlər, həftələr, aylar ötür, Zahiddən xəbər çıxmır. Nəhayət, arvadı evdə qalan son əşyaları dəyər-dəyməzinə satır, yolpulu edib qayıdır evlərinə. Zahidin anası arvadı ilə əl-ələ verib uşaqları böyüdür, oxudur, evləndirir. Bu illər ərzində gözləri yolda qalır, qulaqları səsdə. Aradabir Zahiddən xəbər çıxır, gah bu şəhərdə görən olur, gah da başqasında. Hər yeni xəbər eşidəndə ora-buranı soraqlayır, lakin bir dürüst cavab ala bilmədikləri üçün birdəfəlik Zahiddən əllərini üzürlər. Bir neçə ay bundan əvvəl bir nəfər Sadaya başıbağlı bir zərf verir, dərhal da çəkilib gedir. Saday zərfi açıb dəhşətə gəlir. Məktubu Zahid yazmışdı, ünvanını yazıb yalvarırdı ki, öləndən sonra cənazəsini vətənə aparsınlar. Və dönə-dönə qeyd edib ki, yalnız cənazəmi. Sağ ikən anasının, arvadının, uşağının üzünə baxa bilməyəcəyini yazıb. Sadayla Oqtay Zahidin ailəsinə zəng edib məktubdan bəhs edirlər. Zahidin oğlu mütləq gəlib atasını sağ ikən gətirmək istədiyini deyəndə, Saday: "Sənin gəlməyi-

nə ehtiyac yoxdur", – deyib, – "biz gətirib-gələrik". Dərhal onun göstərdiyi ünvana gedir, Zahidi rəzil vəziyyətdə bir zirzəmidə tapırlar. O, xəstəliyə tutulandan neçə illər bir yerdə yaşadığı, uğrunda bütün ailəsinin, anasının üstündən xətt çəkdiyi qadın onu çölə atır. Ac-susuz küçələrdə qalır, nəhayət, bir nəfər ona zirzəmisində qalmağa icazə verir. Doqquz ay imiş zirzəmidə yaşayırmış. Sadayla Oqtay Zahidi sağ tapsalar da, salamat gətirib çıxara bilməyiblər, yolda ölüb. Sənəmin söylədiyinə görə, cənazəni çox soyuq qarşılayıblar, anasından başqa ağlayan yox imiş, Arzu da orda olub. Arzu deyib: "Mən qardaşlarıma görə gəlmişəm". Sənəm sevinirdi ki, qardaşları Arzuya çox xoş münasibət bəsləyiblər. Arzu onlara deyəndə ki, bu ev sizindir, hər ikisi öz növbəsində, Arzuya "Sən bizim bacımızsan", deyiblər, – "sənin də bizim qədər bu evdə haqqın var". Lalə Sənəmin sevindiyini deyəndə, Kərim düşünürdü ki, görəsən, Arzu atasız uşağı dünyaya gətirəndə utanmayacaqmı? Yenicə ünsiyyət qurduğu qardaşlarının üzünə necə baxacaq? Bu uşağın atası kimdir, deyəcək? Az qaldı ki, Kərim bu sualı Laləyə versin: "Arzu hamilə olduğuna görə qardaşlarından utanmırmı?" Elə bil yuxudan oyandı. Onun Arzudan əzəldən zəhləsi gedirdi. Onun heç bir hərəkətini ciddiyə almayıb, ağılsız, boşboğaz, dəlisov bir qız kimi tanıyırdı. Gör başına nə iş gəldi? Bu dəlisov, boşboğaz qız kimdənsə hamilə olub, gəlib ki, uşağımın atası sənsən, – deyirdi. Fikirlər, buraxdığı səhv onu üzürdü.

Xeyli vaxt idi ki, Kərimin işində elə gərginlik var idi, onun başını qaşımağa vaxtı olmurdu. Hətta o qədər gərgin günlər idi ki, Arzu yadına düşmürdü, düşəndə ürəyi bulanırdı. Günlər keçdikcə Kərimin ürəkbulanmasının yerini nə isə, qəribə bir hiss tuturdu. Hər zaman gözünün önündə, gözündə yaş halqalanmış bir qız dayanıb:

– Hamiləyəm! – deyirdi. – Uşağımın atası sənsən.

Zaman keçdikcə Kərimin xatirəsində olan-qalan sözləri, elə bil kimsə, əlinə pozan alıb silirdi. Ətrafdakı sözlər, fikirlər pozulduqca bircə söz aydın eşidilirdi: Hamiləyəm!!! Kərimə get-gedə bu söz xoş gəlirdi. Hətta bəzən ürəyini silkələyirdi. Artıq iki-üç ay keçmişdi. Zaman keçir, Kərimin isə marağı artır, bəzən də marağın yerini ümid tuturdu. İstəyirdi ki, bu, həqiqət olsun. Özünü inandırmağa çalışırdı ki, bu uşaq onundur. Arzunun üzündəki ifadəni xatırlayır və bu qərara gəlirdi ki, qız düz danışır. Axı onun həyatındakı ilk kişi Kərim idi. Bəlkə, doğrudan, bu uşaq onunkudur? Niyə olmasın? – deyə elə hey düşünürdü. Artıq bu fikir özünə yer etmişdi. Müəmmadan, məchulluqdan çıxıb, həqiqətə çevrilməyə başlamışdı. Kərim bu işi aydınlaşdırmağa qərar verdi: "Bakıda işim var", – deyib Bakıya yola düşdü.

Ertəsi gün yuxudan duran kimi çay içib-çörək yeməmiş xəstəxanaya yola düşdü. Həkim tapıb təhlil verdi. Təhlilin cavabı üç saatdan sonra çıxmalı idi. Bu üç saat ondan ötrü üç ilə bərabər oldu, iki qutu siqareti çəkib qurtardı. Bu illər ərzində Kərim dərdinə qatlaşıb oturmuşdu, indi isə yarasının qaysağı qopmuşa dönmüşdü. Ona elə gə-

lirdi ki, yaradan qan axır, özü də ürəyinə. Axır ki, gözləməkdən gözünün kökü saralsa da, növbəsi çatdı. Qapını açıb içəri keçdi. İçəridə ağsaçlı, yaşlı bir kişi oturmuşdu. Başı aşağı, kağızların arasında nə isə qurdalanırdı. Eynəyinin altından Kərimə baxdı. Hər ikisi sükut içində bir-birinə baxdılar. Həkim soruşdu:

– Nə şikayətin var, oğlum? Sənin ki, təhlilinin cavabı əladır. Heç bir narahatlığa ehtiyac yoxdur. Nədən şikayətçisən?

Kərimin bayaqdan şiddətlə döyünən ürəyi az qaldı dayansın, özü də hiss etmədən:

– Necə yəni əladır? – deyə soruşdu. Həkim gülümsəyib, cavab verdi:

– Nədir, sənə ayrı cavab lazımdır? Sən sağlamsan, narahatçılığa heç bir səbəb olmayan bir adamsan.

Kərim özünə tanış olmayan bir səslə dedi:

– Həkim, mənim övladım yoxdur.

Həkim yenə də sakit bir tərzdə cavab verdi:

– Nə olsun yoxdur? Bunun günahkarı sən deyilsən, xanımındır. O yoxlanıb? Kərim başına gələni açıqladı:

– Həkim mənə Moskvada dedi ki, sənin övladın olmayacaq.

Nurani qoca oturduğu stoldan ayağa qalxdı:

– Sənə kim nə deyib, bilmirəm, oğlum, səndə heç nə yoxdur, get, harada istəyirsən, yoxlan, övladının olmamağında günahkar sən deyilsən. Mən bunu sənə tam əminliklə deyirəm. Gətir xanımını, müayinə etdir. Kərim otaqdan necə çıxdığını xatırlamırdı, yeriyən heykələ dönmüş-

dü. Fikirlər bir-birinə qarışmışdı. Heç nə düşünə bilmirdi. Heç sevinə də bilmirdi. İllərdən bəri onu əzən, parçalayan, həyatını alt-üst edən bir şey əslində elə deyilmiş. Bəs nə imiş? Bunca illər əzab çəkmələrinə səbəb nə idi? Həkim Laləyə sağlamlıq kağızı vermişdi. Maşına yaxınlaşdı, maşından su götürüb əl-üzünü yudu. Rolun arxasına keçib, xeyli beləcə oturdu. Sonra maşını sürüb birbaşa evinə tələsdi. Yolboyu Laləyə nə deyəcəyini düşünürdü. Birdənbirə həkimə getdiyini necə söyləsin? Bəlkə heç nə deməsin? Yox, bu fikrin üstündə bir saniyə belə durmadı. Moskvada cavabı həkim onun özünə vermişdi. Özü də öz dili ilə izah etmişdi və onun ümidini elə qırmışdı ki, Kərim bir dəfə olsun, həkimə getmək haqqında düşünməmişdi. Hərdənbir Lalə o barədə ağzına söz almaq istəyəndə aralarında elə soyuqluq yaranırdı ki, az qala küsülü vəziyyətə düşürdülər. Hər şey bir yana, Kərimin atasını bu xəbər öldürdü. Kərim özü təklikdə demişdi atasına. Həmin günü xatırlamaq istəmirdi. Atasının nə günə düşdüyü gözünün qabağından çəkilmirdi. Yazıq kişinin nitqi qurumuşdu. Əvvəl istədi Kərimə təsəlli versin, çünki o buna vərdiş etmişdi. "Heç nəyi vecinə alma", – desin. Ancaq "vecinə alma" deyə bilmədi. Elə bil yazıq kişinin boğazından tutub boğurdular. Heç ondan sonra da çox yaşamadı. Yaşadığı illəri də xasiyyətindən fərqli olaraq səssiz-səmirsiz yaşadı. Bir gün televizora baxdığı yerdə ürəyi dayandı. Yanındakı tumbanın üstündən Sona xanım bir parça kağız tapmışdı.

Qəvvasam, dəryada üzə bilmirəm.
Barsız bağçalarda gəzə bilmirəm.

Arsız gəzməyə də dözə bilmirəm.
Siz məni axtarın, Dəryan dağında.

Sona xanım o kağızı oxuyanda ürəyi getmişdi. Kağızı anasının qıc olmuş əlinin arasından Kərim zorla çıxarıb oxumuşdu. Sona xanım istəmirdi ki, Kərim o kağızı oxusun. Özünə gələndə, gözü böyümüş halda kağızı soruşdu. Kərim özünü elə apardı ki, guya kağızı oxumayıb, "əlində bir kağız parçası var idi, atdım", – dedi. Kərim Sona xanımın necə sakitləşdiyini xatırladı. Kərim az qalırdı maşını Tovuza deyil, Moskvaya sürsün, həkimi tapıb sualı ona versin. Bütün bu qarışıq fikirlərin arasından bir qız boylanıb elə hey: "Hamiləyəm!" – deyirdi. Kərim sevinə bilmirdi. Bu xəbəri ona Lalə verməli idi. Aman Allah, gör, bu sözü ona kim söylədi?! Özü də hansı şərtlər altında. Kərimə yaraşmayan, xəcalətindən ölüb, yerə girmək istədiyi bir halda. Hər yadına düşəndə ürəyi bulanırdı. Lakin nə olur-olsun, nə düşünür-düşünsün, uzaqda gözlərində yaş halqalanmış bir qız dayanıb: "Hamiləyəm", – deyirdi. Kərimin yadına Mehman Rasimoğlunun bir şeiri düşdü.

Nifrət dolu məhəbbətə dalmışam,
İki hissin doğması mən, yadı mən.
Gələcəyi keçmişimdə salmışam,
Cəhənnəmin ünvanı mən, adı mən.

Gəncəyə çatanda yadına düşdü ki, dünəndən bir tikə yemək yeməyib. Başı bərk ağrıyırdı. Qarşısına çıxan ilk yeməkxanada yemək yedi. Evdə Laləyə nə deyəcəyi haqda düşünürdü. Öz suallarına cavab tapa bilmirdi ki, bilmirdi. Nəhayət, özünü toplayıb ayağa durdu.

Evə çatanda hava qaralmışdı. Pilləkənləri qalxanda evdən çoxlu səs-küy gəlirdi. Kərim Lalənin belə yüksək səslə televizor izləməsinə təəccüb etdi. İçəri girəndə Nazlı ilə Lalənin ortalıqda rəqs edən Ləmana əl çaldığını gördü. Axır vaxtlar Nazlı ilə Lalənin arasında, nə isə bir soyuqluq hiss edən Kərim bu barədə Laləyə sual vermirdi, indi onların belə xoş bir ünsiyyətdə olmağına təəccüb etdi. Onu görən kimi Ləman onun qucağına çıxıb boynuna sarıldı. Kərim onu qucaqlayıb:

– Burada olduğunu bilmədim ki, sənə hədiyyə alim, – dedi.

Nazlı tez sual verdi:

– Gələndə bizə dəymədin?

Kərim: – yox, – deyə cavab verdi. Sonra yemək istəmədiyini söyləyib, qadınları otaqda qoyub yatmağa getdi.

Qurban bayramı idi. Nazlı Lalənin təkidi ilə bayram günlərini onlarda keçirdi. Nazlı Lalənin onunla əvvəlki kimi xoş münasibətdə olmağına sevinirdi. Çünki o Kərimi də, Laləni də çox sevirdi, Laləyə qeyri-adi hörməti var idi. Həftəsonu bayramlarda onlarla birlikdə istirahət edirdi, yəni ruhu dincəlirdi. Yoxsa, Nazlı onlara əziyyət vermirdi. Yeməkləri özü bişirir, Lalənin qayğısına qalırdı. Hələ də Lalənin ona qarşı soyuqluğunun səbəbini bilmirdi. Harada, nə zaman səhv etdiyini anlamırdı.

Nazlı Laləyə ona elçi çıxdığı haqqında danışmaq, ondan məsləhət almaq istəyirdi. Nə qədər özünü toplasa da, nədənsə, deyə bilmədi, utandı. Bu neçənci dəfə idi ki, Nazlı Gəncədən gələndə bu dəfə Laləyə mütləq Yaşardan

söz açacağını düşünür, ancaq bura gələndə söz tapa bilmirdi. Əslində bu haqda danışmağa cürət edə bilmirdi; Kərimdən, Tariyeldən utanırdı.

Nazlı bayram qurtaranda getdi. Bu müddətdə Kərim heç nə demədi. Nazlı gedəndən iki-üç gün sonra, bir axşam işdən gələndə, yeməyə başlamazdan əvvəl Lalənin üzünə baxıb: – Bakıya gedəndə həkimə getmişdim, – dedi.

Lalə əlindəki qabları süfrəyə qoyub:

– Yaxşı iş görmüsən, axır vaxtlar çox zəifləmisən, rəngin solub, gözlərin çuxura düşüb. Mən çox narahat oluram, – sonra birdən bu sözləri dediyi üçün peşman oldu, tez Kərimin üzünə baxıb sözünü dəyişdi:

– Yox, əslində arıqlamaq sağlamlıqdır, belə daha yaxşı görünürsən, amma hər halda, həkimə getməkdə yaxşı iş görmüsən. Həkim nə dedi? Allah eləməmiş, qorxulu bir şey yoxdur ki?

Kərim başını bulayıb ayağa durdu . Mətbəxə tərəf gedə-gedə dilləndi:

– Elə həkimə yox, Lalə, təhlil həkiminə analiz verdim. Qəribədir, müayinədən keçdim, tam sağlam çıxmışam.

Elə bil üstündən yük götürüldü, çətinlikdən qurtarıb, rahatlandı. Ona elə gəlirdi ki, Lalə onun həkimə getməyinə təəccüb edəcək. Əksinə, qız çox sevindi. Üzündə bir ümid, sevinc ifadəsi yarandı. Lalə illərdən bəri hər açılan səhərə ümidlə baxırdı, bəlkə Kərim həkimə gedər, bəlkə hansı həkimsə, onların dərdinə çarə edə bilər. Amma bunlar arzu olaraq qalırdı. Bəlkə Moskvadakı həkim səhv edirdi. Kərimin isə heç vaxt həkimə getmək fikri olmayıb. Lalə bu illər

boyu o mövzuya cəmi bir-iki dəfə toxunmuşdu. Hər dəfə də peşman olmuşdu. Axırıncı dəfə bu mövzunun Kərimə hədsiz pis təsir etdiyini görüb, özünü lənətləyib, birdəfəlik həkimdən, uşaqdan söz açmayacağına söz verdiyi yadına gəldi. Və birdəfəlik o mövzuya qayıtmadı. İndi qız Kərimin düşündüyünün əksinə, çox sevinirdi. Kərim soruşdu:
– Lalə, o vaxt həkim sənə nə demişdi?

Lalə tez ayağa qalxıb əlində bir qalaq kağız geri qayıtdı. – Hamısını saxlamışam, – dedi. – Bu da həkimin adı, soyadı. Nona Danielyan. Mənə sağlamlıq kağızı verib. Sonra Kərimə aid olan kağızları axtarıb tapa bilmədi. Qayıdıb bir də axtardı. Heç nə tapa bilməyib, çiyinlərini çəkib, Kərimə baxdı. Kərim dedi:

– Bəlkə, o vaxt mən götürməmişəm. O, sözünü mənə dedi, mən də həkim sözünü qurtaran kimi, kağız-zad götürməyib aşağı düşdüm.

Araya uzun bir sükut çökdü. Heç biri bir şey anlaya bilmirdi. Həqiqət bu idi ki, uşaqları yox idi. Bəs niyə yox idi? O vaxt həkim Laləyə sağlamlıq kağızı verib günahı Kərimdə görmüşdü. İndi də Kərimə sağlam olduğunu demişdilər. Sükutu Lalə pozdu:

– Mən də mütləq həkimə gedəcəm, – dedi. Gərək o vaxt başqa həkimə gedəydik.

Kərim də, öz növbəsində, səhv etdiyini söylədi.

O gecə nə Kərim yatdı, nə də Lalə. Hər ikisi mat qalmışdı. Arzu olmasaydı, Kərim heç vaxt həkimə müraciət etməyəcəkdi. O həkim ona qətiyyətlə: "Heç vaxt sənin uşağın olmayacaq" demişdi. Amma burada başqa bir mü-

əmma da var idi. Uşağın olmamasına səbəb nə idi? Lalə də eynilə Kərim kimi düşünürdü.

O, səhər yerindən duran kimi Kərimə həkimə getmək istədiyini dedi.

Kərim: – Səni özüm aparacam, sən bir-iki gün səbir et, işlərimi sahmanlayım, birlikdə gedərik, – dedi.

On gündən sonra, Lalə təhlillərinin cavabını alıb, bütün müayinələrdən keçib həkimin qarşısında oturmuşdu. Həkim xeyli yaşlı, nurani üzlü bir qadın idi. Çox təəccüblə Laləni süzdü, sonra mehriban baxışlarla ona baxıb dedi: – Siz özünüz də həkimsiniz, niyə bu qədər gözləyib, səbəbsiz yerə övlad sahibi olmamısınız? – deyə sual verdi. Lalə Moskvadakı həkimin verdiyi cavabı və bundan sonra, birdəfəlik ümidlərini kəsdiklərini söylədi. Həkim hirslənib ayağa durdu:

– Ay qızım, ona bu qədər inanmaq məcburiyyətində idinizmi? Mən axırıncı illərdə başqa ölkələrə müalicəyə gedən xəstələrin erməni həkimlər tərəfindən belə, başqa səmtə yönləndirildiklərinin dəfələrlə şahidi olmuşam.

Lalə donub qalmışdı, ona görə də:

– Necə yəni? – deyə bildi.

– Əslində səndə də elə bir qüsur yoxdur. Amma o kiçicik qüsurla ana ola bilməzsən. Halbuki adi, yerli keyitmə ilə o şiş götürülsə, lap elə bu aydan sonra hamilə olmaq ehtimalınız var.

Lalə heç nə eşitmirdi, ona nə həkim, nə qadın demək istəməyərək, düşünürdü ki, o varlıq hansı vicdanla onla-

rın ümidini daşa çırpmışdı? Bilə-bilə etmişdi. Bəli, erməni xisləti burda da özünü göstərmişdi.

Həkim bir daha ona artıq neçə dəfələrlə bu və ya başqa şəkildə xəstələrin aldandıqlarının şahidi olduğunu söylədi və yenə də növbəti erməni xəyanətinin şahidi olduğunu dedi.

Lalə bir aylıq tam müayinə və müalicədən sonra, ürək həkiminin razılığı ilə narkozsuz, yerli keyitmə ilə əməliyyata girdi. Cəmi on beş-iyirmi dəqiqə ərzində şişi götürdülər, Lalə bir neçə saatdan sonra özünü yaxşı hiss edirdi. Heç bir çətinliklə qarşılaşmadı. Bir həftədən sonra xəstəxanadan çıxıb, sevinə-sevinə evinə gedirdi. Həkimlər ona tam əminliklə ana olacağını söyləmişdilər. Ürək həkimi ürəyinin sağlam olduğunu demişdi. Əksinə, onun xəstəliyi əsəblə əlaqəli olduğu üçün hamiləlikdən sonra hər şeyin sabitləşəcəyinə dair ümid vermişdi. Lalə xəstəxanadan çıxanda dünyanın xoşbəxti idi. Hər şey gözünə başqa cür görünürdü. Elə bil dünya gözəlliyə qərq olmuşdu. Günəş də gözəl idi, yer də, göy də, əsən meh də. O, sevinə-sevinə, Kərim isə, fikirli-fikirli evə qəldilər. Uzun-uzadı başlarına gələn əhvalatı müzakirə etdilər. Lalə danışırdı, və indiyə qədər erməni həkimlər haqqında belə şeylər eşidib inanmadığını söyləyirdi. Kərim ona qulaq asmırdı, ona görə də ona gah cavab verirdi, gah da yox.

Arzu hamilə idi. Bunu gizlətmək olardımı? Bir azdan qarnı böyüyəcək. Ondan uşağın atasını soruşacaqlar. Nə cavab verəcək? Lap elə Kərimin adını çəkməsə də, uşaq Kərimin uşağı idi. Artıq buna əmindi. Bu uşaq onun həya-

tını dəyişmişdi. İllərdən bəri onu paramparça edən hissdən azad etmişdi. Kərim özünü qəribə hiss edirdi, fikirləşməkdən başı çatlayırdı. Bilmirdi sevinsin, yoxsa, kədərlənsin? "Allah mənə verdiyi sevinci də kədərli verir", – deyə düşünürdü, kədərdən də betər.

Artıq dərslər bitmək üzrə idi, yay tətili başlamışdı, Arzunun qarnı böyüyürdü, diqqət çəkməyə başlamışdı – "Nə yaman kökəlmisən" deyənlər var idi. Arzu bilirdi ki, bu suallardan daha qaça bilməyəcək. Onu da bilirdi, Kərimin adını çəkməyəcək, anasına da deməyəcəkdi. O, Kərimi sevirdi, öz sevgisini heç kimlə müqayisə etmirdi. Ona elə gəlirdi ki, indiyə qədər yazılan sevgi dastanları onun sevgisinin yanında damladır. Qarnında Kərimin bir parçasını gəzdirdiyi üçün fəxr edirdi. Arzu bu hərəkətləri ilə özünü qalib sayırdı. Bir daha Kərimin gözünə görünməməyi özünə söz vermişdi. Heç vaxt onu narahat etmək istəmirdi. Xəyallarının qəhrəmanı olan Kərimi reallığa çevirmişdi. Düzdür, atdığı bu addım üzə çıxanda biabır olacaqdı. Hər yerdə, hər evdə, hər kəs ondan danışacaq, qınaq obyekti olub, nifrətlə qarşılaşacaqdı. Bütün bunları bilə-bilə özü ilə bacarmadı. Daim düşünürdü: "Görəsən, Kərim müəllim mənim hisslərimi başa düşdümü?" Öz sualına özü cavab verirdi: "Yox! Yox! heç ağlının ucundan da keçmirəm. Kərim müəllim hara, mən hara? O, qapını açıb məni içəri buraxanda məni bir boşluq kimi, bir heç kimi görürdü, nə olursa-olsun, günah mənimdir", – deyə düşünürdü. Kərim Arzu danışanda ona qulaq da asmırdı. Bütün bunları Arzu bilirdi. Hal-hazırda Arzunu narahat

edən bu durumdan qurtarmaq idi. "Qurtarmaq" deyəndə qərarı qəti idi: uşağı dünyaya gətirəcəkdi. Lakin suallara nə cavab versin? Uşağın atası kimdir, desin? Hər gün bir yalan uydurur və gününü o yalanla başa vururdu. Arzu Kərimin böyüyüb boya-başa çatdığı evi görməmişdi, bir neçə parçasını şəkillərdən, qalanını Lalənin söhbətindən birləşdirib, xəyalında bir ev qurmuşdu. Və özünü bu evin xanımı kimi təsvir edirdi. Xəyalında həmin evdə Kərimlə birgə qocalır, oğul-uşaq, nəvə-nəticə sahibi olurdu. O, xəyalındakı bu evi sevib, əzizləyirdi. Ona görə yox ki, bu mülk gözəl idi. Sadəcə, orada Kərim doğulmuşdu, böyümüşdü, hər yerə ayağı dəymişdi. Bəzən Arzu sarayın yerinə kiçik bir daxma düşünürdü. Orada Kərim yaşayırdısa, deməli, hər şey gözəl idi. Arzu bir ömür bu xəyallarla yaşamağa razı olardı. Ona da əmin idi ki, bu xəyallar elə xəyal olaraq qalacaq, heç vaxt həyata keçməyəcək. Ona indiki durumdan çıxmaq lazım idi. Daha rayona gedə bilməzdi. Ona görə anasına də zəng edib demişdi ki, Bakıda yaxşı iş tapıb, qalıb işləyəcək. Sənəm razı olmamışdı, "iş-zad lazım deyil", – demişdi. Amma Arzu qətiyyətlə qalıb işləyəcəyini deyib, dəstəyi asmışdı. Sənəm axır vaxtlar Arzudan şübhələnmişdi. Çünki qız çox fikirli, süst görünürdü. Dil-boğaza qoymayan, səhərdən-axşamacan qaynayan qız, indi demək olar ki, danışmırdı. Arzunun iş tapmasına heç bir ehtiyac yox idi. Axır vaxtlar Kərim müəllim ona yetərincə hörmət edirdi, hələ artıqlaması ilə. Ona görə Arzunun iş axtarması, nə isə Sənəmə qaranlıq qaldı. Axır ki, Arzu Bakıda doğrudan da, iş tapdı. Özü də əsl ona lazım

olan iş. Qruplarında oxuyan bir qız xalasına baxıcı axtarırdı. Qadının oğlanları xaricdə idi. Analarını da özləri ilə aparmaq istəsələr də o, "evimdən çıxan deyiləm", – demişdi. Qadının bağı da var idi. Əgər qadına baxan adam razı olsa, lap bağda da qala bilərdi. Arzu dərhal razı oldu. Bağa getmək fikri lap ürəyindən oldu. Bakının istisində şəhərdə qalmaqdansa, bağda qalmaq lap ürəyindən oldu. Elə həmin gün o xanımla tanış oldu.

Qəmər xanım yaşlı, nurani bir qadın idi. Xeyli cavan bacısı ona himayədarlıq edirdi. Bacısına baxıcı tutur, sonra da onlara nəzarət edirdi. Arzu  əgər istəsələr, bağda məmnuniyyətlə qala biləcəyini söylədi. Bir-iki gün şəhərdə qalıb, yığışıb Mərdəkandakı bağ evinə köçdülər. O, çox sevinirdi. Bura çox gözəl, rahat bir bağ evi idi, ikimərtəbəli bina azacıq köhnəlmiş olsa da, zövqlə təmir edilmiş, içərisi klassik mebellə bəzədilmiş bir mənzil idi. Gözdən qıraq yerdə, rahat bir yaşayış yeri tapdığı üçün hələlik rahatlanmışdı, "sonrasına  Allah kərimdir", – deyə düşünürdü.

Qəmər xanım da ipək kimi bir qadın idi. Şəkər xəstəliyi vardı, gözləri çox zəifləmişdi. Ayağını sürüyə-sürüyə, zorla yeriyirdi. Ömrünün son günlərini qürbətdə yaşamamaq üçün oğlanları ilə xaricə getməmişdi. Lakin bu ona çox baha başa gəlmişdi, onlarsız çox darıxırdı. Qəmər xanımın baxıcısı hər kim olsa, bacısı onları nəzarətsiz qoymurdu. Yeməyi-içməyi, dərmanları, hər şeyi nəzarət altında idi. Günlər keçdikcə Qəmər xanımın bacısı Nübar, ən azı həftədə bir dəfə bağa gəlirdi və bacısının Arzudan razı olduğunu biləndən sonra rahatlanmışdı. Qəmər xanım tələb-

kar adam deyildi. Arzuya baxıcı kimi deyil, övladı kimi baxırdı. Onunla gecənin yarısına qədər söhbət edir, televizora baxırdı. Arzu da bacardığı qədər Qəmər xanıma canbaşla qulluq edirdi. Bu, işin xətrinə deyildi, Qəmər xanıma çox hörmət bəsləyirdi. Onun söhbətlərinə saatlarla qulaq assa da, doymurdu. Bu qadının kübarlığına, xanımlığına, incə qəlbinə heyran qalmışdı. Arzuya görə Qəmər xanım canlı məktəb idi. Arzu Qəmər xanımın yanında saatbasaat, günbəgün başqalaşırdı, İlahi, o nələr dinləyir, nələrə qulaq asırdı, nələr öyrənirdi. Gecələr tək qalanda özünə yazığı gəlirdi. Demək olar ki, o heç tərbiyə görməmişdi. Atasının qohumları ana-bala onları özlərinə yaxın qoymamışdı. Anası tərəfdən heç kimi tanımırdı, ilk ayaq basdığı ev Kərim müəllimin evi idi. Orada da Arzu heç kim idi. Orada onun boş-boş danışmağına qulaq asıb gülürdülər. Yadına düşürdü ki, Lalə gözündən yaş gələnə qədər gülürdü. Amma Qəmər xanım ona danışmaqdan çox, dinləmək, ağzından çıxan sözü qulağının duymağını öyrətdi. Arzuya insan kimi baxırdı. Rayonda olanda Sənəm gecə-gündüz qapılarda işləyib yemək gətirmişdi, Arzu heç vaxt ac qalmamışdı. İndi isə o, özü düşünürdü ki, uşaq böyüdüb boya-başa çatdırmaq onun qarnını doydurmaqdan ibarət deyil, dünyaya gələn bütün canlılar qarınlarını doydurur. İnsan olan kəs dünyaya tək qarın doydurmaq üçün gəlmir. Arzu arxaya baxanda ondan başqa bir şey görmədi. Sənəm Arzunun yeməyini verib yatmağa gedirdi. Günlər ötdükcə Arzu Qəmər xanımdan utanırdı. Böyüyən qarnını gördükcə xəcalət çəkirdi. Əlini qarnının üstündə gəzdirir,

bədəninə istilik yayılırdı. “Qəmər xanım hiss etsə, görsə, ona nə deyəcəm?” – deyə düşünüb, qanı qaralırdı. Tovuza getmədi, onlardan gizlətdi. Bəs Nübar xanıma, onun qızına nə deyəcək? Şəhla onun rəfiqəsi idi. Şəhla onu yetim, kasıb, amma təmiz bir qız kimi tanıyırdı. Belə tanıdığı üçün xalasını ona etibar etmişdi. Arzu Qəmər xanımın dərslərini dinlədikcə dərdinin üstünə dərd gəlirdi.

Yay başa çatmaq üzrə idi. Yəqin ki, Qəmər xanım şəhərə qayıdacaqdı. Dərslər başlayacaqdı. O, isə uşağı dünyaya gətirməli idi. Arzu Qəmər xanımın sayəsində nə qədər böyük səhv etdiyini anlasa da, uşağa olan məhəbbəti azalmırdı, əksinə, uşaq böyüdükcə ona olan məhəbbəti də artırdı. Məhəbbət artsa da, uşağı dünyaya necə gətirəcəyi fikri onu didib-parçalayırdı.

Həkim Laləyə ana ola biləcəyini deyəndən üç ay keçirdi, heç bir yenilik yox idi. Lalə ilk aylar çox hərəkətli, sevincli, həyat eşqli idi. Get-gedə ümidi azalır, öləziyən şam kimi ölürdü, ümidi itdikcə susqunlaşıb, ruhdan düşürdü. Kərim isə tamam başqa adam olmuşdu. Gecə-gündüz Arzunu düşünürdü. Arzunun harada olduğunu bilmək istəyirdi. Arzu bu yay tətilində rayona gəlmədi. Lalə Sənəmdən Arzunu soruşanda heç vaxt bir dürüst cavab vermirdi. Hər dəfə, nə isə, mızıldayıb aradan çıxırdı. Lalə bir neçə dəfə Kərimə də sual vermişdi: “Bu Sənəmin qızı, görəsən, niyə yoxa çıxıb?” Kərim Laləyə: “Nəyimizə lazımdır”, – deyib fikrə gedirdi. Səhər Ləmanın ad günü idi. Kərimlə Lalə Gəncəyə getməyə hazırlaşırdı. Lalə özünü pis hiss edirdi, getməmək qərarına gəlmişdi. Kərim içəri elə hay-

küylə girdi ki, Lalə ona getmək istəmədiyini deyə bilmədi. Hədiyyələr bağlatmışdı. Kərimin bu gün kefi yerində idi. Laləyə həvəslə Tariyelin də orada olacağını dedi. Tariyel zəng edib: "Mütləq gəlin", – deyib, bu gün Nazlıya elçi də gələcək. Lalə daha özünü pis hiss etdiyini demədi. Bunu özlüyündə ruh düşkünlüyü kimi qəbul etdi, "bəlkə də evdən çölə çıxsam, düzələrəm", – deyə düşündü.

Yolda Kərim Lalədən: "Nazlının elçiləri haqqında bir şey bilirsənmi?"– deyə soruşdu. Lalənin başı bərk ağrıdığı üçün cavab verməyib, başını buladı.

Onlar Nazlıgilə çatanda Tariyel həyətdə gəzişirdi. Kərim Tariyel ilə görüşüb yanında durdu. Lalə içəridə başı qarışan qadınların yanına keçdi. Lalə Nazlını cəmi bir ay idi ki, görmürdü. "Bir ayın içində ailə qurmaq olarmı?" – deyə düşünürdü. – "Bu nə deməkdir?" Lalə sualına cavab almaq üçün Nazlı ilə təklikdə söhbət etmək istəyirdi. Nazlı isə Lalə soruşmadan cavab verdi:

– Yaşar mən işləyən məktəbin müdiri Minayə müəllimənin oğludur. Onun da həyat yoldaşı ikinci uşağı dünyaya gətirəndə vəfat edib. Minayə müəllimə iki ildir məni oğlu ilə evləndirməyə çalışır. Amma mən bir daha ailə qurmaq istəmədiyimi bildirdim. Nəhayət, Minayə müəllimə Yaşarla birlikdə Naxçıvana – Tariyelin yanına getdi. Yaşar elə ilk baxışdan Tariyelin ürəyinə yatsa da, "fikirləşib sizə cavab verərəm", – deyib və Gəncədəki dostlarından Yaşar haqqında məlumat öyrənməyi xahiş edib. Onlardan müsbət cavab alan Tariyel, demək olar ki, Nazlını zorla ailə qurmağa məcbur edib.

Nazlı bunları danışıb susdu. Lalənin üzünə baxıb yenidən dilləndi:

– Hər dəfə Tovuza gedəndə Yeni ildə, Qurban bayramında, lap elə xəstəxanaya gedəndə sənə danışmaq istədim, məsləhət almaq istədim, üzüm gəlmədi.

Nazlının belə ətraflı məlumatından sonra Lalə bir az sakitləşsə də, hər halda, Nazlının indiyədək ona bu barədə bir söz danışmamağına təəccüb etdi. Nazlı: "Məni Tariyel zorla razılığa gətirdi", – desə də, sevincini gizlədə bilmirdi. O, gözü ilə Ləmanla oynayan qızı göstərib: – Yaşarın qızıdır, – dedi. – Körpəlikdən Ləmanla birgə böyüyüb. Anasını itirəndən mən onu böyütməkdə Minayə müəlliməyə yardımçı olmuşam. Yaşar məni onu aparmağa gələndə görüb. Mehribanı bizdən ağlaya-ağlaya, zorla aparırdı. Lalə: – Lap yaxşı, sevindim, çox şad oldum, amma yenə deyirəm, gərək mənə də danışaydın, – dedi.
Nazlı Laləni qucaqlayıb dedi:

– Dəfələrlə sənə bu söhbəti açmaq istədim. Cəsarət edə bilmədim. Lalə, mən düşünürdüm ki, Tariyel qətiyyən razı olmayacaq. Mən isə bu dəfə Tariyelin razılığı olmadan, ölsəm də, ailə qurmayacaqdım.

Lalə Nazlını öpüb:

– Təki xoşbəxt ol,– dedi.

Bütün qonaqlar gəlmişdi, Minayə müəllimə ilə Yaşardan başqa. Nazlının qonağı çox deyildi. Məktəbdən bir-iki müəllim yoldaşı idi. Onlar da Nazlıya süfrə açmaqda kömək edirdilər. Otağın birində Ləman üçün süfrə açıb şarlarla, rəngli kağızlarla, oyuncaqlarla bəzəmişdilər.

Çox keçmədi ki, Minayə müəllimə ilə Yaşar da gəldi. Böyük bir gül səbəti və səliqə ilə bağlanmış hədiyyə bağlaması gətirmişdilər. Onları Kərimlə Tariyel qarşıladı. Yaşar arıq bədənli, uca boylu, qaraşın bir adam idi. Ciddi, təmkinli, özünə güvənən bir görünüşü vardı. Gəncə alüminium zavodunda mühəndis işləyirdi.

Hər şey əla idi. Süfrədəki yeməklərə söz ola bilməzdi. Hiss olunurdu ki, süfrə böyük həvəslə açılıb, yeməklər bir-birindən dadlı idi. Kərimlə Lalə ayrı-ayrılıqda Yaşarı bəyəndiklərini söylədilər. Nazlıya xoşbəxtlik arzuladılar. Yedilər-içdilər, Ləmanı təbrik etdilər. Yemək süfrəsi yığıldı, Nazlı çay süfrəsi açdı. Lalənin başı bərk ağrıyırdı, məclisin bitməyini gözləyirdi. Nəhayət, çay süfrəsində Minayə müəllimə Tariyel İlə Kərimə müraciət edib, gələcək bir ailənin təməlinin qoyulmasına razılıq istədi. Tariyelin şad olmağı hər halından bəlli idi. O, ayağa qalxıb ürəkdən: "Allah xeyir versin!"– dedi.

Yolboyu Kərim Yaşarı çox bəyəndiyni, Nazlını bacı qədər sevdiyini, axır vaxtlar ona daha çox bağlandığını, onlara tək qaldıqları üçün yazığı gəldiyini söyləyir, "Yaşarla Nazlının xoşbəxt olacağına inanıram", – deyirdi. Kərim belə həvəslə danışdıqca, sevindikcə, Lalə Dilarəni nifrətlə xatırlayırdı. Amma az qala ona inandığına görə özünü də qınayırdı. Ağlı ilə bu fikri rədd etsə də, ürəyinin dərinliyində şübhənin yayılmasına görə özünə acığı tuturdu. Dilarənin səviyyəsinə düşdüyünə görə hirslənirdi. Kərim həvəslə danışıb, sevinirdi.

Tovuza çatanda saat on ikiyə işləyirdi. Lalənin başının ağrısı kəsmirdi. O, səhər həkimə getməyi qət etdi. Lalə neçə il idi ki, xəstə idi, ancaq belə hal keçirməmişdi. Ertəsi gün yuxudan duran kimi həkimə getdi.

Tovuzun ağbirçək, təcrübəli həkimi, Laləni müayinə edib, ətraflı sorğu-suala tutdu. Sonra keçib, öz yerində oturdu. Uzun bir sükutdan sonra: "Təbrik edirəm, ay qızım, sən hamiləsən!" – dedi.

Lalənin aldığı nəfəs tıxaca dönüb boğazına tıxandı. Sonra boğazından keçib sinəsinə tıxandı. Qulaqlarına inanmadı, bir anlıq başı fırlanıb, gözü qaraldı. Həkimin düz gözünün içinə baxıb:

– Əminsinizmi? – deyə soruşdu.

Həkim gülümsəyib:

– Qırx illik təcrübəmə güvənib, tam əminliklə deyirəm:

– Hamiləsən!

Lalənin gözünün önünə o, daşnak qadın gəldi. "Qadın" sözünü ona layiq bilmirdi. Nə isə, o varlıq onların ümidini elə qırmışdı ki, onun ağlına belə gəlmirdi, nə vaxtsa, ona "Hamiləsən!" deyəcəklər. Heç olmasa, onlara azacıq da ümid verməmişdi ki, o ümidə söykənib ömürlərini başa vursunlar. Əslində Lalənin ümidə deyil, kiçik bir əməliyyata ehtiyacı var imiş. "O ifritə bizim onun həkimliyinə inanmağımızdan istifadə edib, bizi aldadıb", – deyə düşündü. Lalənin sevincinə nifrət qarışdı. Onsuz da, başı ağrıyırdı. Həkimi düşündükcə başı partlayırdı.

Lalə özü hamiləliyinə tam əmin olana qədər heç kimə bu barədə heç nə demədi. Bir neçə həftədən sonra yuxu-

dan ürək bulanması ilə oyandı, artıq heç nə yeyə bilmirdi. Hər ötən gün hamilə olduğuna əmin olsa da, Kərimə bu barədə deyə bilmirdi.

***

Arzunun pis günləri başlamışdı, artıq qarnını gizlədə bilmirdi. Və bir səhər qorxduğu başına gəldi. O səhər Qəmər xanım onu yuxuda ikən səslədi. Yuxudan dik atılıb gecə köynəyində Qəmər xanımın yanına qaçdı. Ağrıdan qovrulan, zarıyan Qəmər xanımın gözü Arzunun qarnına sataşdı. O, iniltisini kəsib, Arzunun qarnına baxıb:

– Ay qız, sən hamiləsən? – deyə soruşdu.

Arzu yerindəcə donub qaldı, elə bil gecələr səhərəcən Qəmər xanıma nə deyəcəyini fikirləşən o deyildi. Sanki təzə bir xəbər eşitmişdi. Qəmər xanım Arzunun gah qarnına, gah da üzünə baxıb sualına cavab gözləyirdi. Arzu soyuqqanlılıqla: "Hə" deyə bildi. Qəmər xanım:

– Necə yəni hə? Bu nə deməkdir? Qız uşağı da hamilə olar?

Arzu ağlaya-ağlaya Qəmər xanımın dərmanlarını içirdir, paltarlarını dəyişirdi. Ora-bura qaçıb, ağzına gələn yalanları uydururdu. Guya onu çox sevən, evlənməyə hazırlaşan oğlan avtomobil qəzasında həlak olub. Arzuya qulaq asan Qəmər xanım deyil, balaca bir uşaq da olsa, onun yalan danışdığını anlayardı. Qəmər xanım Arzuya tərəf baxmırdı, üzündən nifrət, iyrənmək tökülürdü. Səhərdən-axşama kimi ana-bala kimi söhbət edən Arzu ilə Qəmər xanım səhəri günü axşama qədər ağızlarını açmadılar. Arzu bir-iki dəfə, nə isə demək istəmişdi, amma Qəmər xanım

cavab verməmişdi. Ondan sonra Arzu bir daha danışmadı. Axşamüstü Nübar ilə Şəhla gəldi. Əllərində böyük bir çanta var idi. Nədənsə, kefləri yuxarı idi, qapıdan gülə-gülə girdilər. İçəri girən kimi evdəki gərginliyi hiss etdilər. Nübar əlindəki çantaları Arzuya verib, Qəmər xanımın otağına keçib, qapını örtdü. Arzu otaqdan gələn səsləri eşitsə də, nə danışdıqlarını aydınlaşdıra bilmirdi. Narahatlıq ürəyini üzürdü: "Birdən Qəmər xanım məni qovsa, nə edəcəm?" – deyə düşünürdü. Nəhayət, qapı açıldı. Sifətində təəccüb olan üç nəfərin gözü onun üzünə zillənmişdi. Arzu heç bir kəlmə söz kəsmədən otağına keçib, pəncərənin qarşısında qollarını qoynunda çarpazlayıb dayandı. Pəncərədən çölə baxır, ağlamaq istəyirdi, bacarmırdı. Heç nə düşünə bilmirdi. Başında fikirlər bir-birinə qarışmışdı. Cəngəllikdə azan adama oxşayırdı. Lakin bu cəngəllikdən yol tapıb-çıxmaq mümkün deyildi. Bağçaya açılan pəncərədən çölə baxırdı. Birdən qapı açıldı, Şəhla buz kimi soyuq gözləriylə Arzuya baxıb: "Yığış, çıx, get!"– dedi. Daha heç cavab gözləmədən dönüb getdi. Arzunun yığışdıracağı bir şeyi yox idi. Gələndə gətirdiyi çantanı gətirib, özünə aid nə var idisə, yığdı. Qəmər xanımın ona bağışladığı bir-iki xırda-para əşyanı, paltarı götürmədi, səliqə ilə qatlayıb çarpayının üzərinə qoydu. İndi qaldı vidalaşmaq. Arzu bilmirdi sakitcə çıxıb getsin, yoxsa, "Xudahafiz" desin. Nəhayət, özünü toplayıb ayağa durdu. Qəmər xanımın otağının qarşısında bir an dayanıb içəri keçdi. Daş heykəl kimi dayanan Qəmər xanımın əlindən öpüb, bu çətin günlərdə ona sığına bildiyi üçün təşəkkür etdi. Sonra

qısaca axırıncı yalanını, qəzaya düşüb ölən sevgilisinin heç kimi olmadığını, yetim olduğunu söyləyib, heç kimin üzünə baxmadan pilləkənləri sürətlə aşağı düşdü. Qapıdan çıxıb əyri bağ yolu ilə şosseyə tərəf getməyə başladı.

Avqustun axırı olduğu üçün istidən adamın nəfəsi kəsilirdi. Yollara o qədər də bələd deyildi. Sadəcə, hansı tərəfə getmək lazım olduğunu bilirdi. Yaxşı ki, bəzi evlərin qarşısına altına taxta oturacaq bərkidilmiş ağaclar əkilmişdi. Harada belə ağac görürdüsə, oturub bir az sərinləyirdi. Arzu bilirdi ki, hələ şosseyə çatmağa çox var. Onu da bilirdi, həyat yolu da çox uzundur. Hələ bundan sonra harada, nə zaman qarşısına qəfil döngə çıxacağı məlum deyildi. Həmişə qaldığı evə getməməyi qərara aldı, orada Arzunu hamı tanıyırdı. Suallardan qurtara bilməyəcəyini bilirdi. Elə yerdə ev tutmalı idi ki, orada onu tanıyan olmasın. Evi tapıb rahatlanan kimi instituta gedib bir illik akademik məzuniyyətə çıxmalı idi. Şosseyə çatıb şəhərə gedən ilk avtobusa mindi. Şəhərin girəcəyindəki birinci dayanacaqda düşdü. Ev alqı-satqısı ofisinin yerini tapıb ora getdi, cəhdi uğurlu oldu. Ucuz, kiçik bir mənzil tapıb kirayələdi. Cəmi on beş kvadrat metrlik birotaqlı mənzilin qarşısında dörd kvadrat metrdən ibarət şüşəbəndi var idi. Qaz piltəsi, su kranı, kiçik bir stolu şüşəbənddə pəncərənin qarşısına düzmüşdülər. Bu kiçik yerdə divardan vurulmuş taxtanın üzərinə gül dibçəyi qoyulmuşdu. Dibçək mətbəxi canlandırırdı. Arzu mətbəxdən pəncərəsi olmayan yarıqaranlıq, rütubət qoxuyan otağa keçdi. Hər necə olur-olsun, bura Arzuya cənnət kimi göründü, əvvəla çox bahalı deyil-

di, ikincisi burada onu narahat edən yox idi. Əlindəki çantanı yerə qoyub özünü çarpayının üstünə saldı. Əvvəlcə, xeyli uzanıb fikrə getdi. Hal-hazırkı vəziyyətdə özünə nifrət edirdi. Siçan kimi girməyə deşik axtarırdı. İndi Arzu başa düşürdü ki, Qəmər xanım kimi birinin yanında böyümüş olsaydı, heç vaxt belə bir duruma düşməzdi. Bu üç ayda Qəmər xanımdan eşidib-öyrəndiyini, on səkkiz ildə anasından eşitməmişdi. Qəmər xanımın hər kəlməsi bir örnək idi. Belə anası olmamışdı, kaş belə qonşusu, qohumu olaydı. Bircə dəfə anası ona deməmişdi: “Gecə vaxtı hara gedirsən, niyə gedirsən?” Qəmər xanım deyirdi ki, ağlı olan hər kəs nəfsini saxlamağı bacarmalıdır. Arzu fikirləşirdi ki, məndə ağıl nə gəzirdi?! Kərim müəllim kim, mən kim? Mənimki sevgi idimi? Mənim onu sevməyə haqqım var idimi? Kərimin həyatını zəhərlədiyini bilirdi, onun düşdüyü vəziyyət gözünün önünə gələndə dəhşətə gəlirdi. Kərim elə içkili olmasaydı, heç vaxt, heç vaxt belə şey olmayacaqdı. O, Arzunun hamilə olmağına inanmamışdı. Onun nifrətlə baxışı qızın gözünün önündən çəkilmirdi. Kərimin səsi yenə də qulağına gəldi: “Rədd ol!” Bir də qərara aldı ki, daha Kərimi görməyəcək, əgər görsə də, uşaq onun olmadığını, yalan söylədiyini deyəcək. Ertəsi gün İnstituta gedib ərizə verdi. Bir illik akademik məzuniyyət götürdü. Daha iş axtarmaq marağında deyildi. Çünki uşağın dünyaya gəlişinə az bir vaxt qalırdı. Hal-hazırda pula ehtiyacı da yox idi. Hamiləliyini bilən gündən pul yığırdı. Sənəm də göndərirdi. Dükana gedib lazımi şeyləri alıb gətirdi. Bir neçə gün istirahət edəndən sonra

xəstəxanaya gedib qeydiyyata düşdü. Müayinədən keçib, hər şeyin qaydasında olduğuna əmin olduqdan sonra, dükan-bazarı gəzib uşaq üçün nə lazımdırsa, ləyəndən tutmuş, yorğançayadək, hər şeyi alıb hazırladı. Hər şeyə rəğmən körpəni sevirdi, onun dünyaya gəlişini həsrətlə gözləyirdi.

Kərimin evində toy-büsat idi. Lalə ilə Kərim hələ belə xoşbəxt olmamışdı. O kiçik varlığın sədası, özü ilə gətirdiyi səadətin istisi, işığı, onların evinə dolub, ocağını isidib, çıraqlarını nurlandırmışdı. Lalə günlərin tez keçməsini istəyirdi. Ona elə gəlirdi ki, zaman keçmir. Hələlik, sevinclərini heç kimlə bölməmişdilər. Evinə suyu sovrulmuş dəyirmana gələn kimi gələn Kərim, indi quş kimi uça-uça gəlirdi. İçəri girən kimi sual dolu gözlərini Lalənin üzünə dikir, onun arxayın, xoşbəxt halını görən kimi rahatlanıb, sakitləşirdi. Bu xoşbəxtliyə, bu gözlənilməyən səadətə görə Kərim ürəyinin dərinliyində Arzuya qarşı bir minnətdarlıq hissi duyurdu. Amma bu hissin sonu böyük bir kədərlə bitirdi. Arzunun belə yoxa çıxması Kərimi narahat edirdi: "Qızın axırı nə olacaq? Uşağı nə adla dünyaya gətirəcək? İndi haradadır?" Bir-birinin ardınca yağan suallara cavab tapa bilmirdi. Kərimin ürəyi sıxılırdı, vicdan əzabı onu rahat buraxmırdı.

Arzunun təzə mənzilində günü pis keçmirdi. Burada onu tanıyan yox idi. Ona görə rahat yaşayırdı. Yavaş-yavaş lazım olan hər şeyi alıb, şəraitini qurub düzəltmişdi. Sənəmlə də vaxtaşırı danışırdı. Yaxşı iş tapdığı üçün gəlmədiyinə onu inandırmağa çalışırdı. Nəhayət,

Arzu uşağını dünyaya gətirdi. İllərdən bəri övlad həsrətində olan Kərimin övladı atasız, hörmətsiz , bic kimi dünyaya gəldi. Cəmi üç-dörd gün xəstəxanada yatıb evə gəldi. Nə xəstəxanada yanına gələn oldu, nə də çıxanda qarşılayan. Arzu qucağında körpəsi, buz kimi soyuq otağa keçdi. Payızın aramsız yağışları yağırdı. Çöldə yağış yağdığı üçün otaq yarıqaranlıq deyil, əsl qaranlıq idi. Arzu gözü qaranlığı alanacan qapının ağzında durdu. Sonra köhnə bir elektrik peçi tapıb şəbəkəyə qoşdu. İşıq daha da zəiflədi. Otaq buz kimi soyuq idi. İşıq yansa da, kiçik lampa otağı işıqlandırmırdı. Bu aləmdən xəbərsiz, mışıl-mışıl yatan körpəsinin üzünə baxıb yazığı gəlirdi. Bu körpə, Kərim müəllimin oğlu idi. Ac, işsiz, tək bir ananın qoynunda bir daxmaya sığınmışdı. Günlər keçdikcə körpə böyüyürdü. Arzunun qayğısı artırdı. Uşaq böyüdükcə qayğısı da böyüyürdü. Onun pulu tükənirdi. Evin kirayəsi, işıq pulu, qaz pulu vermək üçün mütləq iş tapmalı idi. Amma necə? Bəs uşağı kimin yanında qoyub, işləyə bilərdi? Gecələr səhərə qədər yata bilmirdi. Bəzən istəyirdi anasını çağırsın, hər şeyi ona danışsın, bu dərdi bir yerdə çəksinlər. Və bir-birinə dayaq dursunlar. Hər gecə bu fikirlə yatır, səhər yuxudan oyanan kimi, bu fikirdən daşınırdı. Sənəmə deməyə ürəyi gəlmirdi, çünki anasını tanıyırdı. Sənəm çox aciz qadın idi. Artıq son manatlarını xərcləyirdi. Ev kirayəsinin vaxtı çatırdı. Evdəki bütün ərzaq tükənmişdi. Həm fikirdən, həm də aclıqdan zəifləmişdi, südü də azalmışdı. Uşaq əmib doymur, elə hey ağlayırdı. Uşağa qoşulub ağlayırdı. Səhər uşağı qucağına alıb, boş-boş küçələri gəzdi.

Bu boş gəzintidən bir şey alınmadığını görüb poçta gəldi, anasına zəng edib, pulunun oğurlandığını söylədi, pula ehtiyacı olduğunu dedi. Sənəm heç şübhələnmədi. Hal-əhval tutandan sonra dərhal pul göndərəcəyini bildirdi. Arzu evə sevinə-sevinə gəldi. Səhər Arzu pulu götürməyə gedəndə məəttəl qaldı. Sənəm Arzunun heç vaxt gözləmədiyi qədər pul göndərmişdi. Pulu götürüb, uşaq da qucağında bazara getdi. Ürəyi istəyən hər şeyi aldı . Axır vaxtlar çox aclıq çəkdiyi üçün yaxşı bazarlıq etmişdi. Böyük bir zənbili zorla, sürüyə-sürüyə götürüb evinə tərəf dönmək istəyirdi ki, düz yaxınlığında bir maşın saxladı. Arzu məhəl qoymadan keçmək istəyirdi. Bir göz qırpımında maşından düşən Şəhlanı, Nübar xanımı görəndə nə edəcəyini bilmədi. Gözünü döyə-döyə onlara baxdı. Şəhla irəli gəlib onunla görüşdü, "səni axtarırdım", – dedi. Arzu yenə də sual dolu gözlərini gah Nübarın, gah da Şəhlanın üzündə gəzdirdi. Nübar xanım: "Səninlə vacib söhbətimiz var", – dedi. Dönüb maşının yanında dayanan adama baxdı. Təxminən qırxa yaxın yaşı olan ağsaçlı, yaraşıqlı adam maraqla Arzuya baxırdı. Qız bir şey anlamasa da, onları yaxınlıqda yaşadığı evə, daha doğrusu, daxmaya dəvət etdi. Nübarla Şəhla onun dalınca gəldilər. Sürücü də maşına oturub yavaş-yavaş maşını irəli sürdü. Qadınların kiçik qapıdan içəri girdiyini görüb o da maşını saxladı. Nübar xanım içəri girən kimi müqəddiməsiz söhbətə başladı:
– Qəmər sən gedəndən Arzu deyib, Arzu eşidir, səndən sonra üç nəfər tapıb aparmışam, heç kimi istəmir, bir aydır hər yerdə səni axtarırıq. Şəhla ağlı kəsən hər yerə get-

di, səni "gördüm" deyən olmadı, indi maşınla keçəndə təsadüfən gördüm.

Arzu sevinsə də, birdən qanı qaraldı, "bəs körpənin axırı necə olsun?" – deyə düşündü. O, sualı ürəyində özünə vermişdi. Nübar xanım onu anlayıb cavab verdi:

– Uşağına da baxarsan, rahat evdir. Qəmər özü belə deyir.

Arzu sevincini gizlədə bilmirdi. O, Qəmər xanımın rahat, hər cür şəraiti olan evinə qayıda biləcəyini ağlına gətirmirdi, tərəddüd etmədən razılıq verdi.

Nübar xanım: – Ev sahibini çağır, hesabını kəs, yığış, Hikmət gəlib səni aparar, bayaq gördüyün adam Qəmərin oğludur, – dedi.

Onlar qapıdan çıxan kimi Arzu tələsik yığışmağa başladı. Ertəsi gün səhər açılan kimi onu aparacaq adamı gözləməyə ehtiyac olmadı. Qapını döyən dünənki ağsaçlı adam olduğunu görən kimi Arzu körpəsini qucağına götürüb, çantasını əlinə aldı. Kişi irəli gəlib çantanı Arzudan alıb, maşına yerləşdirdi. Arzu keçib arxa oturacaqda oturdu. Şəhərə çatanacan heç biri danışmadı. Nəhayət, Hikmət anasına göstərdiyi qayğıya görə Arzuya təşəkkür etdi. Hikmət anasının halının pisləşdiyinə görə gəldiyini və yaxın günlərdə qayıtmalı olduğunu, anasının yanına ürəyinə yatan, etimadını qazanan adamı tapıb, qoyub, sonra getmək istədiyini dedi. Qəmər xanımın qızı çox sevdiyini, hətta ondan ötəri darıxdığını söylədi. Arzu çox sevinirdi. O, Qəmər xanımın yanında özünü güvəndə hiss edirdi. Bir də ki, bu qadını ana kimi sevirdi. Ona elə gəlirdi, ana

deмək, Qəmər xanım deməkdir. Çünki "bu dünyaya uşaq gətirib, uşağa heç bir tərbiyə verməyənə ana demək olmaz!" – deyə düşünürdü. Qəmər xanımın şəhərdəki evində Arzu iki-üç gün qalmışdı. Ona görə evi tanıyıb düşməyə hazırlaşdı. Hikmət maşını düz blokun ağzında saxladı. Çantanı götürüb yuxarı qalxdı. Arzu körpəsini çarpayıya qoyub, Qəmər xanımı qucaqladı. Qadın onu öpüb başını tumarladı. Başının balaca uşaq başı kimi tumarlanması Arzunu kövrəltdi, göz yaşlarını saxlaya bilmədi. Yaş gözündən sel kimi axırdı. Qəmər xanım əməllicə arıqlamışdı, rəngi saralıb, gözləri çuxura düşmüşdü. Yarım saat keçməmiş, Arzu hər şeyi əlinə almışdı. Burada hər şeyin yerini bildiyi üçün çətinlik çəkmədi. Evi səliqəyə salıb, çay qoydu. Qəmər xanımı da, körpəsini də yuyundurdu. Qəmər xanımın pəhriz yeməyini bişirib, qadını yedizdirib dərmanlarını verdi. Qadının gözünə işıq, yanaqlarına qızartı gəldi. Hikmət bu tərəfə gəlmədi. Axşamdan otağına çəkilib: "Mənə heç nə lazım deyil", – dedi.

Arzu gecəni elə rahat yatmışdı ki, səhər uşağın səsinə oyandı. Gözünü açıb bir neçə dəqiqə harada olduğunu anlaya bilmədi. Harada olduğunu anlayanda dik atıldı. Uşağın ağlayıb onları narahat etməsinə razı olmazdı. O, körpəni yedizdirib, rahatlayıb, yatağına qoyub, mətbəxə keçdi. Pəncərənin qabağında dayanıb, siqaret çəkən Hikməti görəndə bir an dayanıb geri qayıtmaq istədi. Hikmət geri dönüb, "gəl", –dedi. Arzu çay qoyub, səhər yeməyi hazırladı. Hikmətlə Qəmər xanım səhər yeməyini mətbəxdə yedilər. Hikmət anasının qolundan tutub onu otağına keçirdi.

Arzunun başı işə-gücə o qədər qarışırdı ki, günün nə vaxt çıxıb, nə vaxt batdığından xəbəri olmurdu. Amma bunlar hamısı xoş idi. Hər işi sevə-sevə, böyük həvəslə yerinə yetirməyə hazır idi.

Osman günbəgün deyil, saatbasaat böyüyürdü. Ən çox Arzunu sevindirən o idi ki, Qəmər xanım Osmanı çarpayısının üstünə qoydurub, ona ninnilər, laylalar söyləyirdi. Uşağının belə bir rahat evdə məhəbbət içində böyüməsinə şad olurdu Arzu. Onu narahat edən tək şey var idi, günləri sayıb Hikmətin getməsini gözləyirdi. Hikmətin heç bir ziyanı yox idi. Sadəcə, o evdə olanda Arzu narahat olurdu, sıxılırdı. Halbuki Hikmət evə lazım olan hər şeyi alır, gətirir, elektrik avadanlıqlarından xarab olanını təmir etdirir, hamamda, mətbəxdə təmirə ehtiyacı olan hər şeyi gözdən keçirirdi. Hətta yeri gələndə, Osmana da oyuncaq, paltar alırdı. Arzu demək olar ki, öz pulundan bir manat da xərcləmirdi, bütün ehtiyaclarını Qəmər xanımla Hikmət ödəyirdi. Nədənsə, Nübar ilə Şəhla gözə dəymirdi. Arzu onların yoxluğuna təəccüb edirdi. Nəhayət, Qəmər xanımdan soruşdu. Qəmər xanım: "Hikmət buradadır, ona arxayındırlar", – dedi. Hikmət bu günlərdə getməli idi, amma gedənə oxşamırdı. O, Almaniyada tək yaşayırdı, subay idi. Qəmər xanım onun həyat tarixçəsini Arzuya hələ yayda danışmışdı.

Bu yaşına qədər subay qalmağına səbəb sevdiyi qızın ona xəyanət etməsi olmuşdu. Hikmət institutda oxuyanda Qəmər xanımın onun bir qızla sevgi əlaqəsi olduğunu bilirdi. O vaxtlar Qəmər xanımın həyat yoldaşı – Nazim

müəllim institutda dərs deyirdi. Hikmətin sevdiyi qızdan onun xoşu gəlmirdi. Hikmət institutu bitirib, evdə Adilədən söz salanda Nazim müəllim: "Mən razı deyiləm", – desə də, Qəmər xanım oğlunun seçiminə qarşı çıxmaq istəməmişdi. Qəmər xanımla Nazim müəllimin arasına düşən narazılıq Hikmət hərbi xidmətə gedəndən sonra başlanmışdı...

Hikmət hərbi xidmətdə olduğu yeddi ay müddətində, demək olar ki, hər həftə Adilədən məktub alır. Bu məktublar Hikmətə ruh verir, onu darıxmağa qoymurdu. Bir axşam o, yenə həvəslə Adilədən gələn növbəti məktubu oxuyanda damarında qan donur: məktub Sahib adlı birisinə yazılıbmış. Bu Sahib kim imişsə, Leninqradda institutda oxuyurmuş. Belə məlum olur ki, Sahib hər gün Adilədən məktub gözləyirmiş. Məktub sevgi məktubu imiş. Məktubun bir neçə yerində aralarındakı intim münasibətdən bəhs edilirdi. Məktubun sonunda Adilə Sahibi səbirsizliklə gözlədiyini söyləmiş, "öpürəm" sözləri ilə məktubu bitirmişdi. Hikməti tər basır, başı fırlanır. O, məktubun üstünə dönə-dönə baxır və tam əmin olur ki, məktub iki nəfərə yazılıb, sadəcə, məktublar zərfə səhv qoyulub. Hikmət dəhşətə gəlir. Amma bu əl boyda kağız Hikmətin həyatından "qadın" sözünü silir. İllər keçir, Hikmətin saçları ağarır, amma heç vaxt ailə qurmaq fikrində olmur. Qəmər xanımın  göz yaşlarının, yalvarmağının, heç nəyin köməyi olmur, Hikmət evlənmir. Elə o vaxtdan anasının tənəsindən canını qurtarmaq üçün böyük qardaşının yanına – Almaniyaya gedir. Hikmətin yeganə qardası Mahmud da nə

qədər çalışsa da, onu evləndirə bilmir, nəhayət, Mahmud Hikmətin onun yanından da çıxıb gedəcəyindən qorxub, bir daha o barədə söz salmır. Hikmət Bakıya da gəlmirdi. Hər il Mahmud ailəsini, uşaqlarını götürüb Bakıya gələndə, nə qədər israr etsə də, Hikmət gəlmirdi. Axırıncı dəfə atası öləndə gəlmişdi. Onun burada olması Qəmər xanım üçün bayram idi. Ürəyindən olardı ki, Hikmət birdəfəlik Bakıda qalsın. Hikmət gələndən, onun ağarmış saçlarını görəndən ürəyindən qanlar axsa da, bir dəfə olsun, "ailə qur" sözünü ağzına almadı. Ona görə də Arzu Qəmər xanımdan Hikmətin nə vaxt gedəcəyini soruşa bilmirdi. Arzu bir səhər qapını döyüb, alçaqdan onu səsləyən Hikmətin səsinə oyandı. O, ehmalca: "Arzu, anam səni çağırır", – deyirdi. Arzu yerindən dik atılıb, xələtini tələsik geyinib otaqdan çıxdı. Qəmər xanımın halı pis idi. Hikmət təcili yardım çağırmaq istədi. Arzu: – lazım deyil, indi sakitləşəcək, – dedi. – Yəqin təzyiqi qalxıb, narahat olmayın.

O, Qəmər xanımın təzyiqini, şəkərini ölçdü, təzyiqi çox yüksək idi. Dərmanları içirdib, yenidən Hikmətə: "Darıxmayın, bir azdan özünə gələcək", – dedi.

Arzuya təzyiq və şəkər aparatının istifadə qaydalarını Qəmər xanım özü öyrətmişdi. Az bir müddət keçmiş, Qəmər xanım özünə gəlməyə başladı. Arzunun fikri Osmanın yanında idi, onun yuxudan oyanan vaxtı idi. Əslində, o bu vaxtlar yuxudan oyanıb, haray-həşir qoparmalı idi, amma Osmanın səsi çıxmırdı. O, tələsik işlərini yekunlaşdırıb Osmanın yanına keçdi. Osmanı yerində görməyib, donub qaldı. Dabanı üstə fırlanıb zala keçdi. Hikmət Os-

man qucağında pəncərənin qabağında dayanıb çölə baxırdı. Osman qolunu onun boynuna keçirib, sakitcə oturmuşdu. Arzunun ürəyi əsdi. Bu mənzərə ona qeyri-adi dərəcədə xoş gəldi. O, dayanıb onlara baxır, səsini çıxarmağa cürət etmirdi. Qəmər xanımın səsini eşidib geri qayıtdı. Onu oturdub, bir fincan su içirtdi. Qadın əməlli-başlı özünə gəlmişdi. Arzu geriyə dönmüşdü, amma Hikmətdən Osmanı ala bilmirdi. Bilmirdi ki, nə desin, necə istəsin. Hikmət hənirti duyub geri döndü:

– Arzu, bu nə qəşəng oğlan imiş, mən heç fikir verməmişdim, lap cəngavərə oxşayır, – dedi.

Arzu xəfifcə titrəyib:

– Çox sağ olun, sizə əziyyət verdim, – dedi. Sonra Hikmətin ona tərəf uzatdığı Osmanı götürdü.

Hikmət:

– Heç bir əziyyəti yoxdur. Bu oğlandan lap xoşum gəldi, – dedi.

Arzunu bu evdə ən çox xoşbəxt edən Osmana olan münasibət idi. Bu hal nə qədər davam edəcəkdi, bilmirdi, amma hələlik, həyatından çox razı idi. Vaxtaşırı poçta gedir, Sənəmlə danışırdı. Onun anası ilə danışmağa poçta getməli olduğunu bilən Hikmət bu işdən ötəri heç yerə getməyə ehtiyac olmadığını dedi. Hər ikisi – Qəmər xanım da, Hikmət də evdən danışmağı təklif etdi. Bundan sonra Arzu Qəmər xanımın ev telefonunun nömrəsini Sənəmə verdi. Artıq Sənəm tez-tez zəng edib Arzudan xəbər tuturdu. Bir gün Sənəm zəng edəndə Lalənin hamilə olduğunu söylədi. Arzu mat qaldı, "bu qədər vaxtdan sonra nə əcə-

b?" – deyə düşündü. Sənəm Kərimin çox sevindiyini və ona görə də axır vaxtlar ona pulu artıq verdiyini söylədi. Doğrudan da, axır vaxtlar Kərim Sənəmə çoxlu pul verirdi. Bu, qadını çox təəccübləndirirdi. Özlüyündə Kərim bunu sevindiyindən etdiyini düşünürdü. Arzu hər zəng edəndə əl çəkmirdi ki, tətildə evə gəl. Sənəm Arzudan ötəri darıxdığını, narahat olduğunu deyir, kövrəlirdi. Hər dəfə Arzu: "Narahat olma, gələcəm", – deyirdi. Kərimin Sənəmə çox pul verdiyini düşünəndə o, qəribə hal keçirirdi. Hər dəfə də ayrı-ayrı nəticəyə gəlirdi. O fikrin üstündə dayanırdı ki, demək, Kərim onun hamilə olduğuna inanmışdı.

Bu il qış erkən gəlmişdi. İlk qar yağmışdı. Arzu pəncərədən çölə baxırdı. Hər tərəf ağappaq qara bürünmüşdü. Uşaqlığını düşünürdü, anası qarda iz sala-sala işləməyə gedirdi. Pəncərədən baxıb, yağan qarın Sənəmin izini itirəcəyindən qorxurdu. Ona elə gəlirdi ki, iz itəcək, Sənəm bir daha geri qayıdıb, gələ bilməyəcək. Dəli kimi çölə qaçır, örtülməkdə olan ayaq izlərinin üstünü süpürgə ilə süpürdü. Heç yarım saat keçməmiş, qarın yenidən yağıb izi örtdüyünü görüb geri dönürdü.

Hikmət kresloda oturub qəzet oxuyurdu. O, birdən gözünü qəzetdən çəkib Arzuya baxdı. Arzu Hikmətin baxışını üzərində hiss edib, pəncərədən çəkilib, otaqdan çıxdı. Keçib Qəmər xanımın yanında oturdu. Bir azdan Hikmət də gəldi: – Ana, biletimi almışam, amma qar yağdığı üçün narahat oluram, sizə bazarlığı kim edəcək? – dedi. – İstəyirəm, biletimi geri qaytarım, havalar açılanda gedərəm.

Qəmər xanımın üzündə bir sevinc yarandı: – Sən bilirsən, oğlum, – dedi. – Əgər işin yoxdursa qal, əlbəttə, mənə də xoş olar.

Arzu az qaldı ki, desin: "narahat olmayın", amma deyə bilmədi. Axı o, kim idi ki, Hikmətə "get" desin, bura Hikmətin evi idi. Getmək, ya da ki qalmaq onun öz işi idi. Xeyli sükutdan sonra Arzu özünü ələ alıb:

– Narahat olmayın, – dedi, – mən hər şeyi özüm edərəm.

Hikmət qalxıb otağına keçdi. Qəmər xanım onun arxasınca çox ümidlə baxdı. Hikmət getmədi, biletini qaytardı. O, gedə bilmirdi. Bu ev ona çox çəkici gəlirdi. Hər içəri girəndə evdən gələn dadlı, ləzzətli xörək ətrinə öyrəşmişdi. Arzu belə ləzzətli yeməklər bişirməyi Lalədən öyrənmişdi. O, təzə çay dəmləyir, tez-tez Hikmətin çayını təzələyirdi. Axşam televizor izləyən vaxt mətbəxdən gələn ətirli, dadlı şirinçörək ətri Hikmətə xoş gəlirdi. Hikmət Osmana bahalı beşik almışdı. Osmana elə bağlanmışdı ki, çöldə olanda ona görə evə qayıtmaq istəyirdi. Nəhayət, bir səhər Hikmət yığışıb getdi. Hikmətin paltarlarını, əşyalarını nə vaxt topladığını nə Arzu görmüşdü, nə də Qəmər xanım bilmişdi. Hikmət qapıdan çıxanda anasını bərk-bərk qucaqlayıb:

– Ana, bir işim var, əgər o düzəlsə, qayıdıb gələcəm, universitetə ərizə yazıb dərs istəmişəm, əgər müsbət cavab alsam, qayıdacam, – dedi. Sonra Arzuya əl uzadıb: – Sənə anamı tapşırmağa ehtiyac duymuram, sadəcə, salamat qalın, –deyirəm, – deyib qapıdan çıxdı. Qəmər xanım

çox pis oldu. O gün axşamacan ağladı. Amma Arzu özünü azadlığa çıxmış kimi hiss edirdi. Hikmət evdə olanda çox sıxılırdı. Əslində qız özünü tanımırdı, kimdənsə çəkinmək, kiminsə yanında sıxılmaq, utanmaq Arzuya aid olmayan bir şeylər idi. İndi nə danışsa, gözü Qəmər xanımın üzündə qalırdı ki, görəsən, səhvmi danışdım, pismi danışdım? Odur ki, Hikmətin getməyi Arzunun ürəyindən oldu. Hər hərəkətinə diqqət etməli olmayacaqdı. Ertəsi gün Arzu yuxudan oyananda Qəmər xanımın ağladığını gördü. Onu zorla sakitləşdirdi. Qadın neçə ildir ki, doğmaları ilə bu qədər ünsiyyətdə olmadığını deyir, elə hey ağlayırdı. Qəmər xanımdan utanırdı, ona elə gəlirdi ki, qadın onun Hikmətin getməyinə sevindiyini hiss edir, ona görə belə çox ağlayır. Gözünü qadından gizlətməyə çalışırdı. Arzunun sevinci uzun çəkmədi. Cəmi iki gündən sonra, Hikmətsiz evə qəmginlik çökdü. Arzu darıxmağa başladı, qanı qaralırdı. Yeməkləri Hikmətə görə bişirirdi. Qəmər xanım pəhriz yeməkləri yeyirdi, ona şirin çörək də yemək olmazdı. Ona görə mətbəxə sükut çökmüşdü, telefon susmuşdu. Arzu xırda bir şey üçün aşağı düşməli olurdu. Çox vaxt məcbur olub, Osmanı da qucağında düşürürdü. İndiyə qədər fərqinə varmadığı bəzi məqamları gözünün önünə gətirir, düşünürdü. Bu qədər vaxt ərzində bir dəfə olsun, Hikmətdən inciməmişdi. Həmişə onunla nəzakətlə davranmış, hörmətlə yanaşmışdı. Onu bir dəfə olsun, ucadan çağırmamışdı. Və ya qapını çalmamış o olan otağın qapısını açmamışdı. Hədiyyələr almışdı, onlardan hansı birini qız geyinəndə maraqla baxırdı. İndi Arzu o baxışları

xatırlayırdı. Osmanı necə əzizlədiyini düşünüb gülümsəyirdi. Amma hər gün ağlayan Qəmər xanımı zorla sakitləşdirirdi. Əgər buna sakitləşdirmək demək olardısa. Arzu Hikmətin gedəcəyi günü həsrətlə gözlədiyi halda, indi niyə belə pis olurdu, özü də bilmirdi. Nəhayət, bu qərara gəldi ki, Hikmət burada olanda heç vaxt görmədiyi, yaşamadığı bir ailə içində yaşayırmış.

Hikmət gedəndən iki-üç ay keçmişdi. Hərdən zəng edib anası ilə danışırdı. Arzu Hikmət burada olanda öyrəşdiyi rahatlıqdan sonra, yavaş-yavaş hər işi öz üzərinə götürmüşdü. Bazara, dükana qaçır, qaz pulunu, su pulunu ödəməyə gedirdi. Osmana uşaq arabası almışdı. Onu hava almağa düşürür və lazım olan bütün işləri də görürdü. Əvvəllər bu işlərin hamısını Nübar xanım görürdü. Xırda bir şeyi də o alıb gətirirdi. Qəmər xanım artıq Nübara əziyyət vermək istəmirdi. O, pulu Arzuya verirdi, heç nə tapşırmırdı. Çünki nə lazım olduğunu qız Qəmər xanımdan daha yaxşı bilirdi. Bütün bazarlığı edib, ödənişləri ödəyəndən sonra, hesabını son qəpiyinə qədər Qəmər xanıma izah edirdi. Axır vaxtlar o hesab vermək istəyəndə Qəmər xanım sağ əlini yuxarı qaldırıb: "kifayətdir, aydındır", – deyirdi.

Qış sona çatmaq üzrə idi. Soyuq havaların yerini yavaş-yavaş xoş havalar tuturdu. Baharın nəfəsi duyulurdu. Novruz bayramı gəlirdi. Çərşənbələr başlamışdı. Arzu səməni qoyur, ev-eşiyə əl gəzdirir, bayrama hazırlaşırdı. Osman xeyli böyümüşdü. Şirin, maraqlı, qəşəng bir oğlan ol-

muşdu. Qəmər xanım onu otağına gətirdir, onunla əylənirdi. Bir səhər Qəmər xanım Arzunu çağırıb:

– Səninlə söhbətim var, – dedi. – İşlərini gör, Osmanı yatırt, sonra yanıma gəl.

Arzunu dərd götürmüşdü. Heç cür nəticəyə gələ bilmirdi ki, Qəmər xanım onunla nə barədə söhbət edəcək. İşlərini görüb qurtaranacan ürəyini "yedi". Osmanı yatırdandan sonra, Qəmər xanımın otağına keçəndə xəfifcə titrədi. Onu görəndə Qəmər xanım eynəyini çıxarıb, əlindəki kitabı bir kənara qoydu. Aralarına uzun bir sükut çökdü. Nəhayət, Qəmər xanım köksünü ötürüb dedi:

– Qızım, dünən Hikmət zəng etmişdi. Onun ərizəsinə cavab yazıblar, xahişini qəbul edib universitetdə dərs veriblər. Hikmət qayıtmaq istəyir.

Arzunun ürəyi qırılıb ayağının altına düşdü. Fikirləşdi ki, bu saat Qəmər xanım ona: "sən çıx, get" deyəcək. Qəmər xanım sözünə davam etdi:

– Hikmət deyir, məni evə, isti ocağa Arzu bağladı. Mən Bakıya qayıtmaq istəyirəm, amma Arzunun həyat yoldaşım olmağını istəyirəm.

Arzu qulağına inanmadı. Az qaldı ki, desin: "düzmü, eşidirəm?"

Qəmər xanım onun cavabına qulaq asmaq istəmədiyini bildirdi:

– Qızım, sənin bu saat mənə cavab verməyini istəmirəm, get, fikirləş. Bir ana kimi sənə tövsiyəm budur ki, "yox" demə. Hikməti artıq tanıyırsan. Hər halda, Hikmətdə Vətənə qayıtmaq marağı oyatdığın üçün sənə təşəkkür

etmək istəyirəm. Bir də onu demək istəyirəm, sən Hikmətlə ailə qursan, mənim sevincimin həddi-hüdudu olmayacaq.

Arzu nə qədər özünü səbirli, ağıllı, təmkinli aparmağa çalışsa da, hisslərini gizlədə bilmədi. Yerindən qalxıb Qəmər xanımı öpməyə başladı. Göz yaşlarını saxlaya bilmirdi. Yaş gözündən leysan kimi axırdı. Hıçqırıq içində qırıq-qırıq dedi:

– Qəmər xanım, sizə təşəkkür edirəm. Çox xoşbəxtəm ki, məni öz ailənizə layiq bilirsiniz. Ancaq mənim dağ boyda qüsurum var.

Qəmər xanım:

– Qızım, sözün düzü, bu mənim heç ağlıma gəlməzdi. Amma nə olur-olsun, Hikmətin fikrinə hörmətlə yanaşıram. Üstəlik də, səni çox sevirəm, – dedi.

Hər ikisi sevinirdi. Qəmər xanım belə tez, müsbət cavab alacağını gözləmirdi. Elə həmin gün zəng edib Hikmətə xəbər vermək istəyirdi. Nədənsə, telefon bağlantısı alınmırdı. Ertəsi gün Hikmət özü zəng etdi, anasından cavab alıb, tezliklə, birdəfəlik gələcəyini söylədi.

Qəmər xanım sevincindən yata bilmirdi. Nəhayət, oğlunun qürbətdən qayıdıb, evinə gələcəyinə inana bilmirdi. Qəmər xanım Hikmətin ailə qurmağından əlini çoxdan üzmüşdü. Oğlunun bu yaşda tək qalacağından çox qorxurdu. Odur ki, uçmağa qanadı yox idi. Arzu daha çox sevinirdi. Ən çox Osmana görə sevinirdi. Qəmər xanım demişdi ki, Hikmət Osmanı öz nüfuzuna keçirəcək. Arzu öv-

ladının atasız böyüməsini, kəbindənkənar, qeyri-qanuni doğulmuş uşaq kimi tanınmağını istəmirdi.

Günlər ötdükcə Arzu hər qapı çalınanda diksinirdi. Hər dəqiqə qapı açılıb, Hikmətin içəri girəcəyini gözləyirdi. Hələlik, Hikmətdən xəbər-ətər yox idi. O, bayrama daha da həvəslə hazırlaşırdı. Novruz bayramı onun həyatının bayramına qarışmışdı. Bacardıqca bu qədər sevindiyini Qəmər xanımdan gizlətməyə çalışırdı. Belə əl-ayaq açdığına görə utanırdı. Yazıq Qəmər xanımın da gözü qapıda qalmışdı. Bəzən ona gəlirdi ki, belə bir iş olmayıb, sadəcə, yuxu görüb, xoş bir yuxu.

Nəhayət, Arzu bir səhər yuxudan qapı zənginə oyandı. Ayılıb pəncərədən çölə baxdı. Hava hələ açılmamışdı, alatoran idi. Ona elə gəldi ki, qulağına səs gəlib. Çevrilib başını yenidən yastığa qoydu. Bu dəfə qapı çalındığını aydın eşitdi. Yerindən dik atıldı, ürəyi çırpınırdı. Qapının ağzına gəldi, amma ürək edib əlini cəftəyə ata bilmədi. Bir qədər dayanıb, özünə gəlməyə çalışdı. Özünü toplayıb qapını açdı. Hikmətlə üzbəüz qaldı. Kənara çəkilib Hikmətə yol vermək istədi. Hikmət irəli gəlib onu qucaqladı, başını sinəsinə sıxdı. Qız özü də hiss etmədən ona sığındı. Bir neçə dəqiqə beləcə durdular. Sonra Hikmət gətirdiyi çantaları içəri daşıdı. Arzu ona kömək etdi. Hikmət hamama keçib, yuyunandan sonra mətbəxə keçdi. Arzu Qəmər xanımı oyatmaq istədi. Hikmət: "lazım deyil, qoy yatsın", – dedi. Çaydanı qaz piltəsinin üstünə qoyub, arxaya çevriləndə, Hikmətin divara söykənib, qollarını sinəsində çarpazlayıb ona baxdığını görüb, bir an özünü itirdi. Hikmət gülümsə-

yib: – Arzu, sən çox qüvvətli qızsan, – dedi. – Heç kimin görə bilmədiyi işi sən görə bildin – məndə ailə qurmaq həvəsi oyatdın. Bu işə görə sənə təşəkkür etmək istəyirəm. Yaşımın bu vaxtında həvəslə toyumu gözləyirəm.

Gözləri böyümüş qız təəccüblə içini çəkib dedi:

– Toy?

Hikmət gülümsəyib:

– Bizim də toy eləməyə haqqımız yoxdurmu, olmazmı? – dedi. Arzu heç vaxt belə bir şey olacağını ağlına belə gətirməmişdi. Çiynini çəkib: – Nə bilim? – dedi.

Hikmət: – Elə təntənəli toydan söz açmıram, yığcam bir şənlikdən danışıram, – deyə gülümsədi.

O, yenə nə isə demək istəyirdi ki, Qəmər xanımın səsi gəldi. İkisi də mətbəxdən onun otağına keçdilər. Bu görüş deyildi, bir ana-balanın ürəyində yığılıb qalan arzuların bayramı idi. Hər ikisi sevinirdi. Qəmər xanımın gözündən süzülüb gələn göz yaşları Hikmətin əllərinin üstünə tökülürdü. Arzu onları tək buraxıb mətbəxə keçdi. Süfrənin üstünə əlinə keçəni düzüb, onları səhər yeməyini yeməyə çağırdı. Yeməkdən sonra Hikmət zala keçib çamadanları açdı. Anasına, Osmana hədiyyə almışdı. Amma demək olar ki, qalan hər şey Arzuya aid idi. Qəribə idi, sanki hər paltarı dönə-dönə ölçüb-biçib, Arzuya tikmişdilər. O, ömründə belə gözəl paltarlar görməmişdi. Bir də ki, birdən-birə bu qədər paltar, qıpqırmızı qızarmışdı. Ən çox da Hikmətin "Nikah günü geyinməyini nəzərdə tutmuşam", – dediyi paltarı görəndə az qaldı ki, ürəyi dayansın. Bu, açıq-mavi rəngli atlasdan tikilmiş, qolları və sinəsi nazik tüldən

olan çox bahalı bir don idi. Qalan xırda-para şeylərə əl vurmayıb, "sonra baxaram", – dedi.

Ertəsi gün bir yerdə gedib kəbin kəsdirmək üçün ərizə verdilər. Bir neçə gündən sonra Hikmət universitetdə işə başladı. Fəlsəfədən dərs deyirdi.

***

Kərimgilin evi bir gün də olsa, qonaqsız olmurdu. Lalənin bacıları Laləni tək qoymurdular. Biri gəlir, o biri gedirdi. Kərim demək olar ki, hər gün həkim gətirirdi. Gələn həkim: "Heç bir narahatçılığa əsas yoxdur", – desə də, bu söz Kərimə üç-dörd gün kifayət edirdi. Uzaqbaşı bir həftədən sonra deyirdi ki, həkimə müraciət edək. Onu ən çox narahat edən Lalənin ürəyi idi. Əslində bu hamiləlik dövründə Lalənin ürəyi incitmirdi. Çünki Lalənin xəstəliyi sinir sistemi ilə əlaqəli idi. Kərim razı olmasa da, Lalə Kərimlə Gəncəyə Nazlını təbrik etməyə getmişdi. Bir həftə bundan əvvəl Nazlı Yaşarla ailə qurmuşdu. Kərimin başı qarışıq olduğuna görə gələ bilməmişdi. Kərimlə Lalə Nazlını ayaqüstü təbrik edib, Gəncənin ən böyük uşaq mağazasına getdilər. Lalənin məqsədi uşaq paltarı almaq deyildi, illərdən bəri ürəyində yığılıb qalan həsrəti sona yetirmək idi.

Lalə uşağı sağ-salamat dünyaya gətirdi. Özü də uşaq sağlam dünyaya gəlmişdi. Kərim onların evə gələcəyi günü həsrətlə gözləyirdi. O, Borçalıda – evlərində açacağı məclisi göz önünə gətirəndə, atasının onun ad günlərində qurduğu təntənələri xatırlayırdı. O vaxtlar Kərim atasının açdığı məclislərə hirslənirdi: "Ay ana, bəsdir də, bunlar

nəyə lazımdır?" – deyirdi. İndi atasını başa düşürdü. Körpənin Kərimə gətirdiyi sevinci ölçmək üçün ölçü vahidi olmadığını düşünür, o məclisləri qurmaq atasının içindən gəldiyini anlayırdı. Kərim də məclis qurub, ürəyinə dolan bu sevinci doğmaları ilə, əzizləri ilə, dostları ilə bölmək istəyirdi.

***

Hikmət hər axşam evə əlidolu gəlirdi. Arzu onun gəlişini gözləsə də, hər Hikmət içəri girəndə, bir an özünü itirib qızarırdı. Bu gün bir az gec gəlmişdi, amma kefikök idi. O, nikah gününü müəyyən etdiyini və o günü qeyd etmək üçün yaxınlıqdakı restoranların birində yer tutduğunu söyləyəndə, Arzu daha da qızardı. Bu xəbər Qəmər xanımı da çox sevindirdi. Hikmət Mahmudgili çağırdığını söyləyəndə, Qəmər xanımın sevinci daha da artdı. O, Mahmudu, onun qızlarını və Xumarı görmək üçün səbirsizlənirdi. Hikmət bu xəbərləri verib, hamama keçdi, yuyunub zala keçdi. Arzu aş bişirmişdi. Hikmət aşın ətrini pilləkənləri qalxanda duymuşdu. Arzu süfrəni zalda açmışdı. Qəmər xanımı zala Hikmət özü gətirdi. Arzu süfrəni yığıb, çay gətirməyə getmək istəyəndə Hikmət ona belə ləzzətli yeməklər bişirdiyi üçün təşəkkür etdi:

– Aş çox dadlı idi, amma dovğa mənə ləzzət verdi, – dedi. Neçə ildir, dovğa yemirəm.

Arzu gülümsəyib otaqdan çıxdı. Hikmət yeyib-içəndən sonra divana uzanıb düşünürdü: "Hər xalqın öz yeməyi, öz adət-ənənəsi, öz mədəniyyəti, öz musiqisi var. Başqa yerdə insan yeyir də, musiqi də dinləyir, amma sadəcə,

dinləyir". Almaniyada olanda nə vaxt öz musiqimizi dinləsəydi, o musiqi onun qanına hopur və bu qanla bütün bədəninə yayılıb, iliyinə işləyirdi. O musiqi Hikmətə vətəninin çaylarının, bulaqlarının, "şır-şır" adlandırdıqları şəlalələrin səsini, meşələrin pıçıltısını, yovşanlı çöllərin xoş ətrini gətirirdi. Bu musiqidən el-oba, torpaq nəfəsi duyulurdu. Ona elə gəlirdi ki, Şamaxıda – ata-baba yurdundadır. Dirəkdən asılmış radioda muğamata qulaq asır və bu musiqi onun damarlarından süzülür. Həmin an anlayırdı ki, musiqi təkcə qulaq asmaq üçün deyil, onu bütün varlığınla duymaq lazımdır. Sən demə, hər xalqın musiqisindən keçmişi, tarixi, adət-ənənəsi, sevinci, kədəri, iztirabı boylanırmış. Öz musiqimizi dinləməmək – bütün bunların üstündən xətt çəkmək demək imiş. Darıxanda bu musiqiyə yalvarmaq, musiqidəki bu sehrə səcdə etmək istəyirdi. O sehrə ki, nağıllardakı xalçaya bənzəyirdi. Hikmət o xalçaya minib, bir anın içində bütün Şamaxını gəzib qayıdırdı. Musiqi bitənə kimi, o el-obanı, kəndlərini xatırlayıb ətrafa boylanırdı. Az sonra xatırlayacaq bir şey tapmırdı. Bəzən arzulayırdı, qulağına haradansa, öz dilində doğma bir səs gəlsin. Lap kəndlərindəki dəli Suranın səsi. İlahi, ürəyi dəli Suranı istəyirdi. Hikmət məmnuniyyətlə kəndlərinə qayıdıb Suranın söhbətlərinə qulaq asardı. Sura cin dərəsindən danışırdı. O, danışanda kim qulaq assa da, Hikmət heç vaxt ona qulaq asmazdı, amma indi onu dinləmək istəyirdi. Hikmətin babasının evi kəndin kənarında yerləşirdi. Məzarlıq evlərinə yaxın yerdə idi. Məzarlığın sol tərəfində kiçik bir dərə var idi. Dəli Suranın sözü ilə

hamı o balaca dərəyə "cin dərəsi" deyirdi. Sura deyirdi ki, o dərədə cinlər yaşayır. Özü də məni tez-tez qonaq aparırlar. Yaxşı bişmişləri olur cinlərin. Aşı çox sevirlər, amma mən yemirəm. Çünki cinin biri mənim dostumdur, o mənə tapşırıb ki, cinlərin yeməyini yemə, yesən, sən də cin olarsan. Gah da gəlib, ağlamağa başlayırdı ki, mən cin olmuşam. Hikmətin nənəsi and içirdi ki, cin-zad deyilsən, elə Surasan. Hikmət Almaniyadakı o həsrətli günlərini xatırlayanda, Adiləni yada salır, ona görə özünə əzab verməyinə acığı gəlirdi. Qəribədir, bu qədər darıxsa da, niyə qayıda bilmirdi? Adiləyə elə nifrət etmişdi ki, ondan nə qədər uzaqda olsa, o qədər rahat olacağını düşünürdü. Adilə onunla vətəninin arasına, elə bil aşılmaz bir sədd çəkmişdi, Arzu o səddi götürdü. Arzuya görə o anasının yanına qayıtdı. İndi özünü xoşbəxt hiss edirdi, divandan durub anasının yanına keçdi. Anasından Şamaxıdakı evi soruşdu. Qəmər xanım: – Kim gedib-gəlir ki, xəbəri də olsun, uçub-tökülmüş olar, – deyə cavab verdi.

Hikmət anasının üzünə gülərüzlə baxıb, əminliklə dilləndi:

– Ay ana, havalar bir az açılsın, səni də, Arzunu da götürüb gedərəm, – dedi.

Qəmər xanımın gözləri doldu, Arzunun ürəyi qürurla vurdu. Hikmət bütün bunları hiss edirmiş kimi, Osmanı yatmağa aparan Arzudan soruşdu:

– Arzu, sən Şamaxıda olmusan?

Arzu "yox" sözünü elə dedi ki, sanki günah iş görmüşdü. Məlul-məlul Qəmər xanımın üzünə baxdı. Hikmət ba-

ba yurdu üçün darıxdığını indi anladı. Elə bil indiyədək yuxuda imiş, zaman onun yanından ötüb keçmişdi.

Bir neçə gündən sonra, Mahmudgil gəldi. Arzu ilə elə görüşdülər, sanki onu çoxdan tanıyırdılar. Mahmudun həyat yoldaşı Xumar gözəl, mədəni, nəcib, ziyalı bir xanım idi, Arzu onun yanında necə davranacağını, nə danışacağını bilmirdi. Heç mətbəxə keçib yemək bişirməyə də ürək etmirdi. Amma Xumar da, iki durna kimi gözəl qızları da, tez bir zamanda sadəlikləri ilə, səmimiyyətləri ilə onun məhəbbətini qazandılar.

Qızlar Arzunun başına dolanırdılar. Onun saçını sığallayır, ona bəzək verməyə çalışdıqca, qız onlardan utanırdı. Aysellə Aynur hələ uşaqlıqdan Hikmət əmisinin toyu olacağını gözləyirdilər. Nikah gününə cəmi iki gün qalmışdı. Hikmət axşam Mahmudgil evlərinə gedəndən sonra mətbəxə, Arzunun yanına keçdi və sual dolu gözlərini ona zillədi:

– Arzu, ananı niyə toya çağırmamısan?

Arzu qıpqırmızı qızardı, yer yarılsaydı, yerə girərdi. Hikmətin üzünə baxa bilmədi.

Hikmət:

– Arzu, məncə, ananın da xeyir-duasını alsan, yaxşı olar. Axı niyə ananı çağırmırsan?

Arzu başını qaldıranda Hikmətin üzünə dikilmiş sual dolu gözünü gördü, ancaq onun baxışlarında ümidverici bir ifadə də vardı. Uzun bir sükutdan sonra, nəhayət, dilləndi:

– Osmanın varlığından anamın xəbəri yoxdur, mən ona nə üzlə xəbər verim?

Hikmət qolunu Arzunun boynuna dolayıb dedi: – Nə olsun? Keçən il ailə qurmuşuq, nikahımız bu ilə qalıb. Onsuz da mən hər şeyi bilirəm, anam danışıb. Osman mənim oğlumdur! Bu söz burada bağlansın. Mən qürbətdən sənə görə, anama görə qayıtmışam. Mənim yanımda bir də belə söhbətlər eləsən, məni həmişəlik itirəcəksən.

Xoşbəxtliyinin astanasında olan Arzunun gözündən yaş süzülürdü, gülümsəməyə çalışırdı, bacarmırdı. Hıçqırığını zorla boğub:

– Osman sizi atası bilsə, ömrüm boyu sizə minnətdar olaram, – dedi.

Hikmət qızın sözünü kəsib:

– Əvvəla, siz yox, sən, ikincisi, Osman mənim oğlumdur.

Arzunun gözündən yaş süzülə-süzülə Hikmətə qısıldı. Sanki illərlə axtardığı insanı indi tapmışdı.

Arzu Sənəmə zəng edib iki gündən sonra toyu olacağını deyib, Bakıya çağırdı. Sənəm qızın sözünə məəttəl qalmışdı. Sualı-sual dalınca yağdırırdı. Arzu anasının suallarına qarşı aciz qalsa da:

– Ana, xahiş edirəm, gəl, səni Hikmətlə qarşılayacam, – deyib dəstəyi asdı.

Anasına bu xəbəri verdiyi üçün xoşbəxt idi. Osmanın varlığını bilən gündən bu günə qədər belə rahatlanmamışdı.

Əslində Arzu ən çox yenicə tanış olduğu qardaşlarından utanırdı, onları çox sevirdi. Günlərlə onlara nə cavab

verəcəyini düşünmüşdü. Cavab tapa bilmədiyi üçün, onlarla bir daha görüşməməyi qət etmişdi. İndi isə rahatlaşmışdı. O gecə Arzu daş kimi yatdı.

Sənəm yaxınlarına Bakıya – Arzunun yanına getdiyini söylədi, amma toy sözünü ağzına almadı. Çünki bu sözdən ağlı bir şey kəsmirdi. Bir neçə dəfə Bakıya getdiyini söyləsə də, Lalə ona fikir vermədi, sadəcə, "yaxşı yol" dilədi.

Onu vağzalda Hikmətlə Arzu qarşıladı. Sənəm onları görüb çaş-baş qalmışdı. Hikmət Sənəmin görkəmindən onun çox aciz bir qadın olduğunu görüb, yazığı gəldi. Yazıq qadın mat-məəttəl qalıb, maşına minib susmuşdu. Hikmətin yanında sual verə bilmirdi. Hikmət söhbəti özü açdı. Keçən ildən Arzu ilə ailə qurduğunu və bir oğlanları olduğunu söylədi. Amma nikahlarını sabah kəsdirəcəklərini dedi. Sənəm eşitdiyi xəbərə mat qalmışdı. "Necə yəni oğlumuz var?" – deyə özünə sual verirdi.

O yalnız evə çatdıqdan sonra sakitləşdi, Qəmər xanımı, Xumarı, qızları, evdəki toy-əhval ruhiyyəsini görüb, lap arxayınlaşdı. Arzunun söylədiklərinə, Hikmətin dediklərinə əməlli-başlı inanmağa başladı.

Nəhayət, toy günü çatdı. Xumar Arzunu qadın salonuna apardı. O, indiyə qədər heç zaman qadın salonunda olmamışdı. Salondan çıxıb, mavi paltar geyinmiş Arzunu, nəinki Hikmət, Sənəm özü də tanımadı. Çox gözəl görünürdü. Sənəm ürəkdən sevinsə də, toya getmədi. Hamıya, "Osmanla, Qəmər xanımı tək qoya bilmərəm", – dedi. Arzugil gecə yarısı qayıtdı. Sənəm onlara çay dəmləyib ver-

di. Hər kəs xoşbəxt idi. Ertəsi gün Mahmudgil yola düşdülər, iki gündən sonra isə Sənəm rayona qayıtdı. O, Osmanı çox sevmişdi. Sənəm özü ilə bir qalaq şəkil aparırdı. Arzunun toy şəkillərini hər kəsə göstərmək istəyirdi. Bakıya gedəndə, sadəcə, Arzu ilə görüşməyə getdiyini demişdi. İndi isə Arzunun şəkillərini göstərib, onun mötəbər bir ailənin gəlini olduğu ilə fəxr edəcəkdi.

Qatardan düşüb birbaş Laləgilə gəldi. Ürəyi dolu idi. Qatarda ürəyində bu söhbəti dönə-dönə danışmışdı.

Laləgildə qonaq çox idi, Kərim də hələ işə getməmişdi. Halbuki Sənəm istəyirdi, işə başlamamış, şəkilləri ortaya töküb Laləyə Arzudan danışsın. Hər dəfə Lalə: "Ay Sənəm, sənin bu qızın haraya yoxa çıxıb?" – deyəndə Sənəm ölüb-yerə girirdi. Artıq qohum-qonşu da Arzunu xəbər alırdı. Sənəm özü də şübhələnib, fikrindən səhərə qədər yata bilmirdi. İndi isə suallardan canı qurtarmışdı. Özü hər şeyi gözü ilə görüb gəlmişdi. Xəbəri verməyə tələssə də, burada Lalədən başqa onlarla maraqlanan adam olmadığı üçün işinə başladı. Hal-hazırda hamını maraqlandıran balaca Səlim idi.

## EPİLOQ

Artıq illər keçmişdi. Zaman dəyişdikcə hadisələr də dəyişmiş, öz axarına düşmüşdü.

İllər sonra Hikmət həyətdə Osmanla gəzişib, Arzunun bağçadan Mərcanı gətirməyini gözləyirdi (Hikmətlə Arzunun Mərcan adlı bir qızları da olmuşdu). Toydan bir il sonra Qəmər xanım rəhmətə getmişdi. Onda Hikmət Arzuya, "Sənəmi çağır, gəlsin", – demişdi, amma Sənəm gəlməmişdi, "Oqtay qoymur, – demişdi. – Mənə onlarla qalmaq xoşdur, narahat olmayın".

Hikmət xoşbəxt idi, indi o, hərdən bir rəvayəti xatırlayırdı: "Deyirlər, Allah insanları yaratmazdan əvvəl elə bir varlıq yaradıbmış ki, həmin varlıq zaman keçdikcə, ağlına qüvvəsinə, sədaqətinə, cəsarətinə, bütün müsbət keyfiyyətlərinə güvənib Allahlıq iddiasına düşür. Allah-tala onun bu iddiasından hirslənib, iki hissəyə bölüb, hər hissəsini Yer kürəsinin ayrı-ayrı yerinə atır və bu iki cinsin nümayəndəsi olur, yəni biri qadın, biri kişi olur. Elə o vaxtdan hər kəs bu dünyada öz yarısını axtarır. Kim öz yarısını tapırsa, ağılları, sədaqətləri, cəsarətləri, qüvvələri birləşib, "bir tam"a çevrilib xoşbəxt olur. Deyilənə görə, dilmizdəki "yar" sözü də ordan yaranıb." Hikmət düşünürdü ki, yəqin onun yarısı Arzu imiş, ona görə də onu tapanacan illər ötüb.

***

Kərimin Tovuzda iş müddəti başa çatmışdı. Beş il müddətinə Quba şəhərinə hakim təyin olunmuşdu. Bir neçə günə yığışıb Quba şəhərinə getməli idilər. Borçalıda keçirdiyi bir aylıq məzuniyyət başa çatmışdı. Artıq Kərimlə Lalənin də ikinci oğlu dünyaya gəlmişdi.

İndi o, oğlanlarının əlindən tutub ata-anasının qəbrini ziyarət etməyə gedirdi. Qoşa söyüd ağacının altında qoşa dayanmış məzar daşlarının qarşısında dayanmışdı. Hələ də Kərimin ürəyinin dərinliyində bir narahatlıq var idi. Həmişəki kimi, Arzunun uşağının atası kim olduğunu düşünürdü. Hələ o vaxt Sənəm Bakıya, toya gedib-gələndən sonra Sənəmə dəfələrlə qulaq asmışdı, ürək edib, Sənəmin gətirdiyi şəkillərin heç birinə baxmamış, müəmmalar qarşısında yenə də aciz qalıb köksünü ötürmüşdü. Hal-hazırda isə həmişə məzar daşlarından ona narahat, kədərli boylanan ata-anasının gözünə çökmüş rahatlığa təəccüb edirdi.

**SON**

# YETİM MƏMMƏD

(Povest)

***(Babam Məmmədin əziz xatirəsinə ithaf edirəm)***

Murtuz bəyin oğlunun gözünü cilingağac oynayanda vurub çıxardığımı qorxumdan evdə heç kimə deyə bilmədim. Anamın ölümündən sonra Abbas dayımın arvadı Suğra xalam mənim yetim adıma "bəduğur", "qaradaban" kimi sözlər artırmışdı. Abbas dayım hirslənsə də, qalın qaşlarını çatıb, gözlərinin qızartısı artsa da, nə Suğraya təpinər, nə də mənə bir söz söyləməzdi. Amma hamı, ən çox sevdiyim Fərman dayım da o sözlərdə həqiqət tapırdı. Həmişə Suğra xalama nifrət yağdırsam da, atadan-anadan yetim qalmaqda nə günahın sahibi olduğumu anlamasam da, bu gün mən də ona haqq qazandırırdım. Axı niyə mənim atdığım ağac bəyin oğlunun gözünə dəydi? Hamı da gördü. Təngnəfəs hara qaçacağımı bilmədim. Əvvəl istədim, Abbas dayımın böyük qızı Güləsərin nişanlısıgilə qaçım, orada da nə isə uydurum. Dayımın qudasıgilə sovqatı çox vaxt mən aparırdım. Suğra xalam da həmişə təzə bal, fəsəli, küllü kömbə, qatlama, daha nələr... göndərərdi qudasıgilə. Düzdür, mən qəbiristanlığı keçən kimi qabaqcadan ağ daşın dibində qazıb hazırladığım çalada əlimə keçəndən gizlədib, üstünü basdırıb, sonra keçərdim. Qayıdanda dayımın qudası Məsmə arvadın da heybəmə qoyduğu saçaqlı şirnilərdən də çalamda gizlətməyi unutmaz-

dım. İndi heç yerə ümidim gəlmirdi. Ata-baba qonşumuz Həsəngilin samanlığına nə vaxt qalxdığım yadıma gəlmir. Qorxu hissi mənə necə üstün gəlmişdisə, fikirləşmədən gizlənməyə yer tapmışdım. Düz deyirlərmiş, qorxanda adamın başı daha yaxşı işləyir. Üstümü samanla basdırandan sonra doyunca ağladım. Ağlaya-ağlaya da məni yuxu tutdu.

Ayılanda gecənin nə vaxtı olduğunu başa düşmədim, arabir haradasa itlər hürür, sonra bütün kəndin itləri onlara qoşulur, səs-səsə verir, hamısı da birdən sakitləşirdi. Göyün üzü sakit və aydın idi. Gecə olmasına baxmayaraq hava da mülayim idi. Ömrüm boyu belə sakitcə uzanıb, bədirlənmiş Aya, elə bil kiminsə əli ilə göyün üzünə səpələnmiş ulduzlara baxardım. Bu sakit, rahat halım çox çəkmədi, təəssüf ki, gündüz baş verən hadisə yadıma düşdü, dəhşət məni bürüdü; "harada olsam, gəlib məni tapacaqdılar", – deyə düşündüm. Sabahın açılmağını istəmirdim, bu arada hiss etdim ki, acından ölürəm, susuzluqdan da ciyərim yanır. Dilimlə dodağımı islatmaq istədim, elə bil dilim şişib, quru qaxaca dönmüşdü. Hava işıqlaşır, qaranlıq dalğa-dalğa uzaqlaşırdı. Kəndin o başında itlər yenə səs-səsə verib sakitləşdilər. Birdən yatdığım saman tayasının yaxınlığında hənirti duydum. Ürəyim düşdü.

Qulağımda əmələ gələn küy aşağını dinləməyə mane olurdu. Ürəyimin döyüntüsü artdıqca gözüm qaralır, bədənim titrəyirdi. Nə qədər təəccüblü olsa da, düz qarşımda çömbəltmə oturan Abbas dayımı gördüm. Yuxumu görürdüm? Yox, Ay işığında aydın görünürdü, özü idi.

Mən həmişə Abbas dayımdan qorxardım. Günahımı təkcə ondan danırdım, indi onu gördüyümə sevindim. Ona heç vaxt yaxın getməzdim, ancaq indi sevindiyimdən hoppanıb boğazına sarıldım:

– Vallah, günahım yoxdur, ay dayı, – dedim. Axı mən nə bilim ki, belə olacaq, çilingağac oynayırdıq, zəhrimar sıçrayıb bəyin oğlunun gözünə dəydi. O, bizimlə oynamırdı, kənarda dayanıb baxırdı.

Dayım bu gün, nədənsə, sakit görünürdü. Uzun barmağını üstünü bığ örtmüş qalın dodağının üstünə qoyub, "sus" işarəsi verdi. Xeyli sakit dayanıb yavaşcadan: – Nə edim? – dedi. – Ay bədbəxt, Murtuz bəy sənin də gözünü çıxarmağı tələb edir, sənin yerini mənə Həsən dedi. Bəlkə ayrı görən də olub, indi işıqlaşmamış gərək kənddən çıxasan. Səni tapıb bəyin hüzuruna aparacağıma söz vermişəm. Meşənin fıstıqlıq tərəfinə qaç, bir ağaca çıxıb, gözlə. Gecə yarıdan sonra Məmişi göndərəcəm. Hər nə desə, onu dinləyərsən. Di, cəld ol, yolun açıq olsun. Bir az duruxub: – qoy, əvvəl mən uzaqlaşım, sonra sən düşüb gedərsən, – dedi.

Dayım yuxu kimi gəlmişdi, kölgə kimi uzaqlaşdı. Gedəndə başımı sığalladı, əllərinin əsdiyini hiss elədim. Mən onu ilk dəfə belə görürdüm. Samanlıqdan düşmək istəyəndə əlimə buz kimi soyuq bir şey dəydi, ilan zənn edib diksindim. Sonra qıpqırmızı toyuq yumurtalarını görüb sevindim. Nə qədər qorxub tələssəm də, yumurtaları köynəyimin yaxasından içəri yığdım. Mən kənddən çıxanda, kənd şirin yuxuda idi. Yolüstü özümü ehtiyat çalaya da

vurdum. Orda olan azacıq ehtiyatımı da götürdüm. Hərdənbir, tək-tək xoruz banlayırdı. Kəndin çıxacağındakı bulağa çatanda, doyunca su içdim, qarnım doydu, sərinlədim, amma gözüm doymadı. Yumurtaların ikisini qırıb başıma çəkdim. Dizimə qüvvət, gözümə işıq gəldi. Xeyli yol getdim, meşəyə yaxınlaşanda artıq üfüqdə günəşin şüaları görünürdü. Səhərin sərin mehi heç vaxt sığal görməyən saçımı tumarlayırdı. Onsuz da köhnə çarıqlarımın altı tamam üzülmüşdü. Xeyli yol gəldiyimdən, ayaqlarımın altı zoqquldayırdı, ancaq çarığın cırıq yerindən ota dəydikcə sərinlik ürəyimə yayılırdı. İndiyə qədər heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa kəndimizdən ötəri darıxacam. Kənd arxada qaldıqca elə bil haradasa, lap uzaqlarda ürəyimi qoyub uzaqlaşırdım. Yəqin dayılarım çoxdan oyanmışdılar. Bilirdim ki, Murtuz bəy hirsindən bığlarını gəmirir. O qonşu kəndin bəyi idi. Hamının dediyinə görə çox əzazil, qəddar adam idi. Oğlu isə kök, zorla özünü dartıb yeriyən bir uşaq idi. Heç vaxt kənd uşaqlarına qarışmazdı, oynamazdı, daha doğrusu, oynamağa halı yox idi. Eləcə, oynayanlara qıraqdan baxardı. Mən hardan biləydim ki, ağac mənim əlimdən çıxıb, gedib onun gözünü tutacaq? İndi yəqin ki, səs-küy həyətimizi başına götürmüşdü. Sarı mis samovar, yəqin çoxdan pıqhapıqla qaynayırdı. İndi yəqin ki, Suğra xalam da uzun tumanının ətəklərini çirmələyib, belinə keçirib, ağ sərnicə Alaqız inəyə eydirmə oxuya-oxuya süd sağırdı. Heyf, evdə olsaydım, qar kimi ağ köpüklü süddən başıma çəkərdim.

Tək ağacın dibinə çatıb dincəlmək istədim, lakin ora çox açıqlıq olduğu üçün hər yerdən aydın görünürdü, ona görə narahat oldum. Gördüyüm iş məni ehtiyatlı olmağa çağırırdı. Tələsməyi vacib bilib, meşəyə girdim, meşədə sərinlikdi, hələ desəm, bir az soyuq kimi idi. Quşlar səs-səsə vermişdi. Dayım dediyi yerə çatdım, ətimə yapışan tərli, çirkli köynəyimi çıxarıb, ehtiyatla otların üstünə sərdim, bütün yemək ehtiyatım onun içində idi. Axşama qədər özümə elə yer seçməli idim ki, meşə cığırı ilə gələn adamı görüm. Ətrafa göz gəzdirib böyük bir qarağacın dibində dayandım. Ağaca dəli tənək elə dolanmışdı ki, sanki təbiət özü mənə beşik hazırlamışdı. Odur ki, əvvəl ərzağım olan köynəyimi düyünləyib əlimə aldım, sonra ağaca çıxıb yerimi rahatladım. Başımı tənəyin yumşaq, yoğun qoluna qoyub, xəyalımda yenə kəndimizə qayıtdım. Abbas dayımın əksinə olaraq, danışıb-gülməyi, əylənməyi sevən Fərman dayım gözümün qabağında canlandı.

Kəndimizdə Duman adlı varlı-karlı bir kişi vardı. Varlı olduğuna görəmi, yoxsa, xarici görünüşünə görəmi, bilmirəm, ona, "Qıllı Duman" deyirdilər. O qədər xəsis idi ki, haqqında gündə bir maraqlı hadisə söyləyirdilər. Ən çox da Fərman dayım Duman kişidən danışmağı sevirdi. Bir dəfə Fərman dayımın oğlu Musa ilə Duman kişinin evinin dalındakı kolluğa girib: "Ay Qıllı Duman", – deyə qışqırdıq. Duman kişi evə gəlib bizdən Fərman dayıma şikayət etdi. Yaxşı ki, Abbas dayım evdə yox idi. Fərman dayım bizi tutub gizləndiyimiz tövlədən gətirdi. İkimizi də tövlənin qarşısındakı dirəyə sarıdı, qamçını əlinə alıb şappıl-

datmağa başladı. Amma ilan kimi qıvrılan qamçı nə məni tuturdu, nə də Musanı. Hər dəfə fırlanıb dirəyə dəyirdi. Duman kişi irəli gəlib: "Ay Fərman, əlini saxla, günah bunlarda deyil, günah "şeşən Cabbar"ın qızındadır. Mən ona dedim ki, ay köpək qızı, qara aftafada çay qoyub, sapılcada aş bişirmə, bizi göz tutacaq". Kişi sözünü sona yetirməmiş dayım gülməyə başladı, elə bil kişini qıdıqlayırdılar. Gülməkdən az qaldı ürəyi getsin. Əhvalat Abbas dayıma çatanda təkcə bizi yox, Fərman dayımı da danladı.

– Sonsuz adamdır, nə işiniz var? – dedi.

Fərman dayım cavabında suala sualla cavab verdi: – Əşi, ay Abbas qağa, bəs onda o qədər heyvan onun nəyinə lazımdır? Nə özü yeyir, nə də qohum-qonşuya hörmət edir.

Abbas dayım qəlyanını sümürüb tərs-tərs Fərman dayıma baxdı. Abbas dayımın bir baxışı bizim evdə hamıya kifayət idi...

Xəyallar içində fikirləşə-fikirləşə qalmışdım. Bir dəfə günortadan sonra oturub ağacın boğazındaca keçmiş ehtiyat ərzağın axırına çıxdım. Sonra yenidən mürgüləyib o günü başa vurdum, amma yuxulamaq istəsəm də, yata bilmirdim.

Axşamtərəfi tam ayıldım, artıq hava qaralırdı, günəş meşənin üzərinə saldığı şüalarını yığıb getməyə hazırlaşırdı. Lap yaxından bayquşun vahiməli səsi eşidilirdi. Nədənsə, gündüz yata bilməmişdim, indi xumarlanırdım. Yatsam, Məmiş məni tapa bilməzdi. Qaranlıq qatılaşdıqca vahimə canımı alırdı. Hər ağacın, kolun dibindən qorxunc

səs və şıqqıltı gəlirdi. Aman Allah, zaman keçmirdi. Birdən qulağıma uzaqdan heyvan hənirtisi gəldi. Məmişin çıxartdığı qırıq-qırıq səsi aydın eşidirdim. Yavaşcadan:

– Məmiş, – deyib çağırdım.

Məmiş səsim gələn tərəfə yaxınlaşanda gözlərimə inanmadım. Qəribə də olsa, Məmişin qabağında iki dana var idi. Pişik cəldliyi ilə ağacdan sürüşüb düşdüm. Məmiş çiyninə keçirdiyi heybəni yerə qoydu. Məni qucaqlayıb başımı sığalladı. Məmişə fikir vermədən, sorğusuz-sualsız heybədəki yeməklərə cumdum. Xamralı çörəyinin xoş ətri məni vurdu. Çörəyi acgözlüklə yeyəndən sonra məni dəli kimi ağlamaq tutdu:

– Məmiş, mən hara gedim, meşədən qorxuram? – dedim. Axı mən o işi qəsd ilə ha, etmədim. Evə qayıtmaq istəyirəm, qoy məni döysünlər, ürəkləri sakitləşsin.

Məmiş çömbəltmə oturub, dedi: – Yekə kişisən, ay Məmməd, əə, gözünün suyunu tökmə, dayan, görək. Bu gün səhər ertə Murtuz bəy dayılarının üçünü də yanına çağırtdırıb, səni tapıb gətirməyi tələb edib. "Yoxsa, üçünüzü də qol-qola çatıb, Sibirə göndərtdirəcəm", – deyib. Abbasla Salman dayın dillənməyib. Fərman dayın and içib, aman edib ki, özüm tapıb gətirəcəm. Deyib, hara qaçasıdır? Kiminsə ya hinindədir, ya samanlığında, bir-iki gün ac-susuz qalıb üzə çıxacaq.

Suğra xalan da bəyin arvadı Səriyyə xanıma yalvar-yaxar edib, deyib:

– Biz də bezmişik o bəduğurun, qaradabanın əlindən. Tutub gətirərik, başımızdan rədd edərsiniz.

Fərman dayın evə gəlib gülməkdən ölürdü ki, bədbəxt oğlunu göndərdik uşaqlarla cilingağac oynamağa, gedib əzrayılla cilingağaca çıxdı.

Məmiş sözünü bitirib köksünü ötürdü, sonra zarafatla dedi:

– Hə, indi nə edək, deyirsən? Aparaq səni təhvil verək bəyə, dərini soysun? Dediklərimə diqqətlə qulaq as, meşədən səni özüm ötürəcəm. Çayın qırağı ilə aşağı enərsən, hər yerdə dalda ilə gedərsən. Qəza mərkəzinə çatan kimi bazarı soruşarsan. Ora çatıb "Sarı Səməd"i xəbər alarsan. Dayın deyir, çox vaxt pitixanada olur, ya da ki, çayçıda. Tapa bilməsən, evinin yerini soruş. Başına gələni danış, de ki, Abbas dayım deyir, bir müddət səni evində gizlətsin. Görək, başımıza nə gəlir,—Məmiş köksünü ötürdü.

– Yaxşı, – dedim, bir az sakitləşdim. Sonra öz-özümə fikirləşdim: "Demək, mənə həmişə soyuq, qaradinməz görünən dayım belə imiş. O, məni tək-tənha həyatın ümidinə atmayıb, qayğıma qaldı, mənə sığınmağa yer tapdı". Məmiş əlinə götürdüyü çürük ağacı qırıb ata-ata sözünə davam etdi:

– Bu danalar da sənindir. Yəni rəhmətlik ananın cehizi olan inəklərin balalarıdır. Özün bilirsən ki, kənddə hamının heyvanına dabaq xəstəliyi dəyib. Bu heyvanlar da xəstədir. Dayıların xəstə heyvanları kəsib dərisini götürdülər, ətini isə dağdan dığırladılar. Sənin danalarını da özünə göndərdilər. Mənə tapşırdılar, dərisini alıb sənə verim. Bazara çatan kimi satarsan, ayağına bir cüt çarıq alarsan. Ayaqdan danışanda əlimlə ayağımın altını yoxladım. Ça-

rığın altındakı deşik lap böyümüşdü. Ayağımın altı şişib qızarmışdı. Məmiş də əyilib baxdı. Əynindəki çuxanın iç tərəfindən kəsib çarığın içinə qoydu:

– Tez-tez baxarsan, sürüşüb içindən düşməsin, – dedi. Sonra köynəyinin ətəyindən bir sıyrım cırıb, onunla çarığı sarıdı. Məmiş məni sinəsinə sıxıb başımı sığalladı, – yaxşı, gəl yataq,– dedi. İşıqlaşana yaxın durub yola düşərik. Bir azdan Məmiş xoruldamağa başladı. Amma mən Məmiş haqqında düşünürdüm. O da mənim kimi yetim idi. Neçə il idi, dayımgildə yaşayırdı. Heyvanları otarır, əl-ayaqda nə iş var idisə, hamısını görürdü. Mən də yavaş-yavaş onun köməkçisinə çevrilmişdim. Əvvəl məni yüngül işə buyurardılar. Sonra Suğra xalamın təkidi ilə məni quzuları otarmağa göndərdilər. Bir neçə gün bundan əvvəl başıma qəribə bir əhvalat gəlmişdi.

Günorta idi, günün qızmar çağı olduğuna görə hava elə qızmışdı ki, gün adamın başını qaynadırdı, istidən quzular da tövşüyürdü. Onları qayanın kölgəsinə yığdım. Özüm də iri bir daşın daldasında uzandım. Birdən göyün üzünə qara bulud gəldi, ətrafa qaranlıq çökdü. Məni dəhşət bürüdü. Göy elə gurultu ilə guruldayırdı ki, qulağım batdı, elə bil göy uçub yerə töküləcəkdi. Selləmə yağış yağmağa başladı. Yağış, sanki badyadan tökülürdü. Duman-çən bir-birinə qarışmışdı. Qorxudan, həm də sazaqdan tir-tir əsirdim. Paltarım tamam islanmışdı. Təkcə ildırım çaxanda qayaya sığınan quzuların parıldayan gözlərini görürdüm. Daha heç nə yadıma gəlmir. Bir vaxt ayıldım ki, atamın əmisi oğlu Qara məni səsləyir:

– Ədə, ay viranın oğlu, gecə düşür, qalx ayağa, buralarda qurda-quşa yem olacaqsan.

Gözümü ovxalayıb açdım, nə yağış var idi, nə də quzular. Qaranlıqda necə gəlib-çıxmışdım, bilmirəm. Hamı təəccüblə, maraqla üzümə baxırdı. Dedim: – "Quzular yoxdur. Məni də Qara əmim oyadıb gətirdi.

Gördüm, hamı gözünü bərəldib mənə baxır. Salman dayım irəli gəlib, əlimdən tutub məni içəri gətirdi: – Yaxşı, gəl yat, – dedi.

Neçə gün, neçə saat yatdığım yadıma gəlmir. Sən demə, axşam heyvan örüşdən qayıdanbaş quzular özbaşına gəlib həyətə çıxıblar. Məni nə qədər axtarıblar, tapa bilməyiblər, kor-peşman geri qayıdıblar. Mənim itkin xəbərimi eşidəndə Qara əmim gəlib, tutun altında oturub zar-zar ağlayıb deyib:

– Ay Abbas, Məmmədin nə canı, nə yaşı var ki, onu quzu otarmağa göndərirsiniz? Sonra da elə tutun altındakı taxtın üstündəcə yıxılıb yatıb. Mən gələndə səs-küyə Qara əmim oyanıb, mənim danışığıma mat qalıb. Hamıya işarə edib ki, susun. Özü də yorğanı başına çəkib. O gecə səhərəcən qızdırmadan yanmışam. Gah gülüb, gah ağlamışam. Hərə məndən cürbəcür söz danışırmış. Kimi deyib, "havalanıb", kimi deyib, "vergi verilib". Nə isə, sağalıb ayağa duranda mənə o barədə danışan olmadı. Bir dəfə Məmiş məni yanına çağırıb soruşdu: – Məmməd, səni o gecə Şiştəpənin altından kim gətirdi?

– Qara əmim.

Məmiş üzümə gülüb dedi:

– Bəsdir, ay yaradansız, Qara əmim evdə yatmırdımı, sən gələndə? Sonra üzümə baxıb sarı saçlarımı qarışdırıb: – get oyna, – dedi.

O gündən məni nə bir işə buyuran var idi, nə də quzu otarmağa göndərən. Uşaqlara qoşulub oynamağa gedirdim, onu da belə oynadım. Mən dayımgildə meylimi adamlardan çox, anamın adı ilə bağlı nə var idisə, ona salmışdım. Salman dayımın tez-tez, "yazıq Bəstinin inəkləri" sözünü işlətməsi məni inəklərlə doğmalaşdırmışdı, hətta danaları da ələ öyrətmişdim, indi yazıqlar elə arıqlamışdılar, bir dəri, bir sümük idilər. Ağızlarından su axırdı. Ağlıma gəldi ki, yazıqdılar, körpədilər. Yavaşca Məmişin qucağından sürüşüb çıxdım, çatılarını açıb, meşənin dərinliklərinə hayladım. "Özləri nə vaxt ölər-ölər", – deyə düşündüm. Onların gönündən mənə nə xeyir olasıdır?! Qayıdıb, sakitcə Məmişin qoynuna girdim. Məni yuxu tutdu. Səhər ala-toranda Məmişin yuxulu səsinə oyandım:

– Ay Məmməd, əyə, danalar yoxdur.

Gözümü ovxalayıb:

– Niyə a qağa? – deyə cavab verdim.

– Nə bilim, yəqin pis bağlamışam, açılıblar, – deyib ətrafa boylanmağa başladı.

– Eh, zərər yoxdur ,– dedim. – Dayılarıma deyərsən, danaları kəsdim, dərisini də verdim Məmmədə. Heç mənim gücüm də çatmayacaqdı dəriləri aparmağa.

Məmiş köksünü ötürdü, nə isə, qalxıb yola düzəldik. Meşəni çıxmağımız xeyli çəkdi. Artıq hava əməlli işıqlaş-

mışdı. Meşədən çıxıb çayın qırağına gəldik. Məmiş birdən dayanıb dedi:

– Bax, Məmməd, indi mən qayıdıram, sənə yaxşı yol, ehtiyatlı ol. Ara sakitləşən kimi dayın gəlib səni gətirəcək. Bəy də hələ acıqlıdır, bir-iki gün ötsün, acığı soyuyacaq.

Sonra məni qucağına basıb bərk-bərk öpdü. Məni qucağından yerə qoyanda Məmişin yaşarmış gözlərini gördüm. O, gözlərini məndən gizlətməyə çalışırdı. Mən onu heç ağlayan görməmişdim.

Bir azdan mən çiynimdə qara bir heybə tək-tənha yol gedirdim. Və bu yol məni hara aparırdı, bilmirdim. "Görəsən, Allah məni niyə belə bədbəxt yaratmışdı?" – deyə düşünürdüm. Atamın əvvəlki arvadından beş oğlu var idi. Mən onları tanımırdım, elə-belə, haqlarında eşitmişdim. Atamın arvadı öləndən sonra əmisi oğlu Qaranın vasitəsilə anamla evlənmişdi. Anam da dul imiş. On il ərdə olub, övladı olmadığı üçün boşanıbmış, daha doğrusu, boşayıblar. Anam bu boşanmanı heç də asan qəbul etməyib, uzun müddət xəstə yatıb. Qara əmim anama evlənmək təklif edəndə, dayılarım etiraz etməyiblər. "Bəsti özü bilər" deyiblər. Anamın ikinci dəfə ailə qurmaq fikri yox imiş. Sonra dayısının təkidi ilə razılaşıb. Dayısı onu yola salanda deyib:

– Ay qızım, bilmək olmaz, bəlkə sənin qismətin oradadır. Bəlkə, övladın da olacaq. Olar, lap yaxşı, olmazsa əgər, İmranın balalarını özününkü bil.

Amma eşitdiyimə görə, anamla qardaşlarımın arasında elə də məhəbbət yaranmayıb. Sadəcə, bir-birilərinə hör-

mətlə yanaşıblar. Anam da öz taleyi ilə barışıbmış. Atam isə əməllicə xoşbəxtliyə çıxıbmış. Atam illərdən bəri xəstə olan çirkin, çopur, deyingən arvadından sonra anam kimi yaraşıqlı, xoşrəftar, sakit bir qadına rast gəlməsini özünə səadət sayır, həmişə əmisi oğluna təşəkkür edirmiş. Bundan başqa, dəmirçi olan atam çoxkülfətli və kasıb imiş. Anamın yaxşı cehizi olub. İki sağılan inək, on qoyun, iki sandıq, bir xalça, kilim, yorğan-döşək, mütəkkə, sənək, sicim, rəşmə, tabaq, xurcun, farmaş, nehrə və daha nələr-nələr... Bütün bunlar kasıb ailə üçün çox şey demək idi. Ancaq yazıq atamın bu səadəti uzun sürməyib. Suğra xalam demiş, mən bəduğurun dünyaya gələcəyini biləndə anamın sevincinin həddi-hüdudu yox imiş. Lakin qardaşlarım anamın hamilə olduğunu biləndə dava salıblar. Atam da qalıb odla su arasında. Atam qardaşlarımdan belə şey gözləmirmiş. Onların anamın xətrinə dəyəcəyindən qorxur, dayılarımdan utanırmış. Hər söz-söhbətdən sonra anamdan xahiş edirmiş ki, sən Allah, ay Bəsti, bu evdə olan söz-söhbəti qardaşlarına söyləmə, ayıbdır. Anam da deyərmiş: "Nəyini danışacam, narahat olma, hər şey düzələcək". Lakin heç nə düzəlməyib, evdəki gərginlik günü-gündən artırmış. Atam çox əsəbiləşirmiş və bir axşam toran düşüb, şər qarışıb, atam işdən qayıtmayıb. Anam narahat olmağa başlayır, nəhayət, böyük qardaşım Rza atamın yanına getdiyini söyləməsə də, kürkünü kürəyinə atıb dəmirçixanaya atamın yanına gedir. Rza qağam atamı başını zindanın üzərinə qoymuş vəziyyətdə tapır, onun yatdığını zənn edib səsləməyə başlayır. Atamın cavab vermədiyini görüb,

yaxınlaşıb silkələmək istəyir, lakin onun açıq qalmış gözlərini, qaxaca dönmüş vücudunu görüb dəhşətlə qışqırır...
Atamın ölümündən sonra anam atamın evində ili çıxana qədər oturur. Mən artıq beş aylıq imişəm. Anama dayılarım ismarıc ediblər ki, evə qayıtsın. "Yer qulaqlıdır" deyirlər. Dayılarım atamın sağlığında anamla qardaşlarımın arasında yaranan söz-söhbəti eşidiblərmiş. Tanış bir molla tapıb gətiriblər, molla deyib ki, uşaq bu ocağın uşağıdır. Ona görə sən uşağı apara bilməzsən, əgər uşağı aparsan, gərək cehizini qoyub gedəsən. Anam bu işlərin fırıldaq olduğunu anlayır. Molla anama: "Sənə hansı sərf edir?" – deyə, sual verəndə anam məni sinəsinə sıxıb: "Bu dünyada mənə uşağımdan qiymətli bir şey yoxdur", – deyib və cehizini orada qoyub, məni götürüb, qayıdıb atası evinə.
Suğra xalam anamın belə qayıtdığını biləndə gecə-gündüz deyinirmiş ki, ay qız, kim idi orada sənə, uşağa baxan? Kimin gözü atırdı sənin yetimindən ötəri? Uzaqbaşı bir həftə saxlayıb, sonra gətirib atacaqdılar üstünə. Cehizini, o gözəllikdə cins inəkləri niyə orada qoyub gəldin?
Anam da deyib ki, nəinki bir həftə, bir ay, mən uşağımı heç bir gün də orada qoya bilməzdim, ay Suğra.

Amma qardaşlarım bir müddətdən sonra anamın bütün cehizini, inəklərini geri göndərirlər.

Analı dünyam zorla yadıma gəlir. "Saçımın bir tükünü dünya malına dəyişməyən anam"dan cəmi bir neçə xatirəm vardı. Bir, anam məni dalına qaldıranda qalın hörüklərindən tutardım, bir də xəstə yatdığını xatırlayıram.
Rəngi sapsarı, gözünün altı-üstü qapqara idi. Məni hər-

dən yanına çağırardı, amma heç vaxt üzümdən öpməzdi. Üzümü oyana çevirər, boynumun dalından, çiynimdən öpərdi. Tez də ağzını yaylığı ilə bağlayardı. Balışının üstü uzun qara saçı ilə dolu olardı. Hər axşam dayılarım anamın otağına yığışardılar. Oradan-buradan söhbət edər, şam kimi əriyən bacılarının otağından qanıqara çıxardılar. Anam öləndə hamı ağlayırdı, ən çox da Fərman dayım. Abbas dayımın ağlamağı mənə qəribə gəlirdi, mən ağlamırdım. Sən demə, hamı ağlayıb sakitləşəcəkmiş və bir daha heç vaxt anamdan ötəri ağlamayacaqdı. Mən isə həmişə anasızlığıma ağlayacaqdım.

Beləcə analı dünyamı xatırlaya-xatırlaya xeyli yol gəlmişdim. Taxıl zəmisinə yaxınlaşırdım. Külək zəmini dalğalandırdıqca qəribə bir vıyıltı səsi əmələ gəlirdi. Bir an adama elə gəlirdi, qarşısında dalğalanan zəmi deyil, böyük sarı su gölüdür. İçi buğda ilə dolub, saralmış bir neçə sünbül qırıb zəmidən aralandım. Lap yorulub əldən düşmüşdüm. Qıjhaqıjla axan çayın kənarına endim. Ayaqlarımı çıxarıb suya salladım, ayaqlarım gizildədi, sonra bu gizilti bütün vücuduma yayıldı. Çayın suyu dupduru idi, dibinin daşları aydın görünürdü. Soyunub suya girdim, çimmək ləzzət edirdi, yüngülləşdim. Yaxınlıqda araba səsi eşitdim. Qoca bir kişi arabasını sürüb yanımdan ötdü, bir qədər ötüb arabanı saxladı, dönüb:

– Kimin uşağısan, ay uşaq? – dedi.

Səsimi çıxartmadım, kişi daha ucadan:

– Eşitmirsən, ay bala, səninləyəm?

Özlüyümdə: "bunun nəyinə lazımdır?" – deyə düşündüm. Amma dərhal da cavab verdim:

– Qəza mərkəzinə gedirəm, ay baba, dayımın dostuna ismarıcı var.

Qoca azacıq susub dedi:

– Əyə, sən nə ismarıc aparacaqsan, bir parça uşaqsan? Bu istidə, günəşin altında durma, səni günəş vurar, bəri gəl, görüm.

Kişinin bu qayğısından sonra ürəklənib irəli gəldim: – Gəl-gəl, – dedi. – Ay bala, bu gecə gedək bizə. Onsuz da gün-günortadan dönüb, sənin də sifətindən yorğunluq tökülür. Nə qədər əlli tərpənsən, gecə yarısı gedib çatarsan mərkəzə. Yolda qurda-quşa rast olarsan, gəl otur. Arabaya mindim. Dinməz-söyləməz bir xeyli yol getdik. Gün əyiləndə qocanın arabası balaca, uçuq bir daxmaya yaxınlaşdı. İçəridən nimdaş paltarlı, arıq, cılız bir gəlin çıxdı. Məni görüb təəccüblə baxdı. Sonra haradansa, iki oğlan uşağı peyda oldu. Mən arabadan düşüb bir kənarda dayandım. Qoca əlimdən tutub, məni irəli gətirdi: – Gövhər, bu uşağa çaydan-çörəkdən ver, "qurd dərəsi"ndən tapıb gətirmişəm. Bilmirəm, nə sayıqlayır, dediyindən ağlım bir şey kəsmir. Səhər bazara gedəndə mənimlə gedər.

Gəlin tez əl-ayağa düşdü, kəkotu çayı süzüb, süzmə qatıqla bir parça cad əppəyi gətirdi. Mən heç vaxt Abbas dayımgildə belə çörək yeməmişdim, nə də belə çay içməmişdim. Hər ikisi köhnə idi. Əlacım nə idi? Bəlkə bundan da pis günüm olacaqdı. Hələ yaxşı ki, rahat bir yer tapmış-

dım. Amma mən də mənəm axı?! Heybəmi çiynimdən yerə qoydum. İçindən ağappaq xamralı çörəyini çıxarıb, ortaya qoyub, uşaqların üzünə baxdım. Onlar himə bənd imişlər kimi, çörəyə cumdular. Qadın him-cimlə uşaqlara nə isə anlatmaq istəsə də, uşaqlar özlərini görməməzliyə vururdular, çörəyi çoxdan parçalamışdılar. Qısası, qarnımızı doyurandan sonra onlarla həmən dostlaşdım. Birgə oynadıq, danışdıq, güldük, hətta gecəni üç qardaş kimi qucaqlaşıb yatdıq. Elə yorulmuşdum ki, yatağa uzanan kimi, dərhal yuxuya gedib daş kimi yatdım. Səhər tezdən məni yuxudan qoca oyatdı:

– Oğlum, dur, gedək, mən də bazara gedirəm, bir az meyvə var, aparıb bazarda satıb, bu yetimlərə paltar almalıyam, – dedi.

Getmək istəmirdim, "kaş mən də bu yetimlərin qardaşları olardım", – deyə düşünürdüm. Ancaq çarə yoxdu, dayımın ciddi sifəti, Murtuz bəyin şeşə bığları gözümün önünə gələn kimi, özümü arabaya saldım. Hələ günəş çıxmamışdı, örüşə gedən heyvan sürüsünün arxasına düşüb gedirdik. İrəlilədikcə, qapılardan çıxan heyvanlar sürüyə qoşulduqca sürü böyüyürdü. Gözəl, xoş bir hava var idi. Bizim kənddə, yəni dayımgilin kəndində bu vaxt yuxudan oyananda adam üşüyürdü. Gövhər xala heybəmi arabaya qoymuşdu. Açıb baxdım, içində qara cad əppəyi var idi. Qoca heybəmə baxdığımı görüb dedi:

– Kasıbın olanından, ay bala, kasıblığın üzü qara olsun.

– Çox sağ olun, – dedim.

Bazarın qapısının önündə qoca arabadan bir ağ torba düşürdü. Torbanın ağzını açar-açmaz, yekə bir pişik sıçrayıb yerə tullandı. Bir göz qırpımında qəssab qarmaqdan asmağa hazırlaşdığı ciyəri götürüb qaçdı. Qəssab qışqırıb-bağırdı, bazara hay-küy düşdü. Elə bil bazara vəlvələ salmağa gəlmişdik. Qoca özünü bilməməzliyə vurdu, bir az aralandıqdan sonra qoca dedi:

– Nəvələrim bu pişiyi haradansa, tapıb-gətirib evə dadandırıblar, gördün də, necə oğrudur? Azdırdım, canımız qurtardı. Onsuz da özümüz evdə yeməyə cad əppəyindən başqa heç nə tapmırıq, buna nə verək? Bu belə, indi sən danış görüm, adamını tapa biləcəksənmi?

Çiynimi çəkdim, qocanın kənarları qırış-qırış olan gözlərinə baxdım. Kişi başımı tumarlayıb, dedi:

– Mən burada meyvə satıram, sən get, axtar, tapdın-tapdın, tapmadın, qayıt, gəl yanıma.

Düşdüm bazarın canına. Bazarda bir basabas var idi ki, gəl, görəsən. İnsan axınına düşdüm. İtələyə-itələyə məni gətirib bazarın ortasına çıxardılar. "Cızbız"ın xoş ətri ətrafa yayılmışdı. Acından qarnım quruldayırdı. Birdən arabada qalan heybəm yadıma düşdü. Harada qoymuşdum, yadıma gəlmirdi, qanım lap qaraldı. Mən indi bu vurhavurda arabanı, qocanı necə tapım? Bazarın çöl tərəfində balaca- balaca dükanlar yan-yana düzülmüşdü. Sarı Səmədi tanıyırmış kimi ora-bura boylanmağa, boğazımı uzadıb dükanların içərisinə baxmağa başladım. Nəhayət, çayxananın qarşısında ayaq saxladım, içəri adamla dolu idi. Hər kəsin qarşısında çay var idi. Yavaşca sivişib içəri keçdim,

arxada – pəncərənin qarşısında boş bir stul tapıb oturdum. İstidən nəfəs almaq mümkün deyildi. Qəndqablarının üstü milçəklə dolu idi. Mən oturan kimi üstümə cumdular, az qala gözümə dolurdular. Milçəyə-zada fikir verən yox idi, oturub şirin-şirin çay içib söhbət edirdilər. Bütün bədənim sızıldayırdı, aclıqdan qulaqlarım batmışdı. Heç nə fikirləşə bilmirdim, mürgüləyirdim. Qəfildən, sanki qulağımın dibində beşaçılan atıldı:

– Dur, rədd ol burdan, vələdüzzina, bura yatmaq yeridir?

Gözümü açıb arıq, uzun, qapqara bir kişi gördüm. Qolumdan tutub məni çəkə-çəkə qapının ağzına gətirdi. Qolumu kişinin əlindən çıxarıb, uzaqdan gəldiyimi, "Sarı Səməd"i axtardığımı söylədim. Kişi elə bil yumşaldı, əlini tökülmüş başına çəkib:

– Papaqçı Səmədimi əyə? – deyə soruşdu.

Çiynimi çəkdim, axı Məmiş mənə, sadəcə, "Sarı Səməd" demişdi.

Kişi bir qədər yumşaq tərzdə:

– Yaxşı, vaxtımı alma, çıx get, – deyib içəri keçdi.

Çıxıb çayçının qabağında yerdən oturdum. İçəridən yekəqarın bir kişi çıxıb mənə yaxınlaşdı:

– Ay bala, Səməd burada yoxdur, Tiflisə gedib, mal gətirməyə, iki-üç gündən sonra gələcək. Evlərinə getmək istəyirsənsə, gəl aparım, mənim evimə yaxın yerdə yaşayır. Tənbəl-tənbəl yerimdən durub, kişinin yanına düşdüm. Mən heç vaxt belə isti görməmişdim. Elə bil qolumdan tutub təndirə atmışdılar. Məmişin çarığımın altına sarıdığı

dəri haradasa, düşüb itmişdi. Ayağımın çarığın cırıq yerindən yerə dəyən yeri yanırdı. Bədənimdən su axırdı, gombul kişinin də üzündən su axırdı, hər tərəf toz-torpaq içində idi. Yolun kənarındakı ağaclar tozdan öz yaşıl rənglərini itirmişdilər. Bir xeyli getmişdik ki, kök kişi qara tikanla hündür çəpərlənmiş bir məhəllənin yanında ayaq saxlayıb:

– Səmədin evi budur, a bala, – deyib uzaqlaşdı.

Qapıya yaxınlaşıb, yavaşca qapını araladım və gözlərimə inanmadım. Bu toz-torpağın içində birdən-birə gözümün önündə yeni bir dünya canlandı. Sanki bura cənnətin bir guşəsi idi. Həyət başdan-başa yamyaşıl göyənlik idi. İki gözdən ibarət, səliqəli ev qızılgüllərin əhatəsində idi. İki-üç balaca qız uşağı qoşa dayanmış iki böyük tut ağacının kölgəsində oynayırdı, ayrı kimsə görünmürdü. Qızlar qapının səsinə dönüb baxsalar da, əhəmiyyət vermədilər. Mən ürək edib içəri girə bilmədim. Qapını ehmalca örtüb, yenə toz-torpağın içində qaldım, bir qədər dayanıb çəpərin kölgəsində yerdən oturdum. Yoldan hərdənbir keçən olsa da, mənə fikir verən yox idi. Nə qədər oturduğumu bilmirdim, onu bilirdim ki, acından ölürdüm, dilənməyə də hazır idim, amma içəri keçə bilmirdim. Toran düşürdü, hava nisbətən sərinləmişdi, əgər buna sərinlik demək olsaydı. Elə bil su əvəzinə, ciyərlərimə ılıq, çirkli su dolurdu. "Təki bir qab, heç olmasa, ılıq su olaydı", – deyə arzulayırdım. Başımı çəpərin içindəki ağaca dayayıb mürgülədim, yuxumda Məmişi gördüm...

"Heyvan otarmağa getmişdim, sonra Məmiş süfrə açmışdı, o süfrəni açanacan, mən bulağın buz kimi suyundan doyunca içib, əl-üzümü yudum, Suğra xalamın Məmişə qoyduğu yumşaq, ətirli çörək ilə motal pendirindən doymaq bilmirdim."

Birdən vahiməli it səsinə oyandım. Haradasa, lap yaxında it qorxunc səslə hürürdü. Yerimdən durub düz qapının ağzında dayandım ki, bir şey olsa, tez içəri keçim. Qapını itələdim, şükür ki, açıq idi. Qaranlıqda şıqqıltı eşitdim, gözümü qaranlığa zillədim, səs gələn tərəfə baxdım. Nə isə bir qaraltı mənə yaxınlaşırdı. Mənə yaxınlaşanda o da diksindi, dayanıb, dolğun səslə soruşdu:

– Kimsən, ay uşaq?

– Mənəm, – dedim.

Səhərdən danışmadığıma görəmi, ya ac-susuz olduğumdanmı, nədənsə, səsim zorla çıxırdı. Elə bil mənim səsim deyildi, xırıltılı, ciyiltili bir səs idi. Kişi bir də soruşdu:

– Sən, yəni kimsən?

– Məmmədəm, – dedim.

Kişi çiynindəki xurcunu yerə qoyub, mənə lap yaxınlaşdı, bu dəfə əsəbi səslə:

– Əyə, hansı Məmməd, kimin uşağısan, gecənin bu vaxtı burda nə gəzirsən?

Ürəklənib bir az hündürdən danışmağa başladım. Birnəfəsə məni Abbas dayımın göndərdiyini və başıma gələnləri danışdım, amma sözümü qurtaran kimi peşman oldum. Axı bu adam kimdir? Bəlkə heç bu söhbəti bu kişiyə

etmək lazım deyil? Kişi əli ilə çiynimə toxunub mülayim səslə:

– Gəl, bala, gəl, dalımca, – dedi. Xurcunu çiyninə aşırıb, içəri keçmək üçün məni qabağa buraxdı. Evdən lampa işığı çölə süzülürdü.

Kişi eyvana yaxınlaşdı:

– Ay Gülsüm, ay Gülsüm, – deyə çağıra-çağıra ayağını soyunmağa başladı. İçəridən qəşəng, ağappaq, yanağı xallı bir qadın çıxıb dedi:

– Bıy, ay Səməd, nə yaxşı tez gəldin? – Sözünü bitirməmiş ikinci sualı verdi: – bu uşaq kimdir?

Səməd əmi bir-iki dəfə qırıq-qırıq öskürüb deyinməyə başladı:

– Gecə yarıdan keçib, qapını niyə bağlamayıbsınız?

Sonra üzünü mən tərəfə çevirib:

– Bu uşağı dostum göndərib. Su ver, yuyunsun, yemək ver, yeyək, yaman acmışam.

Çarığımı çıxarıb bir tərəfdə dayandım. Utandığımdan toz-torpaqlı ayağımı tər-təmiz döşəməyə qoya bilmədim. Gülsüm xala döşəməyə və tozlu ayaqlarıma baxıb, məni dərhal başa düşdü, sanki qadının mənə yazığı gəldi, içəridən mis ləyən, bir qab da su gətirib:

– Can bala, get, yaxşı-yaxşı yuyun, – dedi.

Yuyunub içəri keçdim. Bayaqkı qızlar kilimin üstündə sakitcə oturub, atalarının xurcununa baxırdılar. Qızlardan bir az aşağıda mən oturmuşdum. Gözümü aşağı dikmişdim, başımı yuxarı qaldıran kimi mənə dikilən gözləri görüb sıxılırdım. Gülsüm xala samovarı cızıldaya-cızıldaya

götürüb içəri girdi. Üstünə sarımsaq-qatıq tökülmüş lobya gətirdi. Daha halım qalmamışdı, ac qurd kimi girişdim yeməyə. Səməd əmi də mənim kimi iştahla yedi, yeməyini bitirən kimi acgözlüklə çay içdik. Mənə heç bir sual verən olmadı. Səməd əmi sapsarı, gözləri göy bir kişi idi. Düşündüm ki, yəqin ona elə anadan olanda Səməd yox, "Sarı Səməd" deyiblər. Doyunca çay içəndən sonra Səməd əmi xurcununu istədi. Oradan qızlarına və Gülsüm xalaya güllü yaylıq, mənə isə bir ovuc şirni çıxardıb verdi. O, xurcunun bir gözünü boşaldıb, o biri gözünə əl vurmadı. Xurcunu Gülsüm xalaya verib:

– Yaxşı astarlıq parça tapıb almışam, al bunu apar, sonra gəl yerimizi aç, yataq, yorulmuşam, – dedi.

Mən səhər yuxudan oyananda gün çoxdan çıxmışdı. Otaqda heç kim yox idi. Əlimi atıb paltarımı geyinmək istədim. Yanımda heç nə yox idi. Qaldım məəttəl, səsimi çıxarda bilmədim. Həyətdən qızların səsi gəlirdi. Bir xeyli keçmiş Gülsüm xala içəri girib dedi:

– Ay bala, paltarını yumuşam, nəmdir. Hava istidir, heç nə olmaz, dur geyin, gəl, çörək ye.

Elə kövrəlmişdim ki, az qalırdım ki, Gülsüm xalanın koppuş əllərindən öpüm. Durub elə nəm, amma tərtəmiz, qəribə sabun ətri verən paltarımı əynimə geyib çölə çıxdım.

Beləcə çox keçmədi ki, Səməd əminin köməkçisinə, ailənin bir üzvünə çevrildim. Mən də hər səhər Səməd əmi ilə bazara gedir, dükanını süpürür, dükanın qabağını sulayırdım. Onun yanına papaq tikdirməyə gələn çobanlar

sovqat gətirərdilər – motal pendiri, ət, nehrə yağı. Mən sovqatları götürüb evə aparırdım. Evdən də Gülsüm xalanın bişirdiyi yeməyi gətirib, Səməd əmiyə verirdim. Mən nə qədər işləsəm də, yorulsam da, heç bir narazılığım yox idi. Çünki burada məni təhqir edən, "bəduğur", "qaradaban" deyən yoxdu. Yeyirdim-içirdim, tər-təmiz yerdə yatırdım. Ona görə də çalışırdım ki, Səməd əmiyə, bu ailəyə bir köməyim dəysin. Ev işlərinə də kömək edirdim, samovar qaynadır, odun yarır, su daşıyırdım. Səməd əmigilin heyvanları yox idi, hər şeyi bazardan alırdılar. Onun bazardan alıb evə göndərdiyi bir şirniyə, meyvəyə çərəzə əlimi vurmazdım. Hərdənbir vaxt tapıb, yumru sifətli, qara gözlü qızlara da qulluq edirdim. Bəzən ağacların ən hündür budağındakı meyvəni dərib onlara verirdim. Səməd əminin yaxşı bağı vardı. Amma məni bağa göndərməsələr, heç vaxt ora keçib bir meyvə qopartmazdım. Təkcə bal kimi, şirin tutdan doyunca yeyərdim. Dükanda da boş dayanmırdım, dəriləri daşıyır, aşılamaqda Səməd əmiyə kömək edirdim. O da məndən razılıq edirdi, deyirdi:
– Ayağın yüngüldü, a Məmməd, sən gələndən müştərilərim artıb. Mənə diqqətlə qulaq as. Sənət öyrənmək yaxşı seydi, məsəl var: "İşlə mənim üçün, öyrən özün üçün". Səni də papaqçı edəcəm.

O belə deyəndə sevinirdim, hətta kövrəlirdim də. Yaman yaxşı adam idi Səməd əmi. Heç vaxt məni danlamazdı, fikirləşirdim ki, yəni heçmi səhvim yoxdu? Bekar olanda az-az ustanın əlinə baxırdım. Bəzən də, qırıq parçaları onun kimi kəsməyə çalışırdım.

Gülsüm xalanın özünün tikiş maşını var idi, qızlara paltar tikəndə mənə də köynək tikmişdi. Gülümsünərək köynəyimə baxan qızlardan utansam da, sevinirdim. Səməd əmi axırıncı dəfə Tiflisə gedəndə mənə ayaqqabı almışdı. Baxmaqdan doymurdum, gecə hamı yatandan sonra xəlvət geyinib baxırdım. Bir sözlə, tale mənə ata-ana vermiş, sadə, təmiz, vicdanlı bir ailənin üzvünə çevirmişdi. Bazar günü işi başından aşsa da, Səməd əmi məni bazara gəlməyə qoymurdu, "tanıyan olar", – deyirdi. Hər dəfə də Gülsüm xala təəccüb edib:

– Ay kişi, sən Allah, bəsdir, doğrudanmı, o boyda bəy əl boyda uşaqla düşmənçilik çəkir? Uşaqdır, qəsdən ha, etməyib, bir xətadır, yəqin təzə-təzə acıqlı olub, deyib, "mən də onun gözünü çıxartdıracam". Elə də iş olar?

Gülsüm xala hər nə qədər Murtuz bəyin məni axtarmağına inanmasa da, Səməd əmi bu işə ciddi münasibət bəsləyirdi. O danışanda qorxurdum. Deyirdi ki, onlardan nə desən, gözləmək olar. Elə azğınlaşıb, qudurublar ki, qan gözlərini örtüb. Bir bəhanə axtarırlar, kasıba güc göstərməyə.

Ən maraqlı günlər Səməd əminin dostları gələn günlər idi. Səməd əminin dostları çox idi, aralarında ayrı millətdən olanlar da vardı. Səməd əmi onların arasında fərq qoymurdu, onun qapısı hər kəsin üzünə açıqdı. Ayda bir dəfə, lap elə iki dəfə yığışardılar. Səməd əmi aşıq və zurnaçı çağırtdırır, quzu kəsdirir, dostları ilə birlikdə yeyib-içib, əylənirdi. Bir sözlə, aləm kişiydi Səməd əmi, mən də ki, düşmüşdüm cənnətə.

İsti yay günləri başlayan kimi bütün ailəsini yığıb, Çəmbərəkə köçər, Dürrü bulağının üstündə dəyə qurardı. Çəmbərəkdə Gülsüm xalanın bacısı yaşayırdı. Gülsüm xala ciddi insandı, Çiçək xala isə əksinə, çox zarafatcıl, deyib-gülən qadın idi. Onların çoxlu heyvanları, toyuq-cücələri vardı. Burada da Çiçək xalanın oğlanlarına qoşulub onlara kömək edirdim. Çiçək xala nehrəni çalxalayıb, ayranı ağ torbaya töküb iri bir daşın üstünə qoyar, bizi qaymaq çiçəyi dərməyə göndərərdi. Tez qaçıb Dürrü bulağının başına gələr, qaymaq çiçəyi dərib aparardıq. Çiçək xala qaymaq çiçəyini ayran torbasının üstünə döşəyib deyərdi ki, süzmə gül qoxuyacaq. Bulağın üstünə gedəndə, diş göynədən, buz kimi suyundan doyunca içəndən sonra, əllimizi suya salıb sayırdıq, ona qədər sayanacan suda saxlaya bilmirdik, əllərimiz qıpqırmızı olurdu. Çiçək xala nehrə çalxalayanda, Gülsüm xala dağ otlarından, cincilmdən, quş əppəyindən kətə bişirər, təzə nehrə yağı ilə yağlayardı. İlahi, necə də xoşbəxt, qayğısız günlərdi o günlər. Yay günləri maraqlı, mənalı keçirdi. Səməd əmi dükanını da bura köçürürdü, o harda olsaydı, müştərilər onun başına, arı şirəyə yığışan kimi yığışardılar. Həm də bura yaylaq yeri sayılırdı, dincəlməyə gələn də çox olurdu. Payız gələn kimi geri dönürdü Səməd əmi.

Havalar yavaş-yavaş sərinləməyə başlamışdı. Qızmar, günəşli yayın yerini qaşqabaqlı payız tutduqca, payızın çiskini ürəyimə dolurdu. Günlərim nə qədər xoş keçsə də, bacardıqca çox işləsəm də, bəzən utanırdım, darıxırdım. Dayımgildən bir xəbər yox idi. Səməd əmigil nə düşünür-

dü? "Bu uşağın yiyəsi haradadır", – deməzlərmi? Bəlkə, mənim əlimdən beziblər?!

Səməd əmigildə yemək vaxtılı-vaxtında olurdu. Mənim payımı hamıdan çox çəkirdilər, amma mən günü-gündən arıqlayırdım. Gecələr durub səhərəcən ağlayırdım. "Atam-anam olsaydı, heç vaxt məni bu qədər başqasının üstünə atmazdı", – deyə düşünürdüm.

Payız yavaş-yavaş yerini tuturdu. Yağışlar başlamışdı, səngimək bilmirdi. Tozlu yolları palçıqlı yollar əvəz edirdi. Gözüm yollarda qalmışdı. Paltarım çox nazik idi, səhər yerimdən durub, bazara gedəndə dişim-dişimə dəyirdi. Bunu heç kəsə bildirmək istəmirdim. Bir səhər evdən çıxanda Gülsüm xala dedi:

– Ay Səməd, Məmmədə bazardan pencəkdən-zaddan, bir şey al, hava soyuqdur.

Səməd əmi dedi:

– Hə, bilirəm, alacam.

Mən:

– Yox-yox, lazım deyil, – dedim, – çox sağ olun, istəmirəm, – desəm də, o axşam Səməd əmi pencək alıb gətirmişdi, təzə deyildi, amma çox nimdaş da deyildi. Sözün düzü, mən ən çox qızlardan utanırdım. Gülsüm xala ilə Səməd əmi mənə pencəyi geyindirib baxmaq istəyəndə, onlar da baxmağa gəlib, mənə baxıb gülümsünürdülər. Axı bunlar niyə gülümsünürdülər? Burada gülməli nə var idi? Həmin gecə yata bilmədim, gözümə yuxu səhərə yaxın getdi. Yuxunun içində qulağıma hədsiz doğma bir səs gəlirdi, amma ayıla bilmirdim. Sonra o səs aydınlaşmağa

başladı. Gözümü açanda Fərman dayımı gördüm. Yerimdən dik atıldım. Gözümü açıb diqqətlə baxdım, Fərman dayım idi. Quş olub üstünə atıldım. Tələm-tələsik üz gözündən öpməyə başladım. Elə bil görüşməyi indicə qadağan edəcəkdilər. Fərman dayım məni bağrına basdı. Kaş ki, indi qızlar oyaq olaydılar, görərdilər mənim də dayım var, özü də məni çox istəyir. Elə bildim ki, məni aparmağa gəlib. Ancaq heç sevinməyimə dəyməzmiş. Fərman dayım məni apara bilməyəcəyini söylədi. Elə bil başıma bir qazan su tökdülər. Dayım dedi:

– Murtuz bəy günümüzü qara edib, səni tapmağı tələb edir. Hər gün bizi divan-dərə ilə hədələyir. Oralarda kimdir, bizim sözümüzü eşidən? Bəylərin zülmü lap artdıqca, qaçaqların sayı da artır. Qaçaqların hamısı haqsızlığa qarşı çıxanlardı. Evlərindən didərgin düşüblər. Qaçaqlar dağlarda gizlənir, acından öləndə kəndlərə hücum çəkib soyğunçuluq edirlər. Kəndlərdə də vəziyyət yaxşı deyil. Heyvanlara da xəstəlik dəydi, hələlik, burada qal, görək, başımıza nə gəlir. Səməd də səndən razılıq edir. Papaqçılıq yaxşı sənətdir, öyrən, sonra sənə də bir dükan açarıq. Dayım bunları deyib, gətirdiyi xurcunu irəli çəkdi. O, xurcundan gətirdiyi sovqatı boşaltmağa başladı. Ət , yağ, şor, pendır, qurud və başqa ərzaqları boşaldıb, cibindən pul çıxardı. Dayım Səməd əmiyə pul vermək istəyirdi, Səməd əmi yaxın da qoymadı:

– O nə deməkdir, Abbasdan ayıb deyilmi? Abbasın bacısı oğlu mənim bacım oğludu. Kasıblığın üzü qara olsun, ürəyimcə paltar ala bilmirəm.

Fərman dayım: – Bu gün özüm alacam, – dedi. Elə bil Fərman dayım danışdıqca kökəlib böyüyürdüm. Qolumda qüvvət, dizimdə taqət hiss edirdim. Dayım məni bazara aparıb əyin-baş aldı. O gecə dayım qayıtdı, dayılı günlərimi də özü ilə apardı.

Bir azacıq sakitləşməyim uzun sürmədi. Yenə də həyatımda amansız dəyişiklik baş verdi. Səməd əmigilin evlərinin həndəvərində bir yekə ağ it hərlənirdi. Biz iti görüb, narahat olanda o deyirdi: "Qorxmayın, bekara itdi, adamzad qapan deyil". Doğrudan da, adama hürən-zad deyildi. Bir axşam Səməd əmi evə qayıdanda ona yaxınlaşan iti görüb əhəmiyyət verməyib. İt Səməd əmi yanına çatanda qəflətən, dizindən azca aşağıdan, baldırının qom ətindən yapışır. Hay-küyə hamı bayıra qaçdı. Qan kişinin ayağının üstünə tökülürdü. Onu içəri gətirdik. Gülsüm xala əl-ayağı əsə-əsə bir parça bez yandırıb qara basdı. Qızlarla mən də bir-birimizə dəyə-dəyə Gülsüm xalanın yanında hərlənirdik, nəhayət, qan kəsdi. Qan kəsib sakitləşəndən sonra Gülsüm xala deyinməyə başladı:

– Ay bədbəxt oğlu, nə vaxtdır, sənə deyirəm, bu iti buralardan rədd elə. Nə yaxşı ki, qanı tez kəsə bildik.

Ertəsi gün eşidən-bilən qohum-qonşu, hər kəs Səməd əminin yanına gəlirdi. Kimi çox qan itirdiyinə görə bal yeməyi, kimi çiçək dəmləməsi içməyi, hətta bəziləri həkim gətirməyi məsləhət edirdi.

Səməd əmi heç nəyə fikir vermədən deyirdi: – Ay kişi, narahat olmayın. Bir mən ha, deyiləm it yeyən.

Keçən il yazıq Qafarı Tağıların iti qanına qəltan etmişdi, nə oldu, sağalmadı?

Gecənin yarısınadək yanına gələnlərlə zarafat etdi: "Ermənilərlə dostluq etməkdənsə, itlə dostluq etmək daha yaxşıdır", –deyə düşünmüşdüm. Bu dostluğun axırı da belə qurtardı.

Hamı gülməkdən uğunub gedirdi. Danışdılar güldülər, dağıldılar.

Səhər o başdan Gülsüm xalanın tükürpədici səsinə oyandıq.

Səməd əminin gözləri açıq qalmışdı. Yorğan-döşəyi qan içində idi. Sən demə, damarı üzdə imiş, itin dişi damara toxunubmuş. Yuxuda ikən damarın ağzı açılıb, qan axıb. Artıq Səməd əmi həyatda yox idi, qurtarmışdı mənim xoşbəxt günlərim.

Yarımca saat keçməmiş, evdən qalxan şivən asimana bülənd oldu. Yanıb-tökülürdüm, ağlamaqdan gözlərim şişmişdi. Birdən, haradansa, Suğra xalamın "bəduğur" sözü yadıma düşdü. İndi atalarının ayağından yapışıb, qışqırıb ağlayan qızlara baxıb günahkar adam kimi peşmançılıq hissi ilə qovrulurdum. "Mən bura gəlməsəydim, yəqin ki, Səməd əmi ölməyəcəkdi, it dişləməklə adammı, ölər?" – deyə düşünürdüm.

Bilmirəm, bu fikir haradan başıma doldu, qaçmaq qərarına gəldim. Ağır cinayət törətmiş cinayətkar kimi, hara olur-olsun, qaçacaqdım. Dayılarım tökülüb gələcəkdi, mənə baxıb peşman-peşman başlarını bulayacaqdılar. Hamı məni günahkar görəcəkdi.

Burada qaldığım müddətdə mən çox adam tanıyırdım. Amma hara gedim? Kimin üstünə? Çox adamı elə-belə üzdən tanıyırdım. Səməd əminin yanına Əhməd adlı bir kişi gəlirdi, yanında həmişə nökəri olurdu. Bilmirəm, nədənsə, onun adına gah "tat Əli", gah da "lüt Əli" deyirdilər. Mən onunla dükanda tanış olmuşdum. Bir neçə dəfə bazardan evə gedəndə yükü ağır olduğu üçün kömək edib, onu evlərinə qədər ötürmüşdüm. O, həmişə ağır şəraitdə yaşadığından, tövlədə yatdığından danışırdı. Axşama qədər gələn-gedənə qulluq etdim, şər qarışanda üz tutdum Əhməd kişinin evinə. Darvazanı döyməyə üzüm gəlmədi. Məhəllənin dörd ətrafında fırlanır, ordan-burdan boylanırdım. Birdən tövlənin qabağında Əlini gördüm. Əlimi ağzıma qoyub: "Əli", – deyə alçaqdan səsləndim. Əlinin qulağı darı dəlirmiş, tez mənə tərəf baxdı. Əvvəl geri döndü, sonra nə fikirləşdisə, mənə sarı gəldi. Mən bir də səsimi çıxardıb:

– Əyə, mənəm ey, Məmmədəm,– dedim.

Əli ehmalca boylana-boylana çəpərə yaxınlaşdı. Zülmət qaranlıqda, çiskinli yağışın altında dizinə qədər palçığa batan məni görəndə dedi:

– Bıyy, Məmməd, sənsən, gecə vaxtı burda nə gəzirsən?

Olanları ona dedim:

– Əli, Səməd əmi öldü.

– Bilirəm, – dedi.

Kövrəlmişdim, səsim qırıq-qırıq çıxırdı. Demək olar ki, öz səsimi özüm eşitmirdim:

– Daha mən orada qala bilmərəm. Özləri bir çətən uşaqdırlar, onlara yük ola bilmərəm, Əli.

Ürəyimdən keçəni, uğursuzluğumdan Əliyə bir söz demədim. Hər ikimiz susduq, o, dayanıb mənə baxırdı. Nəhayət, dilləndi:

– Məmməd, sən yaxşı bilirsən ki, bura mənim evim deyil. Bir qarnı ac, bir qarnı tox, birtəhər başımı girələyirəm. İndi tövlədə bu gecəni başa vuraq, sabaha Allah kərimdir.

Əlinin yanına düşüb tövləyə gəldim. Bura qaranlıq olsa da, isti idi. Əli mənə samandan yer düzəldib, – yat, – dedi.

Amma məcbur olub aclığımı bildirməli oldum:
– Əli, vallah, acından ölürəm, dünən axşam yediyim çörəkdir. Bu gün orada əlimi yeməyə uzada bilmədim.

Əli də yanıqlı bir ah çəkdi:

– Eh, rəhmətliyin oğlu, gələndə halvadan-zaddan yeyib-gəlsəydin,– dedi.

Daha səsimi batırıb uzandım, bədənim zoqquldayırdı, Əli qalxıb harasa getdi. Yata bilmirdim, həm acından, həm də fikirdən. Əli tez qayıtdı, əlində sulanmamış quru çörək var idi, məni çağırdı:

– Əyə, Məmməd, dur, bunu ye, başqa bir şey tapa bilmədim.

Tez durub oturdum, qupquru yuxanı xırtaxırtla yedim. Dərhal gözümə yuxu getdi.

Elə şirin yatmışdım ki, oyananda harada olduğumu, nə baş verdiyini anlaya bilmədim. Ayılanda dünənki hadisə yadıma düşdü, yanıb-yaxılırdım. Zar-zar ağlamağa başla-

dım. Gözümdən yaş leysan kimi axırdı. Əli içəri girib, ağladığımı görüb dedi:

– Bəsdir, sən Allah, arvad kimi gözünün qorasını tökmə.

Dəmir kasada qatıq və bir parça qara çörək gətirmişdi. Başa düşdüm ki, bu onun öz payıdır:

– Gəl, bir yerdə yeyək, – dedim.

– Sən ye, mən yemişəm, – dedi.

Mən qatıqla çörəyi yeyib qurtaran kimi Əli dedi: – Əhməd kişi ilə sənin haqqında danışacam, bəlkə səni də nökər götürdü. Amma burada olduğunu deməyəcəm. Razı olsa, üzə çıxarsan, – deyib, kasanı götürüb çıxdı. İki-üç gecə idi tövlədə xəlvətcə qalırdım. Tövləyə Əlidən başqa heç kim gəlmirdi. Hər gecə Əli harasa gedir, əlində bir-iki yuxa qayıdırdı. Mən başa düşürdüm ki, çörəyi oğurlayır, çünki gündüz o qapqara, daş kimi çörək gətirirdi. Sonralar Əli yuxanı oğurladığını deyib söyləyirdi: – Əhməd kişinin iki gözdən ibarət olan evinin bir otağının tavanı, döşəməsi taxtadandır. O birisi otağın döşəməsi torpaqdandır. Qonaq otağı bəzəkli, pərdəli döşənəcəklidir. Torpaq otaqda özləri yaşayır, qonaq otağı olan bəzəkli otağın qapısı çox vaxt bağlı olur. Həmin qonaq otağından zirzəmiyə yol var. Yuxanı bişirib qonaq otağına qoyurlar. Mən ac olanda düşürəm zirzəmiyə, oradan otağa qalxan pilləkənin üstündə dururam, özümlə apardığım uzun qarmağı uzadıb, yuxaya keçirib özümə tərəf çəkirəm. Əli bunları danışanda hamısını aclıqdan etdiyini deyib özünə haqq qazandırmağa çalışırdı. Hətta özünü yaşama-

ğı bacaran adam kimi göstərib qürrələnirdi. Əli ev sahibindən qorxsa da, bu neçə gündə bir dəfə olsun, mənə "get" sözünü demədi. Əlinə keçəni oğurlayıb gətirirdi. Gah bir parça pendir, gah bir-iki şirni. Bunların oğurluq olduğunu bilə- bilə yeyirdim, heç səsimi də çıxartmırdım. Demək olar ki, hər gecə yuxumda Səməd əmigili görürdüm. Bir qayda olaraq Gülsüm xalanın qışqırıq səsinə oyanırdım. Onlara çox öyrəşmişdim, xiffət edirdim. Bir gün Əli sevinə-sevinə gəlib mənə iş tapdığını söylədi və məni iş tapdığı yerə apardı. Hər ikimiz uşaq kimi sevinirdik. Yazıq Əlinin canı oğurluq etməkdən, mənim də canım xəcalət çəkməkdən qurtaracaqdı.

Məni nökər götürmək istəyən orta yaşlı, övladsız bir ailə idi. Kişi atını yəhərləyib, xurcunu xırda-xuruşla doldurub kəndlərə satmağa gedərdi. Arvad isə xəstəhal, sakit bir qadın idi. Bu insanlara da tez öyrəşdim. Əliyə minnətdarlığımın həddi-hüdudu yox idi. Çünki burada mən heç kimdən utanmırdım. Elə bil ki, öz əlimin zəhmətini yeyirdim. Hər işi görürdüm. Lap elə qadın işlərində də Sünbül xalaya kömək edirdim. Bəzən Qurban əmi ilə kəndlərə gedirdim, günlərim pis keçmirdi. Qurban əmigil buralardan köçüb getmək, məni də özləri ilə aparmaq istəyirdilər. Bunu eşidəndə qanım qaraldı, onlarla getməyəcəyimi bildirdim. Qurban əmi təkliyə düşən kimi məni tovlamağa başlayırdı, "gəl mənimlə gedək",– deyirdi. Sünbül xala da əl çəkmirdi, "sənə öyrəşmişəm", – deyirdi. Nəhayət, onlar köçüb öz dədə-baba yurdlarına – Göyçəyə getdilər; buralarda təklikdən darıxırdılar. Bütün qohum-qardaşları Göy-

çə mahalında yaşayırdı. Qurban kişi evini satmağa qoymuşdu. Mən də evdə qalmışdım, gələn müştərilərə cavab verirdim. Qurban əmigil mənə bir az nökər haqqımdan pul, bir də yavanlıq saxlamışdılar evdə. Bir sözlə, qarnım tox idi. Əgər almaq istəyən olsa, gedib onlara xəbər verməli idim. Çünki mən Qurban kişi ilə bir neçə dəfə Göyçəyə gedib-gəlmişdim, yolları tanıyırdım.

Bir gün yekəqarın, kök bir kişi gəlib evin sahibini soruşdu və bu evi almaq istədiyini söylədi. Mən də: "Xəbər verərəm", – dedim. Kişi: "Tez çatdır", – deyib getdi. Amma bu ara qarışıqlıq idi. Ermənilər baş qaldırmışdı orda, burada da xırda atışmalar olurdu. Hər gün o barədə söz-söhbət gəzirdi. Düzdür, mən onların nə istədiyindən bir şey anlamırdım. Hər bazar günü ermənilər tökülüb-gəlirdilər, pulu olan bazardan bazarlıq edirdi, pulu olmayanlar qapılarda işləyir, əkin-biçinə kömək edir, sonra da ev sahiblərinin verdikləri ərzaqla zənbillərini doldurub gedirdilər. Ona görə də onların bizə qarşı düşmənçilik edəcəklərini ağlıma belə gətirmirdim. Ertəsi gün Göyçəyə – Qurban kişiyə evə müştəri gəldiyini söyləməyə getdim. Qurban kişinin öyrətdiyi kimi, o tərəflərə gedənlərə qoşuldum. Məni görəndə Sünbül xala narahat oldu: – Bu qarışıqlıqda burda nə gəzirsən? – dedi. – Gərək, gələnlərdən xəbər göndərəydin.

Dedim: – Narahat olma, qayıdanda birbaşa getməyəcəm. Səməd əminin dostu var idi, gecə onlarda qalacam. Nirsizgilin evini tez tapdım. Bu hay-küylü, Səməd əminin evində günlərlə qonaq qalan, orada özü ağırda çörək kə-

sən, həmişə məni şirin dillə dilləndirən kişinin gözlərində yatan ilanlardan qorxdum. Məni soyuq-soyuq içəri ötürdü. Nirsizin arvadı da, qayınanası da məni görəndə narahat oldular. Mən ermənicə az-çox başa düşürdüm. İndi nə qədər dinləyirdimsə, bir şey başa düşmürdüm. Çöldən qarışıq səslər gəlirdi. Bir neçə dığa əl-qolunu ölçə-ölçə bağırışırdılar. Onlara bir neçə dığa da qoşuldu. Onlar danışdıqca coşur, ağızları köpüklənirdi. Nədənsə, mənə elə gəlirdi ki, söhbət məndən gedir. Məndə qəribə bir soyuqqanlılıq yaranmışdı, qorxmurdum, nə də ağlamağım gəlmirdi. Nirsizin arvadı Süsən içəri keçəndə onun ağarmış sifətinə, əsən əl-ayağına etinasız baxdım. Süsən anası ilə o biri otağa keçib, nə isə danışırdılar, get-gedə səslərini qaldırıb qışqırışırdılar. Mən hər nə qədər uşaq olsam da, artıq hər şeyi başa düşürdüm. Nirsizin arvadı qayıdıb gəlib, düz qənşərimdə dayanıb təmiz Azərbaycan dilində dedi:
– Ay uşaq, həyətdəkilər, bilirsən, nə deyirlər? Deyirlər, gərək sizdəki uşağın başını kəsək.

Həyətə boylandım, orada söhbət alovlanmışdı. Qadının sözünü ağzında qoyub bir göz qırpımında eyvanın məhəccərindən arxa tərəfə hoppandım. Birnəfəsə, yaxınlıqdakı meşənin dərinliyinə doğru qaçdım. Dərəni aşağı enib yola düzəldim. Artıq erməndən-zaddan qorxmaq eynimə də gəlmirdi. Dünənəcən qarınlarını Azərbaycanda doyduran, qapılarda işləyib, köhnə paltar yığan ermənilərə nə olmuşdu, – anlamırdım. Nirsizin sifətini gözümün qabağına gətirir və dəhşətə gəlirdim. İnsanda neçə sifət olarmış. Bəlkə də bu xəmir hələ çox su aparacaqdı. Yenə

də ilk hədəf mən olduğuma görə bu dəfə ağlamağım yox, gülməyim tutdu. İlin elə çağı idi ki, hər yerdən bahar nəfəsi duyulurdu. "Baharın bu xoş vaxtında müharibə etməkmı olar?" – deyə düşünürdüm. Bu minvalla gəlib az qala dayımgilin kəndinin qənşərindəki meşəyə çatdım. Bulağın başında doyunca sərin su içib otların üzərinə sərildim. Günəş gümüşü buludların arasından gah görünür, gah da gizlənirdi. Sanki əl-ələ verib meşənin bu gözəl, çiçəkli yamacın gözəlliyini kimdənsə qoruyan dağlarla gizlənpaç oynayırdı. Minbir rəngə çalan çiçəklər elə bil bir-biri ilə bəhsə girmişdilər. Yerdən topa-topa qalxan quşəppəyindən, yemlikdən yığıb yedim. Baharın ılıq nəfəsi, təbiətin gözəlliyi qəlbimin tellərini oyatdı, bütün hisslərim tarıma çəkildi. Ürəyimdən kəndimizə getmək, doğmalarımla görüşmək keçdi, bu vaxtlar bizim kənd çox gözəl olurdu. Üzümü kəndimizə tərəf tutub düşünürdüm: "Bu illər ərzində Murtuz bəyin acığı soyumuş olar. Dayılarım məni görəndə sevinərlər".

Hara gedəcəyimi hələ qət edə bilmirdim, amma onu bilirdim ki, çox yorulmuşam, yeriməyə taqətim yoxdur. Burada gecələməyi qət etdim. Göbələk bişirib yemək istədim, ocaq yandırdım, ağacdan şiş düzəltdim. Göbələk toplaya-toplaya meşənin dərinliyinə sarı getdim. Qorxa-qorxa qaçan dovşanı görəndə qanım qaraldı. Dovşanı özümə oxşatdım. Mən də elə hey qorxa-qorxa qaçırdım. Yandırdığım ocağın sönəcəyini düşünüb qayıtmaq istəyrdim ki, gözüm otlayan bir cüt öküzə sataşdı, təəccüb etdim. Buralar yaşayış yerlərindən çox uzaq idi. Heç kim burada hey-

van otara bilməzdi. Başıaşağı otlayan heyvanlara yaxınlaşanda Məmişin mənə gətirdiyi danaları tanıdım. Kökəlib yekə cöngə olmuşdular. Dərilərinə sığmırdılar, tükləri məxmərə çalırdı. "Hey, Qaşqa", – deyə səsləndim. Qəribə də olsa, məndən hürküb qaçmadılar. O vaxtlar olduğu kimi əllərimi yalayırdılar. Mən onları tumarlayır, tələsə-tələsə öpürdüm. Elə bil ən yaxın, ən əziz adamımla görüşürdüm. "Görəsən, necə olmuşdu ki, bunlar sağ qalmışdı? Nə yaxşı, heç kimin əlinə keçməmişdi? Fərman dayım deyirdi, kənddə hamının heyvanı qırıldı", – deyə düşündüm. İndi mən fikrimi tamam dəyişmişdim. Aparıb heyvanları bazarda satıb, özümə yaxşı paltar alıb, kəndə sonra getmək qərarına gəldim. Heyvanları yavaş-yavaş qəza mərkəzindəki bazara hayladım.

Bazarda hamı mənim heyvanlarımın başına toplaşmışdı. Səməd əmiylə işlədiyim müddətdə həm bazarı, həm də qiymətləri yaxşı öyrənmişdim. Hətta məni sıxışdırıb heyvanları əlimdən almaq istəyənlər də oldu. Çürük dişli bir yekəpər ortaya düşüb, bar-bar bağırırdı ki, ay kişilər, bu sısqa uşaq haradan alıb bu heyvanları, yəqin oğurlayıb. Doğrudan da, ara qızışdı, hərə bir söz danışdı. Amma mən bazarda kimə necə cavab verməK lazımdı, yaxşı bilirdim.

Get-gedə adam artır, mübahisə güclənirdi. Nə isə, bu dəfə bəxtim gətirdi. Çox mübahisədən sonra başında bahalı papaq, əynində çərkəzi çuxa, ayağında xrom çəkmə olan yaraşıqlı bir oğlan bolluca pul verib, heyvanları alıb, nökərin qabağına qatdı. Pulları cibimə qoyub sevinə-sevi-

nə pitixanaya getdim. Doyunca yeyib-içib, əllərim cibimdə, bazarın qabağında veyillənməyə başladım. Bir qadının ətrafına çoxlu adam toplaşdığını gördüm. Adamların arasından sivişib irəli keçdim. Qaraçı idi, yerdən oturub fala baxırdı. Mən lap irəli soxuldum. Qadının gözü mənə sataşar-sataşmaz başladı, nə başladı:

– Ey yaşı az, dərdi çox oğlan, anadan talehsiz doğulan bala, üzün gülür, amma körpə, dərdli ürəyin gülmək nə olduğunu bilmir. Getdiyim ziyarət haqqı, bu bəxtlə sən heç yerə gedə bilməzsən, can, bala, gərək öz əlimlə sənin qara bəxtini açım. Pul ver, oğlum, qırxaçar camına pul qoy, görüm, cam taleyindən nə deyir.

Əlimi cibimə atıb qaraçının camına pul qoydum. Çox təsirlənmişdim, elə bil sehrlənmişdim, zərifcə titrəyirdim. Qaraçının sonralar da uzun müddət yadımdan çıxmayan, qəribə gözləri var idi. O, cibindən qara sap çıxardıb çoxlu düyün vurdu. Sonra sapı mənə verib:

– Götür, al, sən də düyünlə, bacardıqca çox düyün vur,– dedi. Sapı düyünləyib ona qaytardım. Sapı əlimdən alıb: – Oğlum, əgər bu sapdakı düyünlər açılsa demək, on iki imam özü səni bağışlayacaq, qara bəxtini ağ edəcək. Əgər düyünlər açılsa, demək, qərib imam, qərib seyid özü sənin taleyinə vurulmuş düyünləri açacaq. Sənə həyatda uğurlu yol, ağ bəxt, yaxşı qismət nəsib edəcək.

Yenə pul istədi, verdim. Qadın oxuyur, üfürür, fır-fır fırlanırdı. O qədər oxudu ki, yerə yıxıldı. Yerdə çabalayıb əl-qol atmağa başladı. Sonra guya kiminləsə dalaşırmış kimi vurmağa, gah da yalvarmağa başladı. Gözündən yaş

tökdü, ağzından köpük gələnəcən əlləşdi. Uzun "döyüş"ü bitirib, sakitləşib ayağa durdu. İrəli gəlib ovcunu açdı. Sevincək əlindəki ağ, düyünləri açılmış və düyün yerləri əməllicə bilinən ağ sapı hündürə tutub : – Baxın, – dedi: – Mən bu yazıq oğlanın işıqlı, nurlu yoluna vurulmuş qara düyünləri açmaq üçün cinlərlə necə savaşdım, didişdim, amma öz istədiyimi qazandım. Daha sənə zaval yoxdur, oğlan, gərək bu işi görməkdə mənə kömək edən cinlərin haqqını verəsən.

Elə bil cibimdəki pulun qədərini qəpiyinəcən bilirdi, sonuncu pulumu da çıxarıb verdim. Heç bilmirəm, bu nə işidi, gəldi başıma, məyuslaşdım. Özüm-özümə təsəlli verməyə çalışırdım. "Bəlkə, bundan sonra hər şey yaxşı olacaq. Tale mənim də üzümə güləcək. Bu sərsəri həyatından canım qurtaracaq", – deyə düşünürdüm, amma bu təsəllilərin heç bir mənası yox idi, qanım qaralmışdı. Bilmirdim, səhv etmişəm, ya düz, onu görürdüm ki, falçının başına toplaşanların sayı artır. Adamlar artdıqca təsəlli tapırdım ki, yəqin bu qadın, nə isə bacarır, yoxsa, bu qədər insan mənim kimi uşaq deyil ki, ona inansınlar?! Mən oradan ayrılıb gedə bilmirdim. Artıq günorta idi, hava lap qızmışdı, adamların arasından sivişib irəli keçdim. Qaraçı yenə yerə yıxılıb, nələrsə danışırdı, diqqətlə ona baxırdım. Gördüm o, qara sapı donunun qolundan içəri soxdu. Yenə bayaqkı kimi fırlanmağa başladı. Mən, fırlandıqca onunla bərabər fırlanmağa başladım. Əlləşib donunun qolundan başqa sap çıxartdı. Mən onu görən kimi var səsimlə qışqırdım:

– Ay camaaat, yalan deyir, ağ sapı donunun qolundan çıxartdı, inanmırsınızsa, irəli gəlin, tutun, onu. Qara sap da oradadır, qolundadır.

Araya çaxnaşma düşdü. Qaraçı qırxaçar camındakı pulu götürənəcən, mən sıçrayıb pulu götürdüm. "Verməyəm", – deyə qışqırdım. O, məni tutmağa cəhd edirdi. Mən fırlana-fırlana, and-aman edib gördüklərimi ətrafa toplaşanlara anladırdım. Qaraçı mənə söyür, qarğışlar yağdırır və məni tutmağa çalışırdı. Adamların arasına vəlvələ düşmüşdü. Onlar da pullarını almağa çalışırdılar. Bir qadın qışqırıb deyirdi:

– Ay arvad, utanmırsan? Səhərdən bütün imamların, seyidlərin adını çəkib, camaatı aldadırsan, bu qədər adama, göz qabağında kələk gəlirsən.

Aradan sivişib qaçdım, indi cibimdə pul bayaqkından da çox idi. Çünki qaraçının bütün pullarını götürmüşdüm. Artıq pul götürdüyümə peşman deyildim, özümü oğru saymırdım, əksinə, sevinirdim. Ordan gəldim Əlinin yanına, ona pul ayırmışdım. Götürmək istəmirmiş kimi görünsə də, çox sevindi, nə fikirdə olduğumu soruşdu. Kəndimizə gedəcəyimi söylədim, amma əvvəlcə, özümə əyinbaş alacağımı bildirdim və dedim:

– Sonrası da Allah kərimdir, onsuz da artıq hər şeyə öyrəşmişəm. Gecəni orada qaldım, qaraçı əhvalatına Əli doyunca gülüb dedi:

– Məmməd, sən çox diribaş, cəld uşaqsan, mən bunu çoxdan bilirdim.

– Nə bilim,– deyib çiynimi çəkdim.

Ertəsi gün, səhər tezdən bazara gəldim. Pulumun düz yarısını verib başıma bahalı papaq aldım. Sonra çəkməçiyə gedib, demək olar ki, pulun qalan hissəsini verib, bir çəkmə alıb ayağıma geyindim. Cibimdə qalan qəpik-quruşla çayxanaya gəldim. Orada rəhmətlik Səməd əminin Qulu adında bir dükançı dostu ilə salamlaşıb, onunla bir stolun arxasında oturdum. Kişi ordan-burdan söhbət edir, məni danışdırır, bahalı papağıma, xrom çəkməmə nimdaş, demək olar ki, cındır paltarıma baxıb gülümsünürdü. Nəhayət, kişi özünü saxlaya bilməyib dedi:

– Ay bala, ayağını başına bab elə, görən desin, ha, belə.

Çiynimi çəkib:

– Əmi, o nə deməkdir? – deyə soruşdum. Qulu kişi parıldayan xrom çəkməmə, "qaragül" deyilən bahalı dəridən tikilmiş papağıma, cındır, köhnə paltarıma baxıb, köksünü ötürüb dedi:

– Oğlum, bəlkə, elə dövran gələcək, yetim Məmmədlər də buxara papaq qoyub, xrom çəkmə geyinəcəklər. İndi isə sənin belə geyinməyin düzgün deyil. Gərək özünə əməlli-başlı paltar alaydın, dar gününə pul saxlayaydın. Başa düşdün, oğlum, nə demək istədiyimi?

Gülüb dedim:

– Yaxşı günüm var ki, elə hər günüm qaradır.

Qulu kişi dedi:

– Bax, elə ona görə deyirəm. De görüm, papağı qoyub, çəkməni geyinib, acından ölməyin mənası varmı? Sonra pencəyinin yaxasını açıb, iç cibini göstərib, – bax,

burada kişinin pulu olmalıdır, oğlum. İndi gəl gedək, onları qaytaraq, – dedi.

Heç nə demədən Qulu əminin yanına düşüb getdim. Onun yaxşı hörməti var idi. Papaqçının papağını, çəkməçinin çəkməsini qaytarıb, pulumu özümə verdilər. Qulu əmi mənə ucuz şalvar, köynək, bir cüt çust və ucuz papaq aldı. Pulun qalanını qaytarıb dedi:

– Pulun qədrini bil, bala. Pul onu sevməyənlərdən qaçır. Demirəm, xəsis ol, xəsislik ayrı şeydir, israfçılıq ayrı şey.

Sonralar, uzun illər Qulu əminin sözləri qulağımda sırğa oldu. Özümü çox yaxşı hiss edirdim, güvənim var idi. Üstümdə təzə paltar, cibimdə pul. Çox təşəkkür etdim. Qulu əmi məni özü ilə evlərinə apardı. Həyətində görüləcək işləri var idi. Qolumu çirmələyib, tövləni təmizlədim, otu çaldım, həyətin bir tərəfinə atılıb qalmış arabanı təmir edib, tikan daşımağa getdim. Daşıdığım tikanı yaba ilə çəpərin bəzi dağılmış yerlərinə basdım. Bütün işləri görüb qurtarandan sonra, Qulu əmi mənə pul uzatdı. Götürmək istəmirdim. O, yenə də bayaqkı tərzdə məni tənbeh edib:

– Oğul, bayaq sənə dedim, zəhmətinin qədrini bil, – dedi.

Mən pulumu götürüb, düşünürdüm: "Hara gedim? Yenə kəndə qayıtmaq qərarının üstündə durdum. Görüm, dayılarım nə məsləhət edirlər?" – deyə fikirləşdim və doğma kəndimizə sarı yol aldım.

Mən kəndimizə girəndə gecədən xeyli keçmişdi. Kənd tamam sükut içində idi. Artıq yayın girməsinə baxmayaraq, buralarda istidən əsər-əlamət yox idi. Bir az əvvəl

yağmış dolu ətrafı ağappaq etmişdi. Ayaqlarım tamam su içində idi. Suyu şappıldada-şappıldada dayımgilin çəpərinin dibinə yaxınlaşdım. Dayanıb nəfəsimi dərdim, üst-başımı səliqəyə saldım. Neçə vaxtdan bəri həsrətini çəkdiyim bu həyət-bacaya dayanıb etinasız baxdım. Halbuki hər gecə gözümü yuman kimi arzuların qanadında bura gəlirdim. Abbas dayımgil axşam olanda itin zəncirini qarqaraya keçirirdilər. O da qarqara boyu gah o tərəfə, gah da bu tərəfə qaçırdı. Bozdar çox həssas it idi, inanmırdım ki, məni unutmuş ola. Bir-iki dəfə "bozdar" deyib səsləndim, hər ehtimala qarşı qarqaradan bir az aralıda dayandım, amma bozdar məni tanımışdı. Sanki mənimlə görüşürmüş kimi, dal ayaqlarının üstünə qalxmışdı. Qabaq ayaqlarını yuxarı qaldırıb mənə şırvanırdı. Cibimdəki çörək parçalarını çıxardıb ona atdım. Bozdar tanımadığı adamın atdığı çörəyi heç vaxt yeməzdi. İndi çörəkləri hoppadan udub mənə şırvanırdı. Mən onun qulaqlarının dibini qaşıyır, belini tumarlayırdım. Birdən qapı açıldı, içəridən düşən yarımqaranlıqda Abbas dayımı gördüm. O, bir-iki dəfə öskürüb: "ay uşaq, görün, o it niyə hürür?" – dedi. Məmiş əlində çomaq çölə çıxdı. Yaxına gəlib:

– Məmiş, mənəm, – dedim, – Məmməd.

Məmiş tələsik mənə yaxınlaşıb:

– Boy, Məmməd, sənsən, sən sağsan? Allaha şükür

İçəridən Salman dayımın səsi gəldi:

– Ay Məmiş, bizim Məmməddirmi?

Daha dayanmayıb içəri girdim, səs-küyə hamı oyandı, elə bilirdim, məni görəndə hamının sevincinin həddi-hü-

dudu olmayacaq. Dayılarım, demək olar ki, mənimlə hərarətlə görüşdülər, qalanları könülsüz yerlərindən durdular. Elə bil yuxularına haram qatdığım üçün narahat olmuşdular. Hərə bir dəfə "Allaha şükür" söylədi, əslində bu elə səslənirdi ki, "bıy, hələ də sağsan?" Təkcə Abbas dayımın qızı Güləsərdən başqa. O özünü quş kimi üstümə atıb üz-gözümdən öpüb:

– Dərdin alım, – dedi. – Nə yaxşı ki, sağ-salamatsan. Mən bura gələndə ürəyimə dammışdı ki, nə isə, xoş bir xəbər eşidəcəm. Maşallah, böyük oğlan olmusan.

Böyüdüyümü indi bildim. Həqiqətən, kənddən çıxalı üç il olmuşdu. Deməli, mən gözdən iraq olanda, könüldən də qıraq edilmişəm. Qohumlarımın mənə qarşı olan azacıq məhəbbətləri də közərib-közərib sönmüşdü. Düşünürdüm ki, niyə görəsən, mən bu balaca, kiçik qəlbimdə bu qədər adamı yerləşdirirəm, amma bunların biri mənə qəlbində yer vermir? Öz sualıma özüm cavab tapırdım: "Yəqin, onların qəlbi ata-ana, bacı-qardaş, övlad məhəbbəti ilə doludur, mənim qəlbim isə boşdur". Nə bilim, nə isə, qohumlarıma olan son məhəbbət hisslərim də sönmək üzrə idi. O son közlər yenidən alovlana bilərdi. Lakin bu görüşdə başa düşdüm ki, bu məhəbbət, haradasa, uzaqlarda qalıb və o günləri, dayılı günlərimi çox sevirdim.

Mən pis günümdən, ac-susuz qalmağımdan, ermənilərin məni öldürmək istəmələrindən heç nə danışmadım. Halbuki neçə vaxtdan bəri bunları özlüyümdə dayılarıma dönə-dönə danışmışdım. İndi isə, danışmağı lazım bilmədim. Salman dayım dedi:

– Ay Məmməd, qorxmursan? Qurd ürəyimi yeyibsən?

Dedim: – Heç kimdən, heç nədən qorxmuram, amma qayıdacam, ürəyim sizi istəyirdi, gəldim. Bir-iki gün qalıb, gecənin birində gedəcəm. Bir dükançı var, onun yanında köməkçi işləyəcəm.

Yalanı elə danışdım ki, özüm də inandım. Ertəsi gün hamının buzu bir az ərimişdi. Hətta Fərman dayım bir dəfə məni qucaqlayıb, sinəsinə də sıxdı. Nə əcəbsə, Suğra xalam dedi:

– Ürəyin nə istəyir, ay Məmməd, sənə bişirim?

– Sağ ol, – dedim. – Özünüzə nə bişirsəniz, mən də ondan yeyərəm.

Salman dayımın arvadı yaxına gəldi:

– Başına dönüm, ay Məmməd, o çustların nə qəşəngdir. Musanın yaman xoşuna gəlib, sən Allah, uşaqdır, qəlbini qırma, sən çustları ona ver, mən sənə təzə bir çarıq verərəm.

Salman dayım bir-iki dəfə öskürüb gözünü ağartsa da, Telli xalam onu heç vecinə də almayıb dedi:

– Adam ürəkli, əliaçıq olar.

Telli xalam öyüd-nəsihətinə davam edirdi, lakin Salman dayım dözməyib səsini ucaltdı:

– Batır az, səsini!

Bilmirəm, o açıq əldən, səxavətli ürəkdən özündə niyə yox idi Telli xalamın? Elə danışırdı, sanki mən yekə kişi idim, Musa isə kimsəsiz, yetim və mən insafsızlıq edib bu yetimə baxmamışdım. Əməllicə tutulmuşdum. Düşünür-

düm: "İlahi, buna deyiblər, "qara səni basınca, sən qaranı bas". Amma fikirdən ayrılıb dedim:

– Xoşu gəlir, götürsün.

Musa ilə mən, demək olar ki, yaşıd idim. Bir neçə ay fərqimiz var idi. Məni tale sərtləşdirmişdi. Qayğılar üstümə düşüb, didib-parçalamışdı. Odur ki, kişiləşmişdim. Musa isə öz qayğısız uşaqlığından ayrılmamışdı. Gedib çustları gətirib ona verdim. Silib, bir kənara qoymuşdum. Musa sevincək çustları əlimdən alıb ayağına geyindi. Abbas dayımın ona tərs-tərs baxdığını görən Telli xalam çölə çıxdı.

Gecələr Məmişlə tək qalanda bu illər ərzində harada olduğumu, nələr yaşadığımı xəbər alırdı. Məmiş yeganə adam idi ki, mənimlə maraqlanır, dərdimə şərik olur, mənimlə bərabər keçmişimə qayıdıb kədərlənirdi. O günlərimin acısını birgə yaşayırdıq. Təsəllini də mənə Məmiş verirdi:

– Allaha şükür, çətinliyin belini qırıb yekə kişi olmusan.

– Hə, amma ümidim Allaha deyil, qollarımadır, – dedim.

– Məmməd, Allahsız danışma, sənə bu qolları da, sağlam canı da verən Allahdır.

Söhbətimiz burda bitmişdi, Məmiş haqlı idi. Mən həmişə, demək olar ki, hər gün xəyalımda anamın qəbrinin üstünə gedər, torpağın üstünə uzanar, torpaq islananacan ağlayardım. İndi istədim, gecə ikən durub anamın qəbrini ziyarət edim. Gedə bilmədim, çünki qəbri tapa bilməyə-

cəkdim. Mən gedəndən bəri o qədər adam ölmüşdü, qəbirlər artmışdı. Qəbrin yerini göstərməyə mənimlə heç kim getmədi. Onsuz da mən anamı ürəyimdə dəfn etmişdim, qəbri də orada idi. Gündüz samanlıqda qalırdım, gecə düşüb gəlirdim. Hiss edirdim ki, hamı narahatdır. Suğra xalam da özünü didib-töküb, elə hey deyirdi:

– Abbas, atalar deyib: "Bəy ilə bostan əkənin tağı belində bitər". Məmmədin sağ olduğunu, özü də gəlib evimizin içində qaldığını bilib uşaqlarımıza xətər yetirərlər.

Abbas dayım qəlyanını sümürüb heç nə demirdi. Amma Suğra xalam bir də bu sözü təkrar edəndə, Abbas dayım elə qışqırdı ki, təkcə Suğra xalam deyil, mən özüm də diksindim:

– Nə istəyirsən az, sən o yetimdən? Qoysan, canının yorğunluğu çıxsın. Arvadsan, rədd ol, get, öz işinlə məşğul ol. Sən bir də Məmmədin adını ağzına alsan, səni tikə-tikə doğrayacam, eşitdin?

Suğra xalam səssiz-səmirsiz otaqdan çıxdı. Mən həmin gün getmək istəyirdim, Suğra xalama görə getmədim. Aralarına dava düşəcəyindən qorxdum. Həmin gün samanlıqdan lap şər qarışanda düşdüm. Yeməkdən sonra bu gecə, yəni səhər açılmamış gedəcəyimi söylədim. Dayılarımın üzündə, nə isə, narahat bir ifadə yarandı, dayım arvadlarının elə bil üstündən yük götürüldü. Əvvəl araya ağır bir sükut çökdü. Nəhayət, Abbas dayım dilləndi:

– Get, oğlum, yolun açıq olsun. Nə edək, əlimizdə nə əlac var? Daha şükür, yekə oğlansan. Harada olur-olsun, başını girələyəcəksən.

Sonra ortaya böyük bir xurcun gəldi. Bunun nə demək olduğu hamıya məlum idi. Qadınlar ayağa durdu. Kim nə bacarır, gətirdi. Yağ, şor, pendir, yumurta, çörək, xurcunun iki gözü də doldu. Evdə əməlli canlanma yaranmışdı. Heç kimi qınamırdım. Hamı mənim üzümdən başlarına bəla gələcəyindən qorxurdu. Onları başa düşməyə çalışırdım. İncikliyim əriyib gedirdi. Ürəyimə sevinc dolu hərarət dolurdu. Bu hərarət sönməkdə olan məhəbbət qığılcımlarını isidib, alovlandırırdı. Dayılı günlərim, mənim əziz günlərim idi. O günlərin hərarətinin sönməsini istəmirdim. Çünki ürəkdə hərarət olsa, yaxşıdır. Yoxsa, qəlb boş olanda buza dönür. Qəlbi buz olan insan kobudlaşır, sərtləşir. Mən belə insan olmaq istəmirdim. Hamı ilə tək-tək görüşüb yatmağa getdim:

– Siz oyananda, mən yarı yolu keçəcəm,– dedim.

Ertəsi gün, səhər açılanda mən çoxdan kənddən uzaqlaşıb, üzərindəki mamırları göyərən qayalarla, pıçıldaşan ağaclarla, diş göynədən bulaqlarla həmdəm olmuşdum. Çiynimi kəsən xurcunu yerə qoyub, bir parça çörəklə pendir çıxarıb, iştaha ilə yeməyə başladım. Heç nə fikirləşmək istəmirdim. Yamyaşıl otların üstünə uzandım. Heyif, belə sakit uzanmaqla hər şey bitmirdi. Nə yaşamağa yerim var idi, nə də bir parça çörəkpulu qazanmaq üçün işim. Birdən, haradansa, Gülsüm xala yadıma düşdü. Aparıb sovqatımı onlara verib, hal-əhval tutacağımı fikirləşəndə sevindim. Fikrimi həyata keçirib, bazara çatan kimi, düz Gülsüm xalagilə yol aldım. O, məni çox xoş qarşılayıb dedi:

– Bıy, haradasan, ay Məmməd, vallah, canım sənin yanında qalmışdı. Sonra fikirləşdim ki, yəqin dayılarının yanına qayıtmısan. Bəs niyə vidalaşmamış getdin, oğul? Mən səni övladlarım qədər sevirəm.

– Yox, Gülsüm xala, dayılarımın yanına qayıtmadım. Səməd əmi öləndə elə sarsıldım ki, hara gedəcəyimi özüm də bilmirdim. Xurcunumu zorla Gülsüm xalaya verib içəri keçdim. Yemək yedim, gecəni onlarda qaldım. İndiyədək haralarda olduğumu, başıma nə gəldiyini Gülsüm xalaya danışdım. Qızlar da məni doğma bir adamlarına qulaq asırmış kimi dinləyirdilər. Hamının məyuslaşdığını görüb:

– Səhər gedib özümə iş tapacam, – dedim.

Gülsüm xala:

– Bura sənin öz evindir, oğul, heç yerə getmə, qal bizdə, – dedi.

– Yox-yox, səhər mütləq özümə iş tapacam.

Daha Gülsüm xala dinmədi. Yazıq arvad nə deyəsiydi ki?!

Səhər yerimdən duran kimi bazara gedib özümə iş axtarmağa başladım. Kök bir kişini göstərib: "Ona müraciət et", – dedilər. Kişiyə yaxınlaşıb salam verdim. Kişi salamımı alıb, nə iş görə biləcəyimi soruşdu.

Cavabında:

– Nə iş desəniz, görərəm, tövlədə-zadda, bir yerdə yataram,– dedim.

"Xozeyin Ələbbas" deyilən bu kişi qarnı atıla-atıla gülüb dedi:

– Tövlədə yatmayıb, gəlib evdə, ha, yatmayacaqsan.
Elə ən pis günlərim də burada başladı. Xozeyin Əlabbasın o qədər qonağı olurdu ki, səhərdən-axşamacan ayaq üstə durmaqdan ayaqlarım ağrıyırdı. Atlara baxmaq, həyət-bacanı süpürmək, samovarı qaynatmaq, bunların hamısı mənim işim idi. Lakin bunlar cəhənnəm, zəhləm onun arvadı Xumar xanımdan gedirdi. Elə bil adam buyurmaqdan həzz alırdı. Bazara gedirdim, evə çatan kimi, təpəsi üstə bir də qaytarırdı. Elə bil bütün sifarişlərini birdəfəyə etməkdən qorxurdu ki, sonra buyurmağa iş qalmaz. Hələ onun qəşəng paltarlı, saçlarına üstü qızıl pullu başlıq keçirmiş qızlarını demirəm. Ayaqlarında bəzəkli məstlər olurdu. Onlar ayaqlarını yerə qoyanda mənim məstlərə heyfim gəlirdi. Bellərinə bağladıqları enli gümüş kəmər elə bil nazik bellərinə ağırlıq edirdi. Mənə elə baxırdılar, elə bil qarşılarında insan yox idi, boş yerə baxırlar. Bacardıqca onların gözünə az görünməyə çalışırdım. Xumar xanımın əlindən başımı qaşımağa vaxt tapa bilmirdim. Səhər hamıdan tez oyanır, gecə hamı yatandan sonra yatırdım. Bu qədər işdən sonra heç yemək yeməyə iştaham olmurdu. Burada məndən başqa da bir neçə nökər-qulluqçu işləyirdi. Bizi eyni dərd yaxınlaşdırırdı. Elə bil bir ailə idik. Bir dəfə Ceyrançöldəki heyvanları qırxıb, yununu iri xaşalara yığıb həyətə gətirmişdilər. Xumar xanım iri bir xaşanı Surxayın arabasına qoyub harasa göndərdi. Axşam xozeyin bir xaşa əskik olduğunu deyəndə Xumar xanım düz gözümüzün içinə baxa-baxa dedi:

– Nə bilim, hər yoldan ötən iti-qurdu tapıb gətiribsən həyətə. Mən nə bilim, niyə əskikdir?!

Bir nəfər irəli çıxıb demədi ki, ay xanım, özün göndərmədinmi bir xaşa yunu?

Xozeyin Əlabbas özü yaxşı bilirdi ki, burada oğurluq olsa, Xumar xanım heç vaxt belə sakit dayanmaz. Ona görə də bu mövzuya qayıtmadı.

Bu evdə bir nəfər ürəyimə yatan adam var idi. O da xozeyinin Tiflisdə oxuyan oğlu Nəsibdi. Nəsib yaraşıqlı, ağıllı, xoşrəftar bir oğlan idi. Nə bütün günü başı kefdən açılmayan atasına, nə var-dövləti, sərvəti ilə öyünən anasına, nə də ki, boş-boşuna veyillənən bacılarına bənzəmirdi. İkimərtəbəli evlərinin eyvanında uzanıb kitab oxuyurdu. Eyvan taxta məhəccərli idi. Taxtadan yuxarıdan-aşağıya doğru naxışlı üçbucaq şəklində naxışlar vurulmuşdu. Nəsib tətilə gələndə Xumar xanım məhəccərlərin deşiklərindən qırmızı qotazlar asdırırdı. Hər tərəfi, həyəti, hətta tövləni də təmizlətdirirdi. Yeyib-içməyə bəhanə gəzən Əlabbas kişi də məclislər qururdu. Nəsib heç vaxt bu məclislərdə oturmurdu. Qonaqlarla görüşüb başdakı otağa keçər, çox vaxt patefona qulaq asardı.

Hərdən vaxt tapıb, Gülsüm xalagilə getmək istəyirdim. Lakin işdən başım açılmırdı. Artıq üç-dörd ay olardı, onları görmürdüm. Qərarım qəti idi, mütləq gedib görüşəcəyimi düşünüb aradan çıxdım. Onları görəndə ürəyim sıxıldı. Bu aylar ərzində Gülsüm xalanın evi suyu sovulmuş dəyirmana dönmüşdü. Qapqara, şəvə kimi saçları ağarıb, gözləri çuxura düşmüşdü. Yazıq arvad başını itirmişdi.

Kiçik qızı Qönçə hərarətdən yanırdı. Qız tez-tez öskürür, qırıq-qırıq danışırdı. Gülsüm xala cibindən yaylığını çıxardıb, gözünün yaşını silib dedi:

– Rəhmətlik Səməd deyəndə ki, kaş oğlumuz olaydı, acığım tuturdu. Deyirdim, oğul, ya qız, nə fərqi var, hər ikisi övlad deyilmi? İndi qızlar da başımda, qalmışam əlacsız. Keçən il yesir Qulam öləndə oğlunun bir qamçı boyu var idi. Bir qazan kartofu soyutma bişirir, aparıb dəmiryol vağzalında satırdı. O kartoflaca bir çətən külfətin ayağını küldən çıxartdı. Bir oğlum olsa idi, Səmədin yanında papaq tikmək öyrənərdi. Neçə dəfə gəlib, Səmədin tikiş maşınını istəyiblər, nə qədər ehtiyacım olsa da, əlim gəlmir. Yazıq Səməd maşının üstündə əsirdi. Özümün də əlimdən heç nə gəlmir. Başıma haranın daşını töküm? Bu qız da əlimdən gedir. Nə dərman ala bilirəm, nə həkim gətirə bilirəm. Qohum-qonşu deyir, "qüvvəli yemək ver, bal ver". Haradan alım? Səmədin vaxtında bal küpləri dolu olardı. Hərdən gedib küplərə baxıram, elə bilirəm, öz-özünə dolacaq.

Ürəyim döyünürdü, elə bil nəfəsim qaralırdı, qulaqlarım batmışdı. Gülsüm xalanın nə dediyini eşitmirdim. Yazıq qız şam kimi əriyirdi. Gözləri sönməkdə olan qara çıraq kimi gah işıqlanır, gah da sönürdü. Qırmızı yanaqları solub, dodaqları ağappaq olmuşdu. Bütün bunlara əlacsız, çarəsiz baxıb ayaqlarımı sürüyə-sürüyə, az qala, sağollaşmamış geri qayıtdım. Axı əlimdən nə gəlirdi?! Havalar da lap qızmışdı, bürküdən nəfəs almaq mümkün deyildi. Tərli, çirkli köynəyimin yaxasını açdım, boğulurdum. Cır-

cıramaların səsi adamın beynini deşirdi. Ürəyimdə özümə lənət yağdıra-yağdıra evə qayıtdım. Elə hey onlara kömək etməyə yol axtarırdım. Düşünürdüm: "bəlkə qardaşlarım olan kəndə gedim, orada əkinə-biçinə, heyvana kömək edim, əlimə nə versələr, gətirib Gülsüm xalaya verim". Bu fikirdən tez əl çəkdim. Qardaşlarımı tanımırdım, onların yanına getmək heç vaxt ağlıma gəlməmişdi. Həm də, "bu, uzun çəkər, o vaxtacan Qönçə dava-dərmansız ölər", – deyə düşündüm. Elə bu vaxt Xumar xanımın səsi qulağımın dibində beşaçılan kimi partladı:

– Heyvanın biri, heyvan, harada itib-batmısan? Deyəsən, daha qudurmusan? Acından ölürdün, qarnın doyub, hə? Görüm, dilin ağzında yansın. Bu istidə bir qarpız tapa bilmədim, Nəsibə verim. Gedib nə görsəm, yaxşıdır, damda bir dənə olsa, qarpız yoxdur. Yüz dəfə demişəm, gedin, vaxtında bostandan qarpız gətirin.

Nəsib anasının səsini eşidib gəldi, dedi:

– Bəsdir də, ay ana, qarpız yox idi, Surxay gətirdi də.

Xumar xanım dərhal səsinə yumşaqlıq verib dilləndi:
– İşi vaxtında görmək lazımdır, dərdin alım. Bax, bu, səhərdən hansı cəhənnəmdədir?

Arvad bir az səsini qaldıranda Nəsib onun üzünə necə baxdısa, xırp səsini kəsdi. Deyinə-deyinə evə tərəf getdi. Key-key Xumar xanımın ardınca baxıb düşünürdüm: "əsil cəhənnəm buradadır, ora isə cənnətdir. Orada Gülsüm xala var. Gözünün yaşını silə-silə oğul arzulayırdı". Birdən elə bil yuxudan ayıldım. O oğul mən idim, yesir Qulamın oğlu kimi, mən də kartof satıb, Qönçəyə dərman alaram.

Sevinirdim, Xumar xanımın dediyi yadımdan çıxmışdı. Ertəsi gün, sübh tezdən Gülsüm xalagilə gəldim. Elə pilləkənlərin yanında dayanıb səslədim. Onu görən kimi salam-kəlamsız dedim:

– Gülsüm xala, kartofun varsa, bişir, ver, aparım, satım.

Gülsüm xala o dəqiqə cavab verdi:

– Var, dərdin alım, sən gəl çay iç, mən də kartofu bişirim. Tiflis qatarı gələnəcən bişib çatar.

Bir azdan əlimdə kip qapaqla bağlanmış, ağ dəsmala bükülmüş qazanla vağzala tərəf tələsirdim.Vağzalda əvvəl bir kənarda oturub, "isti kartof var, isti kartof var", – deyə qışqırırdım. Qatar gəlib dayanan kimi qazanı götürüb vaqonların qabağında: "kartof var", – deyə qışqırırdım. Əlimdə başqa bir kiçik qabda duz var idi. Üç-dörd saat ərzində qazanda cəmi beş-altı kartof qalmışdı, onu da satıb əlimdəki pulu saydım. Sevinirdim, bir böyük çörək ala biləcəyim qədər və bir az da ondan artıq pul qazanmışdım, yenidən kartof ala biləcəyim pul da yerində. Bazara getdim, birinci kartofu aldım, sonra bir çörək alıb evə gəldim. Çörəyi və əlimdə qalan azacıq pulu Gülsüm xalaya verdim. O, mənə alqış etməyə başladı:

– Sənə qurban olum, a Məmməd, kişi qırığısan.

Günlər, həftələr ötürdü. Qazancım artırdı, çünki axşam qatarları gələndə də aparıb kartof satırdım. Sonra meyvə vaxtı meyvə də aparıb satmağa başladım. Kartof satmağa başlayan gündən Xumar xanımın evinə qayıtmadım. Elə

günüm vağzalda keçirdi. Bir gün Gülsüm xala məni çağırıb dedi:

– Çox sağ ol, a Məmməd, sənə qurban olum, borcumu da verdim, un da aldım.

Mən gülümsünürdüm, xoşbəxt idim, pul qazanırdım. Tək özüm üçün deyil, anam qədər sevdiyim Gülsüm xalaya, onun balalarına kömək edə bilirdim. Rəhmətlik anamın sifəti yadımdan çıxmışdı. Anamı xatırlamaq istəyəndə gözümün qarşısında Gülsüm xalanın siması canlanırdı. Qönçənin dərmanlarını da ala bilirdim. O, günü-gündən dirçəlirdi. Sulananda canlanan ağac kimi canlanırdı. Solğun çöhrəsinə qızartı çökürdü. Hamımız sevinirdik. Burada, bu evdə mənə çox hörmətlə yanaşırdılar. Yeməyin yaxşısını, çayın dəmlisini mənə verirdilər. Onsuz da nimdaş olan paltarlarımı yumaqdan üzmüşdülər. Bir gün iri bir daşın üstündə oturub tənbəl-tənbəl: "isti kartof, isti kartof", – deyə mızıldanırdım. Köhnə qıllı papağını gözünün üstünə basmış qoca bir kişinin qazana baxdığını görüb özümə saxladığım kartof və çörəyi ona uzatdım. O, papağını gözünün üstündən yuxarı qaldırıb: "pulum yoxdur", – dedi. – Götür, – dedim, pul istəmirəm.

Kişi bir kartof, bir parça çörək götürüb "sağ ol", – dedi. Elə bil yazıq qocanın gözünə işıq gəldi. Fikirləşirdim: "kaş bir stəkan çay olaydı, bu qocaya verəydim. Dərhal ağlıma bir fikir gəldi, səhərdən gətirib burada çay da satacam". Evə gələndə Gülsüm xaladan soruşdum:

– Samovarınız dururmu, Gülsüm xala?

– Hə, başına dönüm, samovar çayımı istəyirsən? — deyə Gülsüm xala tez soruşdu.

– Yox ,– dedim, – istəyirəm, sabah aparıb, samovar qoyub, çay satım.

Gülsüm xala:

– Qəm çəkmə, dərdin alım, hər şey var, – deyə cavab verdi. – Çay ləvazımatından nə istəsən, bir zənbilə yığıb hazır qoyaram.

Gedib arabaçı Qara ilə danışdım, səhər gedəndə məni də aparsın.

Beləcə, indi də çay satmağa başladım, kartof da satırdım. Ancaq onu da deyim ki, nə qədər çalışsam da, yemək pulumuzu zorla çıxardırdım. Nə qışlıq odun ala bilirdik, nə də qalın qış paltarı. Bir səhər Gülsüm xalanın böyük qızı Bəyim əlində bir kəmər gətirib dedi:

– Məmməd, al bu kəməri, apar sat, atam onu mənə Tiflisdən almışdı. Sat, odun al, bir də özünə qalın paltar al, sənə soyuq olacaq.

– Yox, heyifdir, – dedim. Sona da Bəyimə qoşulub:

– Apar sat, heyif-zad deyil, sənə soyuq olacaq, özünə paltar al, –deyəndə elə kövrəldim ki, qızların yanında ağlayacağımdan qorxub çölə çıxdım. Kəməri satmağa aparmadım. Ertəsi gün, üstəlik, məni vağzaldan qovdular. Alverimin yaxşı şirin vaxtı, qara qıvrım saçlı, qırmızı yanaqlı, balaca boylu yekəqarın bir kişinin mənə göz yetirdiyini görür, özümü görməməzliyə vururdum. Lakin onun hikkəsi, qığılcım yağan gözləri məni narahat edirdi. Kişi birdən elə bağırdı ki, hamı dönüb bizə baxdı:

– Ə, küçük, burada nə bazar açmısan? Rədd ol, buradan!

Yaxınlaşıb var gücü ilə samovara bir təpik vurdu. Samovar ağzı üstə yerə aşdı. Başındakı dor dığırlanıb üzüaşağı getdi. Bir təpik də stola vurdu. Stolun üstündəki stəkan-nəlbəki cingilti ilə yerə tökülüb qırıldı. Qəndqabı yerə düşdü, qırılmadı. İçindəki qənd yerə töküldü. Hirsimdən bütün bədənim əssə də, səsimi çıxartmadım. O, yenə nələrsə, qışqırıb getdi. Bir müddət yerimdə donub qaldım. Elə bil göz qapaqlarımı yuxarı qaldırmağa utanırdım. Yerə baxa-baxa qalmışdım. Ətrafdan gələn narazılıq səsləri məni fikirdən ayırdı. Əyilib samovarı götürdüm. Bir-iki nəfər irəli gəlib tökülənləri yığmağa kömək edə-edə deyinirdilər:

– Darıxma, oğlum, bunların darğalığına bir şey qalmayıb. Lap qudurublar.

Suyum süzülə-süzülə evə qayıtdım. Başıma gələnləri danışdım.Gülsüm xala dedi:

– Eybi yoxdur, oğlum, kefini pozma, Allaha pənah.

– Heç nəyə ümidim yoxdur, – dedim, – amma bu gün vağzalda qəribə sözlər danışırdılar. Guya xanların, bəylərin sonu çatmaq üzrə idi. Danışdıqlarımdan nə özüm, nə də məni dinləyən Gülsüm xala və qızları bir şey anlamırdı. Əsas dərdimiz yataqdan yeni-yeni durub gəzən Qönçənin dərdi idi. O, yenidən zəifləyib yatağa düşə bilərdi. Amma nə olur-olsun, nökərçilik etməyəcəyimi qərara almışdım. Hər gün evdən çıxıb dolanırdım, bir iş axtarırdım. Bir müddət boş-boş gəzdim.

Bir gün evdə Gülsüm xaladan soruşdum:

– Xala, görəsən, papaq tikə bilərəmmi?

Gülsüm xala dedi:

– Nə bilim, a bala, o vaxt əl boyda uşaq idin. Bir şey öyrənə bilmisənmi?

Elə bil hamının üzündə ümid yarandı. Amma mənim ümidim tez də qırıldı, əlim-qolum boşaldı. Çünki heç bir ləvazimatım yox idi.

– Nə dəri var, – dedim, – nə də, astarlıq parça.

Bunu eşidən kimi Bəyim yan otağa keçib kəmər əlində geri qayıdıb, kəməri mənə uzatdı:

– Məmməd, al bu kəməri sat, nə lazımdırsa, al.

Mən fikrə getdim:

– Axı necə satım, bəlkə heç papaq tikə bilməyəcəm?

Bəyim acı-acı gülümsünüb dedi:

– Məmməd, nə olur-olsun, apar sat. Nimdaş paltarlarıma yaraşırmı gümüş kəmər?

Kəməri satdım və işə başladım. Çox da baha olmayan dəri və astarlıq parça aldım. Əvvəl çətinliklə tikdiyim papaqları ucuz qiymətə satdım, amma fikrimdən dönmədim, yenə tikirdim. Get-gedə dərziliyim mükəmmələşirdi, əlim işə alışırdı. Bəzən saatlarla fikirləşir, rəhmətlik Səməd əminin işləməyini yada salırdım. Bəyimlə Sona mənə kömək etməyə çalışırdılar. Biz ailəlikcə əl-ələ verib işləyirdik. İndi hamımızı bir şey maraqlandırırdı. Mən yenidən dükan almalı idim. Səməd əminin dükanını Gülsüm xala satmışdı. Tikdiyim papaqları satır, ayrı heç nəyə pul xərcləmədən yenidən dəri və astarlıq alırdım. Yarıac-yarıtox,

zəhmətimiz hədər getmədi, axır ki, əməlli-başlı papaqçı oldum. Yavaş-yavaş müştərilərim artır, qazancım çoxalırdı. Hər şey qaydaya düşmüşdü, dolanırdıq. Bir gün heç gözləmədiyimiz halda Bəyimə elçi gəldi.

Gülsüm xala donub qalmışdı, mənə elə gəlirdi ki, Bəyim sevinir. Səməd əminin, Gülsüm xalanın bir-iki qohumu yığışıb, Bəyimi nişanladılar. Mən, nədənsə, bu işə təəccüb edirdim. Ehtiyac içində o qədər başım qarışmışdı ki, heç bu barədə fikirləşməmişdim. Gözəl Bəyimin nişanlısından xoşum gəlmirdi. Heyfim gəlirdi Bəyimə. Ağ üzündəki qara xallar onu daha da gözəlləşdirirdi. Allah ondan heç nəyi əsirgəməmişdi. Hündür boyu, durna kimi boğazı, zil qara saçı, düz, balaca burnu, badam kimi ağzı var idi. Hələ xasiyyətini demirəm, ipək kimi qız idi. Bəyimin nişanlısının adı Əbdül idi. Hündür boylu, kürən oğlan bizə ayaq açmışdı. Hər gələndə xeyli sovqat gətirirdi. O gələndə Gülsüm xala əsəbiləşirdi, yalandan qabı-qazanı bir-birinə vurub yazıq qızları danlayırdı. Qorxusundan heç kim Əbdülə qulluq edə bilmirdi. O isə heç nəyi vecinə almır, saatlarla otururdu. Gülsüm xala qızlarını Əbdüldən qısqanırdı. Əbdül isə məndən qısqanırmış. Gülsüm xala ilə birlikdə Bəyimin cehizi haqqında düşünürdüm, bu evdə nə qədər çox sevilsəm də, Əbdülün məndən zəhləsi getdiyini hiss edirdim. Əvvəl bunun səbəbini bilməsəm də, bir dəfə başımı qaldıranda Əbdülün acıqlı-acıqlı, gah mənə, gah da Bəyimə baxdığını gördüm. Əlimdəki işləri yarımçıq qoyub çölə çıxdım. İşlərim tökülüb-qalmışdı, amma içəri girəndə elə bil Əbdül məni gözləri ilə çölə itələyirdi. Bir gün evə

qayıdanda, özüm də bilmədən Əbdüllə Bəyimin söhbətinin şahidi oldum. Əbdül az qala bağıra-bağıra deyirdi:
– Axı o yetimçə niyə rədd olub getmir sizin evdən, Bəyim, nəyinizdir? Qohumunuzdur, qardaşındır, kimdir axı? Mən sənə görə demirəm, sənə gözünün ucu ilə baxanın gözünü çıxardaram. O, özü də tülkü kimi bilir bunu. Evdə kiçik bacıların var. Dədəsini tanımırıq, anasını tanımırıq. Bu gün-sabah hər yerə yayılacaq ki, Səmədin evində bir zırpı oğlan yaşayır, hansı adla, məlum deyil.

Çəpərin tikanlarının arasından boğazımı irəli uzatdım. Qaşlarını çatıb başıaşağı dayanan Bəyimin nə dediyini eşitmək üçün qulaqlarımı şəkləsəm də, beynim uğuldayırdı. Üzümdən qalxan isti gözümə vururdu. Yaxşı ki, Bəyim gec cavab verdi, yoxsa, heç nə eşitməyəcəkdim. Bəyim zərifcə titrəyib udqundu və cavab verdi:

– Əbdül, biz Məmmədi özümüzə qardaş bilirik. Atam öləndən sonra o bizə qardaşlıq edib. O, olmasa, Qönçə ölürdü.

Əbdül Bəyimin sözünü kəsib, kinayəli-kinayəli gülüb dilləndi:

– Niyə ölürdü, Məmməddən ötərimi ölürdü?
Elə bil gizilti ayağımdan başıma gəldi. Yumruqlarımı düyünləmişdim. Əbdülün qol-qabırğasını qırardım, ürəyim soyumazdı, lakin özümü zorla ələ aldım. Bəyim başını qaldırıb dedi:

– Ayıbdır, Əbdül, Qönçə uşaqdır. Sonra Bəyim Əbdülün nə deyəcəyini gözləmədən üzünü çevirib evə getdi. Əbdül əvvəl bir-iki addım atıb Bəyimin dalınca getmək is-

tədi. Sonra nə fikirləşdisə, geri döndü. Mən yerimdə donub qalmışdım, üzbəüz gəldik. Mənə gözucu, nifrətlə bir nəzər salıb, acıqlı-acıqlı uzaqlaşdı. Amma "niyə"sini bilmirəm, hiss etdim ki, Əbdül məndən ya çəkinir, ya da qorxur. Evdə bu barədə söhbət getmədi. Hər şey sakitcə, əvvəlki kimi davam edirdi. İlk günlər mən çox sevinirdim. Əvvəla, ona görə ki, daha Əbdül gəlib, saatlarla oturub vaxtımı almırdı. İkincisi, Bəyim onun deyil, mənim tərəfimi saxlamışdı. Bir də ki, Əbdüldən zəhləm gedirdi, elə bilirdim, Bəyim heç vaxt onunla xoşbəxt ola bilməz. Lakin günlər keçdikcə qızın qanı qaralırdı. Bunu evdə hamı hiss edirdi. Onun gözü yolda qalmışdı. Əli evdə heç bir işə yatmırdı. Boş-boşuna içəri girir, saatlarla çölə çıxmırdı. Bəyimin belə etməyi ürəyimə ağır bir kədər çökdürdü. Elə bil qış yuxusundan ayıldım. "Doğrudan da, mənim burada nə işim var?" – deyə düşündüm. Mütləq getməliydim, mənim alın yazım idi. Tale məni qova-qova aparırdı. Bilmirdim, söhbəti haradan başlayım, nə deyim, hara gedirəm, deyim? Artıq Gülsüm xalanın da narahat olduğunu hiss edirdim. Nəhayət, özümü toplayıb dedim:

– Gülsüm xala, mən gedirəm, zəhmətini halal elə. Bir yer tapıb kirayələyəcəm. Məndən narahat olmayın, ayrı evdə qalmaqla mən sizdən ayrılmıram.

Heç kim dillənmədi. Otağa ağır bir sükut çökdü. Xeyli sonra Gülsüm xala dedi:

– Dərdin alım, a Məmməd, bir damdan-zaddan tut, gəl, Səmədin maşınını da apar. Yeməyini hər gün bişirəcəm, gəlib apararsan. Paltarlarını da gətirərsən, yuyaram.

Gülsüm xala arif arvad idi. Nə məndən keçə bilirdi, nə də Bəyimdən.

Nə isə, Bağırın kiçik, qaranlıq bir damını kirayələdim. Araba tutub, Səməd əminin tikiş maşınını, Gülsüm xalanın mənim üçün ayırdığı barxananı, qab-qacağı aparıb, getdim. Gecə-gündüz papaq tikir, aparıb bazarda satırdım. Qarşıma məqsəd qoymuşdum, özümə dükan alacaqdım. Ona görə də gecələri də yatmırdım. Axır ki, Qulam əminin köməyi ilə bazarda özümə dükan aldım. Hələ ömrümdə bu qədər sevinməmişdim. Dükanımı iki yerə böldüm. Arxada öz əşyalarımı yığıb, yatmaq üçün yer düzəltdim. Bu kiçik yer mənə görə dünyada ən gözəl, ən rahat yer idi. Gülsüm xalagilə çox az-az gedirdim, Bəyimin səadətinə mane olmaq istəmirdim. Bazarlıq edib kimnənsə göndərirdim. Digər tərəfdən də, qəribə söhbətlər, əhvalatlar başımı elə qatmışdı ki, elə bil kimsə qolumdan tutub məni ayrı dünyaya atmışdı.

Bazarda təzə tanış olduğum oğlanlar – Namazla Vəli məni qəflət yuxusundan, çətin də olsa, oyatmışdılar. Yeni hökumət qurulacağından, bu hökumətin başında fəhlə və kəndlilər dayanacağından danışırdılar. Torpaqların xanlardan, bəylərdən alınıb əliqabarlı kəndlilərə veriləcəyi mənə uzaq, əlçatmaz görünürdü. Ermənilərlə aramızda düşən davanın əsas səbəbkarı ruslar olduğunu Namazla Vəlidən öyrəndim. Əlim iş tutmurdu, beynim qaynayırdı. Məni neçə illərdən bəri, əl boyda tifil ikən qapılara salan bəylərin hakimiyyətinə son qoyulacağına inana bilmirdim. Mən də Namaz kimi ayıq olmaq istəyirdim. Heyif ki, buna

nə savadım var idi, nə dünyagörüşüm. Onlar qəzetlərdən yeni məlumatları oxuyanda, ürəyimi qəzet oxumaq həsrəti didib-parçalayırdı. Bir dəfə istəyimi Namaza dedim. O isə:

– Sənə də oxumaq öyrədəcəm, ay Məmməd.

Təəccübdən gözüm bərələ qalmışdı. Vəli gülüb əlavə etdi:

– Əyə, gözünü niyə bərəldirsən, kim yazıb-oxumağı anasının qarnında öyrənib?

Elə həmin gündən mənə də oxumaq-yazmaq öyrətməyə başladılar. Sən demə, mənim yaxşı zehnim var imiş. Bütün günü işləyib, dükanı bağlayan kimi hecalaya-hecalaya oxuyurdum. Oxumağa nə qədər meylim olsa da, pula da çox ehtiyacım var idi. Həm Gülsüm xalagilə bazarlıq edir, həm də Namazla Vəliyə pulla kömək edirdim. Gecələr səksəkəli yatırdım. Çünki gah Namaz gəlirdi, gah da Vəli. Onlar kimlərinsə tapşırığını yerinə yetirir, harasa silah daşıyır, gizli kağızları lazımı yerlərə çatdırırdılar. Onları həsrətlə gözəyirdim, bəzən həftələrlə yoxa çıxanda, elə bilirdim, boşluqda qalmışam. Dükanımın divarından Bəyim verən üstü tikməli, ağ parçalar asıb, üstünə mismar vurub, hazır papaqları oradan asırdım. Özümə iki balaca kətil düzəltmişdim. Birində müştəri otururdu, o birinə ev avadanlıqlarımı, yəni balaca mis kasa, boşqab, stəkan, qaşıq, stəkan dəsmalı qoymuşdum. Haradansa tapdığım güzgünü divara vurmuşdum. Bura mənim qonaq otağım idi. O biri otağa dar bir qapıdan keçirdim, bir küncə həsir salıb, üstünə yorğan-döşəyimi yığmışdım. Vəli ilə Namaz yorğan-döşəyin arasını balaca kağızlarla doldur-

muşdular. Gecələr gəlib kağızları harasa aparırdılar. Əsas işim kağızları yaxşı gizlətmək olsa da, vaxt tapıb yazı yazıb-oxuyurdum. Uşaqlar məni çox sevib razılıq edirdilər. Onlar mənim gözümün qarşısından qaranlıq bir pərdəni götürüb məni yeni həyata səsləyirdilər. Özüm də hiss etmədən artıq həyatın qaynar qoynuna atılmışdım. Mənim geri çəkilmək fikrim yox idi. Bu mübariz qardaşların hansı amal, hansı məslək uğrunda çalışdıqları artıq mənə gün kimi aydın idi. Mənim tez-tez yoxa çıxmağımdan Gülsüm xala narahat olurdu. Hər məni görəndə deyirdi: – Ay bala, dərdin alım, pis adamlara qoşulma. Otur, bir parça çörəyini qazan. Yeni rahatlanmısan. Bəy də papaq qoyur, nökər də, sənin nə işinə qalıb, əlində gül kimi sənətin var. Gülüb deyirdim:

– Narahat olma, Gülsüm xala, mənim yaxşı dostlarım var.

O da çiynini çəkib:

– Mən nə deyirəm, təki elə olsun, Allahın pənahında olun,– deyirdi.

Bir dəfə dağ kəndlərindən birinə getmişdik. Gecəni geri qayıtmalıydıq. Vəli başqa kəndə getmişdi. Gün batana yaxın özümüzü Vəli ilə görüşəcəyimiz arxın kənarındakı böyük çinarın kölgəsinə saldıq. Gün batmağına baxmayaraq adamın istidən nəfəsi kəsilirdi. Arxa girib yaxşıca yuyunduq. Tərli, toz-torpaqlı köynəklərimizi çıxardıb, daşlara çırpa-çırpa yuyub kənardakı kolların üstünə sərdik. Azca təpiyən kimi, geyinib həm sərinləndik, həm də rahatlandıq. Hələlik, Vəlidən xəbər-ətər yox idi. Arxı o tərəfə

keçəndə başlayan kənd, tamam sükut içində idi. Get-gedə hava qaralır, ürəyəyatan sərinlik düşürdü. Örüşdən qayıdan heyvanlar sürüdən ayrılıb tək bir, iki bir həyətlərə burulduqca, kənd canlanırdı. Bayaqdan bəri səs-səmir duyulmayan həyətləri səs-küy başına almışdı. Çinarın dibində uzanıb papağını gözünün üstünə basan Namaza dedim:

– Mən gedirəm, evlərin birindən su alım, ciyərim yanır.

Namaz dedi:

– Məmməd, sən Allah, mənə də gətir.

Arxı adlayıb yolun kənarındakı ilk evə tərəf bir-iki addım atmışdım ki, mat qaldım. Elə bil ayaqlarımdan yerə mismarlanmışdım. Əlindəki sərnici inəyin yanında duran kök arvada gətirən qıza baxa-baxa qalmışdım. Ürəyim tez-tez döyünməyə başladı. Səsimi çıxarmaq istədim, bacarmadım. Elə bil haradansa, qəlbimə dolan ılıq hava nəfəsimi tıxayırdı. Mənim ona baxdığımı birdən hiss edən qız başını qaldırıb mənə baxdı, tez də gözünü yayındırıb qıpqırmızı qızardı. Sərnici arvadın yanında yerə qoyub, dabanı üstə fırlanıb geri döndü. Az qala topuğuna dəyən uzun hörükləri ilan kimi qıvrıldı. Arvad ondan xeyli aralıda qoyulmuş sərnicə baxıb dedi:

– Ay qız, bunu niyə belə uzağa qoydun?

Sonra, nədənsə, dönüb arxaya baxdı. Kişi səsinə bənzər bir səslə mənə dedi:

– Nə var, gözünü dana gözü kimi niyə ağardırsan?

Gözümü qızın saçından çəkib udqundum:

– Yol adamıyam, ay xala, susuzluqdan ciyərim yanır. Su istəyirəm. Arvadın səsində bir mülayimlik yarandı, sərnici yerə qoyub, içəriyə tərəf baxıb səsləndi:

– Ay Ceyran, gəl, qonağa su ver.

Qız əlində yekə bir su qabı talvarın altına yaxınlaşdı. Orada su daşının altına qoyulmuş vedrədən qabı su ilə doldurub mənə tərəf yaxınlaşdı. Yaşmağını bir az da yuxarı qaldırdı. Özümü zorla ələ alıb, qızdan suyu alıb başıma çəkdim. Gözümə inana bilmirdim, bu, qız idi, yoxsa, xəyal, "belə də gözəllik olarmı?" – deyə düşünürdüm. Daha su istəyə bilmədim. – Sağ olun, – deyib geri qayıtdım. Vəli ilə Namaz məni gözləyirdi. Vəli: – tələsin, – dedi. – Vacib iş çıxıb.

Dükanıma çatanda Ay çoxdan çıxmışdı. Vəlinin getdiyi kənddə vəziyyət, o biri kəndlərə nisbətən daha ağır idi. Kəndlilər qalmışdılar odla su arasında. Baş qaldıran bir neçə kəndlini ailələrinin gözü qarşısında güllələmişdilər. Bir yandan da, qaçaqlar artmışdı. Vəli də bizi kimi lazımi adamlarla görüşüb tapşırığını vermişdi. Bir-iki gün ərzində silahlar daşınmalı idi. Mən də onlara kömək etməli idim. Yorğun halda, yatağıma uzandım. Durub papaq tikməli idim, sifarişim vardı. Müştərilərimi itirmək istəmirdim. Özümüzün də pula ehtiyacımız var idi. Bəyimin toy günü çatırdı. Azca gözümün acısını alıb durdum. Əlim iş tutmurdu, qız yadımdan çıxmırdı. Elə bil yuxuda görmüşdüm. Öz-özümə "Ceyran", – deyə təkrar edirdim. Doğrudan da, Ceyran idi, amma yerişi durnaya bənzəyirdi. Sanki yerimirdi, quş idi, uçurdu. Gördüm, heç bir iş görə bil-

mirəm, qayıdıb yerimə girdim. Düşündüm ki, səhər tezdən durub işləyərəm. Başımda fikirlər qarışdıqca su axtardığıma görə özümə nifrət edirdim. "Kaş arxın bulanıq suyundan içərdim, bu bəlaya düşməyəydim", – deyə düşünürdüm. Sonralar o tərəf kəndlərə gedirdim, amma faydası yox idi, çox vaxt gecə gedib qayıtmalı olurdum. Mənim gözüm yenə onların həyətində qalırdı. Çəpərdən boylana-boylana qalırdım. Günlər ötüb-keçirdi, amma mən Ceyrandan heç bir xəbər tuta bilmirdim.

Bir gün uşaqlar dükanıma gəlib, pis günlərin sonu çatdığından, tezliklə Şura hökumətinin qurulacağından sevincək danışırdılar. Namaz ayağa durub çaydandan özünə çay töküb, dedi:

– Sağ ol, Məmməd, bizə çox kömək etdin.

Təəccüblə üzünə baxıb soruşdum:

– Bu nə deməkdir? Mən də sizdən deyiləmmi? Qurulan hökumət kasıbların hökumətidir, mən də yesirin biriyəm.

Uşaqlar gülüşdülər, mən də kədərlə əlavə etdim:

– Amma məni bəlaya saldınız.

Namazla Vəli ikisi birdən xorla dilləndilər:

– Nə bəla?

Mən qısaca Ceyrandan danışdım.

Vəli dedi:

– Paho, sən də aşiq olmağa vaxt tapdın də.

– Niyə, lap yaxşı vaxtdır, dövran bizim dövrandır. Amma gərək, öyrənim, görüm, nə qızdır, kimin qızıdır?

Ürəyimdə ümid qığılcımları yarandı. İşlərimiz, demək olar ki, yağ kimi gedirdi. Uşaqlar boş vaxtlarında mənə kömək edirdilər. Yaxşı qazancımız olmuşdu. Uşaqlarla məsləhətləşib, pulun hamısını aparıb verdim Gülsüm xalaya. Həyət-bacanı da səliqəyə saldım, sonra orada mənlik iş olmadığına əmin olandan sonra, qayıdıb dükanımı açdım. Elə yenicə oturmuşdum ki, Namaz gəldi. Hiss etdim ki, kefi yoxdur, qanıqara idi. Yaylığını çıxarıb üz-gözünün tərini sildi. Çəkmələrini çıxardıb bir tərəfə atdı. Amma dinib-danışmırdı. Axır hövsələdən çıxıb soruşdum:

– Nə olub, əə, niyə mısmırığını sallamısan?

O, əlindəki suyu içib cavab verdi:

– Bədbəxt oğlu, bədbəxt, vurulmağa adam tapmadın?

Heç bilirsən, Ceyran kimdir?

Ürəyim düşdü, boğula-boğula soruşdum:

– Kimdir ki?

– Qacaq Məmmədəlinin nişanlısıdır. O da axmağın, əclafın biridir. Gündə bir baş kəsir. Daha o barədə danışmaq olmaz. Oralara-zada da hərlənmə, ölümün gəlməyib. Bir də onların ailəsinə yaxın adamdan öyrəndim ki, Ceyran doqquz yaşından əmisi Məcidin evində gəlindir. Məmmədəli elə o vaxtdan çöllərdədir. Bir vaxt oğurluq edirmiş. Sonra oğurluqda tutulub, qaçıb-qoşulub qaçaqlara. Burdan batır, oradan çıxır. Sorağı gah bu dağdan gəlir, gah o meşədən. Bir il bundan əvvəl Ceyranın atası Əsəd kişi öz bacısı Məsmənin yanında deyibmiş ki, qardaşım mənim qızımı bədbəxt etdi. Onun oğlundan adam-zad olan deyil. İndən belə o, ipə-sapamı, yatar? Heç olmasa,

həbs olunsa, adam bilər ki, beş ilə, altı ilə cəzasını çəkib gələcək. Ceyranın tayları çoxdan oğul-uşaq sahibidir. Məsmə arvad da qardaşının ismarıcını beləcə çatdırıb o birisinə. Məcid bir xeyli susandan sonra deyib: "Ay Məsmə, mən oğlumu ölmüş bilirəm, Ceyrana da yazığım gəlir. Amma nə edim? Arzum ürəyimdə qaldı, Allah pis övladın üzünü qara etsin. Amma necə ki, Məmmədəli sağdır, Əsəd də Ceyranı ölmüş bilsin. Çünki tutaq ki, mən Ceyranın qolundan tutub apardım atası evinə, hansı köpək oğlu gəlib, Məmmədəlinin qorxusundan irəli durub onun qızını alacaq? Əsədi əcəlmi hərləyir? Qoysun, dinc oturaq, görək, başımıza nə gəlir". Deyirlər, təzə hökumət qaçaqların günahından keçəcək, özü təslim olanları əfv edəcək. Elə o gündən bu söhbəti bir daş altına qoyublar, bir daş üstünə. Köksümü ötürdüm. Elə bu vaxt Vəli başı alovlu hay-küylə içəri girdi:

– Əə, nə baş-başa vermisiniz, heç dünyadan xəbəriniz yoxdur? Kəndlərdə yenə vurhavurdu. Ay kişi, məni yandıran bu lütlərdir. Əllərinə silah alıb bəylərin torpaqlarını qoruyurlar. Ay ağılsız bədbəxtlər, camaat sizə çalışır, siz acqarına gedib bəylərin torpaqlarını niyə qoruyursunuz?

Namaz dedi:

– Deməli, biz yaxşı işləməmişik. Kəndliləri yaxşı maarifləndirməmişik. Şura hökuməti kimdir, məqsədi nədir?

Üzünü bir də Vəliyə tutdu:

– Sən bəylərə qoşulanların siyahısını gətirə bildinmi?

Vəli cibindən uzun bir siyahı olan kağız çıxartdı. Namaz alıb birinci Murad adını oxuyub soruşdu:

– Kimin oğludur bu?

Vəli dedi:

Əə, kimin olacaq, dana Cəfərin. Dədəsi acından öldü. Murad da bəyin qapısında yallanır. Kişinin oğlunu qızışdırıb salıblar ortaya. Qoçu olub kişi. Heç bilmir, hara hürür, niyə hürür.

Namaz dedi:

– Uşaqlara xəbər vermək lazımdır. Gecə ikən kəndlərə dağılmalıyıq. Arada kəndliləri qırğına verəcəklər. Onların çoxu yediyi çörəyi tapdalaya bilmir. Bəylərin sözündən çıxa bilmir.

Mən dedim:

– Ay Vəli, bax, biri mən, sizlərlə tanış olmasaydım, vallah, təzə hökumətdən-zaddan heç nə anlamırdım. Bədbəxt camaat da mənim günümdədir.

Mən, hələlik, qalmalı oldum, gecənin yarısından sonra Vəli bir də gəlməli idi. Sonra hansı tərəfə gedəcəyimizi qərarlaşdırmalıydıq. Fikirləşdim ki, hələlik, işlərimi görüm. Sabah bazar günü idi, müştərilərim olacaqdı. Gecə yarıyadək işlədim. Lampanı söndürüb yenicə yerimə girmişdim ki, alçaqdan qapı taqqıltısı eşitdim. Heç nə ağlıma gəlmədi. Gələnin Vəli olduğunu zənn edib qapını açdım. Açaraçmaz, iki nəfər üstümə şığıyıb, əl-qolumu bağlayıb, ağzımı bir dəsmalla tıxadılar. Heç nə soruşmağa macal vermədilər. Yekəpər tayı məni sürüyə-sürüyə çölə çıxartdı. Göz qırpımında məni atın üstünə aşırdı. Hara aparırdılar, niyə aparırdılar, anlamırdım. "Yəqin, Məmmədəlidir", – deyə düşünsəm də, tam əmin deyildim. Axı o nə bilirdi, mən

Ceyranı sevdiyimi? Bunu Namazla Validən başqa heç kim bilmir. Bəlkə Namazla Vəli soruşduğu adam xəbər verib? Yox, bu fikirdən ağlım bir şey kəsmədi. İnanmırdım, Namaz mənim adımı çəkə. Nə isə, bir şey ayırd edə bilmədim, mənzil başına çatdıq. Məni çəkib atdan saldılar. Qapının qabağında duran adam vurub qapının rəzəsini açdı, qapı cırıltı ilə açıldı. Kürəyimə tüfəngin küpü ilə elə ilişdirdilər ki, səndələyib bir-iki addım irəlilədim. Hansı tərəfə gedəsi olduğumu bilmirdim. Yekəpər kişi ağzımdan tıxacı çıxardıb yerə atdı. Qurumuş dil-dodağımı birtəhər islatdım. O, gözü ilə açılan qapını göstərib: "keç içəri, gözünü döymə", – dedi. Qaranlığı gözüm alanacan qapının ağzında dayanmaq istəyirdim ki, belimdən təpiklə necə vurdularsa, gözümü açanda özümü torpağın üstünə sərilmiş vəziyyətdə gördüm. Qapını çəkib örtdülər, ayaq səsindən və atın fınxırtısından başa düşdüm ki, çıxıb getdilər. Gözüm qaranlığı alandan sonra durub içəridə hərlənməyə başladım. İki yerə saman tökmüşdülər. Bura samanın yatmaq üçün töküldüyünu anladım, onsuz da, yorğun idim, fikirləşməyə halım yox idi. Fikirləşməklə bir şey anlaşdıra da bilmirdim, ona görə yatmaq qərarına gəldim. Samanın üstünə uzandım. Siçanlar üstümdən gah bu tərəfə hoppanırdı, gah o biri tərəfə. Taxta qapının taxtalarının arasından içəri ay işığı süzülürdü. Nə vaxt yuxuya getdiyimi bilmirəm. Oyananda çöldən səslər eşidirdim, durub oturdum. Hiss edirdim ki, taxta pilləkənlə kimsə yuxarı qalxır. Pilləkənin cırıltısı kəsildi, qapı açıldı. Başımı yuxarı qaldırdım, döşəmənin taxtası bir-birindən, az qala, barmaq boy-

da aralı idi. Orada gəzənin ayaq səsləri eşidilir, ayaqqabısının altı görünürdü. Oradan aşağı işıq da süzülürdü. Bir azdan səs-küy artdı, adam çoxaldı. Deyəsən, bura divanxana idi. Yavaş-yavaş mənə hər şey aydın olurdu. Arxayınlaşdım, dükanda heç nə yox idi, nə silah, nə də ki, kağız. Qapı şaqqıltı ilə açıldı. Dünənki yekəpər bağırdı:
– Dur gəl, görək!

Durub çölə çıxdım, gün işığından gözüm qamaşdı. Kürəyimdən itələyə-itələyə məni yuxarı qaldırdılar. Otağın yuxarı tərəfində, qırmızı örtüklü stolun arxasında şişman, bığlı bir kişi oturmuşdu. Yekəpər dil-dil ötməyə başladı:

– Ağa naçalnik, dünən güddüyümüz oğlan bunun dükanının qapısını döymək istəyirdi. Bizi görəndə aradan çıxdı. Onu tuta bilmədik, yəqin ki, bu, onu tanıyır. Yoxsa, qapısını döyməz ki? Biz də tutub bunu gətirdik.

Naçalnik bığlarını tumarlayıb ayağa durdu, birdən elə qışqırdı ki, ikimiz də səksəndik:

– Heyvan oğlu, heyvan, necə yəni qaçdı, aradan çıxdı? Bəs sən ölmüşdün? Eşşək yoğunluqda olmusan. Hərəkət edə bilirsən ki?!

Sonra birdən dabanı üstə fırlanıb, düz qabağımda dayanıb, mülayim bir səslə dedi:

– Qəşəng oğlan, de görək, o kimdir və gecə vaxtı sənin dükanında nə gəzir?

Fəqir-fəqir cavab verdim:

– Bilmirəm, ağa naçalnik, mənim yanıma o qədər adam gəlir ki, papaq tikdirməyə.

Naçalnik soruşdu:

– Sən papağı gecə tikirsən?

Cavab verdim:

– Yox, gecə yox, mən gecə gələni görmədim. Mənim yanıma heç vaxt gecə gələn olmur.

Naçalnik bayaqkından da bərk bağırdı:

– Kəs səsini! Bütün lütlər əl-ayaq açıb. Qulaqları səs eşidib. Sizin açılan əl-ayağınızı, artıq sözlər eşidən qulaqlarınızı dibindən kəsib atacam. Vurun, bu köpək oğlunu, gecə qonağını xatırlayanacan, vurun. Yekəpər məni o qədər təpiklədi ki, huşumu nə vaxt itirdiyimi, aşağıya necə düşdüyümü xatırlamırdım.

Ayılanda gördüm başımdan axan qan üzümdə qaysaqlayıb. Dodaqlarım qupquru qurumuşdu. Qulağımın biri o qədər şişmişdi ki, əlimi vuranda qorxdum. Tək ağzı üstə uzana bilirdim, kürəyimi yerə qoya bilmirdim. Tez-tez huşumu itirirdim. Amma yuxarıdan gələn Qulam dayının səsini eşidirdim. Əvvəl elə bildim, yuxu görürəm. Bir azdan onun səsini və dediklərini aydın eşitdim:

– Ağa naçalnik, o, fəqirin, yetimin biridir.

Naçalnik dedi:

– Yetim-yesirlərdir də, quduranlar.

Qulam dayı deyirdi:

– Vallah, naçalnik, yəqin düşmənlərindəndir, yazığı öldürmək istəyirlər. Bu bədbəxti kəndlərindən gətirib burada gizlədiblər. Yəqin ki, tanıyan olub. Yerini bilən olub, öldürəcəklər yazığı.

Naçalnik soruşdu:

– Nə düşməndir, o elə?

Qulam dayı cavab verdi:

– Əşşi, nə bilim? Çoxdanın söhbətidir.

Öz-özümə: "Sağ ol, e, Qulam dayı. Həmişə mənə kömək əlini uzatmısan", – dedim. İndi dayılarımın düşmənçiliyindən ayrı şey uydurmalıydım. Bəyin adını çəkə bilməzdim. "İt-itin ayağını basmaz" deyirlər, elə Murtuz bəyin oğluna görə qolumdan tutub məni həbs edərdilər. Qulu dayının getdiyini pilləkənlərin səsindən bildim. Həmin gün məni sorğu-suala çağıran olmadı. Ertəsi gün, yenə də günortadan sonra şişman kişinin hüzurunda dayanmışdım. O, gah bığlarını tumarlayır, gah da kağızların içində eşələnirdi. Özüm də bilmədən yazıq bir səslə dedim:

– Naçalnik, öldürəcəklər məni, yəqin yerimi öyrəndilər.

Naçalnik başını qəribə tərzdə qaldırıb dedi:

– Hə, bəlkə elə dükanının qabağına iki qorodovoy göndərim, səni qorusun, keşik çəksin sənə? Kimdir səni öldürən və niyə öldürür?

Bayaqkı kimi cavab verdim:

– Dayım ova çıxanda bilmədən bir nəfərin bacısı oğlunun gözünü çıxardıb. İndi həmin adam deyir ki, gərək, mən də onun bacısı oğlunun gözünü çıxardam. Qurban olum, naçalnik, məni öldürəcəklər, gözümü çıxardacaqlar.

Naçalnik sözümü kəsib bağırdı:

– Cəhənnəmə öldürsünlər. Köpək uşaqları, başımızı elə qatıblar ki, sənlik halım yoxdur. Rədd ol, çıx bayıra!

Mən yerimdən tərpənmədim, guya çölə çıxsam, əlisilahlı

adamlar dayanıb məni gözləyirdilər. Naçalnik məni gətirənləri çağırıb söyməyə başladı:

- Axmaq oğlu, axmaq, gedib mənə adam tutub gətirib. Nə tapdınız dükandan?
- Kişi zorla eşidiləcək bir səslə cavab verdi: – Heç nə.

Naçalnik yenə bağırdı:

- – Di, rədd elə bunu buradan, gözüm görməsin.

Gətirdikləri kimi məni itələyə-itələyə çölə çıxartdılar. Ayağımı sürüyə-sürüyə çölə çıxdım.

– Artıq qaranlıq qarışmışdı, bilmirdim, hara gedim. Nədənsə, dükana getmək istəmirdim. Acından, susuzluqdan ölürdüm. Yadıma düşdü ki, bu gün Bəyimin toyudur. Bu gündə heç yerə gedə bilməzdim. Köynəyimin qolu cırılıb-sallanırdı. Qan saçlarımın arasında quruyub qaysaqlamışdı. Şalvarım toz-torpaq içində idi. Üzümdə, boynumda qamçıların izi əməllicə bilinirdi, ürəyimdə Qulam əmiyə minnətdarlıq edə-edə gəldim dükana. İçəridə cırılıb, yerə tökülmüş yorğan-döşəyi yığışdırdım. İki-üç gündən qalmış quru çörəklə, quruyub quruda dönmüş pendir yedim. “Görəsən, dükanda qalsam, nə olar?” – deyə düşünürdüm. “Birdən uşaqlar gələr? Əllərində kağız və ya silah izləyib tutarlar”. Səksəkəli halda yuxuya getdim. Ertəsi gün ürəyim narahatlıqdan üzülə-üzülə işə başladım. Bir həftə keçdi. Vəligildən heç bir xəbər yox idi. Şübhələr ürəyimi didib-parçalayırdı. Üz-gözüm sağalmadığına görə Gülsüm xalagilə gedə bilmirdim. Bir yandan, Ceyranı unuda bilmirdim. İstəyir, bir Məmmədəli yox, on Məmmədəli

olaydı, heç kimdən qorxmurdum. "Gedəcəm onu görməyə", – deyə düşündüm. Məni narahat edən məsələ Ceyranın özü idi. Bəlkə o öz nişanlısını sevir. Gözü ondan başqasını görmək istəməyəcək. Ölənəcən onu gözləmək fikrindədir. Azdırmı belə işlər? Bəlkə onun vəhşiliyini, oğurluğunu, qaçaqlığını igidlik, qoçaqlıq kimi qiymətləndirir?! Belə düşünəndə ürəyim darıxdı. Qalxıb Gülsüm xalagilə getdim. Gülsüm xala tut ağacının altında yuxa bişirirdi. Qönçə əlindəki sinidən kündələri onun yanına – süfrənin üstünə yığırdı. Başını qaldırıb məni görən kimi dedi:

– Ay ana, Məmməd gəlir.

Gülsüm xala başını qaldırıb incik tərzdə dedi:

– Xoş gəlmisən, ay Məmməd, qadan alım, haradasan? Adam bacısının toyuna beləmi gələr? Bəyim on gündür, köçüb. Anası ölmüş, dedi ki, ay ana, Məmməd Əbdülə görə gəlmədi. Vallah, Əbdül pis oğlan deyil, bir az qısqancdır, elə Səməd rəhmətlik də qısqanc idi.

Zorla gülümsünərək cavab verdim:

– Vallah, heç cürə gələ bilmədim. Bu məndən asılı olmadı. Allah qoysa, o biri bacılarımın toyunda layiqincə iştirak edəcəm.

Gülsüm xala dedi:

– Layiqincə deyəndə ki, ay oğul, bu çətin günlərimdə sən mənə əsl layiqli oğul olmusan.

Sonra üzümə baxıb:

– Bıy, niyə belə arıqlamısan? Xəstələnibsən, nədir? Rəngin niyə solub? Allah məni öldürsün, hələ uşağı **davaya** tutmuşam.

– Narahat olmayın, yaxşıyam.

Gülsüm xala Sonanı səslədi:

Sona çölə çıxıb mənimlə salamlaşdı.

– Ay qız, Məmmədə sulu bir yemək hazırla, çay gətir.

Etiraz etmədim, çünki bura mənim ana məhəbbətli, ana qayğılı isti ocağım idi. Axşamacan oturdum, yedim, içdim, dərdləşdim, özümə gəldim. Düşünürdüm, "İlahi, ünsiyyətsiz insan, insan deyil, odun parçasıdır, ya da adi daşdır".

Ertəsi gün dükana balaca bir oğlan əl boyda bir kağız parçası gətirmişdi. Açıb gördüm, Vəlidəndir, – sevindim. Deməli, salamatlıq idi. Məktubun hər sətri böyük məhəbbətlə yazılmışdı. Vəli məni qonşu kənddə gözləyəcəyini yazırdı. Mən onlarla görüşə səbirsizlənirdim. Ürəyim dolu idi. Elə bil neçə ilin həsrətlisi idim. Hələ axşama çox var idi. Dükanı bağlayıb çıxdım. Əvvəl yolumu Ceyrangilin kəndindən saldım. Mən kəndə çatanda gün-günorta olmuşdu. Evlərinin arxa tərəfində durmuşdum. Həyətlərinə sarı burulmağı lazım bilmədim. İstəmirdim, məni görən olsun. Çəpərin qırağı ilə hərlənib özümə münasib yer axtarırdım dayanmağa. Elə bu vaxt qucağında çatmalar olan Ceyran talvarın altında göründü. Oradan çatını da götürüb qoz ağacının altına gəldi. Ağacın kölgəsində çatmaları qurub, nehrəni çatı ilə çatmadan asdı. Nehrəni qabağa-dala itələdikcə, çalxaladıqca nehrədən qəribə ahəngdar bir səs gəlirdi. Ömrüm boyu dayanıb bu mənzərəyə baxardım. İndi nədənsə, istəyirdim, Ceyran məni görsün. Az qalırdım, çağırım. Məcid kişi həyətə çıxdı. Gəlib Ceyran-

dan azca aralıda qoyulmuş köhnə taxtın üstünə uzanıb dedi:

– Ay qızım, hava çox isti deyilmi? Belə havada da nehrəmi calxalayarlar? Yağı batmayacaqmı onun?

Ceyran tərləyib qızarmışdı. Yanaqları alma kimi olmuşdu. Başına bağladığı güllü yaylığından çıxıb üzünə tökülən qara saçları islanıb, üzünə yapışmışdı. O, əli ilə saçlarını geri edib dilləndi:

– Nə bilim, əmi, darıxdım.

Elə bu vaxt kimsə qolumdan yapışdı, dönüb gördüm Vəlidir. Görüşməyə macal tapmamış, deyinməyə başladı:

– Nə var əə, ağzını ayırıb elə baxırsan ki, elə bil Səlim bəy oğlunun toyuna gətirdiyi Göyçə aşıqları dastan söyləyir. Xalqın çəpərinin qırağını nə kəsmisən? Heç olmasa, bir az dalda yerdə dayan də? Yaxşı ki, bunların evi kəndin qırağındadır. Yoxsa, bu saat bütün kənd səndən dastan düzəldib söyləyirdi.

– Mən heç nədən, heç kimdən qorxmuram, Ceyranı sevirəm, onu alacam, vəssalam! Yolumdan dönən deyiləm,– dedim.

Vəli mənim sözlərimdən şövqə gəldi:

– Əə, qələt eləyir onun nişanlısı, gəl, götürüb qaçaq.

– Yox, özü mənə gəlməyə razılıq verməsə, götürüb qaçmayacam, – dedim.

– İndi nə deyirsən, gedək, ondan soruşaq ki, Məmmədə gəlirsənmi?

– Doğru sözümdür, adam göndərərik, fikrimizi deyərik. Qoy Namazla məsləhətləşək. Namaz haradadır?

– Gedək, Namaz bizi gözləyir. Məni bura o göndərib. Dedi ki, Məmmədi bura nahaq çağırmamışam, özüm ölüm, indi gedib kəsib Məcid kişinin çəpərinin qırağını. Mən inanmadım, amma gəlib nə görsəm, yaxşıdır? Elə bil çəpərin qırağında heykələ dönmüşdün, – deyib onun qoluna girdi.

Danışa-danışa Namazın yanına çatdıq, bizi gözləyirdi, qucaqlaşdıq. Vəli dil-boğaza qoymadan mənə lağ edib gülürdü. Nəhayət, Namaz onu susdurub:

– Sən özündən danış, sevmək pis şeydirsə, niyə anan gözaltı etdiyi qızı almırsan? Bir də ki, hələ bu söhbətlərin yeri deyil, – dedi.

Sonra mənə sual verdi:

– Danış görək, necə oldu ki, səni buraxdılar? Biz bir çarə tapa bilmirdik. Dünən çoban Tağının başında təzə papağı görəndə dedim: – Papağın mübarək, ay Tağı dayı. O, da qayıtdı ki, sağ ol, dünən papaqçı Məmməddən almışam. İkimiz bir ağızdan səsləndik, – dünən Məmməddən? Əvvəl inanmadıq, sonra Vəli gedib öyrəndi ki, doğrudan da, gəlmisən.

Başıma gələnləri danışdım. Qulam əminin sözlərini zirzəmidən eşitdikdən sonra, "Amandır, məni buraxmayın, yoxsa, öldürəcəklər, gözümü cıxardacaqlar", – deyib haray saldığımı görüb, məni sürüyüb zirzəmidən çölə atdıqlarını söylədim.

Uşaqlar gözlərindən yaş gələnəcən güldülər. Gülməkdən kefləri kökəlmişdi. Namaz:

– Darıxma, Məmməd, hər şey yaxşı olacaq, bu hökumət də yıxılacaq, meşələrdən qaçaqları təmizləyəcəklər, hər yerdə əmin-amanlıq olacaq. Sənin yaxşı zehnin var, dözümün, iradən var, oxumağa göndərərik. Ara sakitləşər, Ceyranı da sənə alarıq, – dedi.

– Mən nə sizdən ayrılan deyiləm, nə sevgimdən, nə də məsləyimdən dönən deyiləm, heç nədən, heç kimdən qorxmuram, – dedim.

– Məmməd, iş qorxmaqda deyil, "ehtiyatlı igidin anası ağlamaz" deyiblər. Bu arada tora düşməyin nə mənası var? Mən Ceyranın bibisinin yanına adam göndərəcəm. Ümidvaram ki, mütləq bizə kömək edəcək.

– Eh, lazım deyil,– dedim. – Tutaq ki, onlar razılıq verdi, biz də Ceyranı götürüb qaçdıq. Hara aparacam, dükana? Deyirlər, torpaqları paylayacaqlar, mən də torpaq payımı alar, içində bir koma tikərəm, sonra baxarıq.

Vəli də söhbətə qarışdı:

– Namaz, sən işini gör, Məmməd torpaq alanacan, içində ev tikənəcən biri çıxar, Ceyranı alar-aparar, bu da gic olar, gedər əlimizdən. Təki işimiz düzəlsin, bizim evə apararıq Ceyranı. İndiyə qədər kim evsiz qalıb?

Vəliyə təşəkkür etdim, vidalaşıb ayrıldıq.

Dükanda işlərim yaxşı gedirdi. Dəriləri alıb-aparıb tökürdüm Gülsüm xalagilə. Gülsüm xala qızları ilə birlikdə dərilərin üstünə kəpək töküb o qədər sürtürdülər, dərilər par-par parıldayırdı. Məşhurlaşmışdım, başqa mahallardan da yanıma müştərilər gəlirdi. Əyin-başım əməlli dü-

zəlmişdi. Gülsüm xala mənə nişan boğçası tutmuşdu. Evdə hamı Ceyran əhvalatını bilirdi.

– Bir səhər dükanı açanda ətrafdakı dükanların hamısının bağlı olduğunu görüb təəccüb etdim. Qulu əminin ölüm xəbərini eşidib sarsıldım. Onu tək mən yox, hamı sevirdi. Bazarda işləyən kim var idisə, hamısı hüzrə getmişdi, mən də getdim. Dəfndə hamı bir nəfər kimi iştirak edirdi. Birdən qəbristanlığın aşağısında qəbri olan və xalq tərəfindən ziyarətgah kimi qəbul edilən bir seyidin qəbri üstünə yaxınlaşan arabada Ceyranı gördüm. Həyəcanlandım, gözucu o tərəfə baxırdım. Hələ yenicə arabadan əşyalarını daşıyıb ziyarətgaha girirdilər. Görünür, qurban kəsməyə hazırlaşırdılar. Molla hələ Quran oxuyurdu, nəhayət, dəfn mərasimi başa çatdı, hamı dağıldı. Mən yavaş-yavaş ziyarətgaha tərəf getdim. Ürəyimdə Allaha yalvarırdım, Ceyranı mənə qismət etsin. Ziyarətgahın qapısı hər kəsin üzünə açıq idi. Ceyranın əmisigil qurban kəsib, süfrə açıb qab-qaşıq düzürdülər. Mən onların yanlarından ötüb içəri girdim, mənə də oturmaq təklif etdilər, oturmadım: – Allah ziyarətinizi qəbul etsin, – deyib oradan ayrıldım. Amma qızı lap yaxından gördüm, o da məni gördü. Nə isə, ürəyimdə bir ümid çırağı yandı. Mənə elə gəldi ki, yenə Qulu əmi köməyimə gəlib bizi görüşdürdü. İndi heç vaxt getmədiyim ziyarətgah mənə sehrli və doğma gəlirdi. Düzdür, xalq arasında "Qərib Seyid" adı ilə tanınan bu ziyarətgah haqqında cürbəcür rəvayətlər gəzirdi. Deyirlər, guya gecənin bir vaxtı qəbrin üstündə şam yanırmış və kəndin hər yerindən görünürmüş. Sonra kəndlilərdən biri

şamın qeybdən yandığına inanmadığını deyir. Doqqazda duran gənclərlə mərc gəlir ki, yəqin insanlarda inamı artırmaq üçün gecə kimsə gedib qəbrin üstündə şam yandırır. Və inad edir ki, sabah gecə gedib oradan, qəbrin üstündən şamı gətirəcək. Ertəsi gün bir neçə gənc yığılıb gecənin düşməyini gözləyir. Gecəyarı yenə qəbrin üstündə şam yanır. Bunu görən gənclər qəbrə yaxınlaşırlar. Mərc edən oğlan onlardan ayrılıb qəbrə tərəf irəliləmək istəyir, amma heç iki-üç addım atmamış, dəhşətli bir səslə qışqırıb, yerə yıxılıb, huşunu itirir. Oğlanlar onu elə huşsuz halda götürüb kəndə gətirirlər. Bir neçə gün huşsuz vəziyyətdə qalır və nəhayət, ayılanda söyləyir ki, bir-iki addım atmışdım ki, gördüm, gözümün qarşısında bir divar hörülüb asimana qalxır. Tez istədim, geri dönüm, həmin divarın biri də bu tərəfdə hörülüb asimana qalxırdı. Qaldım iki divarın arasında. Daha yadıma heç nə gəlmir. Elə o vaxtdan bu rəvayətə başqaları da qoşuldu. İnsanlar dara düşəndə üzünü bu ziyarətgaha tutdular. Mən o vaxtlar bu rəvayətlərə inansam da, inanmasam da, indi bura mənə çox əziz idi. Dükana kefikök qayıtdım.

Aradan bir qədər də keçdi. Demək olar ki, ayaqlarım üstündə möhkəm dayana bilirdim. Artıq xalq arasında əməlli hörmət sahibi idim. Deyilənə görə, yaraşıqlı görkəmim var idi. Həmişə Vəli deyirdi ki, ay Məmməd, kaş sənin yaraşığın mən də olaydı. Namaz deyirdi: "Ay kişi, əl çəksənə, ondan. Yaxşı ki, heç olmasa, yaraşıqlıdır". Ceyranın görüşünə tez-tez gedirdim. Buna "görüş" ona görə deyirəm ki, Ceyran da görürdü məni, görən kimi çə-

pərdən boylanırdı. Nəhayət, bir gün Namaz xoş xəbər gətirib dedi:

– Məmməd, həm sevinirəm, həm də sənə nə isə olacağından qorxuram. Sən Allah, ehtiyatlı ol. Ceyranın bibisi ilə danışırdım. Sən demə, hər şeydən xəbərdardılar, səni də əməllicə tanıyırlar, hamısı da razıdır. Atası səndəki cəsarətə heyran qalıb. Deyir ki, ondan başqa heç kim ürək edib Ceyranı alan deyil. Əmisi də bilir, odur ki, qızı qaytarıb atası evinə, "qoy özləri versin" deyib əmisi.

Nə isə, bir neçə aydan sonra Ceyranı toysuz-filansız aparmaq qərarına gəldik. Çünki qızın atası "toy-mərəkə lazım deyil", – deyirdi. Xəbərin Məmmədəliyə çatmasını istəmirdi. Əslində isə, Məmmədəli öz başının harayında idi. Qulaqlarıma inanmadım. Doğrudanmı, mənim də üzümə tale güləcək? Çox sevinirdim, uçmaq üçün qanadım yox idi. Özümü Gülsüm xalagilə nə vaxt çatdırdıgımı özüm də bilmədim. Ürəyimin partlayacağından qorxurdum. Xəbəri onlara çatdırdım. Qızlar sualı suala caladılar:
– Bəs biz nə vaxt görüşəcəyik? Ceyranı bizə gətirmək olmazmı? Anam da ona tuman tikər.

Daha nə bilim, nələr... Suallara cavab verməkdən yorulub, "hələ qəti qərara gəlməmişəm", – deyib evdən çıxdım. Ertəsi gün lap tezdən dükana bir kişi gəldi. Alçaq boylu, ciddi sifətli kişi idi. Əvvəlcə, özünə papaq sifariş verdi. Amma durub getmədi, sözlü adama oxşayırdı. Hiss etdim ki, çox narahatdır. Nə isə demək istəyir, ancaq bilmir, haradan başlasın, necə başlasın. Onun narahatlığı məni də darıxdırmağa başladı. Fikirləşdim: "Lənət şeytana,

görəsən, nə istəyir?" Nəhayət, kişi oradan-buradan mənasız, məntiqsiz söhbətinə birdən son qoyub dedi:

– Mən usta İmranın, dəmirçi İmranın oğluyam.

Qulaqlarım uğuldadı. Mənə elə gəldi ki, bir an ürəyim də dayandı. Deməli, bu kişi mənim qardaşım idi. Düşünürdüm, "görən, bu illər ərzində niyə bir dəfə olsun, məni axtaran olmayıb? İndi heç kimə ehtiyacım yoxdur, öz əlim öz başımdır. İllər öncə onları həsrətlə gözləyirdim. Nədənsə, həmişə gələcəklərinə ümid etmişdim". Beynimdə nə qədər həqiqətlər dolansa da, daxilimdən gələn başqa hiss məni sevindirdi. Bir anin içində məchul, müəmmalı fikirlərin yerini məhəbbət tuturdu və bu məhəbbətdən yaranan istilik bütün vücuduma yayılırdı. Kişi ürəyimdən keçənləri oxuyurmuş kimi dedi:

– Mən sənin çöllərə düşdüyünü bilməmişəm. Elə bilirdim, dayılarının yanındasan. Xəbər alanda da dedilər: "yoxdur, itib-batıb". Çox məyus oldum, çox heyfsiləndim.

Sonra bir an susub, yenidən dilləndi:

– İndi de görüm, sən doğrudanmı, Abbasın bacısı oğlusan?

– Bəli, Abbasın bacısı oğluyam,—deyə cavab verdim.

Kişi yerindən durub məni bağrına basdı. Hönkür-hönkür ağladı:

– O vaxt səni rəhmətlik anandan istədim, vallah, vermədi.

Sonra öz sözünə özü cavab verdi: – Yazıq haradan biləydi ki, tez rəhmətə gedəcək. Uşağı də belə olacaq. Nə isə, şükür Yaradana, sağ və salamatsan.

O danışırdı, ürəyimdə bütün qardaşlarımı görmək arzusu baş qaldırdı: "Axı mən niyə özüm axtarıb qardaşlarımı tapmamışam?" – deyə düşünürdüm. Hisslərimi bildirməməyə çalışdım. Rza əl çəkmədi, zorla da olsa, məni özü ilə aparmaq istədiyini söylədi: – Evdə səni gözləyirlər, – dedi. Dedim: – Mütləq gələcəm, indi vacib işim var, sonra söyləyərəm.

Rza getmək istəmədiyimi zənn edib, qanı qaraldı. Qəlyanını çıxarıb, yana-yana sümürdü. Qolumu boynuna salıb, and içib-aman etdim ki, gələcəm. Rzanı yola salıb dükanı bağladım.

Uşaqlar məni gözləyirdi. Yanlarında atları da var idi. Hərəmiz bir ata mindik. Ceyran bibisi qızları ilə bibisigilə gedirdi. Bir göz qırpımında qızın biləyindən tutub, ata qaldırdım. Qızlar qışqırıb hərəsi bir tərəfə qaçdı. Biz atlarımızın ağzını döndərib meşəyə tərəf getdik, özümüzü meşəyə verdik. Bir az daldalanıb Namazın qohumugilə gəldik. Onlarda bir neçə dəfə olmuşdum. İki qızlarını ərə verib, tək yaşayan ər-arvad idi. Kişi çox sağlam, zarafatcıl, kefcil, qarı isə onun tamam əksinə, sakit, mülayim, balaca bir qarı idi. Onlar da bizi gözləyirdilər. Çox xoş qarşıladılar. Uşaqlar dayanmayıb, geri döndülər. Bir-iki gündən sonra Ceyranın özü ilə gətirdiyi balaca bağlamanı Namaza verdim ki, göndərsin əmisigilə, bibisigilə, hara olur-olsun, axır ki, özlərinə. Ceyran onu mənə sevinə-sevinə göstərib demişdi:

– Al, Məmməd, bunu əmimin oğlu kimnənsə göndərmişdi mənə. Bibim də dedi ki, ver Məmmədə, köməyiniz olar. Satıb özünüzə güzəran düzəldərsiniz.

Balaca, qırmızı yaylığa bükülmüş qızıl sırğaları, üstü qara minalı, nazik gümüş kəməri görəndə elə bil məni ilan vurdu. Başımı qaldırıb  Ceyrana baxanda gördüm, onun da təbəssümü dodağında donub. Mənim tutulduğumu görüb, peşman olmuşdu. Qaytarıb yaylığa bükdüm:
– Ceyran, mənə oğurluqla, haramlıqla qazanılan heç nə lazım deyil. Mən öz quracağım təmiz, müqəddəs ocağıma haram qatmaram. Bir də ki, bunlar artıq sənin deyil. O zaman sənin olardı ki, sən onun sahibinə ərə gedəydin.

Ceyran gözləri dolmuş halda cavab verdi:

– Düzdür, bu mənim ağlıma heç gəlməyib. Təqsir məndədir, bibim verdi, mən də götürdüm. Al, qaytar özlərinə.

Gətirib Namaza verib dedim:

– Namaz, bunları ver, Ceyranın bibisinə, qoy qaytarsın Məcid kişigilə.

Namaz da cavabında: –Narahat olma, mütləq qaytaracam, — dedi.

Arxayınlaşdım, elə bil ki, üstümdən ağır daş götürmüşdülər. Mənə elə gəlirdi, bu oğurluq, haram mallar özləri ilə bərabər, təzəcə qurduğum, müqəddəs saydığım yuvama natəmizlik gətirmişdi.

Bu qızqaçırma işinin üstündən xeyli keçəndən sonra yerimizi öyrənən Gülsüm xala Qönçə ilə bərabər Ceyranı görməyə gəlmişdilər. Mənim ana qayğılı Gülsüm xalam özü ilə bərabər boğça da gətirmişdi. Tərtəmiz saf əlləri ilə bağlamışdı bu boğçanı. Boğçanı açıb, əvvəlcə, qızıl üzüyü taxdı Ceyranın barmağına, sonra ağ yelənli kəlağayını başına saldı. Ağ kəlağayı Ceyrana çox gözəl yaraşırdı. Ağ

üzünün rəngi, yanaqlarının qızartısı kəlağayıya düşürdü. O, qızı bərk-bərk öpüb, xeyir-dua verdi. Mənim mütləq xoşbəxt olacağıma ümid elədiyini söylədi. Sonra tuman, koftalıq parçaları çıxarıb Ceyrana dedi:

– Hə, Ceyranım, indi dur ayağa, ölçülərini götürüm, bunları tikib gətirəcəm.

Qalan xırda-para nə var idisə, hamısını Ceyrana verdi. İlahi, nə qədər sevindim, təsəvvür edə bilmirdim ki, Gülsüm xala məni öz balalarından seçməyib. Qızlarına cehiz tutanda mənə də boğça bağlamışdı.

Bir neçə gündən sonra qardaşlarımla görüşməyə qərar verdim. Rza sifariş verdiyi papağı götürüb, bir az da şirni aldım, "yəqin evdə uşaq olar", – deyə düşündüm. Yolumu doğma Aşağı Quşçu kəndimzin dayılarım yaşadığı tərəfdən yox, kəndin aşağı başından saldım. Məni tanıyan olmayacaqdı, amma "ehiyat igidin yaraşığıdır" deyiblər. Rzanın evini soraqlayıb asanlıqla tapdım. Həyətdə səs-səmir yox idi. Bir qədər dayanıb, "Rza", – deyə cağırmaga başladım. İçəridən bir qadın çıxıb key-key mənə baxıb soruşdu:

– Kimi istəyirsən, a qardaş?

– Bacı, mənə Rza lazımdır.

Qadın bu dəfə mülayim səslə dedi:

– Yoxdur evdə, hüzür yerinə gedib, – dedi.

Gördüm arvad bunu deyib içəri keçir, tez papağı çıxardım:

– Ay bacı, papaq sifariş vermişdi, gətirmişəm. Yolumun bu kəndə düşəcəyini bilirdim, elə götürdüm, gətirdim. Bir də zəhmət çəkib gəlməsin.

Arvad əlini gözünün üstünə qoyub irəli gəldi:

– Ədə, sən Rzanın qardaşısanmı? Gəl görüm, içəri, gəl. Belə sən xoş gəlib, səfa gətirmisən.

Heç yarım saat keçmədi ki, başıma o qədər adam yığışdı ki, bilmədim, qardaşım hansıdır, əmim oğlu hansı. Görüşmək, qucaqlaşmaq, hay-haray... Sən demə, xəbər kəndin o başında Rzaya gedib çatıb. Özünü qaranəfəs evə saldı. Qapıdan girən kimi məni qucaqlayıb dedi:
– Dərdin alım, Məmməd, kişi kimi sözünün üstündə durdun, kişi adamsan.

Sonra məni bir-bir qardaşlarımla tanış etdi. Maşallah, dörd qardaşım var imiş, hərəsinin də dörd-beş uşağı. Elə burda öyrəndim ki, qardaşlarımdan biri on yeddi yaşında rəhmətə gedib. Kəndə sel gəlibmiş, Rzanın oğlu da çayın qırağında oynayırmış. Su bir göz qırpımında uşağı alıb aparır. Əhməd də uşağın dalınca özünü atır. Amma nə uşağı xilas edə bilir, nə də özü xilas olur. Qəbirləri də atamın qəbrinin yanında yanaşı idi.

Görüş mərasimi üzün çəkdi. Nəhayət, mən getməli olduğumu və qısaca evlənmə tarixçəmi danışdım. Rza qəti şəkildə bildirdi ki, bu gündən mən Ceyranı da götürüb burada – qardaşlarımla birgə yaşamalıyam. O biri qardaşlarım da Rza deyəni deyib, təkid etdilər. Rza dedi:
– Ay Məmməd, biz dörd qardaş bir-birimizə qonşuyuq. Burada yaşamağa sənin də, bizim qədər haqqın var. Sən niyə tək yaşamalısan? Elə günü sabah gəlib səni köçürəcəm yanımıza. Köməkləşib, hələlik, bir qazma dam tikərik, sonrasına Allah kərimdi.

Onlarla razılaşdım. "Razılaşdım" deyəndə ki, sevincimin həddi yox idi. İsa gətirib məni ötürdü. Elə bil bir-birimizi çoxdan tanıyırdıq. Ondan ayrılan kimi ayağımı yeyinlətdim, az qala, qaçırdım. Nədənsə, narahat idim. Mən çatanda çöldən əl-ayaq yığılmışdı. İçəri girib təəccübləndim, Ceyran qocaların yanında taxtın üstündə uzanmışdı. Rəngi sapsarı idi. Qoca onun yanında oturub qəlyan çəkirdi. Qarı isə məni görəndə durub çölə çıxdı. Heç kimin danışmadığını görüb dəlicəsinə soruşdum:

– Axı burda nə olub?

Qoca bir-iki dəfə öskürüb dedi:

– Əslində heç nə olmayıb, şükür Allaha, salamatlıqdır, amma bundan sonra nə isə ola bilər. Hər ehtimala qarşı Namaza ismarıc etdim. Bu gün həyətimizə bir atlı gəlmişdi.

Ürəyim qəfəsə salınmış quş kimi çırpındı. Özümü sakit aparmağa çalışaraq dedim:

– Nə olsun? Həyətə adam gələr də.

Ceyran başını yerdən qaldırıb çətinliklə:

– Məmmədəli idi, görən kimi tanıdım. Üz-gözünü tük basıb. İnsandan çox, hansısa, vəhşiyə bənzəyirdi. Saçından, paltarından çirk tökülürdü. O, evdən gedəndə mən uşaq idim. Yadımdadır, axırıncı dəfə getdiyi, onda mən küllükdə oynayırdım. Yanımdan keçəndə üstümə qışqırıb demişdi, – Ay qız, dur evə get. – Elə o vaxtdan ondan qorxuram. Yenə də qarşıma çıxanda qorxdum. Sənəm nənəyə kömək edib çörək bişirmək istəyirdim, tabağı çölə apardım ki, yuyub-təmizləyim, elə bu vaxt çaxmaq səsi eşidib

geri döndüm. Tüfəngi üzünə qaldırıb məni nişan almışdı. Ayaq üstə quruyub qalmışdım. Sonra nə fikirləşdisə, tüfəngi aşağı salıb, – Səni yox, o əclafı öldürəcəm, – dedi. Atını sürüb bir göz qırpımında yoxa çıxdı. Elə bil yuxu idi. Sənəm nənə ilə Qafar baba gələndə artıq çoxdan uzaqlaşmışdı.

Ceyran söz ağzından qurtarmamış, yaş gözündən leysan kimi axmağa başladı. Ona təsəlli verməyə söz tapa bilmirdim. Düşünürdüm ki, gələndə Ceyranı ölmüş görsəydim, xəcalət çəkəcəkdim. Sinəmi qabağa verib, "heç kimdən qorxmuram, – deyib, qızı da, ata-anasını, da, qohum-əqrəbasını da arxayın edib evlənmişdim. Bu idimi, mənim özümə güvənməyim? Yazıq qızı iki qocanın yanında qoyub getmişdim. O da mənim qədər qorxmuşdu. Özümü ələ alıb, səsimə etinasızlıq verib dedim:

– Qorxma, heç nə olmaz, amma biz buradan mütləq getməliyik. Elə indi, gecə ikən kənddən çıxmalıyıq.

Elə bu vaxt çöldən at ayağının tappıltısı eşidildi. Yerimdən sıçrayıb tüfəngi götürdüm. Qapının arxasına keçdim. Pəncərədən həyətə boylandım. Gələn Namaz idi. Qafar babanı səsləyə-səsləyə içəri girdi. Gələn kimi sorğu-sualsız bizi yığışdırmağa başladı:

– Tez olun, Vəligil aşağıda, dərədə bizi gözləyir, – dedi.

Özü atı minib getdi. Biz isə bağın arası ilə aşağıya doğru getdik. Qaranlıqda Vəligilin qaraltısı görünürdü. Onların yanına çatan kimi bizim üçün gətirdikləri atlara minib gözdən itdik. Dikdaşın yanına çatıb nəfəsimizi dərəndə dedim:

– Sağ olun, uşaqlar, daha qayıdın, qardaşlarımın yanına gedəcəm.

Namazgil təəccüblə üzümə baxdılar, Vəli:

– Nə qardaş, əə? O hansı qardaşdır, təzə çıxdı?

– Doğru sözümdür, uşaqlar, onlar məni yeni tapıblar, yanlarına çağırırlar.

Namaz sevincək:

– Çox yaxşı. "Kor nə istər: iki göz, biri əyri, biri düz". Göstər yolu, aparaq sizi ötürək.

Vəli bu dəfə dillənmədi, Ceyrana görə çox qorxmuşdu. İndi guvənli bir yer axtarırdı. Ayrı vaxt olsa, bu fikri yaxın da qoymazdı. Mən onlara fürsət vermədim. İstəmirdim, mənim badıma getsinlər:

– Ötürmək lazım deyil, narahat olmayın.

Onlar razı olmadılar, Rzagilin doqqazına qədər gətirib bizi ötürüb qayıtdılar. Ceyranı da gətirib-gəlməyimə Rza sevindi. Bizi çox xoş qarşıladılar. Ertəsi gün qardaşlarım birləşib Rzanın məhləsi ilə İsanın məhləsinin arasında mənə yerdən qazma bir daxma qaraltdılar. Hərə öz torpaq sahəsindən mənə torpaq ayırdı. Onların bu işi məni çox kövrəltmişdi, onlara təşəkkür edib dedim:

– Mənə mal-mülk, torpaq lazım deyil, qardaşlar. Sənətkar adamam, çörək pulumu qazanmaq yerim var. Torpağınızı özünüz əkin, biçin. Mən də sizə kömək edərəm.

Onlar mənə əhəmiyyət vermədilər. Yerdən qazma olan daxmaya işıq düşmək üçün damın üstündən pəncərə qoymuşdular. Hər kəs öz evindən bir pay gətirdi. Rzanın arvadı sandıq gətirib, üstünə kilim saldı. Qiyas öz əli ilə du-

zəltdiyi taxtı gətirib daxmaya qoydu. Bir sözlə, biri tabaq gətirdi, biri duvaq, digəri də çıraq. Birləşib çırağımı yandırdılar, bura artıq mənim evim idi, çırağım yanırdı. Mənim ailəm var idi. Sevinirdim, ürəyimə arxayınlıq çökmüşdü. Ceyran burada tam təhlükəsizlikdə idi. Maşallah, burada bir qoşun adam vardı.

Mən gündəlik atı minib işimə gedir, axşam öz evimə qayıdırdım. Hər bazardan gələndə evimə aid xırda-xuruş, nə lazımdırsa, alıb gətirirdim. Bir sözlə, dolu bucağım, isti ocağım vardı.

Ceyran o qədər mehriban, işgüzar, isitiqanlıydı ki, onu burada hamı sevirdi. Demək olar ki, məhəllədə nə qədər körpə var idisə, hamısı bizim komaya dolurdu. Gecə onları bizdən zorla, ağlaya-ağlaya aparırdılar. Çox vaxt da yatıb qalırdılar. Buna çox sevinirdim. Çünki bəzən gec gəlməli olurdum. Bəzən Vəli ilə kəndlərə, haralarasa, qaçmalı olurduq. Rza mənim bu hərəkətimdən şübhələnib narahat olurdu. Xətrimə dəyəcəyindən, qorxa-qorxa deyirdi:
– Ay qardaş, dinc otur, heç kimə qoşulma. Pis zəmanədir, təzə hökumətdən ağlım bir şey kəsmir. Sənətkar adamsan, otur, papağını tik, sat. Sənin hökumət ilə nə işin var?
Mən onu axıra qədər dinləyir, sonra indiyə qədər eşidib-öyrəndiklərimi, yenilikləri Rzaya danışırdım. O da məni çox həvəslə dinləyib sual verirdi. Anlayırdım ki, artıq Rzanı öz tərəfimə çəkmişəm. Günlər keçdikcə o biri qardaşlarımı da maarifləndirdim. Mən işdən gələn kimi başıma yığılır, suallar verir, öz fikirlərini söyləyirdilər. Bir sözlə, mən təzə dəstəmdən çox razı idim, çünki onlar mənim hər

sözümə hörmətlə yanaşıb, inanıb, etibar edirdilər. Bir neçə gün bundan əvvəl başıma gələni nə Ceyrana, nə də qardaşlarıma danışdım. Danışsam, narahat olacaqdılar.

O gün dükandan çıxıb şad-xürrəm evə gəlirdim. Uşaqlara çoxlu şəkər, şirni almışdım. Yenicə kənd yoluna burulmuşdum ki, qarşıdan şıqqıltı səsi eşitdim. Başımı qaldırıb boylandım, elə həmin an güllə papağıma dəyib, papağı başımdan yerə saldı. Əclaf düz başımı nişan almışdı. Silahım üstümdə deyildi. Səs gələn tərəfə baxanda, yolun kənarındakı ağacın haçasında oturmuş, adamdan çox vəhşi heyvana oxşayan birini gördüm. Bir neçə dəqiqə hər ikimiz sakit dayandıq. Mən artıq onun kim olduğunu yəqin etmişdim. Onun məni sağ buraxacağına heç bir ümidim yox idi. Birdən o elə səslə gülməyə başladı ki, qarşımdakının insan olduğuna şübhə etdim. Şaqqıldayıb doyunca güləndən sonra dedi:

– Nə durmusan? Öldürməyəcəm səni, gəl, cəhənnəm ol, get, amma Ceyranı aparacam.

Bir xeyli tərəddüd edəndən sonra yerimdən tərpəndim. Amma hər addımımı atdıqca, güllə düz ayağımın ucundakı torpağı sovururdu. Sağ ayağımı atanda, sağ ayağımın ucuna, sol ayağımı atanda, sol ayağımın ucuna atırdı gülləni. Axır ki, məcbur olub dayandım. O, gülməkdən ölürdü. Əgər buna gülmək demək olardısa. Elə bil hansısa, vəhşi heyvan qırıq-qırıq səslər çıxardırdı. Nəhayət, birdən bağırmağa başladı:

– Cəhənnəm ol!

Özümə nifrət edirdim, bir çöl heyvanının əlində qalmışdım. Özümü toplayıb irəlilədim. Hər dəqiqə gözləyirdim güllə açılacaq, amma açılmadı. Bu vəhşidə, deyəsən, insanlıqdan nə isə qalmışdı. Oradan xeyli uzaqlaşsam da, irəliləyə bilmirdim. Papaqsız kəndə girmək istəmirdim. Ən çox da Ceyranın dərdini çəkirdim. Bu hadisəni eşitsə, qorxacaqdı. Bir qədər gözləyib, geri qayıdıb papağımı tapdım. Güllə ortasından deşik açmışdı. Toz-torpağını çırpıb başıma qoydum. Gecədən xeyli keçmiş evə qayıtdım. Səhər də durub işə lap erkən getdim ki, papağımı görən olmasın. O vaxtdan ürəyim səksəkədə idi. Ancaq hər qaranlıq gecənin bir işıqlı gündüzü var.

Bir müddətdən sonra meşələri, dağları qaçaq-quldurlardan təmizlədilər. Özləri təslim olanları azad etdilər. Ölüb-itənlər də oldu, amma qaçaq Məmmədəlidən bir xəbər yox idi. Adı nə ölənlərin arasında çəkilirdi, nə də qalanların. Ceyran isə rahatlanmışdı. O, Məmmədəlini də ölüb-itmiş bilirdi. Ona görə can-başla ev-eşik qurub, toyuq-cücə saxlayırdı. Ona inək alacağıma söz vermişdim. Anası da xəlvətcə gəlib-gedirdi. Ceyran xoşbəxt idi. Bütün bunlara sevinə bilmirdim. Ürəyimi narahatlıq didib-parçalayırdı. Hər an Məmmədəlinin nə isə bir iş törədəcəyini gözləyirdim.

O gecə evə gec gəlməli oldum. Həyətdən səs-səmir gəlmirdi, hamı çoxdan yatmışdı. Rzanın iti məni tanıyırdı, amma o da gözümə dəymirdi. Nə qədər gec gəlsəm, Ceyran məni gözləyirdi. Qapını itələyib açdım, cıraq yanmırdı. Ceyranı səslədim, cavab vermədi, ürəyim düşdü. İstə-

dim bir az qapının yanında durum, gözüm qaranlığa alışsın. Bir addım da atmaq istəyirdim ki, ayağıma nə isə dolaşdı, əvvəl geri sıçradım, sonra aşağı əyildim, Ceyran idi, buza dönmüşdü. Silkələdim, alçaqdan inildədi, gözümü zilləyib baxdım, qan-zad yox idi, yaralı deyildi. Ayaqlarım əsə-əsə gedib çırağı yandırdım. Ceyranın ağzından köpük gəlirdi. Çölə çıxıb Rzagili səslədim. Əvvəl Rza, sonra o biri qardaşlarım, arvadları iki bir, üç bir tökülüb gəldilər. Heç kimin heç nədən xəbəri yox idi. Ceyran yatanacan Qiyasgildə imiş. Hamı məəttəl qalmışdı. Gəlinlər su gətirib, üzünə su çilədilər, ovxaladılar, heç bir xeyri olmadı. Qız hərdənbir zarıyırdı. Birdən Qiyasın arvadı Şövkət çöldən tükürpədici bir səslə qışqırdı. Hamımız dönüb çölə baxdıq. Şövkət bir də qışqırdı:

– Dirəyin dibinə baxın.

Hamı çölə qaçdı, oraya baxanda o biri arvadlar da qışqırdılar. Orada bir tüklü kişi əli var idi. Biləyindən kəsilib atılmış əl.

Rza əyilib baxıb dedi:

– Təzədir, heç qanı qurumayıb. Ora-bura göz gəzdirdim, dünən bazardan alıb gətirdiyim balta dirəyin yanında düşüb qalmışdı, ağzı qanlı idi. Ceyranı yerdən götürüb çölə çıxartdım. Rzanın evinə gətirib ora uzatdım. Üzündə rəng, dodağında qan yox idi. Qızlar ovxaladıqca canlanırdı, amma gözünü açmırdı. Rzanın arvadı deyinməyə başladı:

– Daha bundan adam olan deyil.

Qiyas qışqırdı:

– Səsinizi kəsin, görək, bu nə işdir, başımıza gəlib?

Üz-gözünə su vurmaqdan yazıq qızın paltarı tamam su olmuşdu. O, yavaş-yavaş gözünü açıb boylanmağa başladı. Elə bil heç nə xatırlaya bilmirdi. Qızlar onu çağırırdılar:

– Ceyran, sənə nə olub, ay yazıq?

Mən hamıdan arxada dayanmışdım. Səlim dedi:

– Məmməd, gəl irəli keç, bəlkə səni görüb sakitləşər.

Məni qəhər boğurdu. Bir az da dindirən olsa, zorla saxladığım göz yaşlarım leysan kimi axıb töküləcəkdi. Ceyrana yaxınlaşıb udqundum. İstəyirdim, nə isə deyim, səsim çıxmırdı. Birtəhər özümü ələ alıb dedim:

– Ceyran, nə olub sənə, niyə susursan?

O, birdən-birə ağlamağa başladı. Şövkət dedi:

– Ağlasa, sakitləşəcək, qoyun, ağlasın.

Çiçək isti süd gətirib zorla içirtdi. Ceyran indi də qıpqırmızı olub, titrəməyə başladı. Yanaqları köz kimi yanırdı. Dişləri bir-birinə dəyirdi. İşıqlaşanacan əlləşib durduq. Səhərə yaxın sakitləşib yuxuya getdi. Heç nə danışmamışdı, ağzını belə açmamışdı. Ona görə nə baş verdiyini bilmirdik. Rza dönə-dönə daxmanın üstünə çıxıb, hər tərəfi gəzirdi, amma heç nə tapa bilmirdi. Ceyran gün çıxanacan yatdı. Heç kim dinib-danışmırdı. Nə bir işlə məşğul olan var idi, nə də qıza sual verən. Hamı gözləyirdi. Yenə irəli Rza düşdü, üzünü cavanlara tutub:

– Əşşi, siz niyə dayanmısınız? Bu heyvanların günahı nədir? Durun, çay qoyun, heyvanları sağın, örüşə ötürün.

Gəlinlər ayağa durub kefsiz-kefsiz işə başladılar. Evdə bir canlanma əmələ gəldi. Qapının ağzındakı alçaq kətildə

oturub mürgüləyirdim. Çiçək yanımdan keçib içəri girdi. Bir azdan Ceyranın səsi gəldi. Hamı bir-birini basa-basa içəri keçdi. Axşamdan bəri utanmaq heç kimin ağlına gəlmirdi. İçəri girən qayınlarını görən Ceyran dikəlib oturmaq istədi. Rzagil tez dönüb çölə çıxdılar. Mən də çıxmaq istəyəndə Səlim dedi:

– Sən qayıt, gör, nə söyləyir.

Ceyran indi sapsarı olmuşdu. Alçaqdan udquna-udquna danışırdı. Səsi titrəyir, gözləri dolurdu. Dediyinə görə, mənim gec gəldiyimi görüb, çırağın işığını azaldıb yerinə uzanıb. Yenicə mürgüləyirmiş ki, damın üstündən tappıltı gəldiyini eşidir. Sonra hənirti duyur, pıçıltıya bənzər səslər eşidir. Yerindən qalxıb oturur, mənim gəldiyimi zənn edir. Diqqətlə dinləyəndən sonra anlayır ki, bu səs, nə isə, ayrı səsdir. Elə bu vaxt damın üstünə qoyulmuş aynanın götürüldüyünü oradan kiminsə aşağı düşmək istədiyini görür. Yerindən sıçrayıb baltanı götürür, dirəyin dibində hazır durur. Dirəkdən bir tüklü əl tutduğunu görüb qorxulu-qorxulu balta ilə vurur. Tək bir şey xatırlayırdı, yerə düşmüş əl yerdə sıçrayırmış, sonrası yadına gəlmirdi. Yəqin elə çöl dirəyin dibinə də əli o tullayıbmış. Bu hadisədən sonra uzun müddət yataqdan qalxa bilmədi.

Qaçaqlar haqqında şayiələr günü-gündən artırdı. Deyilənə görə, guya şura hökuməti qaçaqları aldadıb, onlara azadlıq verəcəyini vəd edib, üzə çıxmaqlarını tələb edib. Bunlar da inanıb gediblər. Çatan kimi Məmmədəlinin sağ əlini baltanın altına qoyub kəsiblər. Guya onu çöldə gözlə-

yən yoldaşları, hadisəni belə görəndə içəri basqın edib, Məmmədəlini götürüb aradan çıxıblar.

Daha evə gec gəlmirdim, qardaşlarım da mən gələnəcən dinclik tapa bilmirdilər. Ceyran, demək olar ki, əməllicə xəstə idi. Əli işə yatmırdı, tez-tez qızdırması qalxır, sayıqlayır, ağlayırdı. Birdən dəhşətlə qışqırıb yerə yıxılırdı. Ceyranın vəziyyəti məni narahat edirdi. Gülsüm xala tez-tez gəlirdi. Gəlinlər sağ olsunlar, əllərindən gələni edirdilər. Amma hər şey mənasız idi. Bir gün gələndə özümdən uydurdum ki, Məmmədəlini tutublar, dəstəsindən bir nəfər də qalmayıb, hamısını güllələyiblər. Elə bildim, bu xəbərlə Ceyranın sümüklərinə hopmuş qorxunu canından çıxara biləcəm. Əvvəla, xəbər yalan olduğu kimi, inandırıcı da olmadı. Amma uydurduğum yalandan heç bir həftə keçməmiş, doğrudan, Məmmədəligilin dəstəsi tutuldu, xəbər kəndə yayıldı. Bu axşam Ceyranda dəyişiklik hiss etdim. Rəngi-ruhu azca özünə gəlmişdi. Gözünün dərinliyində kədər gördüm, sevindim. Çünki axır vaxtlar onun üzündə nə kədər var idi, nə sevinc. Təkcə gözündə gəzən vahimədən başqa, heç nə görmürdüm. Yazıq qızın boş, mənasız gözləri canlanmışdı. Hətta yanıma özü gəlib söhbətə başladı:

– Sən deyəndə, inanmırdım. Məmmədəligili öldürüblər, – dedi. Özüm də bilmədən təəccüblə soruşdum:

– Kim deyir, nə vaxt?

O, sözünə davam etdi:

– Anam gəlmişdi, deyir ki, onların tutulmağına səbəb bizim kəndçimiz Göyüş kişinin oğlu olub. Mirzə gündüz

evdə olurmuş, gecələr qaçaqların yanına gedib, onlara qoşulub oğurluğa, basqına gedirmiş. Kişi oğlunun evinə gətirdiyi sovqatlardan şübhələnib, oğlunun oğru olduğunu başa düşür. Dəfələrlə oğlunu bu çirkin yoldan çəkindirmək istəsə də, heç bir xeyri olmayıb. Bir neçə gün bundan əvvəl onun cəsədini yuxarı kəndlərin birində, kiçik bir körpünün üstündən tapırlar. Güllə qarnına dəyibmiş. Qanın izi ilə gedib dəyirmançının evinə çıxıblar. Məlum olur ki, Mirzə burada vurulub. Həmin gecə dəyirmançı evdə olmayıb. Kəndlilər də şahid durublar ki, bu gecə səhərəcən dəyirmançı dəyirmanda olub, un üyüdüb. Evdə arvadı, uşağı və qoca anası olub. Qoca qarı şər vaxtı qoz ağacının altındakı quyudan su gətirməyə gedəndə ağaca söykənmiş, əlitüfəngli bir adamın suya düşmüş şəklini görür. Əyilib suyu götürüb, deyinə-deyinə evə qayıdır. Guya suya gücü çatmadığına, öz qocalığına deyinir. Evə çatar-çatmaz, qapını dalından bağlayıb çırağı söndürür. Gəlinə, uşağa deyir ki, heç nə yoxdur, özüm elə-belə çölə güllə atıram. Qarının ağacın altını nişan alıb atdığı güllə Mirzənin qarnına dəyir.Yaralı qanı axa-axa arxın qırağınacan gəlir. Orada körpünün üstündə ölüb qalır. Qarı gördüklərini və qorxub güllə atdığını söyləyir. Səs-soraq Göyüş kişiyə çatır, araba gətirib oğlunun cənazəsini aparmağa gəlir. Qarı Göyüşün uzaq qohumu imiş. O kişini görəndə ağlayır, özünə qarğış edir, – əllərim qurusun, – deyir. – Mən qorxutmaq istədim. Nə bilim, güllə gedib dəyəcək?! Kişi sakitcə qarıya yaxınlaşıb, əlindən öpüb deyir: "Ay camaat, məni qınamayın, övladımı öldürən əllərdən öpürəm. Çün-

ki oğlum yolunu azmışdı. Çox dedim, az eşitdi. Bu gecə gördüm yenə silah götürüb getməyə hazırlaşır, yalvardım, getmə, – dedim. Anası yalvardı, ağladı, ocağımıza haram qatma,– dedi. Doqqazacan dalınca getdim. Oğurluq edib mənim evimə gəlmə, – dedim. Nə tapsan, apar, dostlarınla ye. Mən sənə sabah ehsan verəcəm. Qəbiristanlıqda başdaşı qoyub üstünə anadan olduğun günü, bir də sabahkı günü yazacam. Çünki sabahdan mənim üçün yoxsan. – Üzümə istehza ilə baxıb getdi. Amma gözümə yuxu getmədi. Başdaşı gözümün qabağından getmirdi".

Kişi bunları deyib, oğlunun cəsədini götürüb gedir. Mirzənin dəfnindən bir gün sonra isə, gedib Məmmədəligilin dəstəsinin yerini təzə hökumətə satır. Onları təslim etməyə böyük bir dəstə gedir. Qaçaqlar təslim olmayıb vuruşurlar. Çoxu, elə Məmmədəli də oradaca ölüb. Ceyran sözünü bitirib üzümə baxdı.

"Su səhəngi suda sınar", – bu iş əvvəl-axır belə qurtarmalı idi. Bu qədəri o özü seçmişdi özünə. Düzdür, insan ölümünə sevinməzlər. Mən sevinirdim. Ceyrana görə, onun söhbət etməyinə, kədərlənməyinə sevinirdim. Demək, kədərləndiyi kimi, sevinəcəkdi də. Onun ölümünə hər kəs sevinirdi. Əslində burada onunla heç kəsin düşmənçiliyi yox idi, hər kəs bizə görə şad olmuşdu.

Kəndlərdə vəziyyət günü-gündən dəyişirdi. Hər şey yaxşılığa doğru gedirdi. Məktəblər açılır, hər kəs kurslara yazılmağa çalışırdı. Hamı oxumaq-yazmaq, öyrənmək istəyirdi. Mən onlara baxanda oxumuş sayılırdım. Vəliyə minnətdar idim. Mənə o qədər iş tapşırırdılar ki, heç bazara getməyə, dükanımı açmağa vaxtım olmurdu. Köhnə qə-

zalar ləğv olunub rayon adlanırdı. Tovuzun adı da ki, həmişə dillər əzbəriydi. Kənddə oxumağı-yazmağı bilən olmadığı üçün iki-üç vəzifəni mən daşımalı olmuşdum. Demək olar ki, üzərimə düşən bütün işlərin öhdəsindən müvəffəqiyyətlə gəlirdim. Yəni belə deyirdilər, məndən razı idilər. Hər yerə məni çağırırdılar. Kənddə nə vaxt hər şeyi bilən, hər şeyi bacaran adam kimi məşhurlaşmışdım, bilmirəm. Kim, nə olsa, məndən soruşardı. Qardaşlarım mənimlə fəxr edirdilər. Məni rayona cağırmışdılar, düşünürdüm ki, təhsilim olmadığı üçün işlərimi əlimdən alacaqlar. Əksinə, digər işləri də mənə tapşırdılar. Ancaq mütləq oxumalı olduğumu dedilər. Sevindim, xoşbəxt idim. Qardaşlarımın məhəlləsindən ayrılıb məhəllə almışdım. Onlar ayrılıb getməyimi istəməsələr də, ayrıldım. – Ömrüm boyu sizə minnətdaram, – dedim. – Elə bir vaxtımda mənə qapı açdınız ki, heç vaxt unutmaram. Evimizin ayrılmağı özümüzün ayrılmağı demək deyil ki...

Əvvəl gecə kurslarına gedib, orta məktəbi, sonra qiyabi natamam ali təhsil aldım. Kəndimizdən qatar keçirdi. Qatardan mənim qırmızı kirəmitli evim görsənirdi. Mən qatara minib institutda oxumaq üçün şəhərə gedəndə evimə baxaraq düşünürdüm: “Doğrudanmı, mən bütün çətinlikləri adlayıb keçdim, həyatda qaldım, yaşadım?” Hər tərəfdən mənim evim görünürdü. Çünki hamının evindən uca və böyük idi.

## EPİLOQ

Üç gün bundan əvvəl, ağ eyvanlı, mərmər çarhovuzlu, güllü-çiçəkli həyət-bacama baxıb, o vaxtdan bəri bir dəfə olsun, pis gün görmədiyimi düşünürdüm. Bu illər ərzində bacardığım qədər hamıya kömək etdim. Nə qədər yüksək məqama çatsam da, nə qədər hörmət-izzət sahibi olsam da, daxilimdə bir boynubükük, yatmağa yeri olmayan, yetim Məmməd var idi. Və mən onu daxilimdən çıxarmaq istəmirdim. Gördüyüm yuxunu da onunla gördüm. Mürgüləyirdim, yuxumda atamın əmisi oğlu Qaranı gördüm. Qara əmim deyirdi:

– Məmməd, hazırlaş, üç gündən sonra, saat üçün yarısında gəlib səni aparacam.

Yerimdən dik sıçradım. Həyətə çıxıb Ceyranı səslədim: "uşaqlara xəbər et, gəlsinlər", – dedim. Bir saatdan sonra uşaqlar başıma toplaşıb, mənim nə deyəcəyimi gözləyirdilər. Hazırlığa başlatdım, çünki rəhmətlik Qara əmimə inanırdım. Uşaqlar elə bilirdilər ki, yenə də həmişəki kimi yetim uşaqları yığıb sünnət etməyə hazırlaşıram. Təkcə Ceyranla mən bilirdim, qurulan çadır nə çadırdır, nəyə hazırlaşırıq.

# QONŞU QIZ
## (Povest)

Sənubər birdən-birə deyilmiş "çatdıq" sözündən diksindi. Ürəyinin döyüntüsü artdı. Ona elə gəldi ki, dibi görünməyən dərin bir quyunun kənarına catmaqdadır. Və bir addım da atsa, əbədi bu quyuya düşüb məhv olacaq. Bu bir, ikinci addımı atsınmı? Yoxsa, geriyəmi dönsün? Əgər qarşıda uçurum var idisə, arxada da çirkab var idi, əsl çirkab. Sənubər gözünü açıb bu çirkabda böyümüşdü. O, özünə də, ata-anasına da, kifir, yöndəmsiz bacılarına da nifrət edirdi. Hələ körpəlikdən ata-anasının qışqırıb-bağırmağına qulağı alışmışdı. Ümumiyyətlə, atasının ayıq vaxtı yadına gəlmirdi. Həmişə kefli olur, dava-dalaş salır, ən pis söyüşləri adi söz kimi yağdırırdı. Lap elə ayıq olsa da, ifadəsi çoxdan itmiş gözləri ilə ətrafındakıları süzüb, nə isə donquldayardı. Atası anasının ünvanına elə sözlər yağdırardı ki, Sənubər həftələrlə anasının üzünə baxa bilmirdi. Bəlkə də, o sözlərin heç biri düz deyildi. Evdə yan-yana düzülmüş dörd bacıdan birinə elçi gəlib qapılarını döyən olmamışdı. Qohum-qonşuda gündə bir toy olurdu. Qızlar pərvazlanıb bir-bir uçurdular. Elçilik, nişan, xınayaxdı, toy, nə bilim, min bir büsat olurdu. Haradan xoş avaz gəlsə də, Sənubərgilin evindən dava-dalaş, söyüş-səsləri eşidilirdi. Evdə elə qab, qazan, vedrə yox idi ki, davada əzik-üzük kökə düşməsin. Kim idi onlara elçi gələn? Belə bir ailədən kim qız istəyərdi?

Sənubər beş bacının kiçiyi idi. Böyük bacıları çoxdan otuz yaşını haqlamışdı. Evdəki ab-hava bir yana, qızların dördü də elə kifir idi ki, onlara baxanda Sənubərin zəhləsi gedirdi, qalmışdı başqası. Deyilənə görə, Sənubər qəşəng idi, amma bunu o özü görmürdü, çünki güzgüyə baxanda, nimdaş paltarlı, kədərli gözü olan bir qız görürdü. Ona elə gəlirdi ki, kədərli gözdə gözəllik ola bilməz. Gözəllik xoşbəxt sifətdə, sevinən gözdə olar. Ona görə də güzgüyə baxmağı sevmirdi. Bir də ki, güzgüyə baxmağa vaxtı harada idi? Səhər tezdən, saat beşdən anasının qışqırtısına oyanar, tələm-tələsik özünü qaz piltəsinin qabağına çatdırardı. Anasının axşamdan yoğurub-qoyduğu xəmiri kündələyib, "pirojki" bişirirdi. Sənubər səhərdən-axşama kimi qaz piltəsinin qabağında dayanmağa razı idi, nəinki yolda dayanıb "pirojki" satmağa. Pis baxışlardan, söz atanlardan canını zorla qurtarıb özünü evə salardı.

Artıq iki-üç ay olardı ki, qarayanız bir oğlanın onun ətrafında fırlanmağı Sənubərin gözündən yayınmırdı. Hər gələndə "pirojki" almasa da, bir kənarda dayanıb, siqaret çəkərdi. Gözünü Sənubərdən çəkmir, elə hey, qıza tərəf boylanırdı. Sənubər əvvəl ona əhəmiyyət verməsə də, sonralar onu görməyəndə narahat olmağa başladı. Gələn kimi gözü ilə oğlanı axtarar, haradasa, ətrafda olduğunu görəndə içinə rahatlıq çökərdi. Bir həftə bundan əvvəl oğlan Sənubərə yaxınlaşıb ondan xoşu gəldiyini və fikri ciddi olduğunu, onunla evlənmək istədiyini söyləmişdi. Sənubər bu sözlərin ətrafında fikirləşməyə macal tapmamış, bir də peyda olub, əgər o da razıdırsa, şənbə günü, axşam onu

Maşeşin budkasının yanında gözləyəcəyini demişdi. Belə hörmətsiz ailə qurmaq təklifinə Sənubərin əvvəl çox acığı tutmuşdu, "belə ailə qurmaqmı, olar?" – deyə düşünmüşdü. Bir-birinin adını da bilmirdilər. Sonra istədi bunu kiməsə danışsın, amma ağlı bir şey kəsmədiyi üçün bu sirri özü ilə gəzdirdi, gəzdirdi və elə özü ilə gətirib, şənbə günü Maşeşin budkasının yanına gəldi. Sənubər qəpik-qəpik yığıb aldığı bir az gözəgəlimli paltarda idi. Oğlan orada dayanıb siqaret çəkirdi. Hər halından bəlli idi ki, Sənubərin mütləq gələcəyinə inanır. Qızı görəndə əlindəki siqareti yerə atıb "gedək", – dedi. Sənubər oğlanın yanına düşüb maşınsız, filansız, piyada yola düşdü. Özünün əmrə müntəzir halına acığı tutsa da, addımlayırdı. Elə bil harasa getmir, sadəcə, yuxuda irəliyə doğru hərəkət edirdi. Yolboyu bir kəlmə olsun, danışmadılar. İndi birdən deyilmiş "çatdıq" sözündən diksindi.

Elə bil yuxudan ayıldı, "hara çatdıq? Bu oğlan kimdir? Adını bilmədiyim bu adamın məni sevdiyinə niyə inanmalıyam?" Beynində fikirlər bir-birinə qarışdı. Durmadan özü-özünə suallar yağdırırdı. "Bəlkə bu oğlan məni küçə qızı sanıb, aldadıb gətirib? Bəlkə heç valideynləri mənimlə ailə qurmağına razı deyil? Bəlkə məni görən kimi qovacaqlar?.." Suallar artdıqca, əl-ayağı keyləşib buza dönürdü. Bir-iki addım da atıb özünü uçuruma atsınmı? Yoxsa, elə buradanca, fırlanıb evinəmi qayıtsın? Evləri gözünün önünə gələndə ürəyi bulandı. Oğlan qarşısında dayandığı kiçik taxta qapılı mənzilin qapısını bir əli ilə itələyib açdı, o biri əli ilə qızın qoluna zərifcə toxunub: "keç", – dedi.

Sənubər bilmədi içəri özümü keçib, yoxsa, itələyibmi salıblar, axır ki, gözünü açanda ensiz, dar dəhlizdə oğlanla üzbəüz qaldığını gördü. Oğlan içəri boylandı. Mətbəxdən dadlı yemək ətri və su şırıltısı səsi gəlirdi. Kimsə şapşaplarını sürüyə-sürüyə dəhlizə tərəf gəlirdi. Sənubər, əvvəlcə, evdə kiminsə olduğuna görə sevindi, sonra gələn adam hər kimdirsə, onu qovacağından qorxub dəhlizdəki asılqanın arxasına keçməyə çalışdı. Gözlərini yumdu, qulağında küt uğultu əmələ gəldi. Ona bu müddət çox uzun göründü. Ona elə gəlirdi ki, bir saatdır gözünü yumub, qaranlıqda dayanıb. Qulağına qadın səsi gəldi. Kimsə biləyindən tutub içəri çəkirdi və nə isə, xoş söz deyirdi. Gözlərini açıb, qarşısında ağsaçlı, xəstəhal, nurani bir qadının maraqla ona baxdığını gördü. Sənubər sifətindən nur yağan bir qadını görüb özünə gəldi. Qadın Sənubəri öpüb, "xoş gəlmisən, ay qızım", – dedi.

Arif Sənubəri gecə növbəsindən gələndə görmüşdü. Anası xəstə olduğu üçün işdən icazə alıb evə qayıdırdı. Gecəni səhərəcən yatmamışdı. Anasına təcili yardım çağırıb, səhərəcən qarının yanında oturmuşdu. Dünən günorta yediyi yemək idi, acından ölürdü. Lap yaxınlıqda kiçik kətilin üzərinə "pirojki" qoyub satan qızı görəndə, nədənsə, ürəyi silkələndi. Yağışlı, palçıqlı payız axşamında bu qız ona qəribə təsir bağışladı. Elə bil ətraf yarımqaranlıq, toran idi, amma nimdaş paltarlı bir qızın sifəti işıq saçırdı. Bayaqdan üşüyən Arifin qəlbinə haradansa, ılıq, isti bir duyğu dolur, bədəninə yayılırdı. O, qıza yaxınlaşıb "pirojki" aldı. Arif qızın üzünə nə qədər baxsa da, qız başını qal-

dırıb onun üzünə baxmadı. Arif o gündən yolunu bu küçədən saldı. Həmin yerdə o qız çox nadir halda olurdu. Əksəriyyət vaxt "pirojki"ləri hündür boylu, kök bir qadın satırdı. Zaman keçdikcə Arif bu qadının Sənubərin anası olduğunu öyrəndi. Sənubəri gördüyü gündən bir ilə yaxın bir vaxt keçirdi. Arif bu müddət ərzində Sənubərin və ailəsinin haqqında çox məlumat toplamışdı. Bu ailədə ürəkaçan heç nə yox idi. Evləri elə "pirojki" satdıqları küçədə – beşmərtəbəli binanın birinci mərtəbəsində yerləşirdi. Atası hər axşam evinə sərxoş gəlir, yolboyu kimlərisə söyürdü. Evə çatar-çatmaz, evdən qışqırıq, söyüş səsləri, yerə çırpılan qab-qacağın cingiltisi ətrafa yayılırdı.

Arif bütün bunları bilə-bilə fikrindən dönə bilmirdi. Hər dəfə Sənubərgilin evinin ətrafına gələndə elə bir hadisə ilə üzləşirdi ki, iki-üç gün özünə gələ bilmirdi. Axırıncı dəfə Sənubərin anasının küçədə bir qadınla davasını görüb: "Mən belə bir qadını anama göstərib, bu qadının qızı ilə ailə qurmaq istəyirəm, deyə bilmərəm", – deyə düşündü. Ariflə Sənubər eyni məhəllədə, lakin bir qədər aralı yaşayırdı. Burada, demək olar ki, hamı bir-birini tanıyırdı. "Pirojki" satan Səfanı da hamı tanıyırdı, sərxoş olub küçələrdə yatan Əzizi də. Arif o ailədən olan bir qızı dəlicəsinə sevdiyini anasına necə deyəcəyi haqda günlərlə düşünürdü. Bəzən bu fikirdən vaz keçmək istəyirdi. Lakin keçə bilmirdi ki, bilmirdi.

Arif atasının üzünü görməmişdi. Gözəl onu təkcə böyüdüb-ərsəyə gətirmişdi. O, artıq institutda oxuyur, gecə növbəsində işləyirdi. Gözəl bacardıqca Arifə atasızlığını

hiss etdirməmişdi. Gözəl istəyirdi ki, Arif atasını görməsə də, onun necə bir insan olduğunu bilsin. Odur ki, gecələr nağıl əvəzinə, ona atası Vaqifdən, onun saflığından, dürüstlüyündən, kişiliyindən, düz sözlü, düz ilqarlı olduğundan danışır və bütün insani keyfiyyətlərdən damla-damla oğlunun qanına, canına hopdurmağa çalışırdı. Arif bu nağılları dəfələrlə eşitdiyi üçün atasının xəyalını gözünün önündə canlandırır, özündən atası ilə birlikdə olmuş kimi xəyallar uydururdu. Xəyallara elə inanırdı ki, sonralar bu uydurduqlarını xəyal kimi deyil, olmuş hadisə kimi xatırlayırdı.

İndi Arif atasını da yadına salır, "onun belə bir ailənin qızı ilə ailə qurmağıma razı olmazdı deyə", – düşünürdü. Lakin nə düşünür- düşünsün, fikrindən dönə bilmirdi və bir axşam anasına Sənubərlə ailə qurmaq istədiyini bildirdi. Sənubər və ailəsi haqqında nə bilirdisə, danışdı. Həvəslə oğlunun evlənəcəyi günü gözləyən Gözəlin nitqi qurudu, sevinclə təəccüb bir-birinə qarışdı. Gözündən axmağa hazır olan göz yaşı donub gözündə qaldı. Xeyli nə deyəcəyini bilmədi. Gözəl oğluna, ona verdiyi tərbiyəyə görə güvənirdi. Onun özünə yaxşı bir həyat yoldaşı seçəcəyinə inanırdı. O, Səfanı, onun ailəsini yaxşı tanıyırdı. Arif belə bir ailənin qızı ilə evlənməyə necə qərar vermişdi? Gözəl qulağına inanmadı:

– Necə yəni, evlənmək istəyirəm? Sən nə danışdığını başa düşürsənmi?

Arif anasının sualına sualla cavab verdi:

– Ana, sən qüvvəli olarsan, yoxsa, mən? Mən özümlə bacara bilmədim. Sən mənə verəcəyin bütün sualları mən özümə verdim. Mənə verəcəyin bütün nəsihətləri özümə etdim. Lakin heç nəyə nail ola bilmədim. Bu fikirdən daşına bilmədim.

Gözəl bu iyirmi iki ildə bir dəfə olsun, oğluna səsini qaldırmamışdı, nə də ki, Arif ona cavab qaytarmamışdı. İndi ikisi də susdu. Elə bil heç kim danışmağa cürət etmirdi. Uzun sürən sükutdan sonra Gözəl: – Mən o qapıya gedən deyiləm, heç kimə də "oraya get" deyə bilmərəm, – deyib ayağa durdu. Bir qədər susub sözünə davam etdi: – Demək, bu illər ərzində sənə, necə bir kişinin övladı olduğunu başa sala bilməmişəm. Mən o qızı sənə almaqla Vaqifin ruhuna hörmətsizlik etmiş olaram, – deyib öz otağına keçdi.

Aradan bir aya yaxın bir vaxt keçdi. Arifin bir də o mövzuya qayıtmadığını görüb Gözəl sakitləşdi. Oğlunun fikrindən dönmüş olduğunu fikirləşdi. Lakin onun ürəyinə çökmüş bu rahatlığın ömrü uzun çəkmədi. Bir həftə bundan əvvəl Arif Sənubərə evlənmə təklifi etdiyini söyləyəndə Gözəlin boğazı qurumuşdu. Gah inanmışdı, gah da Arifin onu sınadığını düşünmüşdü. Oğluna heç nə deməyib ürəyindəki sonuncu arzunu da, onun evlənmə xəbərini eşidəndə gözlərində donan yaş kimi dondurub, nə olacağını gözlədi. Arif, nəhayət, dediyini etdi: Sənubəri götürüb evə gətirdi. Gözəl dəhlizdə onları görəndə heç nə deyə bilmədi. Nədənsə, asılqanın arxasına gizlənməyə çalışan ürkək qıza yazığı gəldi. Onun əlindən tutub otağa keçirdi.

Ona oturmaq üçün yer təklif edib mətbəxə keçdi. Arif yan otağa keçib, orada nə isə axtarır, anasını səsləyirdi. Sənubər otaqda tək qalıb ətrafa nəzər saldı. Çox da böyük olmayan otaqda divan-kreslodan başqa, divar boyu kitab rəfi asılmışdı. Rəflərin hər birinin üzərinə masanın üzərinə salınmış örtüklə dəst olan üçbucaq örtüklər salınmasa, bura otaqdan çox, kitabxanaya bənzəyərdi. Otaqda hər yerə salınmış ağ, üstü yaşıl çiçəkli örtüklər otağa qəribə qədimilik verir, bir rahatlıq yaradırdı. Sənubər bu irili-xırdalı, eyni çeşiddə toxunmuş örtüklərin ev sahibəsinin əl işləri olduğunu düşünürdü. Arif əlində kağız içəri girəndə bir anlıq həyəcanlanıb narahat oldu. O, əlindəki kağızı Sənubərə uzadıb:

– Al, valideynlərinə yaz, ailə qurduğunu bildir, – dedi. – Qoy, narahat olmasınlar. Sabah gedib evlənmək üçün ərizə yazarıq.

Bir azdan Gözəlin açdığı süfrənin ətrafına yığılıb yemək yedilər. Süfrə ətrafında heç kim danışmadı. Sənubər hələ ömründə belə dadlı yemək yeməmişdi. Gözəl süfrəni yığmaq üçün ayağa duranda Sənubərin ona kömək etməyinə mane olmadı. Qız bir az rahatlanmışdı. Arifin verdiyi kağız-qələmi götürüb anasına kağız yazdı. Oğlan qonşudan uşaq tapıb məktubu Səfaya göndərdi. Heç aradan bir saat keçməmiş, Səfa onların qapısını dabanından çıxardırdı. Gözəl çölə çıxıb Səfanı içəri dəvət etmək istəsə də, mümkün olmadı. Səfanın səsi bütün məhəlləni başına götürmüşdü. Elə bil o, var qüvvəsi ilə çalışırdı ki, hər kəs eşitsin, Səfanın qızını Gözəlin oğlu qaçırdıb. Gözəli hamı

tanıyırdı. O, uşaq həkimi idi. Bu məhəllədə elə adam yox idi ki, Gözəl onun uşağına yardım etməsin. Ən çox da, imkansızlara öz dərmanları ilə yardım edirdi. Gözəlin dəfələrlə yardım etdiyi adamlardan biri də Səfa idi. Səfa uşaqları körpə olanda özünü Gözəlin üstünə salardı. Gözəl Səfaya dərman yazmazdı, dərman alardı, çünki, bilirdi, dərmanı almayacaq. İndi Səfa, elə bil Gözəli tanımırdı. Gözəl dayanıb ona baxır, nə vaxt susacağını gözləyirdi. Əslində o, qızının Gözəlin oğluna qoşulub qaçdığını biləndə sevindi, burada göstərdiyi isə səhnə idi. O, yenidən qışqırmağa başlayanda Gözəl içəri keçib qapını örtdü. Əvəzində çölə Sənubər çıxıb anasından getməsini tələb etdi. Səfa gedəndən sonra evə sükut yox, hüzn çökdü. Gözəl Sənubəri görəndə ürəyi yumşalmışdı. Qızın yaraşıqlı sifəti, mütənasib bədəni, uca boyu, sakit görünüşü ürəyinə yatmışdı. Özözlüyündə qız götürüb qaçmaq dədə-babadan qalma adətimiz olduğunu düşünüb, Arifə toy etmək arzusunu həyata keçirmək qərarına gəlməyi ilə, bu fikirdən birdəfəlik daşınmasının arası bir dəqiqə çəkmədi. Səfanın bu hallarını görəndə bu arzunun üstündən birdəfəlik xətt çəkdi.
Beləcə, Arif Sənubərlə sakitcə kəbin kəsdirib, toysuz, mərasimsiz evləndi. Ailəlik həyatlarına necə sönük başladılarsa, beləcə də, davam etdilər. Bu evliliyin Arifə xoşbəxtlik gətirib-gətirmədiyini özü də bilmirdi. Günlərlə xəyalından çıxmayan bu qızla heç bir ortaq nöqtəsi yox idi. Sənubərdən ilk günlər Gözəl narazı deyildi. O, çox təmizkar, səliqəli idi. Yaxşı yemək bişirmək bacarmırdı, sonralar onu da öyrəndi. Zaman keçdikcə, evin hər işini öz əlinə al-

dı. Lakin məsələ iş-gücdə deyildi. Sənubər bu evə özü ilə buz kimi bir soyuqluq gətirmişdi. Gözələ elə gəlirdi ki, bu soyuqluq evin divarlarına çöküb. Qızın süst, kədərli halını gördükcə Arif buna səbəb axtarırdı. O da, anası da Sənubərlə yaxşı davranır, hörmətlə yanaşır, nə ilə isə onun könlünü şad etmək istəsələr də, heç nə alınmırdı.

Arifin işləri günü-gündən yaxşılaşırdı. İşlədiyi zavodda özünə çox gözəl hörmət qazanmışdı. İş bacarığına və savadına görə institutu bitirən kimi zavodda mühəndis vəzifəsinə təyin olundu. Gözəl həyatının mənası olan Arifin hər addımına qiymət verir, hər uğuruna sevinirdi. Arif bu hala vərdiş etmişdi. Sənubərin ona qarşı belə etinasızlığına məyus olur, qanı qaralırdı. Arif işdən böyük həvəslə gəlir, qazandığı uğurdan danışır, verdiyi layihənin zavoda gətirdiyi mənfəətdən danışır, Sənubərin ona qulaq asmayıb, yan otağa keçdiyini görüb, təəccüb edirdi. Get-gedə, istər yaxşı iş olsun, istərsə də, pis işdən danışmaq həvəsi öldü. O, daima Sənubərin üzündəki narazılıq ifadəsi haqqında düşünürdü: "Görəsən, bu qız nə istəyir? Nədən narazıdır?"

Nəhayət, Gözəllə məsləhətləşib, Sənubərin ailəsindən ötrü darıxdığından belə olduğuna qərar verdi. O, yaxşı başa düşürdü ki, Sənubər öz ailələri ilə Arifgilin ailəsinin yaşam tərzinin dağ ilə aran qədər fərqi olduğunu bildiyi üçün onları bir araya gətirmək haqqında düşünmür. Elə həmin gün naharda hər ikisi Sənubərə: "Nə üçün ailənə baş çəkməyə getmirsən?" – deyə müraciət etdilər. Ertəsi gün Sənubər yeməyi hazırlayıb atası evinə getdi. O gün-

dən etibarən, Sənubər vaxtaşırı atası evinə gedirdi və nisbətən özünə gəlmişdi. Onların ailələri arasındakı fərq varlı-kasıb fərqi deyildi. Əslində Arifgil də kasıb ailə idilər. Gözəl insanlara fərq qoymağı sevməzdi.

Sadəcə, bu ailələr çox fərqli ailələr idi. Bir gün Sənubər yenə atası evinə getmişdi. Ora çatar-çatmaz, elə bir qalmaqalla rastlaşdı ki, məcbur olub Arifi çağırmalı oldu. O, içəri girəndə evlərində bir dəstə milis var idi. Ağız deyəni qulaq eşitmirdi. Üzbəüz evdə yaşayan Reyhan milislə gəlib, Sənubərin bacısı Dürdanənin onun evindən qızıl oğurladığını iddia edirdi. Dürdanə Reyhanın evinə tez-tez gedib-gəlirmiş. Yaxın rəfiqə olmasalar da, aralarında bir ünsiyyət var idi. Bu səhər də Dürdanə Reyhangilə telefonla danışmağa keçibmiş. Cəmi on beş, iyirmi dəqiqədən sonra, danışıb geri qayıdır. Bir azdan Reyhan haray-qışqırıqla içəri girib Dürdanədən qızıllarını tələb edir, – sən götürmüsən, – deyir. – Səndən başqa bizim evə gələn olmayıb.

Dürdanə boynuna almır, üstəlik, Reyhanın üstünə hücum çəkir, az qalır ki, qadını döysün. Reyhan da evdən çıxır, milislə geri dönür. O, Dürdanə içəri girənəcən, qızıl qutusunun güzgünün qarşısında olduğunu söyləyirdi. Arif elə vaxt gəlib çıxdı ki, Dürdanə ilə Reyhan yenidən saçyolmasına başlamışdı. Arif otağa keçib Səfanı çağırdı. Bir xeyli deyişmədən sonra əlində qızıl qutusu geri döndü. Qutunu Reyhana verib qadını sakitləşdirdi. Sonra Reyhandan xahiş etdi ki, şikayətini geri götürsün. Reyhan qızıllarını alıb: – qurban olun, bu oğlana, – deyib şikayətini geri götürdü.

Arif onlardan çıxıb işə qayıtmaq istəyirdi, qapının ağzına yığılan adamları görüb utandı. Onların yanından keçəndə qulağının dibinəcən qıpqırmızı qızardı. Düşündü ki, deyəsən, mən Sənubəri çirkabdan qurtarmaq əvəzinə, özüm də ora düşəcəm.

Xəbər Gözələ çatanda xəcalət çəkdi. Qadına elə gəldi, oğurluğu Dürdanə deyil, özü edib. Məhəllədən bu söz-söhbət yaddan çıxmayana qədər evdən çölə cıxmayacağına söz verdi. Gözəl axşam evə qanıqara gələn Arifi görəndə, xəcalət çəkdiyini söyləyəndə, Arif anasının sözünü ağzında qoyub: – Kasıbdır də, ay ana, – dedi. – Ata, ana , bacı, qardaş bazarda satılmır ki, Sənubər gedib yaxşısını alsın. Nə etsin?

Oğlunun cavabına Gözəl mat qaldı: – Kasıb olanda adam qonşuya oğurluğamı gedər? – deyib otağına keçdi.

Bu hadisə Ariflə Sənubərin arasındakı soyuqluğu daha da artırdı. Sənubər gözə görünməməyə çalışsa da, üzündəki soyuq ifadənin yerini sərt bir ifadə tutdu. Evlərində yaranan uzunmüddətli qanıqaraçılığı aradan yeni xəbər götürdü... Sənubərin hamilə olduğunu eşidən Gözəllə Arifin sevincinin həddi-hüdudu yox idi. Gözəl o qədər sevindi ki, hər şey yadından çıxdı. O, yaxşı bir süfrə açıb bu şad xəbəri bayram etmək istəyirdi. Arif də anası ilə razılaşdı. Ailə qurandan bir dəfə olsun, süfrə açıb bir şadlıq etməmişdilər. Bu fikrin Sənubərin xoşuna gələcəyini düşünüb ona: "Bütün ailə üzvlərini dəvət et", – dedi. Ana-bala həvəslə qonaqlığa hazırlaşdı. Arif dükana, bazara qaçır, əlinə

keçəni alıb gətirirdi. Gözəl işin çoxunu özü görür, Sənubəri çox da ağır iş görməyə qoymurdu.

Qonaqlar vaxtında gəldilər. Onların zahiri görünüşlərini görən Gözəl qanını qaraltmamağa çalışdı. Oğlunun belə şad günündə kefsizləşmək istəmirdi. Yaxşı ki, Sənubər bacılarına bənzəmirdi. Gözəl onları uşaq vaxtı gördüyü idi.

Gələnlərin içərisində tək tanıdığı adam Səfa idi. Sifətlərini bayram yumurtası kimi boyamış, qəribə geyim tərzləri, davranışları olan bu insanlar Gözələ çox yad görünürdülər. Gözəl bacardıqca onlara hörmətlə yanaşırdı. Yeməkdən sonra Gözəl çay süfrəsinə özü bişirdiyi şirniyyatları düzdü. Sonra çox böyük həvəslə Sənubərin ana olacağını söylədi. Dürdanənin qəribə tərzdə ağzını büzməyi Gözəlin gözündən yayınmadı. O, bu hərəkəti özünə qarşı nəzakətsizlik kimi qəbul etsə də, özünü o yerə qoymadı. Sənubərin böyük bacısı masanın baş tərəfində oturub saqqız çeynəyirdi. O, ağzındakı saqqızı gövşəyə-gövşəyə, dodaqaltı mızıldanırdı. Gözəl ağzında saqqız olan Yeganə tərəfə baxa bilmirdi. Bu yaşda bir qızın ağzında saqqız olmağına təəccüb edirdi. Nə isə, bir sözlə, Gözəlin sözünə yeganə əhəmiyyət verən adam Səfa oldu. Gözələ gözaydınlığı verib təbrik etdi. Qonaqlar gedənə yaxın Arif də gəldi. O, baldızları və qayınanası ilə salamlaşıb, bir az onlarla oturub, sonra qalxıb otağına keçdi. Bu neçə ildə – Vaqifin ölümündən sonra Gözəlin evində keçirilən ilk qonaqlıq başa çatdı. Qonaqlar gedəndən sonra Sənubərlə Gözəl qabları yığıb, yudular. Gözəl öz otağına – yatmağa keçdi,

amma səhərə qədər yata bilmədi. Xəyalları onu uzaq keçmişə – Vaqifli dünyasına apardı...

Gözəl Vaqiflə institutda oxuyanda tanış olmuşdu, qarlı, soyuq bir qış günündə. Əgər buna tanışlıq demək olardısa. Qar yağmışdı, hər tərəf buz bağlamışdı. İnstitutun həyətində ayağı sürüşüb yıxılan Gözəlin köməyinə Vaqif gəlmişdi. O, əvvəl qıza kömək edib yerdən qaldırmış, sonra da çantasından tökülüb ətrafa dağılan kitab-dəftərini, qələmini yığıb ona vermişdi. Gözəl ona təşəkkür edib, sonra da tanış olmuşdu. Bu qəribə tanışlığın sonu sevgi ilə bitmişdi. Onlar bir-birini sevib-nişanlandılar. Hər ikisi Tibb İnstitutunu "əla" qiymətlərlə bitirib, elə həmin ili də ailə qurdular. Təyinatları Azərbaycanın dilbər guşələrindən biri olan Şuşa şəhərinə verilmişdi. Onların hər ikisi kənddə böyüyüb boya-başa çatmışdı. Vaqif Gədəbəy rayonunun dağ kəndlərinin birində dünyaya göz açmışdı. Gözəl Ağdamın kəndində dünyaya gəlib, orada böyüyüb boya-başa çatmışdı. Ona görə Şuşada işləmək hər ikisinin ürəyindən oldu. Onların hər ikisinin uşaqlığı təbiət qoynunda keçmişdi. Diş göynədən, sərin bulaqları, göy meşələri, güllü-çiçəkli, yaşıl ormanları olan Gədəbəy rayonunda böyüyən Vaqif sadə, saf, təmiz, səmimi bir insan idi. Ümumiyyətlə, Gədəbəy əhalisi, içdikləri saf sudanmı, aldıqları təmiz havadanmı, hansı səbəbdənsə, hamısı saf, təmiz, yalan-palandan uzaq, vüqarlı, mənlikli insanlardı. Burada evlərin qapısı qıfıl tanımır, çünki insanların bir-birinə inamı, etibarı, güvəni var. Saz-söz vurğunu olan bu insanlarda kökə bağlılıq, adət-ənənəyə hörmət və insanlı-

ğın dəyəri yaşayırdı. O dəyərlər ki, onlar əbədiyaşardı. Məktəb üzü görməyən, demək olar ki, ömründə bir dəfə olsun, ayağı bu kənddən kənara dəyməyən nənələr dastanlar bilir, bayatılar söyləyirdilər. Onların uşaqlarına söylədikləri nağıllar oğlanları igidliyə, mərdliyə, mübarizliyə, cəsarətə; qızları sədaqətə, ləyaqətə, ismətə səsləyirdi. Gözəl Vaqifin ölümündən sonra, hər il Arifi götürüb bir az Gədəbəydə nənəsinin yanında, bir az da Ağdamda – öz valideynlərinin yanında qalırdı. Yeganə övladını bu saf insanların əhatəsində böyüdüb, ruhunun onların mənəviyyati ilə qidalanmasını istəyirdi. Özü də şəhərə qayıdanda mənən zənginləşdiyini hiss edirdi.

Vaqiflə Gözəlin təyinatının Şuşa şəhərinə verilməsi hər ikisinin ürəyindən olmuşdu. Çox böyük həvəslə işə başlayıb, hər ikisi az bir müddət ərzində hörmət qazanıb, sevilmişdilər. Vaqif ürək həkimi, kardioloq idi. Ürəkləri təkcə müalicə etmirdi, həm də ürəklərə yol tapa bilirdi. Gözəl isə uşaq həkimi idi, xoşbəxt idilər. Vaqif rəhmətə gedən gün, Gözəl ona ana olacağını söyləmişdi. O, atalıq sevincini cəmi yarım gün yaşamışdı. Həmin gün o, bir nəfər həkim dostu ilə qonşu kəndə toya gedəndə, maşınları aşırımdan düşüb, dərənin dibinə yuvarlanmışdı. Maşının qapısı açılıb, Vaqif yamaca düşüb qalmışdı. Vaqifin son görünüşü uzun illər Gözəlin gözünün önündən çəkilmədi. Vaqifsiz Gözəl Şuşada yaşaya bilmədi, Bakıya qayıtdı. Amma Vaqifsiz Gözəl Bakıya da sığmırdı. Dünyası tarmar olmuşdu. Günlərlə yataqdan çıxmır, heç kimlə ünsiyyət qurmurdu. Ona təsəlli vermək istəyənə qulaq asa bil-

mirdi, çünki heç bir təsəlli Vaqifi geri qaytarmırdı. Nəhayət, Arifin dünyaya gəlişi Gözəli yenidən həyata bağladı. Gözəl özünü zorla ələ alıb işə girdi. Zaman keçdikcə, Arif böyüdükcə Gözəl həyata Arifin gözü ilə baxdı. Arif sevinəndə sevindi, kədərlənəndə kədərləndi. Həm də Arif anasının dərd yoldaşı, sirr ortağı oldu. Həmişə fikirləri üst-üstə düşər, eyni şeyi bəyənər, eyni musiqini dinləyərdilər. Birinin, nədənsə xoşu gəlməzsə, o biri onunla razılaşardı. Təkcə bu Sənubər məsələsində fikirləri haçalandı. Gözəl Arifin xoşbəxt olmağını istəyirdi. Təəssüf ki, Gözəl yanılmamışdı. Arif Sənubəri çəkib çirkabdan çıxarmaq əvəzinə, Sənubər Arifi bataqlığa sürükləyirdi. Gözəl Sənubərin ailəsi ilə bu ünsiyyətdən sonra, onlarla bir daha bacardıqca görüşməməyi qərara aldı. Və belə də etdi. Sənubərgildən hər kim gəlsə, cəmi beş-on dəqiqə salamlaşıb, hal-əhval tutub, otağına keçərdi. Get-gedə Gözəl tək Sənubərlə deyil, Arifin özü ilə də söhbət etməyi azaltdı. Arif tez-tez onun xətrinə dəyirdi. Bir neçə gün bundan əvvəl Gözəlin xətrinə elə dəymişdi ki, o gündən özünə gələ bilmirdi. Gözəl yeni oxuduğu, fransız yazıçısı Ki De Mopassanın hekayəsindən bəhs etmək istəyirdi ki, Arif him-cimlə, əlini dodağının üstünə qoyub susmağı işarə etdi. Gözəl bir şey başa düşməsə də, susdu. Düşdüyü bu vəziyyətə görə özünə yazığı gəldi. Bir az oturub otağına keçdi. Bir azdan Arif onun otağına gəlib:

– Ay ana, bilirsən ki, Sənubər hamilədir, onu hirsləndirmək nəyə lazımdır? – dedi. Təəccübdən gözləri böyüyən Gözəl: – Nə edib, hirsləndirmişəm, ay bala? – dedi.

– Hər an özünü oxumuş, çox bilikli, ziyalı kimi təqdim etməklə, onu təhqir etmiş olursan. Səndən xahiş edirəm, ana, onu alçaltmağa çalışma.

Arif sonra Gözəli qucaqlayıb, başını sinəsinə sıxıb, xeyli bu vəziyyətdə qaldı. O gündən Gözəl, demək olar ki, heç kimlə – nə Ariflə, nə də Sənubərlə danışdı. Öz otağına çəkildi. Gözəlin susub otağına çəkilməyi ilə məsələ bitmədi, sən demə, Arif də öz işindəki müvəffəqiyyətdən danışa bilməzmiş, hətta aldığı mükafatların hansı işin nəticəsi olduğunu demək çox böyük qəbahət sayılırmış. Sənubərin belə tələbləri artdıqca Arifin acığı tutmaq əvəzinə, Sənubərə yazığı gəlirdi. Hər günahı onun böyüdüyü mühitdə görürdü.

Arifin qızı dünyaya gəldi. İlk günlər bu kiçicik fidan hər kəsin həyatına şəkər qatmışdı. İndi bu evdə hər şey Təhminəyə görə, ona olan xidmətə görə nizamlanırdı. Təhminəni hər üçü ürəkdən sevsə də, onun dünyaya gəlişindən azacıq sonra Gözələ aydın oldu ki, nəvəsini sinəsinə basıb, laylalar çalıb, nağıllar söyləyib, istədiyi kimi böyütmək ona nəsib olmayacaq. Çünki Sənubər onu bacardıqca Təhminədən uzaq tutmağa çalışırdı. Uşaq xalalarının əhatəsində, onların dünyasında böyüyürdü. O dünyada ki, orada Gözələ, Arifin özünə yer yox idi. Gözəllə Arifin növbəti mübahisəsi Təhminəyə çalınan laylaya görə oldu. Sənubərin rus dilində, qol-qanadı sınmış, mənasız, məzmunu itmiş bir şəkildə layla çaldığını eşidən Gözəl hirslənib demişdi: "Ay qızım, sən rus dilində danışmağı bilmirsən, laylanı öz ana dilində çalasan ki, uşağın da layladan bir

kəlmə söz anlasın". Ertəsi gün Arif az qala Gözəllə dalaşmaq həddinə gəldi:

– Ay ana, – dedi, – niyə icazə vermirsən ki, Sənubər uşağını istədiyi kimi əzizləsin? Rus dilini bilməmək qəbahətdirmi? Bəlkə elə o da, o dili öyrənmək istəyir?

Gözəl Arifin onun iradına belə yanaşmasına mat qaldı. Daha doğrusu, özünü doğrudan, günahkar saydı. Sözün əsl mənasında, peşman oldu.

Beləliklə, Təhminə Gözəlin gözündən tam kənarda böyüdü. Uşaq bağcasına getməyə başladı. Lakin onu oradan xalaları götürüb, Gözəlgilə deyil, nənəsigilə aparırdı. Qız günün çox hissəsini nənəsigildə keçirirdi. Təhminə o evin ab-havası ilə böyüyürdü. Qəribə bu idi ki, Arif uşağının səhvini görmür, uşaqdakı pis vərdişlərin birinə irad tutub, Sənubəri tənbeh etmirdi. Gözəl ağzını açıb, nə isə demək istəsə, nə isə öyrətmək istəsə, Sənubər tez gəlib, uşağın qolundan tutub aparar, dodağının altında: "Naftalin qoxusu gələn fikirlərlə uşağın baş-beynini yormaq lazım deyil", – deyərdi.

Hər belə söz-söhbətdən sonra Arif Gözəli elə qınayırdı ki, sanki bu evdə ağzının sözünü bilməyən, özünü aparmağı bacarmayan bir adam varsa, o da Gözəl idi. Bir necə il beləcə ötdü. Arifin ikinci qızı dünyaya gəldi. Artıq Gözəlin evində doğulan körpə qadına sevinc gətirmirdi. Bu evdə Gözəli bir ana kimi narahat edən bir şey var idi, o da Arifə olan hörmətsizlik idi. Bu hörmətsizlik Gözəlin ürəyinə dağ basırdı. Arifin Sənubərə olan məhəbbəti, daha doğrusu, yazığı gəlmək hissi onun bütün fikir-

lərini məhv etmişdi. Özünü Sənubərin yolunda ciddi-cəhdlə fəda etdikcə, özünə olan hörmət arxa plana keçmişdi. Arifin bu evdə bir işi var idi, o da pul qazanıb gətirmək. O, işində daima yüksəlir, pul mükafatları alırdı. Artıq böyük bir zavodun rəisi idi. Gözəl bu günləri Arifin körpəliyindən bəri arzulamışdı, xəyal etmişdi, gözləmişdi. Oğlunun uğurundan danışa bilmirdi, artıq heç sevinmirdi də. Təhminə balaca olanda Gözəl ona yaxınlaşıb, qucağına götürüb əzizləyirdi, amma Əminəyə yaxın gəlmədi. Uşaq az qala Gözəli tanımırdı. Onsuz da qızları evdə az-az görmək olardı. Sənubər onları səhər açılanda aparıb atası evinə qoyur, sonra da Arifin rəhbərlik tərəfindən ayrılmış maşınına minib dükan-bazarı gəzirdi. Axşam qayıdanda Sənubər qızları gah qaytarır, gah da elə orada qoyub gəlirdi. Arifin evində boy atıb-böyüyən qızlar Gözəlin ürəyini parçalayırdı, parçaladı da.

Gözəli bir gün kresloda əlində kitab, keçinmiş olduğunu gördülər. Yazıq qadın cəhənnəmdən cənnətə köçmüşdü. O, Arifin ailə qurmasını, uşaqlarının xoşbəxt olmasını görüb ölmək istəyirdi. Təəssüf ki, Arifin ailəsini, uşaqlarını gördü və narahat öldü. Yeganə övladını heç bir insani keyfiyyəti olmayan bir insanla qoyub getdi.

Gözəlin ölümündən az sonra, Arifə yeni, beşotaqlı mənzil verdilər. Sənubər köhnə evdən təzə evə bir çöp də aparmadı. Hər şeyi, bütün avadanlıqları təzə alıb, yığdı. Gözəlin əl işlərini yığıb zibilliyə atdı. Halbuki, Gözəl onları toxuyanda "Arifin qızlarına toxuyuram", – demişdi. Çox incə, zərif, qiymətli əl işləri idi.

Təzə mənzildə yeni adamlar peyda olmağa başladı. Bunların arasında Arifin tanıdığı bir nəfər yox idi. Sənubər "rəfiqələrimdir", – deyib üstündən keçirdi. Məclislər qurulur, rəfiqələr saatlarla oturub, deyib-gülürdülər. Arif hər axşam işdən evə qayıdanda mənzilindən gələn qəhqəhə səsindən, hay-küydən xəcalət çəkirdi.

– Bu nə məclislərdi? Bu nə hay-küydür? Bu qadınların ailəsi, evi yoxdurmu? – deyib sual verəndə, Sənubərin bircə cavabı var idi:

– Eh, Arif, get-gedə anana oxşayırsan, lap onu kimi danışırsan, – deyirdi.

Zaman keçdikcə Arif anasının haqlı olduğunu düşünürdü. Gözəlin hər bir iradını xatırlayır, ürəyində anasından üzr istəyirdi. Hər şeyə anasının gözü ilə baxırdı. Anasının günahı nə idi ki, Sənubər öz evlərində görmədiyi mədəniyyəti, davranışı, səliqə-sahmanı, elmə verilən qiyməti burada görmək istəmirdi? Nəinki görmək istəmirdi, qəbul etmirdi. Nəyə görə Sənubərdə bu keyfiyyətlərin heç biri yoxdur, deyə, Arif anasına insani keyfiyyətini, mədəniyyətini, savadını göstərməyi qadağan etmişdi. Axı onların çoxu anasının daxilindən gəlirdi, çoxunu isə illərlə qazanmışdı. Anası yaraşıqlı qadın idi. Arif balaca olanda onunla ailə qurmaq istəyənlər çox oldu, Arif bunları eşidirdi. Anasının cavabını bilirdi. Onun yeganə cavabı var idi: "Mən Arifi böyüdəcəm!"

Arifi buna görəmi, böyütdü? Arif kimdəsə olmayan mədəniyyətə görə, anasını otağında dustaq etmişdi. Bunları düşündükcə, ürəyi parçalanırdı. Özünü bağışlamırdı.

Artıq Ariflə Sənubərin hər gün sözü çəp gəlirdi. Ağzında saqqız, qulağında qulaqcıq, bir dəfə olsun, əlinə kitab almayan bu qızların niyə dərs oxumadığını soruşanda, elə bil Sənubəri elektrik cərəyanı vururdu:

– Hamı oxumağı bacarmalıdır? – deyirdi. – İnstituta da kömək edib qəbul etdirərsən. Yetim deyillər ki, onu özümüzə dərd edək.

Arif:

– Görmürsənmi, oxuya bilmirlər, müəllim tutaq, onlara kömək etsin, – deyirdi.

Amma bu sözlərin heç biri Sənubərin vecinə də deyildi. Artıq Arif özünü evində yad sanırdı. Burada ona nə mənən, nə də ruhən yaxın kimsə yox idi. Evinə gələn qonaqların da, yəni Sənubərin rəfiqələrinin görkəmini görəndə təəccüb edirdi. Çünki bu görkəmdə qadınlarla Arif bütün həyatı boyu iki-üç dəfə qarşılaşmışdı. Görəsən, Sənubər bunları haradan tapıb bir araya toplamışdı? Ən pisi də o idi ki, Təhminə ilə Əminə onlara oxşamağa çalışırdılar. Geyimləri, yerişləri, gülüşləri ilə o qadınları təkrarlayırdılar. Arifin bütün cəhdləri boşa çıxırdı, çünki artıq ox yaydan çıxmışdı. Özünü belə çarəsiz, əlacsız görəndə ürəyi sıxılırdı.

Bir axşam Arif işdən evə qayıtmadı. Onun iclasda qan təzyiqi qalxıb, burnunda damarı partlamışdı. O, əlində bir qalaq kağız tribunaya qalxmaq istəyərkən, damar partlayıb, qan sinəsinə, əlindəki kağızların üzərinə tökülmüşdü. Tez Təcili yardım çağırıb xəstəxanaya apardılar. Sənubər bu işdən gec xəbər tutdu. Çünki rəfiqəsinin ad günündə

idi. Evə gec qayıtdı. Arifin evdə olmadığını biləndə, hara-sa zəng etmək istədi, artıq gec olduğunu görüb, xəbər tuta bilmədi, yıxılıb yatdı.

Ertəsi gün Arif işdən çıxıb evə gələndə onunla maraq-lanan olmadı. Sənubər kiminləsə telefonla danışırdı. Qız-lar həmişəki kimi qulaqlarında qulaqcıq, öz otaqlarında uzanıb mahnı dinləyirdilər. Arif otağına keçib uzandı. Sə-nubər dəstəyi yerinə asar-asmaz, elə haray-qışqırıq saldı ki, səs-küyə qızlar öz otağından çıxıb gəldilər. Sənubər qızların yanında Arifə, guya, hansısa qadının yanında qal-dığı üçün evə gəlmədiyini söyləyir, ağzına gələni danışır-dı. Sənubərin uşaqların yanında onu belə alçaq sözlərlə həqarət etdiyinə görə acığı tutub, qıpqırmızı qızardı. Son-ra birdən qışqıra-qışqıra danışan Sənubərə baxanda nifrət etdi. Elə hərəkət etdi ki, onunla ağız-ağıza verib dalaşmağı özünə rəva bilmir. Elə ona görə xəstəxanada olduğunu, burnu qanadığını, heç nəyi söyləmədi.

"Rədd ol", – deyib, qapını onun üzünə çırpdı. Hirsin-dən bütün bədəni əsirdi. Qayıdıb yerində uzandı. Gecəni səhərə qədər yata bilmədi. Elə bil Sənubəri birinci dəfə idi ki, görürdü, bu onun iç üzü idi. Bu neçə ildə içində saxla-dığı "sərvət"i idi, açıb tökmüşdü, daxili bu idi.

Bundan sonra Arifin qan təzyiqi tez-tez qalxır, burun damarı partlayırdı. Hər dəfə qanı kəsə bilmir, nəhayət, Tə-cili yardım çağırmalı olurdular. Səhəri gün işə gələndə heç bir işini işləyə bilmirdi, çünki başını aşağı əyə bilmir-di. Tez-tez damar partlayır, qan layihələrin üzərinə tökü-lürdü. Get-gedə burnundan qan açılmağı az imiş kimi, ye-

mək yeyəndən sonra, qarnında da ağrılar yaranırdı. Ağzına yemək alan kimi sancı nəfəsini kəsirdi. Bacardıqca az yeməyə çalışırdı.

Nəhayət, gedib yoxlanmalı oldu. Xəstəxanaya gedib müayinədən keçdi, təhlil verdi. Və nəhayət, məlum oldu ki, bağırsağında şiş var imiş. Ona xeyli müalicə yazdılar, pəhriz buyurdular. Ancaq sağalacağı haqqında ümidverici bir söz demədilər. Arifin ağrıları günü-gündən artırdı. Müalicəni qəbul etsə də, arıqlayır, gözləri çuxura düşürdü. İşə gedir, lakin tez də qayıdırdı.

Həftələrlə işə gedə bilmədiyi üçün işdən azad etdilər. Arif yemək yeyə bilmirdi. Ona pəhriz yeməkləri bişirib yedizdirmək lazım idi. Tez-tez tərləyir, təngnəfəs olurdu, tərli paltarlarını dəyişmək lazım idi, bunların heç birini edən yox idi, Sənubər qızlarını götürüb, səhər çıxıb, axşam gəlirdi. Günlərlə ac-susuz qalırdı. Sənubər evə gələndə ondan yemək gözləyən ərinə cavabı bu olurdu:

– Arif, yemək nəyinə lazımdır, bilirsən ki, yeyən kimi qusursan.

Axır günlər Sənubər evə gəlməməyə başladı, demək olar ki, günlərlə evinin qapısını açmırdı. Gələndə də, elə gəlirdi ki, Arif onun gəldiyini duymasın. Gəlib yan otağa keçir, paltarlarını yığıb gedirdi. Axırıncı dəfə Sənubər gələndə, Arif özünü zorla ələ alıb, Təhminə ilə Əminəni soruşdu. Sənubər üzünə iyrənirmiş kimi bir ifadə verib:

– Anamgildədilər, iyrənirlər səndən, nə edim? Uşaqların xəstəliyə tutulmasını istəyirsən? – dedi.

Bu söz Arifə sillə kimi dəydi. İndiyə qədər ona qarşı olan heç bir hörmətsizlik onu belə alçaltmamışdı. Sənubər ağzını açıb yenə nə isə demək istəyirdi ki, Arif əli ilə qapını göstərib: "Çıx rədd ol, bir də bu qapıdan içəri girmə!" – dedi.

Sənubər gedəndən sonra Arifdə yaranmış nifrət hissinin ona çox böyük xeyri oldu. Belə ki, o nə yemək istəyirdi, nə içmək, nə də ki, dərman. Ürəyi buza dönmüşdü. Sadəcə, ölmək istəyirdi. Deyəsən, belə ölmək daha asan idi. Kimi-kimsəsi yox idi, bu dünyaya onu heç kim, heç nə bağlamırdı. Bir də ki, gözü qapıdan yığılmışdı. Daha kiminsə qapıdan girəcəyini gözləmirdi. Sənubər axırıncı dəfə gedəndən bəri qapı açıq qalmışdı.

Arifi tez-tez huş aparırdı. Yuxuda anasını görürdü. Anası əlində kasa ona su uzadıb: –İç, – deyirdi, – oğlum. Kasadakı suyu içirdi, içirdi, amma kasa boşalmırdı, elə hey dolub-daşırdı. Onun içinə bir sərinlik çökürdü. Gözünü zorla açıb anasını çağırır, sonra gözünü açıb ətrafa nəzər salır, heç kimi görməyib, yenidən mürgüləyirdi.
Günün hansı vaxtı olduğunu bilmirdi, pəncərədən çölə baxdı. Ya səhər yeni açılmışdı, ya da axşamın toranı idi, anlaya bilmədi. Təkcə onu anladı ki, başı həmişəkindən daha çox ağrıyır. Özünü toplayıb ayağa durmaq istədi, qapının açıldığını hiss edib yerinə uzandı. Gələnin Sənubər olduğunu zənn edib gözünü yumdu. Gələn hər kim idisə, düz onun otağına gəldi. Kim idisə: – Qonşu, ay qonşu, – deyə çağırdı. O, gələnin Sənubər olmadığını anladı, lakin kim olduğunu da başa düşmədi. Gözünü zorla açıb, qarşısında, dumanın içində əlində kasa, bir nəfərin dayandığını

gördü. Bu adamı Arif tanımırdı, ona görə elə bildi ki, yenə yuxu görür.

Lakin qızın səsi aydın eşidilirdi: "Qonşu, qalxın, bu şorbanı için", – deyirdi. O, kasanı Arifin qarşısındakı kətilin üzərinə qoyub getdi. Arif zorla durub oturdu. İştahası yox idi. Zorla yeyən kimi qarnına sancı düşürdü. Nə düşündüsə, kasanı götürüb, şorbanı zorla içdi. Qarnında bir narahatlıq hiss etsə də, sancılanmadı. Əksinə, bir azdan gözünə işıq gəldi. Əməlli özünə gəlmişdi. Ona elə gəlirdi ki, xəyal görüb, nə qədər fikirləşirdi, bu qızın kim olduğunu yadına sala bilmirdi. Onu yenidən yuxu apardı. Ayılanda, birtəhər, üzbəüz mənzildə tək yaşayan qızı xatırladı. Ona yemək gətirən yalnız bu qız ola bilərdi. Başqa kimi vardı ki?! Onunla bir-iki dəfə pilləkəndə rastlaşmışdı, salamlaşıb keçmişdilər.

Fəridə (qızın adı belə idi) babasının ölümündən sonra o mənzildə tək yaşayırdı. Babası yataq xəstəsi idi. Fəridə onun son dəqiqəsinə qədər yatağının yanından ayrılmamışdı. Babası onun bu dünyadakı yeganə təsəllisi idi. İndi o tək-tənha yaşayırdı. Bütün gecəni Arifin iniltisindən yata bilməmişdi, bu evin içində tək-tənha qalmış qonşuya yardım etmək istəsə də, utanırdı. Qonşunun ailəsi haqqında cürbəcür söz-söhbətlər gəzirdi, amma artıq neçə gün idi ki, qonşunun evdə tək olduğunu bilir, iniltisindən səhərə qədər yata bilmirdi. Bu gecə də yata bilmədi, səhər oyanan kimi qonşuya yardım edəcəyini qət etdi. Və belə də etdi, şorba bişirib, yataqda köməksiz qalan xəstəyə apardı. Fəridə elə bil Çin səddini aşmışdı. Neçə gün idi ki,

tərəddüd edirdi, lakin o inilti ürəyini parçalayırdı. Nəhayət, qapını açdı və qonşuya yemək verdi. Həmin gün axşama qədər rahat oldu. Gecə inilti yenidən təkrarlandı. Ertəsi gün nənəsindən qalma türkəçarələrdən çıxarıb dəmlədi. Yenə şorba bişirdi. Şorbanı kasaya töküb, çiçəklərdən dəmlədiyi çayı da yanına qoyub qonşuya keçdi. Qonşu ölü kimi uzanıb səssiz-səmirsiz yatırdı. Fəridə əvvəl alçaqdan, sonra da ucadan:

– Qonşu, ay qonşu, – deyə çağırdı.

Arif gözünü açıb Fəridəyə baxdı, zarıya-zarıya dünənki yeməyə görə təşəkkür etdi. Fəridə yeni gətirdiyi şorbanı, çiçək çayını onun yanına qoyub dedi:

– Soruşmaq eyib olmasın, qonşu, sizin xəstəliyiniz nədir?

Arif cavab verməyib, əlini yellədi. Fəridə dünənki kasanı götürüb getdi. O gündən Fəridə gündə bir dəfə, hətta bəzən, iki dəfə Arifgilə keçirdi. Bacardıqca yumşaq püre, şorba, ya da südlü bir şey bişirib gətirirdi. Sonra Fəridə Arifin bağırsağında şiş olduğunu öyrəndi. İndi hər kəsdən bağırsaq şişinə aid türkəçarələr soruşur, belə xəstələrə hansı yeməkləri yemək olar, hansı yeməkləri yemək olmaz və sairə belə məlumatları toplayırdı. Və bu topladığı bilgilərdən bacardığını hazırlayıb Arifə gətirirdi.

Fəridənin Arifə çox yazığı gəlirdi. Kimdənsə eşitmişdi ki, bağırsaq xəstəsinə ən çox qara gavalı xeyir edir. Hər nə bişirsə, hər gün kiçik bir qazançada gavalı qaynadır, püre şəklinə salır, yeməklə bərabər, bir kasa da gavalı püresi gətirirdi. Fəridə odla su arasında qalmışdı. Bilmirdi, bu

tək-tənha evin altında qalan yazıq, xəstə, çarəsiz adama yardım etsinmi, yoxsa, çəkilib evində otursunmu? Amma heç vaxt yardım etmək fikrindən əl çəkə bilmir, bacardığı yardımı edirdi.

Günlər, həftələr ötürdü, bir az vaxt ötəndən sonra Fəridəyə elə gəldi ki, Arif yaxşılaşır, sağalır. İlk günlər Arif hamama gedəndə özü ilə bir stulu sürüyə-sürüyə aparır, az qala, yarım saata gedib-qayıdırdı. İndi isə, divardan tutsa da, başı hərlənsə də, stulsuz gedirdi.

Bir səhər Fəridə ora keçəndə Arifin səsinin hamamdan gəldiyini eşitdi, o deyəsən, öyüyürdü. Fəridə otağı yeni görürmüş kimi, ətrafa göz gəzdirdi. Hər tərəf toz içində idi, otağın çox ağır havası var idi. Arifə nə vaxtsa, vurulan iynə-dərman şüşələri qalaq-qalaq stolun üzərində tökülüb qalmışdı. Otağın, demək olar ki, hər yerində, çarpayının altında, divanın üstündə boş su butulkaları tökülüb qalmışdı. Yatağa isə baxmaq mümkün deyildi. O, tələsik şkafın ağzını açıb, yataq dəsti tapdı. Yorğan-döşəyin üzünü dəyişdi. Ortalığı yığıb, səliqəyə saldı, hər tərəfdə tökülüb qalmış dərman kağızlarını, şüşələrini, butulkaları boş bir torbaya yığdı. Pəncərəni açmışdı, otağa xoş bahar havası dolmuşdu. Arif yavaş-yavaş da olsa, heç yerdən tutmadan hamamdan çıxıb otağa gəldi, çarpayının yanında dayanıb oturdu. Birinci dəfə Fəridə ondan necə olduğunu soruşdu. Bura gəlib-getdiyi müddətdə Fəridə bir dəfə olsun, Arifə şəxsən, müraciət edib, bir söz soruşmamışdı, o dediyi sözü ortalığa deyər, bir məsləhət verəndə də, sanki yataqdakı

xəstəyə deyil, sözünü boşluğa deyib, tez də çəkilib gedərdi. Arif: – Yaxşıyam, – dedi.

Sonra bir az ara verib:

– Sözgəlişi demirəm, doğrudan da, yaxşıyam. Amma sizə necə təşəkkür edəcəyimi bilmirəm, – deyib, dönə-dönə minnətdarlıq etdi.

– Ağrılarım azalıb, özümdə bir daxili qüvvə hiss edirəm.

Fəridə heç nə demədi, hamama keçib yaş dəsmal gətirdi. Otağın tozunu alıb döşəməni sildi. Sonra keçib o biri otaqları da silib, pəncərələri açdı. Mətbəxdə çoxdan yığılıb-qalmış qabları, qazanları yuyub, soyuducuda nə varsa, demək olar ki, hər şeyi atdı. Qaz piltəsinin üstünü və su çanağını sürtüb yudu. Bütün işləri görəndən sonra Fəridə pəncərələri örtüb getdi. Təmizlənmiş otaq, təmiz yataq və otağa dolmuş xoş hava Arifə xoş gəldi. Üzünə dəyən bahar nəfəsi onu canlandırmışdı. Fəridəyə qarşı hədsiz minnətdarlıq hissi duyurdu, Sənubəri düşünürdü: “Əgər ölməsəm, azacıq özümə gəlsəm, ilk işim onu boşamaq olacaq”, – deyə düşündü. Heç olmasa, onu boşamaq üçün Allahın ona qüvvət verməsini arzulayırdı. Sənubəri xatırladıqca ürəyi sıxılırdı. Onun haqqında düşünməməyə çalışaraq, üzünü yana çevirdi. Lakin unuda bilmirdi. Yeni evlənəndə Sənubər ona: “Mən çirkabdan çıxmışam”, – demişdi. Arif ona hörmətlə yanaşmışdı. Bu çirkabı unutdurmağa çalışmışdı, əlindən tutub onunla qoşa addımlamaq istəmişdi. Bacıları o çirkabı, zaman keçdikcə bataqlığa çevirmişdi. Bu bataqlıq Sənubəri özünə çəkirdi. Təəssüf ki,

bataqlığa tək qayıtmamışdı, gedəndə özü ilə Arifin qızlarını da aparmışdı. Qızları düşünəndə elə bir hiss yaşayırdı ki, o hiss onu parçalayıb məhv edirdi.

Fəridə həmişəki qaydada, hər gün gəlir, Arifə bacardığı yardımı göstərirdi. Bir səhər Arif ondan qızıl saatını satmasını xahiş etdi.

Qız saatı əlinə alıb: – Satmayın, – dedi.

Arifi dəli ağlamaq tutdu:

– Məndən sonra kimə lazımdır? – dedi.

Fəridə onun bu halını görüb, saatı götürüb getdi. Ertəsi gün əlində bir qalaq pul gətirib gəlsə də, Arif götürmədi:

– Mən çölə çıxa bilmirəm, qalsın səndə, xahiş edirəm, nə lazımdır, özün al,– dedi.

Artıq yavaş-yavaş eyvana çıxmağa başlamışdı, amma çoxdan təmiz havaya çıxmadığı üçün başı gicəllənirdi. Hər eyvana çıxıb-qayıdanda nədənsə, yaşamaq eşqi oyanırdı. Eyvandan çölə baxır, oyanan təbiəti, çiçəklənən ağacları, civildəşən quşları, havalar qızmağa başladığı üçün al-əlvan geyinməyə başlayan insanları gördükcə canlanır, dirçəlirdi. Beləliklə, göz qabağında yaxşılaşırdı.

Bir gün Fəridə içəri girəndə onu üzü qırxılmış görüb təəccüb etdi.

– Maşallah, yaxşısınız, – dedi. Arif də: – Hə, çox sağ ol, yaxşıyam, – dedi.

Daha bir həftə də ötdü. Arif son günlər qalxıb həkimə getmək qərarına gəldi. Həkim Arifi müayinə edib, aparatdan keçirdi. Tam sağaldığını, şişin çəkildiyini söylədi. Öz müalicəsini tərifləyir, iyirmi illik təcrübəsində belə möcü-

zə ilə qarşılaşmadığını söyləyirdi. Sonra o qələm götürüb yeni dərmanlar yazdı və bir aydan sonra yenidən yoxlanmağa gəlməsini tövsiyə etdi. Arif dərman yazılmış kağızı götürüb xəstəxanadan çıxdı, o kağızı ovcunun içində əzib yerə atdı. Sonra dodağının altında:

"Mənim öz həkimim var", – deyə mızıldandı.

Əməllicə dostlaşmışdılar. Arif Fəridənin həyat hekayəsini dinləyib, dəhşətə gəlmişdi. Fəridə gedəndən sonra qız gözünün önündən çəkilmirdi, onun acı taleyinin təsiri altında qalmışdı. Arif ondan niyə tək yaşadığını soruşanda, nədənsə, Fəridə susmuşdu. Amma bir dəfə gələndə əsl valideynlərini tanımadığını söyləmişdi. Sonra bunları Arifə danışmışdı:

– Mən yeddi yaşımadək xoşbəxt uşaqlıq keçirmişəm. Hər şeyi yaxşı xatırlayıram. Evimiz Qubanın mərkəzində – bazarın yanında yerləşirdi. İkimərtəbəli, yaraşıqlı bina idi. Atam bazarın içindəki ərzaq dükanında işləyirdi. Anam isə evdar qadın idi. Mən əziz, sevimli, yeganə uşaq idim. Atam hər il mənim ad günümü təntənəli şəkildə qeyd edirdi. Bu yeddi il mənim ən xoşbəxt illərim idi. Təbii ki, axırıncı illəri xatırlayıram. Atamın qəfil xəstələnib ölməyi hər şeyə son qoydu. Atamın ölümünün şokundan çıxmamış, bir səhər elə bir dəhşətli xəbər eşitdim ki, dünyam dağıldı. Anamla səhər yenicə yuxudan oyanıb səhər yeməyini yemək istəyirdik ki, nənəmin qapını döydüyünü, döydüyünü yox, daha doğrusu, dabanından çıxartdığını eşidib, anam qapını açdı. Anam qapını açar-açmaz, nənəm gözünü yumub, ağzını açdı:

"Yetimini götür, rədd ol, oğlumun evindən. Sənin yetiminin ayağının sayası mənim oğluma düşmədi. Axı sənin yetimin mənim oğlumun nəyidir? Heç nəyi! Çıxın, mənim oğlumun yurdundan!"

Anam ağlayır, "gedəcəm, uşaq eşidir", – deyib yalvarırdı. Anam tez-tez: "uşaq eşidir" sözünü təkrar etdikcə nənəm: "cəhənnəmə eşitsin, sənin yetiminin dərdinimi çəkəcəm?" – deməsi məni dəhşətə gətirirdi. Mən hər şeyi başa düşdüm, belə çıxırdı ki, mən İslamın qızı deyiləm. Bu xəbər mənə atamın ölümündən çox ağır xəbər oldu. Ertəsi gün anamla mən əlimizdə iki böyük çanta Bakıya – anamın valideynlərinin yanına gedirdik. Anam yolboyu ağlayırdı. Mənə nənəmin yalan danışdığını, oğlu öldüyünə görə, başını itirdiyini söyləyirdi. Anam qırıq-qırıq sözlər deyir, üzümə baxmadan danışırdı. Nənəmlə babam bizi gözləyirmiş kimi qarşıladılar. Yəqin anam xəbər veribmiş. Nənəm də anama qoşulub ağlayırdı.

Bir həftədən sonra Bakıda məktəbə getdim. Zorla özümə gəlmişdim, demək olar ki, məndə süstlük yaranmışdı. Heç özümə gəlməmiş, yeni zərbələr aldım. Sən demə, Allah adama ağır tale yazanda, dözüm də verirmiş. Bir müddətdən sonra anam yenidən ailə qurdu. Anamın ailə qurduğu adam məni istəmədiyini deyib. Nənəmlə, babamla qalmalı oldum. Anamdan küsmüşdüm, ürəyim yenidən yaralanmışdı. Günlərlə ağladım. Hər səhər yuxudan oyananda ağlamaqdan su olan yastığımı qurumağa qoyurdum. Hər gün anamın geri dönüb, məni də aparacağını gözləyirdim. Dərsdən qayıdan kimi qapının ağzında ana-

mın ayaqqabılarını gəzirdim. Lakin günlər ötürdü, anamdan heç bir xəbər çıxmırdı. Bir səhər evimizdə qopan hay-küyə oyandım. Dayım babamla nəyin üstündəsə, mübahisə edirdi. Nənəmin də səsi gəlirdi, hiss edirdim ki, nənəm ağlayır. Mübahisə get-gedə qızışır, davaya çevrilirdi. Birdən-birə dayım bağırmağa başladı:

– Başa düşə bilmirəm, Şəfiqə yetimxanadan uşaq götürüb, niyə iki qocanın üstünə atıb, ərə gedir? Günü sabah o yetimi qaytarın yetimxanaya. Sizin özünüzə baxan lazımdır. Axırıncı dəfə deyirəm, ya mən, ya da Fəridə.

Araya uzun bir sükut çökdü. Mən dəhşətə gəlmişdim. Bu sükut mənə bir ilə qədər uzun göründü. Artıq mənə hər şey aydın idi. "Heç Şəfiqə də anam deyilmiş. İlahi, mən kiməm? Kimin kimiyəm?" – deyə donub buza dönmüşdüm. Bir şeyə təəccüb edirdim ki, gözümün yaşı qurumuşdu. Ağlamağım gəlmirdi. Heç babamın cavabı da məni maraqlandırmırdı. Birdən babamın çox qətiyyətli səsi gəldi:

– Fəridə burada qalacaq. Heç yerə getməyəcək. O uşağı mən götürmüşəm, Şəfiqə üçün götürsəm də, özümə güvənib götürmüşəm. Bu barədə ikinci söz eşitmək istəmirəm,– dedi.

Dayım qapını çırpıb getdi. Babamla nənəm dayımdan ötəri darıxsalar da, ölsələr də, sözündən dönmədilər, məni atmadılar, yetimxanaya qaytarmadılar. Anamın oğlu olub. Heç görmürəm. Əri mənimlə görüşməyə icazə vermir. Əvvəl nənəm, sonra da babam rəhmətə getdi. Hər ikisinə göz bəbəyim kimi baxdım. Babam bu mənzili mənə bağışladı,

elə ona görə də dayım onları dindirmədi. Yazıqlar mənə görə doğma övladları ilə küsülü öldülər. Babam uzun müddət yataq xəstəsi oldu. Ölənə qədər gözü yolda qaldı. Siz xəstə olanda mənə babamı xatırladırdınız. Mən onsuz çox darıxırdım.

Arif çox təsirləndi:

– Bəs öz valideynlərin haqqında məlumatın yoxdur? – deyib sual verdi.

Fəridə qəmli-qəmli başını buladı. Hər ikisi susdu, Fəridə qalxıb evinə keçdi. Arif bu qəmli hekayənin təsiri altında yuxuya getdi. Fəridə, nədənsə, sakitləşdi. Hələ ömründə bir dəfə də olsun, heç kimlə bu barədə söhbət etməmişdi. Həqiqətən, özünü yüngül hiss edirdi. Elə bil birdən-birə çiynindən ağır bir yükü atmışdı. Ertəsi gün Fəridə gələndə Arif üzünü qırxıb, paltarını dəyişib evdən çıxırdı. Hər nə qədər yaxşı olduğunu söyləsə də, o hələ çox zəif idi. Demək olar ki, zorla yeriyirdi. Pencəyi əyninə çox böyük idi, çiyinləri boş qalmışdı. Amma çox inamla addımlayıb qapıdan çıxdı. O, işə girmək istəyirdi, ona görə də, əvvəlcə, öz işlədiyi zavoda getdi. Orada Arifi çox xoş qarşıladılar. Az qala bütün kollektiv onun gəlişini eşidib, görüşə gəlmişdi. Arif belə hərarətlə qarşılanacağını gözləmirdi, çox sevindi. Belə sevildiyi heç ağlına da gəlmirdi. Onu dərhal işə götürüb avans verdilər. Evə qayıdanda, yolüstü məhkəməyə gedib boşanma haqqında ərizə yazdı və çox rahatlandı. İndi Sənubərdən birdəfəlik ayrılacağı günü gözləyirdi.

Yatağına uzanıb, bugünki günün sevincini yaşayırdı. Sevincini bölməyə kimsəsi yox idi. Bu dünyada anasından başqa, kimsə onun üçün sevinmədiyini xatırlayıb məyus oldu. Nə qədər bu vəziyyətdə qaldığını xatırlamırdı. Fəridənin səsinə oyandı. Qızı görəndə özündən asılı olmayaraq, işə qəbul olduğunu dedi. Fəridə çox sevindiyini deyib, dabanı üstə fırlanıb, geri qayıdıb əlində saat geri döndü. Saatı uzadıb dedi:

– Mən sizin bu saata ehtiyacınız olacağına inanırdım, ona görə də satmadım.

Saatı görəndə ürəyindən qəribə gizilti keçdi. Anasını xatırladı, instituta qəbul olanda əlində saat gəlib Arifə demişdi: "Bu mənim üçün ən əziz yadigar idi. İstəyirəm ki, sənə də əziz olsun". Saat Arif üçün çox əziz idi. Təkcə atasının deyil, həm də anasının yadigarı idi. Saatı satmağa verəndə iki ən əziz adamının xatirəsini satmış olurdu. Lakin başqa əlacı yox idi. Bir də ki, daha bu saatı qoluna taxacağına da ümidi yox idi. Arif saatı əlinə aldı, lakin bu yaxşılığı qiymətləndirə biləcək söz tapa bilmədiyi üçün saatı əlinə götürüb susdu.

Ertəsi gün Arif işə gedəndə Fəridənin qapısını döyüb açarlarının bir dəstini Fəridəyə uzatdı, amma birdən-birə özü də bilmədi, nə desin, açarları ona nəyə görə verdiyini desin. Fəridə qapını açıb, açarları götürüb, heç nə demədi.

O gündən Arif bir daha Fəridəni görmədi. Qəribədir, qız açarları götürsə də, bir daha bu mənzilə keçmədi. Arif işini çox sevirdi, sevərək də işə başladı. O, günbəgün yaxşılaşırdı. Demək olardı ki, tam özünə gəlmişdi. Yeni-yeni

layihələr üzərində işləyir, yeni ixtiralar edirdi. Onun layihələri də, ixtiraları da böyük uğurlar qazanır, hər dəfə də yüksək mükafata layiq görülürdü. Onun ixtirası sayəsində bir neçə dəzgahın iş prinsipi bir dəzgahda cəmlənmişdi. Bu dəzgah çox böyük bir işçi qüvvəsini də əvəz edirdi. Arif rəhbərlik tərəfindən qiymətləndirildi. O, gah pul mükafatı ilə, gah da medallarla təltif olunurdu. İlin sonunda o, zavodun Həmkarlar İttifaqı tərəfindən sanatoriyaya göndərildi. İstirahətə getmək ona xoş gəldi. Yaxşı müalicə olundu, yaxşıca dincəldi və işə çox gümrah qayıtdı. İstirahət, müalicə, dincəlmək hər nə qədər xoş olsa da, evə dönmək üçün çox darıxırdı. Evinə gəlib, hər yeri səliqəli tapdı. Axırıncı dəfə Fəridəni mükafat alanda görmüşdü, aldığı pulu qəpiyinəcən aparıb ona vermişdi. Pulu stolun üstünə qoyub demişdi: "Mükafat sənə düşür". Ondan sonra Fəridəni görmürdü, amma hər yerdə onun əlinin istisi duyulurdu.

Ertəsi gün məhkəmənin axırıncı qərarını götürmək üçün məhkəməyə getdi. Üçüncü dəfə xəbərdarlıq etsələr də, Sənubər məhkəməyə gəlmədi. Beləcə, məhkəmə onların boşanmasına qərar verdi. Bilmirdi sevinsin, yoxsa, kədərlənsin. Sənubəri sevib ailə qurmuşdu, amma indi dönüb arxaya baxanda həftələrlə, aylarla küsülü qalmaqlarından başqa heç nə görmədi.

Arifi yenidən zavoda müdir təyin etdilər. Və elə o gündən onun rəhbərlik etdiyi zavod bir neçə dəfə zərbəçi oldu. Keçici bayraq qazandı. O, çox təşkilatçı adam idi. Onun keçirdiyi bayram tədbirləri, idman tədbirləri, hər bi-

ri çox maraqlı və təntənəli olurdu. Zavodun uğrunda sərf etdiyi əməyin bəhrəsini görürdü, müvəffəqiyyət qazanırdı. Payızda pambıq yığımının qızğın cağında, birdən-birə Arifi Mərkəzi Komitəyə çağırıb Goranboy rayon Partiya Komitəsinin birinci katibi təyin etdilər. Arif evə gəlib, getməyə hazırlaşırdı. Yenicə içəri girib, çantasını ortaya qoyub, içinə bir-iki paltar atmışdı ki, qapının arxasından gələn səs-küyü eşidib qapını açdı. Üzbəüz qapını açıb arasında sakitcə dayanan Fəridəni və onun qarşısında Sənubəri görüb təəccüb etdi. Səsə geri dönüb baxan Sənubəri az qala zorla tanıdı. O, elə gözəl görünürdü ki, küçədə qarşısına çıxsa, onu tanımazdı. Sənubər qısa ətək, ağ kofta, ağ ayaqqabı geyinib, ağ çanta götürmüşdü. Çantanın və ayaqqabının üstündəki dəmirlər dəst idi. Səliqə ilə daranmış sarı saçları kürəyinə tökülmüşdü. Qız Arifi görəndə səsini daha da qaldırdı. Bu dəfə hədəfi Fəridə deyil, Arif idi:
– Demək, məni evdən bu ləçərə görə qovdun? Evə gəlməyəndə də bu ifritə ilə birlikdə idin? – deyib, daha da bağırmağa başladı.

Arif ona baxanda ürəyi bulandı, başı hərləndi. Hirsindən bədəni əsirdi. Sənubərin Fəridənin ünvanına yağdırdığı sözlərə görə xəcalətindən yerə girdi. Arif, bəlkə də, ömründə belə səs çıxartmamışdı. Elə qışqırdı ki, bəlkə də, bütün binanın sakinləri eşitdi:

– Rədd ol, buradan, rədd ol!

Sənubərin nə isə demək istədiyini görüb yenidən:

– Sənə deyirəm, rədd ol, gözüm səni görməsin! – dedi. Fəridə qapını örtüb içəri keçdi. Sənubər pilləkənləri, nə

isə deyinə-deyinə düşürdü. Arif artıq onu eşitmirdi, qapını örtüb içəri keçmişdi, əsim-əsim əsirdi. Sənubərin onun ünvanına yağdırdığı ittihamları düşündükcə dəhşətə gəlirdi. Üzərinə atılan bu çirkaba batdığını zənn edib, özündən iyrənirdi. Hələ gənc yaşlarında film izləyəndə belə bir obrazla rastlaşanda, "görəsən, belə insan varmı?" – deyə düşünürdü. "Sən demə, var imiş, həyatda doğrudan da, belə insanlar var imiş", – deyə düşündü. Gecənin bir vaxtına qədər özünə gəlib, əşyalarını toplaya bilmədi, nə vaxt yuxuya getdiyini xatırlamırdı, səhər yuxudan ayılanda, dünənki hadisəni yadına salıb xəcalət çəkdi. Nəhayət, yerindən durub, təyin olunduğu rayona yola düşdü. Fəridənin qapısını döyüb, nə isə demək, üzr istəmək istədi. Onun qapısının ağzında ayaq saxlayıb durdu. Əlini uzadıb qapını döymək istədi. Dəfələrlə əlini irəli uzadıb, geri çəkdi. Amma qapını döyüb, heç nə deyə bilmədi. Yeni iş yeri, təmiz hava, xoş əhval-ruhiyyə Arifə xoş gəlirdi. Səhər yuxudan oyanandan, gecə yarısınadək çöllərdə olurdu. Kabinetdə çox az vaxt keçirirdi. Günbəgün gümrahlaşırdı. İş onun canının cövhəri idi, zəhmətkeş idi Arif. Bütün uğurlarını da zəhməti ilə qazanmışdı, uğurlarına sevinirdi. Nə qədər başı işə qarışsa da, onu böyük qüvvə şəhərə çəkirdi. O qüvvədə hərarət var idi, qayğı var idi, sədaqət var idi. Günlər, həftələr ötdükcə Arif bu qüvvənin Fəridə olduğunu anladı. Və get-gedə Arifin Fəridəyə olan hissləri dərinləşir, qəlbinin dərinliyinə kök atırdı. Bu hisslər məhəbbət idimi, məhəbbət deyildimi? Hər nə idisə, bütün hisslərdən əziz idi, hətta müqəddəs idi.

Bir axşam Bakıya qayıdıb, birbaşa Fəridənin evinə gəldi. Qapını döyüb nə deyəcəyini düşünürdü. Fəridə qapını açıb Arifi görəndə elə təəccüblə baxdı ki, elə bil onu ömründə birinci dəfə görürdü. Onun: – Gəlmək olarmı? – sualını eşidib, elə bil yuxudan ayıldı. Bir kənara çəkilib, yol verdi. Arif qonaq otağına keçib, qızın ona oturmaq üçün göstərdiyi yerdə oturdu. İlk dəfə idi ki, Fəridənin yaşadığı mənzili görürdü. Fəridə mətbəxə keçdi. O, ətrafa göz gəzdirib onun çox kasıb yaşadığını anladı. Otaqda nə var idisə, hamısı köhnə idi. Döşəmənin, tavanın rəngi qopuq-qopuq olmuşdu. Pəncərədən asılan pərdə təmiz də olsa, çox nimdaş idi.  Döşəməyə salınmış xalçanın üzünün tükü gedib, astarının sapları görünürdü.

Arif bu kasıb qızın nə böyük ürək sahibi olduğunu düşündü. Fəridəni mətbəxdən səsləyib çay içməyəcəyini söylədi. Fəridə içəri girib ayaq üstə dayandı. Arif başını qaldırıb ona baxdı. Onun zil qara gözləri, sıx qara kirpikləri vardı. O, Arifin nə isə sözlü adama oxşadığını hiss edib, həyəcandan gözünü tez-tez qırpırdı. Arif, əvvəlcə, bir-iki mənasız sual verdi. Fəridə hiss edirdi ki, Arif cavablara qulaq asmır. Qız kürəyinə tökülmüş zil qara saçlarını başına topladı, yanaqlarına qızartı çökdü. Arif birdən ayağa qalxıb birbaşa mətləbə keçdi:

– Fəridə, biz bir-birimizi yaxşı tanıyırıq. İnsanlar bir-birini tanıyır, sonra həyatda elə şeylə qarşılaşırlar ki, bir-birilərini tanımadığını anlayırlar. Lakin biz elə bir vəziyyətdə qarşılaşdıq ki, bu, həyatın ən ağır üzü idi. Məni ölümün pəncəsindən aldın, yenidən həyata qaytardın, ömrü-

mün qalan hissəsini səninlə yaşamaq istəyirəm. Mənə elə gəlir ki, sənin qayğın olmasa, mənə yaşamaq çox çətin olar. Mənimlə evlənərsənmi? Araya sükut çökdü.

Arif Fəridənin qıpqırmızı qızarmış sifətinə baxıb təkrar etdi:

– Mənimlə evlənərsənmi?

Fəridə daha da qızardı. O, heç vaxt belə bir şey ağlına gətirmirdi. Fəridə yaxşı bilirdi ki, Arif Sənubəri bağışlamayacaq, əvvəl-axır kiminlə isə ailə quracaq. Amma ona evlənmə təklifi edəcəyini gözləmirdi. Arifə yardım edəndə, yuxusuna da girməzdi ki, gecələr səhərəcən inildəyən, yataqdan qalxa bilməyən, günlərlə yemək yeməyən bu adam ayağa qalxacaq, yenidən həyata atılacaq. Hətta evlənəcək. Nəhayət, o, fikirdən ayılıb, səsi titrəyə-titrəyə dedi:

– Arif, mənə elə gəlir ki, sizdə mənə qarşı, sadəcə, minnətdarlıq hissi var və bu hiss o qədər güclüdür ki, həmin hissə ən yüksək qiyməti verib, mənə evlənmə təklifi edirsiniz. Narahat olmayın, mənim əvəzimə kim olsaydı, sizə kömək əlini uzadardı. Siz mənə yetərincə təşəkkür etmisiniz.

Qız sözünü bitirib birinci dəfə Arifin gözünün içinə baxdı. Arif Fəridəyə lap yaxın gəlib, əllərindən tutub, sakit dayandı, bir qədərdən sonra:

– Fəridə, mən sənsiz darıxıram. Rayonda sənin xəyalınla yaşayıram. Sən mənə "yox" desən, mən bir daha ailə qurmayacam. Mənə elə gəlir ki, dünyada ən qorxulu şey yalqızlıqdır, – deyib Fəridənin əlini buraxdı. Daha qızın cavabını gözləmədən öz mənzilinə keçmək üçün mənzili-

nin açarını istədi. Fəridə açarı gətirib verdi. Açarı əlinə alıb dəhlizdə yenidən ayaq saxladı. Xeyli dayanıb, çəkilib getdi. Mənzilin qapısını açıb içəri girdi. Hər yerdən təmizlik yağırdı, elə bil mənzildən kimsə, indicə çıxmışdı. Keçib divanın üstünə uzandı. Heç yarım saat keçməmiş, Fəridə əlində yemək içəri girib, mətbəxə keçdi. Əlindəki yeməyi qaz piltəsinin üstünə qoyub qonaq otağına keçdi. Arif onu görəndə qalxıb oturdu. Fəridəyə də kresloda yer göstərdi. Fəridə, nədənsə, kresloda oturmayıb, oturmaq üçün stul götürdü, uzun çəkən sükutdan sonra Fəridə dilləndi:
– Arif, ailə qurmaq üçün məsləhət almağa kimsəm yoxdur. Anama demək istəyirəm, amma mənim ona zəng etməyə ixtiyarım yoxdur. Gözləyirəm, o zəng etsin. O, da aylarla zəng etmir, – deyib gözündən yaşı leysan kimi axıtdı.

Arif yerindən qalxıb Fəridəyə yaxın gəldi. Əlini ehmalca uzadıb qızın başını tumarladı və dedi:

– Fəridə, xahiş edirəm, "yox" demə.

Arif özü də həyəcanlanıb, qayıdıb divanda oturdu. Yenidən araya uzun bir sükut çökdü. Fəridə sakitcə ayağa durub, vidalaşmadan çıxıb getdi. Arif səhərə qədər yata bilmədi. Səhərə yaxın gözünə yuxu getmək istəyirdi ki, yadına düşdü ki, işə qayıtmalıdır. Odur ki, qalxıb çay içməmiş, rayona getdi. Günlər, həftələr ötürdü. Arif Fəridəyə zəng etməyə ürək etmirdi. Günlərlə o barədə düşünür, ayrı yol tapa bilmirdi. Xəstə olduğu müddətdə Fəridəyə elə bağlanmışdı ki, bu bağların qırılması, Arifin həyata olan bağlarının qırılması idi. Fəridənin "yox" cavabını dü-

şünəndə dünyası qaralırdı. "Zəng edib, bəd cavab almaqdansa, ümidlə yaşamaq daha yaxşıdır", – deyə düşünürdü. Axır günlər Arifin başı çox qarışıq idi. Sovxozlardan gələn xəbərlər ürəkaçan deyildi. Pambıq sahələrinə sovka deyilən qurd düşmüşdü. Bakıdan mütəxəssis çağırmışdı. Əgər vaxtında xəstəliyin qarşısı alınmasa, məhsuldarlıq aşağı enəcəkdi. Hətta deyilənə görə, vəziyyət elə idi ki, sahələrin məhv olmaq ehtimalı var idi. Arifin başını qaşımağa vaxtı yox idi. Səhər tezdən durur, gecə yarıyacan geri qayıtmırdı. Mütəxəssislərlə sahələri gəzir, hər yeri öz gözü ilə görməsə, sakitləşə bilmirdi. Gələn dərmanların sovxozlara paylanmasına, sahələri dərmanlamaq üçün ayrılan texnikaya özü, şəxsən, nəzarət edirdi. Bu gün də həmişəki kimi, evdən səhər çıxdığı idi. Heç günorta nahara da gəlməmişdi. Ucqar sahələrin birindən gəlirdi. Bir az sakitləşmişdi, işləri xeyli nizama sala bilmişdi. Kabinetə gəlib qalan sahələr haqqında olan məlumatlara nəzər salmaq istəyirdi ki, katibə içəri girib bir qadının bayaqdan Arif müəllimi gözlədiyini söylədi. Arifin bədənindən bir cərəyan keçdi. O, nədənsə, bu qadının Sənubər olduğunu düşündü. Ayağa durub hirsli-hirsli: – Gəlsin, – dedi. Keçib yerində oturmağa macal tapmamış, içəri girən Fəridəni görüb, donub yerində qaldı. Fəridə salamsız-kəlamsız, elə qapının ağzındaca gülümsünüb:

– Arif, mənə ən yaxın olan insanın məsləhətini dinləyib, qərara aldım ki, sənin təklifini qəbul edim,– dedi. Yəni sənin məsləhətini dinləyib, əməl etdim.

Arif ayağa qalxıb yaxına gəldi, onu sinəsinə basıb, saçlarını oxşamaqdan özünü güclə saxladı. Fəridə də onun fikrini anlamışdı, bir addım geri çəkildi. Hər ikisi gülümsəyib, əl verib görüşdülər.

Arifin qurduğu ailə gözlədiyindən də, qat-qat xoşbəxt idi. İllər ötürdü, Fəridə onun dayağı, sirdaşı, dərd ortağı olaraq qalır, həyatın enişli-yoxuşlu yollarında onunla birlikdə addımlayırdı. İki övladı dünyaya gəlmişdi. Fəridə Arifə elə bir dünya qurmuşdu ki, o dünyada anasının arzularını görürdü. O dünyada etibar var idi, qayğı var idi, ləyaqət var idi. Amma bir şey Arifi yandırırdı, bunların heç birini anası görmədi. Bütün arzuları ürəyində qaldı. "Zəhmətlə bilik birləşib, zirvəyə yol açar" deyirlər. Arif günbəgün zirvələrə qalxırdı. Hansı rayona getsə, o rayon qabaqcıl olur, keçici bayraq alırdı. Bu sevinci onunla yaşamağa Arifin Fəridəsi var idi.

Lakin o elə hər dəfə keçmişi yada salıb, arxaya boylananda bataqlıq görürdü. O bataqlıqda Arifin bir cüt balası batırdı!!!

## MOLLA SADIQ
### (Hekayə)

Sadıq hələ uşaqlıqdan gündə bir macəra törədirdi. Əlindən məhəllədə uşaq da, böyük də zara gəlmişdi. Döymədiyi uşaq, daş atmadığı ev yox idi. Axırıncı dəfə törətdiyi iş ata-anasını lap hövsələdən çıxartmışdı.

Belə ki, bir neçə gün bundan əvvəl evlərinə gələn qonağın başına elə bir oyun açmışdı ki, qonaq, nəinki Sadıqgilə, bu tərəflərə gəlməyə tövbə etmişdi...

Atını həyətdə qoyub içəri keçən qonaq bir müddətdən sonra çölə çıxıb atını görmür. Qonaq içəridəkiləri səsləyib atını soruşur. Bir az aralıda dayanan atı göstərib: – O at deyil ki? – deyə soruşurlar. Qonaq başını bulayıb: "Yox", – deyir. Sadıqın atası da qonağa qoşulub atı axtarmağa gedirlər. Düzü-dünyanı gəzib, geri dönəndə bayaqkı atın elə həmin yerdə olduğunu görən qonağın gözü bərələ qalır. At elə onun atı idi. Sən demə, Sadıq anasının süzmək üçün qoyduğu qatıq torbasını oğurlayıb, qara atı nə ki bacarır, süzmələyib. Yazıq qonaq öz qara atını ala-bula görüb, tanımayıb. Kişi heç üzünü Sadıqın atasına çevirmədən, heç Allahın bir "sağ ol"unu demədən, atını minib uzaqlaşır. Sadıqın atası xəcalətindən ölüb-yerə girir. Hirsindən dil-dodağını çeynəyə-çeynəyə qayıdır evə. Bir neçə gündən sonra arvadı ilə düşünüb-daşınırlar ki, Sadıqı molla məktəbinə qoysunlar. Belə düşünürlər ki, həm özlərinin baş-

qulaqları dincələr, həm də uşaq savad alar. Amma aradan heç bir həftə keçməmiş, Sadıqın əlindən baş molla başlayır şikayətlənməyə. Cavabında Sadıqın atası deyir ki, döy, ay molla, döy. Döyülməklə uşaq ölməz, qoy tərbiyələnsin. O gündən Sadıqın da, mollanın da qara günləri başlanır...

Sadıqın ayağı falaqqaya salınmaqdan qançır olardı, həftələrlə axsaya-axsaya yeriyərdi. Korazehin olmağına, Sadıq korazehin deyildi. Əksinə, mollaxanada ondan zehnli uşaq yox idi. Di, gəl, qəsdən mollanı hirsləndirmək-dən həzz alırdı.

Sadıqı bir dəfə qiraətlə oxumamağının üstündə molla yenə falaqqaya saldırdı. Qolunun gücü çatdıqca ayağının altına o qədər çırpdılar ki, ayağının altı şişib, qıpqırmızı tuluğa döndü. Evlərinə də uşaqların köməyi ilə gəldi. Ayağını yerə basa bilmirdi. Evdə ata-anasının ürəyi yansa da, Sadıqın bu gününə səslərini çıxartmırdılar. Anası şirin xəmir yoğurub saldı ayağının altına. Əlindən nə gəlir, nə bacarır, elədi, yenə də xeyri olmadı, səhərəcən Sadıq aya-ğının zoqqultusundan yata bilmədi ki, yata bilmədi. Ertəsi gün Sadıqın vaxtından əvvəl durub mollaxanaya getməyə hazırlaşdığını görəndə ata-anası məəttəl qaldılar. Onlara elə gəlirdi ki, Sadıq mollaxanaya getməyə tövbə edəcək. Amma Sadıq elə mollanın yanında da özünü ədəb-ərkanla apardı. Bir qədərdən sonra barmaq qaldırıb izn istədi. Molla qalın qaşlarını qaldırıb Sadıqa baxdı, sonra da ona durub irəli çıxmağa icazə verdi. Sadıq azacıq axsaya-axsa-ya, durub irəli çıxdı. Bir anlığa mollanın arxasına keçib, çırtaçırtla yanan ocaqdan maşa ilə xırda bir köz parçasını

götürüb mollanın başındakı əmmamənin ortasına qoydu. Molla bir şey hiss etmədi. Başını çevirib Sadıqa baxdı və dedi:

– Hə, nə oldu, bayaqdan barmaq qaldırmışdın, nə demək istəyirdin?

Sadıq üzünə sakit bir ifadə verib: – Molla əmi, daha bu gündən özümə söz vermişəm, dediyiniz kimi, nə danışsam, qiraətlə danışacam, – dedi.

Bunu deyib, xüsusi qiraətlə aram-aram sözə başladı: – Molla əmi, bir od parçası "xuruc" eyləyib qalxdı göyün yeddinci qatına.

Molla bu yavaş-yavaş, aramla danışmaqdan ləzzət alıb dedi:

– Ha, bərəkallah, belə danışın, döyülməyin də. Buyur.

Sadıq elə həmin tərzdə sözünə davam etdi:

– Göyün yeddinci qatında xeyli fırlanıb-fırlanıb yavaş-yavaş endi aşağı.

Molla tez-tez: "bərəkallah" söyləyirdi. Əmmamə yavaş-yavaş od alıb tüstülənirdi. Uşaqlar gülməkdən uğunub gedirdi. Molla heç nə hiss etmirdi, elə zənn edirdi ki, uşaqlar Sadıqın qiraətlə danışmağına gülürlər. Hirslənib dedi ki, kim bu gündən Sadıq kimi danışmasa, döyüləcək. Əmmamənin tüstüsü isə əməllicə artmışdı. Sadıq "bərəkallah" ala-ala, aramla danışmağa davam edirdi:

– Endi-endi, gəlib əmmaməyə rast oldu. Əmmamə də od aldı, tüstülədi.

Başına birdən isti keçən molla dik atıldı və Sadıqın sözünü indi anladı. Qan beyninə vurdu.

– Köpək oğlu, köpək, bayaqdan deyə bilmirsən ki, papağın alışıb-yanır? Səhərdən mənə nə vəzzariət oxuyursan?!

Molla köməkçilərin vasitəsilə Sadıqı tutdurdu. Nə ki var, çırpdırdı. Sadıq bu dəfə evə lap qucaqda getdi.

Amma Sadıq mollaxananı atmadı, elə bu minvalla dava-dalaşla birtəhər oxuyub qurtardı. İllər ötdü, Sadıq özü kəndlərin birinə molla təyin olundu. Qəribə molla idi Sadıq. Elə oturub-durub mollaları pisləyir, mollaya, duaya inanmağı cəhalət sayır, hər kəsə elm dalınca qaçmağı, xəstələrə həkimə getməyi tövsiyə edirdi.

Bu vaxt kəndlərdə qara yatalaq xəstəliyi gəzirdi. Elə gün yox idi ki, ölən olmasın. Camaatın canına vəlvələ düşmüşdü. Bu bəladan necə qurtarmağa çarə axtarırdılar. Odur ki, kənd camaatı yığılıb gəldilər molla Sadıqın yanına ki:

– Ay molla, amandı, bizi bu bəladan xilas et. Duadan-zaddan yaz, qara yatalaq elə günümüzü də qara edib, daha kənddə adam qalmayıb. Belə getsə, kənddə adam qalmayacaq, hamımız qırılacağıq.

Sadıqı fikir götürdü. Bir istədi desin: "Ay Allah evinizi yıxsın, dua nədir, dua ilə adammı sağalar?" – deyə bilmədi, camaat arasında lap nüfuzdan düşəcəyindən qorxdu. Yenə bir qarın çörək pulu qazanırdı. Bir yandan da, belə bir vaxtda daş-qalaq olacağından qorxdu. Axır, xeyli sükutdan sonra:

– Gəlin, gedək, bir baş molla ilə də məsləhətləşək, – dedi.

Elliklə yığılıb gəldilər baş mollanın yanına. Baş molla Sadıqın vaxtilə müəllimi olan molla idi. Onun da Sadıqı

görəndə başı ağrıyırdı. O canını dişinə tutub Sadıqı zorla dinlədikdən sonra, əlindəki təsbehi şaqqıltı ilə çevirib soruşdu:

– Bu günlərdə öləcək xəstə varmı?

Dedilər:

–Topal Cəfərin oğlu can üstədir.

– Hə, bax, o ölən kimi molla Sadıq gedib girsin köhnə bir qəbrin içinə, orada gözləsin cənazənin gəlişini. Gərək dəfndə hamılıqla iştirak edəsiniz. Camaat qəbiristanlığa çatanda dəfndə iştirak edən molla qəbiristanlıq əhli ilə salamlaşdıqdan sonra ucadan soruşsun: "Yer varmı? Gələkmi yenə?" Molla Sadıq da qəbrin içindən ucadan, az qala kəndin o başından eşidiləcək bir səslə qışqırsın: "Yox, yox, daha torpaq qəbul etmir, yer yoxdur, gəlməyin". Vəssalam, daha burada nə çətin iş var ki? Necə demişəm, elə də olsun! Çalışın, heç nə yaddan çıxmasın.

Camaatın elə bil üstündən yük götürüldü. Kimi sevindiyindən ağladı, kimi mollanın əlindən öpdü, kimi ətəyindən, kimi də əlini mollanın qurşağının altına saldı. Molla Sadıq baş mollaya ürəyində söyə-söyə, kənd əhli dua edə-edə qayıtdılar kəndə. Heç aradan iki gün keçməmiş, topal Cəfərin oğlu canını tapşırdı. Kənddə elə bil hamı həsrətlə yazığın ölümünü gözləyirdi. Hamı yığılıb gəldi. Molla Sadıqı qabaqlarına qatıb gətirdilər məzarlığa, sonra da yazıq kişini qabaqcadan nəzərdə tutduqları köhnə məzara soxdular ki, gözlə, gəlirik. Molla Sadıq əti ürpəşə-ürpəşə məzarda oturub gözləyirdi. Gün günortadan keçmişdi, gəlib çıxan yox idi. İsti adamın başını qaynadıb

üzünü qarsıyırdı. Elə bil molla Sadıqı diri-diri basdırmışdılar. O qədər tərləmişdi ki, bütün paltarı islanmışdı, duzlu köynəyi ətinə yapışırdı. Susuzluqdan ciyəri yanırdı, üstəlik də, acımışdı, ürəyi üzülürdü. Bir qədər də keçdi, amma gəlib-gedən yox idi. Molla Sadıq qalmışdı baş mollanı söyə-söyə. Daha hövsələsi lap daralmışdı, canını dişinə tutub zorla dururdu.

Sən demə, camaat səhv edəcəyindən qorxub dəfndə elə baş mollanın özünün iştirak etməsini istəyiblər. Baş molla əvvəl gəlmək istəməyib. Uzun minnətdən sonra, gözaltı qapının ağzına yığılmış xurcunları görəndə razılıq verib. Dili ağzında şişib odun parçasına dönən molla Sadıq bir də gördü ki, hə, budur, camaat topal Cəfərin nəvəsini gətirib gəlir. Qabaqda da baş molla gəlir. Hələ kənddə heç kimin dəfnində bu qədər adam iştirak etməmişdi. Uşaqdan-böyüyə, lap xəstələrəcən, hamı gəlirdi. Qan beyninə vurdu molla Sadıqın. Bu qədər adamın avamlığı kişinin tüstüsünü başından çıxartdı. Elə bu vaxt baş mollanın əzəmətli səsi eşidildi:

– Əssalamun əleyküm, ya əhli qubur, əhaliyi-qəbiristanlıq, bu mömin bəndələrinizə yer varmı? Gələkmi yenə?

Ağır bir sükut çökdü. Hamı molla Sadıqın cavabını gözləyirdi.

Molla Sadıq başını çürük qəbirdən uzadıb var səsi ilə barbar bağırdı:

– Ə, bəri rədd olun. Burada o qədər yer var. Düz Şiş təpəyəcən boşdur. Elə torpaq siz ağılda başıboşları gözləmirmi?

Camaatın arasına bir vəlvələ düşdü ki, gəl, görəsən. Kimin əlinə nə keçdi, atdı molla Sadıqın təpəsinə. Söyüş söyənlər, ağlayanlar bir-birinə qarışdı. Bu dəfə məzara öz xoşu ilə girdi molla Sadıq. Canını birtəhər qurtardı, amma mollalığın daşını birdəfəlik atdı. Kənddən də o çıxan, çıxdı.

## ATA GİLEYİ

Mürsəl kişi oğlu Səmədlə fəxr edirdi. Toyda da, yasda da oğlundan ağızdolusu danışır, onunla qürur duyduğunu heç kimdən gizlətmirdi. Səməd də bu qiymətə layiq oğul idi. Orta məktəbi qızıl medalla, institutu qırmızı diplomla bitirmişdi. Təyinatla birbaşa Bakının rayonlarının birinə müstəntiq təyin olunmuşdu. O işində də bacarıqlı, dəqiq, çalışqan biri kimi tanınmışdı. Tez bir zamanda həm rəhbərliyin, həm də kollektivin hörmətini qazanmışdı. Bir neçə dəfə işində qazandığı uğurlara görə tərifnamələrlə təltif olunmuşdu.

Səməd valideynlərinə qarşı da çox diqqətli idi. Ata-anasının yeganə övladı olsa da, necə deyərlər, yüz oğula dəyərdi. İşi başından aşsa da, ata-anasından qayğısını, nəzarətini əskik etməzdi.

Axır vaxtlar Mürsəl kişinin ürəyinə xal düşmüşdü. Səmədə anası Səkinənin xəstələndiyini teleqram vurub xəbər vermişdi, sonra ürəyi durmayıb zəng edib gəlini ilə danışmışdı ki, Səkinə çox xəstədir, özü də Səmədi görmək istəyir. Səməd mütləq kəndə gəlsin. Gəlin də demişdi: "Yaxşı".

Səməd isə gəlməmişdi, pul göndərmişdi. Səmədin gəlməməyindən çox, pul göndərməyi yandırırdı Mürsəl kişini: "Sən bir puluna-zadına bax, bunun. Gör, Mürsəl nə günə qalıb ki, pul uçun teleqram vurur, hətta zəng də edir". Çox düşünüb-daşınandan sonra Səmədin pulunu qaytarmaq

qərarına gəldi. Amma pulu poçtla qaytarmadı ki, kəndə səda düşəcək. Tel Əhməd kəndin başından düşüb, ayağında dayanacaq; hər qarşısına gələnə deyəcək ki, Mürsəl acıq edib, tərifli oğlunun pulunu başına çırpdı. Ona görə bu barədə heç kimə, hətta Səkinəyə də bir kəlmə söz demədi. Pulu mütləq qaytarmağı qət edib Səkinənin sağalacağı günü gözləməyə başladı. Nəhayət, o gün gəldi. Artıq iki-uç gün idi ki, Səkinə yataqdan qalxıb həyət-bacada yavaş-yavaş gəzməyə başlamışdı. Bir neçə gün də ötdü, qarının əməllicə dirçəldiyinə əmin olandan sonra Mürsəl kişi Bakıya getmək istədiyini Səkinəyə söylədi və sovqatını yığmağa başladı. Özü bəslədiyi quzudan, cücədən, yağdan, şordan yumurtadan, əlinə keçəndən böyük həvəslə səbətlərə yığır, "bunlar nəvələrimindir", – deyə düşünürdü, "bu sovqatların Səmədə heç bir dəxli yoxdur". Əslində isə, Səmədin sevdiklərini daha böyük həvəslə səbətə yığırdı. Mürsəlin belə həvəslə hazırlaşdığını görən Səkinə bir silkələndi ki, kişi, gəlsən, mən də səninlə gedim uşaqların yanına? Ürəyim Səmədi istəyir. Axırıncı cümlə Mürsəl kişinin tüstüsünü başından çıxartdı. Səkinənin arıqlayıb saralmış sifətinə baxıb qanı lap qaraldı: "Bir o qalmışdı, xəstə qadını götürüb Bakıya aparsın". O, Səkinənin üzünə tərs-tərs baxıb: "otur-oturduğun yerdə", – dedi.

Mürsəl kişi səhər tezdən ürəyində min bir giley-güzar avtobusa minib Bakıya yola düşdü. O Səmədi evdə tapa bilmədi. Gəlin də, uşaqlar da onu görəndə ürəkdən sevindilər. Gəlin dönə-dönə Səkinəni soruşdu. Uşaqlar babasının dizinin üstündə oturmaq üstündə dava edirdilər. "Nə-

nəm də gəlsə, mən də onun qucağında oturardım", – deyən Muradı sinəsinə basıb Səkinəni gətirmədiyinə çox peşman oldu. Hər dəfə gəlin Səkinəni soruşanda acığı tuturdu, araya söz qatır, cavab vermək istəmirdi. Ürəyindən keçirdi desin ki, belə maraqlanırdınızsa, onun yanına gələrdiniz. Amma bu sözü Səmədə deyəcəyini düşünürdü. Odur ki, qaş-qabağını töküb qısaca: "xəstədir", dedi.

Artıq hava çoxdan qaralmışdı. Səməd gəlib çıxmadı. Gəlin qayınatasına yer açıb yatmaq təklif edəndə, bayaqdan bəri bir dəfə olsun, oğlunu xəbər almayan kişini narahatlıq götürdü. O, səsi əsə-əsə oğlunu xəbər aldı.

Gəlin dedi:

– Eh, kim bilir, nə vaxt gələcək. Bir adam ki, cinayət-axtarış şöbəsinin müstəntiqi ola, nə cinayət qurtarır, nə də axtarışı. Axır vaxtlar uşaqlar da Səmədin üzünü görmür, siz yatın.

Mürsəl kişi bir söz deməyib yan otaqda yerinə girdi. Səhər yuxudan oyanıb Səmədi görməyəndə təəccüblə soruşdu:

– Səməd gəlməyib?

Gəlin dedi:

– Gec gəlmişdi, sizi oyatmağa qoymadı, "gündüz vaxt tapıb gələcəm", – dedi.

Səmədin gəlişi xeyli çəkdi. Nahar vaxtı çoxdan ötmüşdü. Səməd qocalıb əldən düşmüş atasını bağrına basıb dönə-dönə öpdü, gözləri yaşla doldu. Anasından düz-əməlli xəbər tutmamış, işdən zəng edib təcili çağırdılar. Səməd yeməyini başa çatdıra bilmədi. Onun ayağa durduğunu

görən kişi ürəyini boşalda bilmədiyindən deyinməyə başladı:

– Ay bala, çayını iç, yeməyini ye. Sonra gedərsən də. Səməd artıq qapıdan çıxmışdı. Gecə Mürsəl kişi yatmadı, oturub Səmədi gözlədi. Səməd gecə yarıdan sonra yorğun, kefsiz qayıtmışdı. Atasını yenidən bağrına basıb qucaqladı. Onu gözlətdiyi üçün dönə- dönə üzr istədi. O, çox fikirli idi. Yeməyini də iştahasız yeyirdi. Mürsəl kişi hər şeyi unudub Səmədin bu halına narahat olmuşdu.

Səməd çayını içib dedi:

– Ata, bu gecə qəribə bir cinayət törədiblər, qoca bir qarını evində öldürüblər. Baş idarədən zəng edib qatilin dərhal tapılmasını tələb edirlər. Deyirlər, belə cinayətlər törənəndə xalqın dövlətə güvəni azalır.

Səməd başını iki əli ilə tutdu:

– Bu qoca qarını öldürmək kimə lazımdır?

– Qadın zəif gördüyü üçün neçə ildir, evdən bayıra çıxmır. Yenə ölən kişi olsa, nə isə düşünmək olar. Və yaxud evdən nə isə itsə, qatilin oğru olduğunu deyərdim. Mürsəl kişi lap təəccübləndi, Səmədə deyəcəkləri yaddan çıxmışdı artıq:

– Bıy, əyə, bu qarını niyə öldürüblər, ay bala, nanəciblər?

Səməd alnını ovxalaya-ovxalaya cavab verdi.

– Nə isə, sən narahat olma, get yat, ata. Yerin deşiyində də olsa, qatil tapılacaq və cəzasını da alacaq.

Amma Mürsəl kişi yata bilmədi. Artıq onun oğluna qarşı heç giley-güzarı yox idi. Onun oğlu illərdən bəri qü-

rur duyduğu həmin oğul idi. Mürsəl kişinin fəxrinə, etimadına layiq olan Səməd idi. Sadəcə, işi çox ağır, məsuliyyətli bir iş idi. Hökumətin ona etibar etdiyi işi Səməd başlı-başına buraxıb kəndə gələ bilməzdi.

Daha cibinə qoyub gətirdiyi puldan bəhs etmədi. Mürsəl kişi ertəsi gün nəvələrini başına yığıb bazar-dükana aparıb, pulu istədiyi kimi xərcləməyə qərar verdi. Yata bilməməyinə səbəbsə, qarının ölümü idi. Nə qədər düşünürdüsə, ağlı bir şey kəsmirdi.

Səhər yuxudan Səməddən əvvəl oyanıb oğlunu gözlədi. Səməd oyanıb qonaq otağına keçən kimi ona sual verdi:

– Ay Səməd, oğul-uşaqdan, qohum-qardaşdan kimi-kimsəsi yoxdurmu, o qarının?

Səməd atasının sualına təəccüb etsə də, kişinin xətrinə dəymək istəməyib dedi:

– Yox, ay ata, əri müharibədə ölüb. Bir oğlu var, o da haradasa, başqa şəhərdə yaşayır. Axırıncı dəfə üç ay bundan əvvəl gəlibmiş.

Səməd vanna otağına yuyunmağa keçdi. Mürsəl kişi xəyala daldı. Səməd çay süfrəsinin arxasına keçən kimi kişi stulu çəkib, oğlu ilə üzbəüz oturub dedi:

– Ay Səməd, qarının oğlunun adını öyrən, onun adı nədirsə, qatil həmin addadır. Belə ki, qatil qarının oğlu ilə adaşdır. Özü də onların tanıdığı biridir. Evə oğurluq məqsədi ilə gəlib. Qarı isə evə girənin oğlu olduğunu zənn edib, oğlunun adını çəkib. Qatil qarının onu tanıdığını düşünüb qadını öldürüb.

Səməd başını qaldırıb atasına baxıb gülümsündü, çayını içib işə getdi.

Mürsəl kişi də nəvələrini başına yığıb dənizkənarı parka apardı. Dükan-bazar gəzdi. Hamıya hədiyyə aldı. Səkinəni də unutmadı. İndi Mürsəl kişinin Səkinəyə acığı tuturdu, özünə fikir verməyib tez-tez xəstələndiyinə görə. "Səmədi narahat etmək olmaz", – deyə düşünürdü. Kişinin canı Səkinənin yanında qalmışdı. Onu gətirmədiyinə görə çox peşman olmuşdu. Çünki qayıtmaq istəmirdi, mütləq qarının qatilinin tapılmağını görmək istəyirdi. Aradan iki-üç gün keçməmiş, dəfələrlə xırda oğurluq üstündə tutulan Rəsul bu dəfə qatil kimi həbs olunmuşdu. Məhəllə uşağı imiş. Özü də qarının oğlu ilə adaş. Səmədin atasına gülə-gülə: "Ay ata, sən əsl xəfiyyə imişsən ki?!" – deməyi kişinin çox xoşuna gəlmişdi. O, da cavabında: "Sən də, xəfiyyə oğlu, xəfiyyəimişsən", – dedi.

Ertəsi gün Mürsəl kişi sübh tezdən, ürəyində min bir sevinc avtobusa minib kəndə qayıdırdı.

## DOSTLAR
## (Hekayə)

Kamalla Səlim, necə deyərlər, anadangəlmə dost idilər. Dostluqları da qəribə dostluq idi. Hələ uşaqlıqdan bir küçədə yaşayırdılar. Elə gün yox idi, gündə ən azı iki-üç dəfə dalaşıb-barışmasınlar. Kamal əli ilə dalaşardı, Səlim dili ilə. Kamal nə qədər iri gövdəli, yekəpər idisə, Səlim bir o qədər arıq, sısqa, dilli-dilavər idi. Səlim o sısqa canı ilə uşaqların arasında Kamala elə bir söz atırdı ki, Kamal yanıb tökülürdü. Silləni necə yapışdırırdısa, Səlimin mütləq bir yeri qanayırdı. Dəfələrlə valideynləri onları bir-birindən ayırmağa cəhd etsələr də, heç bir faydası olmurdu. Davadan heç bir saat keçməmiş biri gəlib, o birini çağırırdı. O da anasının üzünə baxa-baxa düşüb qaçırdı. Hər dəfə Səlim bir daha Kamala sataşmayacağına, Kamal da Səlimi döyməyəcəyinə söz verirdi, amma hər şey yenidən təkrarlanırdı. Beləcə, dalaşa-barışa uşaqlıqlarını başa vurub, orta məktəbi bitirdilər. Hər ikisi instituta qəbul oldu. Tələbə vaxtı da küsüb-barışdılar, lakin bir-birilərindən ayrı nə pulları oldu, nə də paltarları. Kimə evdən nə göndərilsə, hər ikisinin idi.

Axırıncı davalarından altı aya yaxın bir vaxt keçməsinə baxmayaraq Kamal nə qədər Səlimə yaxınlaşsa da, Səlimin onunla barışmaq fikri yox idi. Bu dəfə Kamal Səlimin xətrinə necə dəymişdisə, Səlim onu bağışlamayacağına söz vermişdi. Altı ay bundan əvvəl Səlim illərdən bəri sevgisi-

ni açıb söyləyə bilmədiyi Sevda ilə ilk görüşə çıxmışdı. Heç onların arasında hələ düz-əməlli səmimiyyət yaranmamış, haradansa, Kamal peyda oldu. Həmişə söz atmaq Səlimə aid olduğu üçün Səlimin ağlına bir şey gəlmədi. Çünki Kamal bunu istəsə də, bacarmırdı. Kamal Səlimi çoxdan görmürmüş kimi, özünü üstünə atdı. Əvvəl o yanağından, bu yanağından öpdü. Sonra onu balaca uşaq kimi qucağına götürüb fırlamağa başladı, Səlim qaldı çabalaya-çabalaya. Nə qədər Kamalın qulağına yalvardısa da, söydüsə də, heç nəyin xeyri olmadı. Kamal onu yerə qoymadı. Elə bil öz boy-buxunu ilə, pəhləvan cüssəli olmağı ilə fəxr edir, Səlimin cılız, zəif olduğunu göstərməyə çalışırdı.

Sevda qalmışdı baxa-baxa. Kamal öz istədiyi qədər Səlimi fırladıb, sonra balaca uşaq kimi gətirib, düz Sevdanın qənşərində, qucağından yerə qoydu. Səlim qıpqırmızı qızarmışdı, saçlarının dibindən su tökülürdü, dönüb Sevdaya baxdı. Qızın çaşmış sifətinə baxıb, onu oradaca qoyub, az qala qaça-qaça oradan uzaqlaşdı. Xeyli zaman qızın üzünə baxa bilmədi. Bir müddətdən sonra Səlim Sevda ilə yenidən görüşməyə başladı. Aralarında münasibət tam qaydaya düşdü, amma Səlim Kamalı bağışlamadı. Onun hərəkətini zarafat deyil, təhqir sayırdı.

Sevdanın gözü önündə Kamalın qucağında balaca uşaq kimi çabaladığını xatırlayıb yanıb-yaxılırdı. Əvvəl Kamal Səlimsiz çox darıxırdı, necə olur-olsun, barışmağa çalışırdı. Sonra küsülü olduğuna görə sevindi və birdəfəlik öz toyundan sonra barışacağına qərar verdi. Kamal

yaxşı bilirdi ki, Səlimin dili-dil deyil, bu heyfi onda qoymayıb gəlinin yanında onu öləsi günə salacaqdı. Kamal öz qərarından razı qaldı və içinə bir rahatlıq çökdü.

Kamalın toyuna az bir vaxt qalmışdı, Kamalı dərd götürmüşdü, ürəyinə dammışdı ki, Səlim özünü toya yetirəcək. Toya bir gün qalmış Səlimdən xəbər olmadığını görən Kamal lap arxayınlaşdı. Səhər tezdən qatarın gələn vaxtı yerindən durub Səlimgilin həyətinə boylandı ki, görsün, gəlib-eləyən varmı? Axırıncı qatar ötənə qədər doqqazda dayandı. Gəlib-gedənin olmadığına tam əmin olandan sonra kefi lap kökəldi. Bayaqdan səhərin soyuğunda küçədə qalan Kamal zərifcə titrəyib içəri keçdi. Elə yenicə yatağına girməyə hazırlaşırdı ki, divanda sısqa, balaca bir adamın büzüşüb yatdığını görəndə ürəyi əsdi, yaxınlaşıb şirin yuxuda mışıl-mışıl yatan Səlimi gördü. Bayaq çölə çıxanda, nədənsə, onu görməmişdi. Amma niyə öz evlərində deyil, burada yatdığına təəccüb edərək, sakit dayanıb ona baxırdı. Güllü xala oğlunun maraqla baxdığını görüb dedi:

– Nə var, nə baxırsan, a bala, Səlimdir də, gecə yol maşını ilə gəlib. Mən oyaq idim. Qoymadım evlərinə getməyə. Anasıgil çoxdan yatmışdı, istəmədim onları oyatsın.

Çay-çörək verdim, yer açdım, yıxılıb-yatdı.

Ürəyinə narahatlıq çöküb, şübhə toxumu səpilsə də, Kamal Səlimin gəlişinə ürəkdən sevindi. Səlim yuxudan oyanan kimi, həmişəki kimi qucaqlaşdılar. Səlim aralarında heç nə olmamış kimi qollarını çirmələyib can-başla işə başladı. Onun yaxşı əl qabiliyyəti var idi. O, əvvəlcə toy-

xananı, sonra gəlin maşınlarını bəzədi. Kamalın atası onu hara göndərdi, ora getdi. Bir sözlə, əldən düşənəcən işlədi. Səlim Kamala o qədər də əhəmiyyət vermirdi. Aradabir özünü məşğul kimi göstərib, sözarası: "Biz artıq uşaq deyilik, zarafatlarımız uşaqlıqda qaldı", – dedi. Səlimdən səs çıxmadığını görüb Kamal artıq lap arxayınlaşmışdı.

Gəlin ucqar dağ kəndlərinin birindən idi. Günortaya yaxın, əsasən, gənclər və bir neçə ağsaqqal maşınlara minib getdilər gəlini gətirməyə. İnsafən, qız evinin adamları bəy evinə yaxşıca süfrə açmışdı. Süfrədə quş südü, can dərmanı, hər nə desən, vardı. Gənclər doyunca yeyib-içdilər. Səlim ağızdolusu Kamalı tərifləyib, şəninə sağlıqlar söylədi, badə qaldırdı.

Aradan bir az keçmiş, hay-haray qopdu ki, bəyi oğurlayıblar. Sən demə, bu kənddə qədim ənənə çox dəbdə imiş. Gərək, oğurlanmış bəyi qaytarmaq üçün oğlan evinin adamlarından kimsə nəmər verib bəyi qaytarsın. Səlim tez ayağa durub sinəsinə döydü ki, bu iş mənlikdir, heç kim narahat olmasın. Xərc çəkməkdən azad olan hər kəs cani-dildən razı oldu. Nə isə, yedilər-içdilər, oynadılar. Vaxt tamam olanda, Səlimin başçılığı ilə hamı maşınlara mindi. Səlim gəlini də maşına oturdandan sonra qız evinin adamlarına bildirdi ki, bəy bizə lazım deyil, bağışlayırıq sizə. Sözünü bitirər-bitirməz, maşına minib yola düzəldilər. Bir göz qırpımında oradan uzaqlaşdılar.

Aldandığını başa düşən qız evinin adamları Kamalın saxlandığı otağın qapısını açdılar. Kamal çölə çıxıb gördü ki, lələ köçüb, yurdu qalıb. Xəcalət təri tökə-tökə payi-pi-

yada yola düzəldi, görsün, bir maşın tapa bilərmi, yolda maşın-zad yox idi. Kamal söyə-söyə irəliləyirdi. Özü də təkcə Səlimə yox, onun yanındakılara da söyürdü ki, bunlar hamısı kordurmu? Görmürlərmi, bəy yoxdur? Bəyi burada qoyub hara gedirlər?

Səlim bir dik yerdə maşınları saxlatdırdı. Hər kəsi maşından düşürtdü ki, düşün, çalıb-oynayaq və arxada qalmış bəy maşınını gözləyək. Maşınları elə yerdə saxlatdırmışdı ki, oradan baxanda hər yer ovucun içi kimi görünürdü. Bir az keçmiş, az qala yüyürə-yüyürə gələn Kamalı gördülər. Dizinəcən palçığa batmış, saçının ucundan su tökülən, qıpqırmızı qızarmış Kamalı görəndə hamının gülməkdən gözündən yaş gəlirdi. Kamal təngnəfəs, özünü birtəhər onlara çatdırdı. O, əvvəl cibindən yaylığını çıxardı, üz-gözünün tərini silmək istəyəndə, bayaqdan palçığa batmış yaylığındakı palçıq sifətinə yayıldı. Yaylığını atıb Səlimi qapazlamaq istədi, amma bu dəfə fikrindən daşınıb, Səlimə qoşulub gülməyə başladı. Artıq zarafatlara son qoymaq istəyirdi. Çünki nə qədər qoldan qüvvətli olsa da, iti ağlı və zəngin dili olan Səlimlə heç vaxt bacara bilməyəcəyini yaxşı anlayırdı.

**S O N**

# İÇİNDƏKİLƏR:

ÖN SÖZ.........................................................................................3
QƏMLİ SƏADƏT (Roman) ........................................................5
YETİM MƏMMƏD (Povest)......................................................150
QONŞU QIZ.................................................................................253
MOLLA SADIQ...........................................................................295
ATA GİLEYİ.................................................................................302
DOSTLAR....................................................................................308

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 01.12.2023
Şərti çap vərəqi 19,5. Sifariş № 458
Kağız formatı 60x84 1/16. Tiraj 500

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4